# ALLAHIN İSİMLƏRİ



HARUN YƏHYA
(ADNAN OKTAR)

Sizi və kainatı ən incə xüsusiyyətinə qədər qüsursuz şəkildə yaradan Allah'ı nə qədər tanıyırsınız?
Bir çox insan fərqli mədəniyyətlərin və qaynağı bəlli olmayan bilgilərin təsiri ilə Allah haqqında yanlış düşüncələrə sahibdir. Halbuki, Allah 1400 il öncə nazil etdiyi Quranda insanlara Özünü tanıtmış və Özünə aid isimləri bildirmişdir.
Belə ki, hazırda oxuduğunuz kitabın məqsədi sizə şah damarınızdan daha yaxın olan Allah'ı Quranda bildirilən şəkildə tanıtmaq, beləliklə, uca Allah'a daha yaxın olmağınızı təmin etməkdir.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.
Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد





# ALLAH'IN İSİMLƏRİ

Harun Yəhya (Adnan Oktar)



# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxta-karlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.



Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal,

urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.
- Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah'ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.
- Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.
- Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.
- Bununla belə, yalnız Allah'ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.
- Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.
- Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

**Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi Qurani-kərim kitabından götürülmüşdür.**

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR:

Sizi yaradan Allah'ı nə qədər tanıyırsınız?........................11

ƏDL ....................................................................................14
ƏFÜVV..................................................................................17
AXIR.....................................................................................18
ƏHKAMÜL-HAKİMİN ..........................................................19
ALİM ....................................................................................20
ƏLİYY ..................................................................................21
ASİM ....................................................................................24
ƏZİM ....................................................................................26
ƏZİZ .....................................................................................28
BAİS .....................................................................................30
BAQİ.....................................................................................33
BARİ.....................................................................................35
BASİR...................................................................................37
BASİT ...................................................................................39
BATİN...................................................................................41
BƏDİ.....................................................................................42
BƏRR....................................................................................44
CAMİ ....................................................................................46
CABBAR ...............................................................................48
DAİ .......................................................................................50
DAFİĞ ..................................................................................52
DƏRR ...................................................................................54
ƏRHAMÜR-RAHİMİN ..........................................................57
ƏVVƏL..................................................................................59
FALİQ ...................................................................................61
FASİL....................................................................................63
FATİR....................................................................................65

FƏTTAH ....................................................................67
QƏFFAR ...................................................................69
QƏNİYY ...................................................................71
XƏBİR ......................................................................73
HADİ.........................................................................75
HAFİD ......................................................................77
HAFİZ.......................................................................79
HAKİM .....................................................................81
HƏKİM .....................................................................82
HAQQ .......................................................................84
XALİQ ......................................................................86
HƏLİM .....................................................................88
HƏMİD .....................................................................90
HASİB ......................................................................92
HAYY .......................................................................94
QABİD ......................................................................96
QABİL ......................................................................98
QADİ........................................................................100
QƏDİM ....................................................................102
QADİR......................................................................104
KAFİ .......................................................................106
QƏHHAR .................................................................108
QƏYYUM.................................................................110
QARİB .....................................................................112
QASİM.....................................................................113
QAVİ .......................................................................115
KƏBİR .....................................................................117
KƏRİM ....................................................................119
QUDDÜS .................................................................121
LƏTİF .....................................................................123
MAKİR ....................................................................125
MALİKİ-YƏVMUD-DİN ..........................................127

MALİKÜL-MÜLK ........................................................................129
MƏCİD ......................................................................................130
MƏLCA ......................................................................................131
MƏLİK .......................................................................................133
MƏTİN .......................................................................................135
MÖVLA ......................................................................................137
MÜƏXXİR / MÜQƏDDİM ..........................................................139
MÜƏZZİB ..................................................................................141
MÜHİT .......................................................................................143
MÜBKİ / MÜDHİK .....................................................................145
MÜVƏFFİ ..................................................................................147
MÜHSİ ........................................................................................149
MÜHSİN .....................................................................................150
MÜHYİ ........................................................................................152
MÜQƏLLİB .................................................................................154
MÜKMİL .....................................................................................156
MÜQTƏDİR ................................................................................157
MÜNTƏQİM ...............................................................................159
MÜSƏVVİR ................................................................................161
MÜBƏŞŞİR ................................................................................163
MÜBƏYYİN ................................................................................165
MÜDƏBBİR ................................................................................167
MÖMİN .......................................................................................169
MÜCİB ........................................................................................172
MÜHƏYMİN ...............................................................................174
MÜTƏALİ ...................................................................................176
MÜTƏKƏBBİR ...........................................................................178
MÜSƏVVA .................................................................................180
MÜSTƏAN .................................................................................182
MÜTƏHHİR ................................................................................184
MÜYƏSSİR ................................................................................186
MÜZƏKKİ ...................................................................................188

MÜZƏYYİN ........................................................................ 189
MÜZİL ........................................................................ 191
MÜĞNİ ........................................................................ 193
NASİR ........................................................................ 196
NUR ........................................................................ 198
RƏBBİL-ALƏMİN ........................................................................ 202
RAFİ ........................................................................ 204
RƏHMAN-RƏHİM ........................................................................ 206
RAQİB ........................................................................ 209
RAUF ........................................................................ 211
RƏZZAQ ........................................................................ 213
SƏMƏD ........................................................................ 215
SADİQ ........................................................................ 217
SAİQ ........................................................................ 219
SANİ ........................................................................ 221
SALAM ........................................................................ 223
SƏMİ ........................................................................ 225
ŞAFİ ........................................................................ 227
ŞƏFİ ........................................................................ 229
ŞARİH ........................................................................ 231
ŞƏHİD ........................................................................ 233
ŞƏKUR ........................................................................ 235
TƏVVAB ........................................................................ 237
VAHİD ........................................................................ 239
VARİS ........................................................................ 241
VASİ ........................................................................ 243
VƏDUD ........................................................................ 245
VƏHHAB ........................................................................ 246
VƏKİL ........................................................................ 247
VƏLİ ........................................................................ 249
ZÜLCƏLALİ-VƏL-İKRAM ........................................................................ 251
ZAHİR ........................................................................ 253
ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI ........................................................................ 255

# Sizi yaradan Allah'ı nə qədər tanıyırsınız?

Sizi kim yaratdı? Sizə bədəninizi, gözlərinizin, saçlarınızın rəngini kim verdi? Boyunuzun uzunluğunu, saçlarınızın rəngini kim təyin etdi? Sizinlə birlikdə digər insanları, göyləri, yeri və bu ikisinin arasında yaşayan bütün canlıları kim yaratdı? Kosmosun dərinliklərindəki planetlərin, Günəşin və ulduzların nizamını kim təyin etdi?

Siz bütün bu suallara sadəcə bir cavab verirsiniz: "Allah". Sizin kimi digər insanlar da bu suallara: "Allah", -deyə cavab verirlər. Necə ki, Allah Quranda insanların öz ağızları ilə bu həqiqəti təsdiq edəcəklərini belə bildirmişdir:

**Həqiqətən, əgər: "Göyləri və yeri kim yaratmış, günəşi və ayı kim ram etmişdir?" – deyə soruşsan, onlar mütləq: "Allah!" – deyə cavab verəcəklər. Elə isə onlar niyə döndərilirlər? (Ənkəbut surəsi, 61)**

Yaxşı, sizi və kainatı ən incə detalına qədər planlayan Yaradıcımızı nə qədər tanıyırsınız? Sizi hər an gördüyünü, eşitdiyini, etdiyiniz hər şeydən hər an xəbərdar olduğunu bilirsinizmi? Sizə görə Allah haradadır? Sizi yaratdıqdan sonra öz başınıza buraxır? Yoxsa necə yaşamalı olduğunuzu bildirir? Allah'ı görə bilərsinizmi? Onunla danışa bilən bir insan varmı? İnsanlardan başqa hansı varlıqları yaratdı? O, ölümdən sonra necə həyat vəd edir?

Şübhəsiz, bunlar kimi daha bir çox sual verilə bilər və siz də bu sualların hamısını cavablayarsınız. Bu cavablar ya ailənizdən, qohumlarınızdan və ətrafınızdan, ya da oxuduğunuz kitablardan öyrən-

dikləriniz olacaq. Yaxud da illər əvvəl din dərsində oxuduqlarınızdan ağlınızda qalanlar... Yaxşı, verdiyiniz cavabların, həqiqətən, doğru olub-olmadığını heç düşünmüsünüzmü?

Şübhəsiz, hər kəs Allah haqqında çox fərqli fikirlər söyləyə bilər. Fəlsəfəçi Allah'ı izah edərkən əvvəlcə aldığı təhsili ön plana çıxarır, təsirləndiyi filosofların fikirlərindən istifadə edərək Allah'ı tanıdır. Allah haqqında heç bir məlumatı olmayan evdar qadın qonşusundan eşitdiyi məlumatlara inanır. Allah'la əlaqədar kitab yazan yazıçı isə bəlkə də heç din təhsili almayıb, hətta Allah'ın endirdiyi ayələrdən birini belə bilmir. Lakin bu yazıçının kitabını oxuyan hər kəs sanki onun fikirləri tamamilə doğru imiş kimi qəbul edir, bütün yazılanları tətbiq edir və ətrafındakı hər kəsə özündən çox əmin olaraq oxuduqlarını izah edir. İnsanların çoxu o günə qədər ətrafından eşitdiklərinin və öyrəndiklərinin səhv və ya əskik ola biləcəyinə ehtimal vermir.

Lakin unudulmamalıdır ki, insan səhv edə, cahillik edə bilər. Bu halda, bizə Allah'ı ən doğru tanıdacaq qaynaq yalnız Onun bizlərə endirdiyi haqq kitab Qurandır. Allah Quranda insanların öyrənməli olduqları şeyləri açıqlamışdır. Yuxarıdakı sualların Qurandakı cavablarına baxsaq, əvvəlcə, Allah'ın yalnızca göylərdə deyil, hər yerdə olduğunu görərik. Allah bütün insanlara olduğu kimi, sizə də şah damarınızdan daha yaxındır. Sizin hər etdiyinizə şahiddir, hər şeyi görür. Söylədiyiniz bütün sözləri eşidir. İçinizdən etdiyiniz bütün duaları bilir. Hər an sizin yanınızdadır. Üstəlik, Allah dilədiyi qulu ilə danışır. Məsələn: Quranda, hz. Musa ilə danışaraq onu digər insanlardan üstün etdiyi bildirilmişdir. Allah insanlarla bərabər mələkləri və cinləri də yaratmışdır. Həmçinin Allah dünya həyatından sonra sonsuza qədər davam edəcək cənnət və cəhənnəm həyatı da yaratmışdır. İnsanlara ölümlərindən sonra cənnətə gedə bilmələri üçün necə yaşamalı olduqlarını da Quranla bildirmişdir. Bütün bunlar yuxarıda soruşduğumuz sualların qısa cavabıdır və bu cavabların hamısı Quranda var.

Hazırda, əlinizdə tutduğunuz bu kitab da sizə şah damarınızdan daha yaxın olan Allah'ı Quranda bildirdiyi şəkildə tanıtmaq üçün yazılmışdır. Bu kitabın məqsədi ağlınızdakı yanlış məlumatların yerinə Qurani-kərimdəki həqiqi Allah inancını yerləşdirmək, beləliklə, uca Allah'ı daha yaxşı tanımanızı, Ona daha yaxın olmanızı təmin etməkdir. Allah 1400 il əvvəl endirdiyi Quran ayələri ilə insanlara Özünü tanıtmış, Özünə aid adları bildirmişdir. Quranda verilən müxtəlif nümunələr və izahlar Onun sonsuz ağlını, elmini, sənətini göz önünə gətirir. Allah Quran ilə Özünü qullarına tanıdır.

Bu kitabda yerləşən hər adın altında istifadə edilən ayələr açıqlanan adın keçdiyi ayələrdir. Bu ayələrin ərəbcəsinə baxsaq, Allah'ın bu adlarının ayələrin içində keçdiyini görərik. Bundan başqa, hər ismin altında, bəlkə də bu günə qədər üzərində düşünülməyən detalları xatırladacaq qısa açıqlamalar var. Əlbəttə, bu açıqlamalar göylərin və yerin Rəbbi olan Allah'ı tanıtmaq üçün kifayət deyil. Çünki bütün kainatı, bütün canlıları, insanları və maddəni yaradan və ən gözəl adların sahibi olan Allah'ın sadəcə bir adını açıqlamaq üçün belə cildlərlə kitab yazıla bilər. Lakin belə imkan olmadığı üçün bu kitabda qısa nümunələrdən, insanı düşünməyə sövq edəcək izahlardan istifadə edilərək oxucunun təfəkkürü açılmağa çalışılır.

Əlinizdəki kitabla əlaqədar gözdən qaçırılmamalı daha bir cəhət var: bu kitab sizə yalnız Quranda keçən məlumatları çatdırır. Çünki Allah'ın adları haqqında Onun Quranda bizə öyrətdiyindən başqa heç bir məlumatımız yoxdur. Bizə məlum olmayanlar isə Rəbbimizin qatında gizlidir:

**"Onlar: "Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Bilən Sən, hikmət sahibi Sənsən", - dedilər". (Bəqərə surəsi, 32)**

# ƏDL

## ***Adil olan, ədaləti əmr edən***

**Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allah'dan qorxun. Allah etdiklərinizdən xəbərdardır! (Maidə surəsi, 8)**

Allah ədalətlilərin ən xeyirlisidir. Onun nizamı bütün kainatı ehtiva etmişdir. O, ədalətini dünyada və axirətdə qullarına göstərəcək. Hər şeyi haqqı ilə görən, hər şeyin daxilini, xaricini bilən, hər şeydən xəbərdar olan Allah'ın bütün işləri hikmətli və ədalətlidir.

İnsanların həyatları boyu işlədikləri bütün əməllər mütləq Allah'ın ədalətinə görə qiymətləndiriləcək. Allah Quranda zülm edənlərin zülmlərinin qarşılıqsız qalmayacağını, yaxşı bir sözün belə mükafatının veriləcəyini xəbər verir. Bütün bunların ədalətlə qiymətləndiriləcəyi yer axirətdir; Allah'ın sonsuz ədalətinin təcəlli edəcəyi yer...

Dünya həyatında inkarçıların peyğəmbərlərə və möminlərə yaratdıqları çətinliklər, atdıqları şərlər, işlədikləri günahlar qarşılıqsız qalmayacaq. Möminlərin cənnətdəki dərəcələrini yüksəldən bütün bu çətinliklər, inkarçıların da cəhənnəmin ən alt təbəqələrinə düşmələrinə vəsilə olacaq. Allah hesab günündə son dərəcə həssas tərəzilərlə heç kimə haqsızlıq etməyəcək, dünyada onlara verdiyi vaxtın sonunda sonsuz ədalətinə uyğun olaraq hesabını görəcək. Şübhəsiz, Allah hər şeyi bilən və vədinə ən sadiq olandır. İnsanlar dünyada etdiklərinin qarşılığını axirətdə mütləq görəcəklər. Beləliklə, inkarçılar əməllərinin qarşılığını ən ağır şəkildə tapacaq, Allah'a imanlarında və bağlılıqlarında qərarlı olanlar isə etdiklərinin qarşılığını ən gözəli ilə Allah'dan alacaqlar. Ayədə belə buyurulur:

**Sənə beyət edənlər, şübhəsiz ki, Allah'a beyət etmiş olurlar. Allah'ın əli onların əllərinin üstündədir. Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim Allah'la etdiyi əhdi yerinə yetirsə, (Allah) ona böyük mükafat verər! (Fəth surəsi, 10)**

Ancaq burada üzərində diqqətlə düşünülməli cəhət var. Allah'ın ədalətini düşünərkən bu, qətiyyən insanların ədalət anlayışı ilə müqayisə edilməməlidir. Çünki inkar edən insan istəkləri və zəifləri qarşısında aciz qala bilər, ədalətli olmağa çalışarkən emosionallıq edə bilər, bir mövzu haqqında səhv hökmlər verə bilər və etdiklərini unuda bilər. Ən vacibi də qarşısındakının içindən keçirdiklərini bilməsi mümkün deyil. Allah isə əsla səhv etməz və əsla unutmaz. Allah hər insan üçün onun hərəkətlərinə nəzarət edən və əməllərini yazan mələklər təyin edib. Bu mələklər insanların həm içindən keçəni, həm də bütün hərəkətlərini yazırlar. Nəticə olaraq, Allah insanın ruhuna tamamilə hakimdir. Ən ədalətli hökm verəcək olan da Rəbbimizdir. "İsra" surəsinin 71-ci ayəsində Allah'ın sonsuz ədalət sahibi olduğu belə xəbər verilir:

**Bir gün bütün insanları öz imamları ilə birlikdə çağıracağıq. Əməl dəftərləri sağ əllərinə verilənlər onu oxuyar. Onlara tük qədər haqsızlıq edilməz. (İsra surəsi, 71)**

Bütün pisliklərin, inananların əleyhinə qurulan qruplaşmaların, hazırlanan tələlərin qarşılığı ən kiçik detalına qədər axirətdə veriləcək. Əslində, Allah inkarçılara dünya həyatında yalnızca onların pisliklərini artırmağa səbəb olacaq mal, mülk, zənginlik və bunun kimi bir çox imkan verə bilər. Allah ayələrində bunlara aldanmamağı bildirmişdir. Çünki qısa dünya həyatındakı mənfəətin axirətdəkinin yanında heç bir mənasının və əhəmiyyətinin olmadığı, şübhəsiz, həqiqətdir. Həm də sonsuz cəhənnəm inkarçılara get-gedə yaxınlaşarkən...

Əsl yurd olan axirətdə hər nəfs etdiklərini qarşısında hazır tapacaq. Allah sonsuz ədalətinin təcəllisini qullarına cənnət və cəhənnəmində sonsuza qədər göstərəcək. Allah ən sonunda Özünə inananlarla

inanmayanların arasını haqq ilə ayıracaq.

**Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər! (Mumtəhinə surəsi, 8)**

**Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allah'ın bununla sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah eşidəndir, görəndir! (Nisa surəsi, 58)**

**Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər! (Maidə surəsi, 42)**

**De: "Rəbbimiz bizi toplayacaq və aramızda ədalətlə hökm edəcəkdir. Ədalətlə hökm edən, bilən ancaq Odur!" (Səba surəsi, 26)**

**Ey iman gətirənlər! Özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. (Əleyhinə şahidlik edəcəyiniz şəxslərin) varlı və ya kasıb olmasından asılı olmayaraq, Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz (cəfəngiyat) danışsanız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**

# ƏFÜVV

## ***Əfvi çox olan***

**Əgər yaxşı bir əməli aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi əfv etsəniz (Allah onları bilər). Həqiqətən, Allah bağışlayandır, qüdrət sahibidir! (Nisa surəsi, 149)**

İnsan, yaradılış etibarı ilə səhv etməyə meyilli varlıqdır. Hər an bir çox mövzuda qüsurlu düşünə bilər, səhv qərar verə bilər, xəta edə bilər. Ancaq insanı yaradan və ondakı bu çatışmazlıqları bilən Allah edilən səhvləri də əfv edəndir. Allah'ın əfvi olmazsa, heç bir insanın cənnətə girməsi mümkün olmazdı. Bu həqiqətə Quranda açıq-aşkar diqqət çəkilir:

**Əgər Allah insanları zülmləri üzündən cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ buraxmazdı. Lakin (Allah) onlara müəyyən müddət möhlət verər. Əcəlləri gəlib çatdıqda isə bircə saat belə nə geri qalar, nə də irəli keçə bilərlər. (Nəhl surəsi, 61)**

Lakin unudulmamalıdır ki, Allah'ın əfvediciliyi səmimi qullarına aiddir. O, Özünə səmimi yönələn insanların günahlarını əfv edər. Əhəmiyyətli olan insanın səmimi olub qəti şəkildə tövbə etməsidir. Yoxsa tövbə edib təkrar əvvəlki səhvlərinə geri qayıdanların və etdiklərindən həqiqi peşmançılıq hiss etməyənlərin tövbəsini qəbul etməyəcəyini Allah bir ayədə belə bildirir:

**Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal tövbə edərlər. Allah belələrinin tövbəsini qəbul edir! Həqiqətən, Allah biləndir, hikmət sahibidir! (Nisa surəsi, 17)**

# AXIR

## *Hər şey yox olandan sonra da var olan*

**Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi biləndir! (Hədid surəsi, 3)**

Allah kainatı yoxluqdan yaradıb və onu ən sonda yenə əvvəlki vəziyyətinə qaytaracaq, yox edəcək. Yox olmayacaq heç bir əşya, ölümsüz olan heç bir canlı mövcud deyil. Dünyadakı bütün canlılar doğulur və ölür, hər şeyin bir ömrü, müddəti var. Halbuki, Quranda bildirildiyi kimi, Allah əvvəldir, axırdır, yəni başlanğıcı olmadığı kimi, sonu da yoxdur. Hər şey yox olduqdan sonra baqi qalacaq olan da Odur.

Ömrü və zamanı yaradan Allah maddəyə aid bütün bu xüsusiyyətlərdən uzaqdır. O, əvvəli və sonrası olmayandır. Sonsuzluğun sahibi, zamana və məkana tabe olmayan Allah'dır. Nəticədə, kainat təkrar başlanğıc nöqtəsinə dönəcək, canlı-cansız heç bir şey qalmayacaq. Yalnız Allah'ın varlığı baqi qalacaq. Allah bu həqiqəti Quranda bu cür bildirir:

**(Yer) üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir. (Rəhman surəsi, 26-27)**

**Göylərdə və yerdə olanların hamısı Allah'ın şəninə tariflər deyir. O, qüdrətlidir, müdrikdir. Göylərin və yerin hökmranlığı Ona məxsusdur. O, həm dirildir, həm də öldürür. O, hər şeyə qadirdir. (Hədid surəsi, 1-2)**

**Göyləri və yeri altı gündə yaradan, sonra da ərşə ucalan Odur. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. Siz harada olsanız belə, O, sizinlədir. Allah sizin nə etdiklərinizi görür. (Hədid surəsi, 4)**

# ƏHKAMÜL-HAKİMİN

## *Hökm verənlərin hakimi*

**Məgər Allah hakimlərin hakimi deyilmi?! (Tin surəsi, 8)**

Hər işin hökmünü verən, nəticələndirən Allah'dır. Bütün hadisələr Onun əmri ilə, diləməsi ilə meydana gəlir və inkişaf edir. Allah'ın verdiyi hökmlərdə mütləq bir çox hikmət gizlidir. Lakin insanların çoxu Allah'ın hökmlərini öz məhdud ağılları ilə qiymətləndirir və beləliklə də Allah'ın hökmlərini tam olaraq qavraya bilmirlər. Halbuki, Allah sonsuz ağılın sahibidir. Üstəlik, zaman və məkandan da münəzzəhdir; bu anlayışları yaradan, insanların zamana və məkana tabe olaraq yaşamasını uyğun biləndir. İnsan heç vaxt bir gün sonra, hətta bir saat sonra nələr yaşayacağını bilmir. O isə bir işə hökm etdiyi zaman bir gün sonra, illər sonra və hətta qiyamətə qədər o işin nə ilə nəticələnəcəyinə də hakimdir. Buna görə də verdiyi hökm hər zaman ən doğru, ən yaxşı və ən hikmətli olandır.

Lakin iman etməyənlər bu həqiqəti başa düşmürlər. Ətraflarında baş verən hər hadisənin müəyyən səbəblərə bağlı olaraq təsadüfən meydana gəldiyini zənn edirlər. Allah'ın hökm etdiyi hadisələrdəki hikmətləri qiymətləndirə bilmirlər. Meydana gələn hər hadisənin Allah'ın idarəsində olduğunu anlamırlar. Möminlər isə Allah'ın verdiyi hökmlərin hikmətlərini qavramağa çalışır və Onun daim ən yaxşı və ən xeyirli hökm verən olduğunu bilirlər. Allah Quranda belə buyurur:

**Sənə nə vəhy gəlirsə, ona tabe ol. Allah hökm verənə qədər səbir et. O, hökm verənlərin ən yaxşısıdır! (Yunis surəsi, 109)**

**Nuh Rəbbinə müraciət edib dedi: "Ey Rəbbim! Oğlum mənim ailə üzvlərimdəndir. Sənin vədin, sözsüz ki, haqdır. Sən hakimlərin hakimisən!" (Hud surəsi, 45)**

# ALİM

## ***<u>Hər şeyi çox yaxşı bilən</u>***

**Şərq də, qərb də Allah'ındır: hansı tərəfə yönəlsəniz, Allah oradadır. Şübhəsiz ki, Allah genişdir, biləndir! (Bəqərə surəsi, 115)**

İnsanlar düşünə biləcək şüura sahib olduqları andan etibarən öyrənməyə başlayırlar. Müəyyən bir yaşa çatdıqdan sonra da təhsil almağa və biliklər əldə etməyə davam edirlər. Hətta bəzi insanlar müəyyən bir mövzu üzrə mütəxəssisləşirlər. Məsələn, fizika mühəndisi fizika qanunlarının hamısını öyrənə bilər və ya fəlsəfə üzrə təhsil almış insan fəlsəfi mövzulara tam olaraq hakim ola bilər. Yenə yeni tarix üzə mütəxəssisləşmiş tədqiqatçı yeni tarixlə əlaqəli çox dəqiq şərhlər verə bilər. Çünki bu mövzu ilə əlaqədar öyrəniləcək hər şeyi bilir.

Yuxarıda saydıqlarımız, əlbəttə, "bilmək" felinin insanlarla əlaqədar olan qismidir. Ancaq "bilmək" felinin insanların əsla təsəvvür edə bilməyəcəyi, güc çatdıra bilməyəcəyi bir ölçüsü var: Allah'ın bilməsi...

Allah göylərin, yerin, bu ikisinin arasında olan bütün canlıların, kainatda işləyən bütün qanunların, hər an meydana gələn bütün hadisələrin məlumatına sahibdir. Çünki hamısının yaradıcısı Odur. Üstəlik, Allah'ın bilməsi sonsuzdur; Allah eyni anda dünya üzərində doğan və ölən insanların kim olduqlarını, yer üzündəki hər bir ağacdan düşən yarpaqların sayını, kainatdakı milyardlarla qalaktikanın içindəki milyardlarla ulduzun hər birinin xüsusiyyətlərini və burada səhifələrlə saysaq da, əsla bitirə bilməyəcəyimiz hər şeyi bilir. O, yer

üzündə, eyni anda kosmosda meydana gələn hər hadisəni, dünya üzərindəki milyardlarla insanın, heyvanın, bitkinin hüceyrələrində kodlanmış şifrləri də bilir.

İnsanın unutmamalı olduğu çox əhəmiyyətli bir sirr var: Allah yuxarıda sayılan bütün detallarla yanaşı, insanın daxilini, ağlından keçənləri, gizli və ya açıq işlədiyi bütün əməlləri də bilir. İnsan içində yaşadığı duyğularını, düşüncələrini, sıxıntılarını yalnızca özünün bildiyini zənn edir, amma bu, böyük yanılmadır. Kainatın hər nöqtəsinə tam olaraq hakim olan Allah insanın daxilinə və xaricinə də hakimdir. Belə ki, Allah'ın bu sonsuz biliyi bir çox ayədə bildirilmişdir:

**Sevdiyiniz şeylərdən sərf etməyincə savaba çatmazsınız. Şübhəsiz ki, Allah xərclədiyiniz hər bir şeyi biləndir! (Ali-İmran surəsi, 92)**

**Məgər göylərdə və yerdə olanların, qanadlarını açıb uçan quşların Allah'ı təqdis edib şəninə tariflər dediklərini görmürsənmi?! Allah onlardan hər birinin duasını, şükür-sənasını bilir. Allah onların nə etdiklərini biləndir! (Nur surəsi, 41)**

**Günəş də özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan, bilən Allah'ın təqdiridir. (Yasin surəsi, 38)**

**Bilin ki, Allah'dan gizlənmək məqsədilə ikiqat olarlar. Xəbərdar olun ki, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqları və aşkar etdikləri hər şeyi bilir. Allah ürəklərdə olanları biləndir. (Hud surəsi, 5)**

**(Əlbəttə) onlar öz əməllərini bildiklərinə görə ölümü əsla istəməzlər. Allah zalımları tanıyandır! (Bəqərə surəsi, 95)**

**Onları siz öldürmədiniz, Allah öldürdü. Atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri yaxşı bir imtahandan keçirtdi. Allah eşidəndir, biləndir! (Ənfal surəsi, 17)**

**Əgər üz çevirsəniz, (bilin ki,) mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir camaat gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir. (Hud surəsi, 57)**

**De: “O, ər-Rəhmandır! Biz Ona iman gətirib, Ona təvəkkül etmişik. Kimin tam azğınlıq içində olduğunu biləcəksiniz”. (Mülk surəsi, 29)**

Allah təqva sahiblərini (inanıb və ya inanclarına uyğun davranıb) zəfərə yetişmələri səbəbilə xilas edir. Onlara pislik toxunmaz və onlar hüznə qapılmazlar.

**Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. Allah hər şeyin Xaliqidir. O, hər şeyi qoruyandır. Göylərin və yerin açarları Ondadır. Məhz Allah’ın ayələrini inkar edənlər ziyana uğrayanlardır. (Zumər surəsi, 61-63)**

# ƏLİYY

## *Çox uca olan*

**Allah bəşər övladı ilə ancaq vəhy ilə, yaxud pərdə arxasından danışar. Və ya bir elçi göndərər ki, o da Allah'ın izni ilə Onun istədiyini vəhy edər. Həqiqətən, O, ucadır, hikmət sahibidir! (Şura surəsi, 51)**

Allah Özünü Quranda bizə tanıdıb: bütün aləmləri yaradan, kainatın tək hakimi olan Allah ucadır. Göylərin, yerin və bu ikisinin arasında olanların yeganə sahibi Odur. Ondan başqa ilah yoxdur, Allah insanların şirk qoşduqlarından çox ucadır. Bütün mülk Allah'a aiddir; O, hər şeyə gücü çatandır. O, uca məqamların da sahibidir. Allah aləmlərdən münəzzəhdir.

Şübhəsiz, ən gözəl adlar Allah'a aid olduğu üçün Onu əskiksiz olaraq tərif etmək mümkün deyil. Allah'ı ancaq Özünün bizə bildirdiyi qədər tanıya bilirik, ucalığını ancaq Quran ayələri ilə təqdir edə bilirik. Allah bir ayəsində Öz ucalığını bu cür tərif edib:

**Allah, Ondan başqa ilah yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allah'ın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allah'ın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur! (Bəqərə surəsi, 255)**

# ASİM

## *Qoruyan*

**(Oğlu ona) belə cavab verdi: "Mən bir dağa sığınaram, o da məni sudan qoruyar". Nuh dedi: "Allah'ın rəhm etdiklərindən başqa, bu gün heç kəs Onun əzabından qoruya bilməz!"… (Hud surəsi, 43)**

İnsan aciz olduğu üçün hər an hər cür çətinliklə qarşılaşa bilər. Məsələn, dünya hər an təbii fəlakətlərin meydana gəldiyi yerdir. Zəlzələlər, sellər, qasırğalar, vulkan püskürmələri tez-tez rast gəlinən hadisələrdir. Eyni şəkildə, insanı mənən çətinliyə salan bir çox hadisə də var. Bu hadisələr qarşısında unutmamalı olduğumuz bir gerçək var: insan nə qədər acizliyindən xilas olmağa çalışırsa çalışsın, Allah'ın diləməsi xaricində başına gələcək hər hansı hadisədən qoruna bilməz. İnsan üçün tək qoruyucu Rəhman olan Allah'dır. Quranda bu vəziyyət belə bildirilmişdir:

**De: "Gizlində dua edib: "Əgər bizi suyun və qurunun zülmətindən qurtarsan, əlbəttə, şükür edənlərdən olarıq", - deyə yalvardığınız zaman sizləri bunlardan xilas edən kimdir?" De: "Sizi ondan xilas edən və hər bir qəmdən qurtaran Allah'dır. Sonra siz yenə də şərik qoşursunuz?" (Ənam surəsi, 63-64)**

İnsanlar tək qaldıqda əllərindəki maddi imkanların, yaxınlarının onlara heç nə ilə kömək edə bilməyəcəyini anladıqları anlarda, ya da sağlamlıqlarını itirdikləri zaman Allah'ı zikr edir, Ondan kömək diləyirlər. Ancaq O, özlərini qurtardıqda yenə nankorluq edib başlarına gələnləri unudurlar. Dünyada Allah'dan başqa qoruyucu tapa

bilməyəcəyini anlamayan, Onun hər cür köməyinə baxmayaraq, nankorluqda dirənən bu şəxslər axirətdə sonsuz əzabla qarşılaşaraq gerçəyi görəcəklər.

Bu şəxslərin vəziyyəti ayədə belə xəbər verilir:

**… (Allah'a ibadət etməyi) özlərinə sığışdırmayanları və təkəbbür göstərənləri isə acı bir əzaba düçar edəcəkdir! Onlar özlərinə Allah'dan savayı nə bir dost, nə də havadar tapacaqlar! (Nisa surəsi, 173)**

**Əgər üz çevirsəniz, (bilin ki,) mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir camaat gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir. (Hud surəsi, 57)**

**De: "O, ər-Rəhmandır! Biz Ona iman gətirib, Ona təvəkkül etmişik. Kimin tam azğınlıq içində olduğunu biləcəksiniz". (Mülk surəsi, 29)**

Allah təqva sahiblərini (inanıb və ya inanclarına uyğun davranıb) zəfərə yetişmələri səbəbilə xilas edir. Onlara pislik toxunmaz və onlar hüznə qapılmazlar.

**Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. Allah hər şeyin Xaliqidir. O, hər şeyi qoruyandır. Göylərin və yerin açarları Ondadır. Məhz Allah'ın ayələrini inkar edənlər ziyana uğrayanlardır. (Zumər surəsi, 61-63)**

# ƏZİM

## *Çox əzəmətli, böyük olan*

**Göylərdə və yerdə nə varsa Onundur! O, ucadır, uludur! (Şura surəsi, 4)**

Şübhəsiz ki, Allah'ın böyüklüyü və əzəməti insanların qavrayış sərhədlərini aşır. Lakin insan yenə də öz ağlının sərhədləri çərçivəsində Allah'ın nə qədər güclü və qüdrətli olduğunu görüb anlaya bilər. Çünki bütün kainat Allah'ın böyüklüyünü göstərən saysız-hesabsız nümunə ilə doludur. İnsan sadəcə yaşadığı dünyanı bir az araşdırsa, hər şeyi yaradan Allah'ın əzəmətini hiss edəcək.

Ağırlığı tonlarla olan buludları daşıyan səma, minlərlə metr yüksəyə uzanan dağlar, milyonlarla növ canlının yaşadığı dənizlər, çaxan şimşək, onun ardından gələn göy gurultusu və Allah'a boyun əymiş milyardlarla canlı... Bunlar və burada saymadığımız saysız detal Allah'ın böyüklüyünün açıq dəlillərindəndir.

İndi dünyanın bir az xaricinə çıxıb düşünək. Bu nümunə kainatı yaradan, sonsuz əzəmət sahibi olan Rəbbimizi bir az daha dərin qavramağımıza kömək olacaq:

Kainat adı verdiyimiz sərhədsiz məkanın içində yaşayırıq. Bu gün elm adamlarının araşdırmalarına görə, kainatda milyardlarla qalaktika mövcuddur. Bəs bu qalaktikaların içində nələr var? Elmin bizə bildirdiyinə görə, hər qalaktikanın içində milyardlarla ulduz olduğunu bilirik. Biz də içində milyardlarla ulduz ehtiva edən milyardlarla qalaktikadan birinin içində, Dünya adı verilən və saatda 1670 km sürətlə heç dayanmadan dövr edən planetin üzərində yaşayırıq. Şübhəsiz, bu rəqəmlərlə düşündükdə kainatdakı varlığımızın toz zər-

rəciyi ilə müqayisə edilməyəcək dərəcədə kiçik olduğu aydın olacaq.

İnsan səmimi olaraq düşünəndə də milyardlarla qalaktikanı yaradan və hamısını hökmü altında saxlayan Rəbbimizin əzəmətini dərk edə bilər. Rəbbimiz bütün kainatı yaradan, milyardlarla ulduzu, qalaktikaların hamısını idarə edən üstün gücün sahibidir. Allah Öz üstün sifətlərini bir ayədə belə xəbər verir:

**Allah… Ondan başqa heç bir ilah yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allah'ın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allah'ın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur! (Bəqərə surəsi, 255)**

**(Allah) qeybi və aşkarı biləndir, böyükdür, ucadır. Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib dolananlar da (Allah dərgahında) eynidirlər.**

**Allah'ın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır. Həqiqətən də insanlar nəfslərində olanı dəyişmədikcə Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir camaata pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur. Qorxasınız və ümid bəsləyəsiniz deyə, sizə şimşək göstərən və ağır buludları var edən Odur. (Rəd surəsi, 9-12)**

# ƏZİZ

## ***Üstün, qüvvətli, güclü, şərəfli, məğlub edilməsi mümkün olmayan, qalib olan***

**Allah’ın peyğəmbərlərə verdiyi vədə xilaf çıxacağını sanma! Həqiqətən, Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir! (İbrahim Surəsi, 47)**

Allah’ın Əziz sifəti Onun məğlub edilməsinin qeyri-mümkün olduğunu, hər zaman qalib olanın Özü olduğunu ifadə edir. Allah kainatda mütləq qüvvət sahibidir və Ondan üstün heç bir güc yoxdur.

Kainatdakı bütün nizamı, insanların sirrini qavramadıqları və ya yeni-yeni kəşf etdikləri bütün qanunları yaradan Allah’dır. Bununla yanaşı, yer üzündə olan hər canlını yaradan da Odur. Allah’ın sonsuz gücü və qüdrəti qarşısında yaratdıqlarının acizliyi açıq-aşkardır. Yaratdığı bütün varlıqlar, ancaq Onun əmri ilə hərəkət edir, həyatlarını davam etdirir, müəyyən nizam içində yaşayırlar.

Şübhəsiz, bu acizlik yer üzünə hakim olduğunu zənn edən insan üçün də əsaslıdır. İnsan nə qədər güclü, zəngin və etibarlı olsa da, Allah qarşısında aciz və gücsüzdür. Nə malı, nə pulu, nə də ona etibar edən insanların sayı onu Allah’ın əzabından qoruya bilməz. Ancaq Allah’a təslim olan, Onun əmrlərinə tabe olan, razılığını qazanmağa çalışanlar xaric... Allah Quranda həmişə Öz tərəfdarlarına üstünlük verəcəyini vəd etmişdir. Ayələrdə belə buyurulur:

**Allah: “And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!” – deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Mübarizə surəsi, 21)**

**Daha öncə insanları hidayət etmək üçün Furqanı da O nazil**

**etdi. Allah'ın ayələrini inkar edənlər şiddətli əzaba düçar olacaqlar. Allah yenilməz qüvvət, intiqam sahibidir! (Ali-İmran surəsi, 4)**

**Allah Özündən başqa heç bir ilah olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətlə boyun qoyaraq o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər. (Ali-İmran surəsi, 18)**

**Onların sözləri səni kədərləndirməsin. Yenilməz izzət bütövlükdə yalnız Allah'a məxsusdur. O, eşidəndir, biləndir! (Yunis surəsi, 65)**

**Bu kitab qüdrətli, müdrik Allah tərəfindən nazil edilmişdir. Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli olan lütf sahibindəndir! Ondan başqa məbud yoxdur. Dönüş də Onadır. Allah'ın ayələri barəsində yalnız kafirlər mübahisə edərlər. Onların şəhərlərdə gəzib-dolaşmaları səni aldatmasın. Onlardan əvvəl Nuhun xalqı və sonrakı əlbir dəstələr də yalançı saydılar. Hər ümmət öz elçilərini yaxalamağa qəsd edirdi. Onlar həqiqətin yalan olduğunu sübuta yetirmək üçün batil sözlərlə mübahisə aparırdılar. Mən də onları yaxaladım. (Bir görəydin) Mənim cəzam necə oldu! Kafirlərin od sakinləri olacağı barədə Rəbbinin sözü beləcə həqiqətə çevrildi. (Mömin (Ğafir) surəsi, 2-6)**

# BAİS

## *Göndərən (peyğəmbər), oyandıran, dirildən*

**Allah'ı necə inkar edirsiniz ki, siz ölü idiniz, O, sizi diriltdi. O, sizi yenə öldürəcək, sonra yenə də dirildəcək və daha sonra siz Ona tərəf qaytarılacaqsınız. (Bəqərə surəsi, 28)**

Şübhəsiz, yer üzündə indiyədək yaşayan və bundan sonra da yaşayacaq bütün insanlar ölümlüdür. Hər kəs bir gün öləcək və məzara qoyulacaq. Ancaq bu açıq-aşkar gerçəyə baxmayaraq, insanların böyük əksəriyyəti ölümü düşünmür və məzara qoyulduqdan sonra təkrar dirildiləcəklərini də görməzlikdən gəlirlər. Quranda bu şəxslərin vəziyyəti belə xəbər verilir:

**Deyirlər: "Doğrudanmı, biz əvvəlki vəziyyətimizə qaytarılacağıq?! Özü də çürümüş sümüklər olduğumuz zamanmı?!" (Naziat surəsi, 10-11)**

Quranda insanların qəflətlə soruşduqları bu suala ən açıq şəkildə cavab verilir:

**Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi. De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu çox gözəl tanıyandır! (Yasin surəsi, 78-79)**

Yuxarıdakı ayələrdə də bildirildiyi kimi, Allah bütün insanları ilk dəfə yaradandır. Gəlmiş-keçmiş bütün insanları bir-birlərindən fərqli xüsusiyyətlərlə yaratmışdır. Belə ki, bu gün bilindiyi kimi, hər insanın barmaq ucuna qədər bir çox xüsusiyyəti digər insanlardan fərqlidir. Şübhəsiz, onları ilk dəfə yaradan Allah ikinci dəfə və hətta sonsuz sayda eyni şəkildə yaratmağa qadirdir. Necə ki, Allah bunun

dəlillərini bizlərə yer üzünün dirilməsində göstərir.

Ətrafımıza baxdığımız zaman hər payız bütün təbiətin "öldüyünə" şahid oluruq. Bu "ölüm" bütün qış mövsümü ərzində davam edir. Ancaq yaz gəldiyi zaman ağacların qupquru olmuş budaqlarında yenidən rəngarəng çiçəklərin, yamyaşıl yarpaqların çıxdığını, bütün təbiətin canlanaraq yaşıllandığını görürük. Üstəlik, bu "ölümdən sonra diriliş" minlərlə ildir heç dayanmadan davam edir. Belə ki, insanın ölümündən sonra dirilişi də Allah üçün bu dərəcə asandır. İnsanın dirildilməsi ilə təbiətin dirildilməsi arasındakı bu bənzərliyə Allah ayələrində belə diqqət çəkmişdir:

**(Allah) ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir. Siz də belə çıxardılacaqsınız. (Rum surəsi, 19)**

**Sən Allah'ın rəhmətinin əsər-əlamətinə bax ki, torpağı öldükdən sonra necə dirildir. Doğrudan da O, ölüləri dirildəndir. O, hər şeyə qadirdir! (Rum surəsi, 50)**

Allah'ın Bais sifətinin bir başqa mənası da peyğəmbər göndərəndir. Allah insanlara xəbərdarlıq edən, qorxudan, müjdə verən elçilər göndərmiş və onları doğru yola dəvət etmişdir. Elçilərindən bəzisinə insanları qaranlıqdan işığa çıxaracaq kitablar vəhy etmişdir. Şübhəsiz, bu, Allah'ın insanlara böyük bir lütfüdür. Quranda belə buyurulur:

**İnsanlar tək bir ümmət idi. Allah müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasında onların ixtilafa düşdükləri şeylərə dair hökm versin. Halbuki, (kitab) verilmiş şəxslər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa düşdülər. Allah isə Öz icazəsi ilə iman gətirənləri ixtilafda olduqları (məsələlərdə) haqqa yönəltdi. Allah istədiyini düz yola yönəldər. (Bəqərə surəsi, 213)**

**Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə (Allah'ın) ayələrini oxuyan, onları təmizləyən, onlara kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki, bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər. (Ali-İmran surəsi, 164)**

# BAQİ

## ***Davam edən, fani olmayan***

**(Yer) üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir. (Rəhman surəsi, 26-27)**

Kainatdakı bütün varlıqlar ölümə məhkumdur. İnsan doğulur, yaşayır və dünyada yaşadığı məhdud ömrün sonunda ölür. Bu son bütün insanlar üçün qaçılmazdır. İnsanlar kimi bitkilər və heyvanlar aləminin də yox olması qaçılmazdır. Onlar da doğulduqdan bir müddət sonra bir-bir ölürlər. Məsələn: ağac yer üzündə yüz illərlə yaşaya bilər. Lakin ən sonda ölümə məhkumdur. Canlı olan hər şey həyatını bitirib torpağın altına girəcək və yox olacaq.

Eyni şəkildə, cansız varlıqların da sonu var. Zamanla hamısı məhvə məhkumdurlar. Məsələn, min illərlə bundan əvvəl ehtişam içində yaşamış qövmlərdən bu gün yalnız xarabalıqların geriyə qaldığını görürük.

**"Neçə-neçə məmləkəti zülm edərkən məhv etdik; onlar alt-üst olmuşdu. Neçə-neçə quyular, neçə-neçə möhtəşəm qəsrlər bomboş qalmışdı"** (Həcc surəsi, 45) ayəsi ilə bu gerçəyə diqqət çəkmişdir.

İçində yaşayan varlıqların sonu olduğu kimi, kainatın da sonu var. Kainatdakı bütün göy cisimləri, günəş, ulduzlar, bir gün enerjilərini bitirib yox olacaqlar və ya Allah dilədiyi başqa bir səbəblə bütün kainatı yox edəcək, qiyamət günü ilə əlaqədar olan vədini reallaşdıracaq.

Görüldüyü kimi, hər şey sonludur; kainat da, yaradılmış bütün varlıqlar da...

Allah isə yaradandır. Və sonsuzluq yalnız Özünə aiddir.
Rəbbimiz insanlara Quranda belə buyurur:

**Sizə verilən hər hansı bir şey ancaq bu fani dünyanın malı və bərbəzəyidir. Allah yanında olan isə daha yaxşı və daha baqidir. Məgər başa düşmürsünüz? (Qəsəs surəsi, 60)**

**Həqiqətən, Allah ağcaqanadı və ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən (gələn) haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə (demək) istədi?" Halbuki, O, bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

**Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Nur surəsi, 45)**

# BARİ

## ***Yaradan, qüsursuz şəkildə var edən***

**O, yaradan, yoxdan var edən, surət verən Allah'dır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)**

Yaşadığımız kainatda hara baxsaq, tarazlıq və ahəngə rast gəlirik. Xüsusilə elm sahəsində yeni inkişaflarla bu günə qədər bilinməyən bir çox detal ortaya çıxdıqca bu tarazlıq və ahəng daha da dəqiqləşir. Görünən odur ki, kainat üzərində var olan hər sistem üstün bir ağılın dizaynıdır. Bu üstün ağılın sahibi hər şeyi heyrətamiz nizam içində var etmişdir. Kainatdakı hər cisim, yer üzündə yaşayan milyardlarla canlı möhtəşəm ahəng içində varlıqlarını davam etdirirlər. Təbiətdəki nizam heç bir şəkildə pozulmur və milyonlarla ildir son dərəcə sabit şəkildə davam edir.

Yalnız dünya üzərindəki həyatı araşdırdığımızda belə bir çox heyrətamiz detalla qarşılaşırıq. Ətrafımız fərqində olduğumuz və ya olmadığımız saysız yaradılış dəlili ilə doludur. Məsələn, havadakı qazların qarışığı bütün canlıların həyatlarını davam etdirə bilməsi üçün ən əlverişli şəkildə təşkil olunmuşdur. İnsanlar və heyvanlar yaşamaq üçün oksigen alıb, karbon verirlər. Ancaq bu əməliyyat dayanmadan davam etdiyi üçün havadakı oksigen miqdarı azalıb, karbonun miqdarı artaraq mövcud tarazlığı pozmur. Çünki burada çox incə nizam var: insanların və heyvanların əksinə bitkilər həyatlarını davam etdirərkən karbon alıb oksigen verirlər. Buna görə də insan-

ların və heyvanların aldığı oksigen bitkilər vasitəsilə təkrar qaytarılır və dünyadakı tarazlıq qorunur.

Şübhəsiz, bu nümunə dünya üzərində görə biləcəyimiz yaradılış dəlillərindən sadəcə biridir. Həm mikro, həm də makro aləmi araşdırdıqda bunun kimi saysız nümunə ilə qarşılaşmaq mümkündür. Əgər kainat və kainatla yanaşı, dünya üzərindəki canlılar varlığını davam etdirə bilirsə, bu, üstün ağıl sahibi, hər şeyin yaradıcısı olan Rəbbimizin hər şeyi bir-birinə uyğun olaraq yaratması ilə mümkündür. Allah bir ayəsində belə buyurur:

**O vaxtı da xatırlayın ki, Musa öz qövmünə: "Ey qövmüm, siz buzova sitayiş etməklə, həqiqətən, özünüzə zülm etdiniz. Buna görə də yaradanınıza tərəf üz tutaraq tövbə edin, nəfsinizi öldürün! Belə etməniz yaradanınızın yanında sizin üçün xeyirlidir!" - demişdi və Allah da tövbənizi qəbul etmişdi. Əlbəttə, O, tövbələri qəbul edəndir, bağışlayandır. (Bəqərə surəsi, 54)**

**Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, (bilin ki,) həqiqətən də Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır ki, bildiyi şeyləri unutsun. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarır və cürbəcür gözəl bitkilər bitirir. Bunun səbəbi Allah'ın Haqq olmasındadır. O, ölüləri dirildir və hər şeyə qadirdir. (Həcc surəsi, 5-6)**

# BASİR

## ***<u>Yaxşı görən</u>***

**Məgər onlar başları üstündə qanad çalaraq uçan quşları görmürlərmi? Onları ancaq Rəhman saxlayır. Həqiqətən, O, hər şeyi görəndir! (Mülk surəsi, 19)**

İnsanın görüş sahəsi, şübhəsiz, çox məhduddur. Sadəcə gözlə görə biləcəyimiz məsafə ən çoxu bir neçə kilometrdir. Üstəlik, bu da ancaq açıq havada, yüksək bir yerdən baxılsa, mümkün olur. Ancaq şərtlər nə qədər uyğun olsa da, görə bildiyimiz ən uzaq yer dumanlı görüntüdən başqa bir şey deyil.

İnsan bəzi vəziyyətlərdə (xüsusilə də tək qaldığı zaman) özünü heç kimin görmədiyini zənn edir. Gizli iş görərkən, gizlənərkən, ətrafında heç kim olmadıqda özünü heç kimin görmədiyindən əmindir. Bu cür mühitlərdə insanlar istədikləri hər şeyi edə biləcəklərini, heç kimə qarşı məsul olmayacaqlarını, etdikləri səhvlərin əsla qarşılarına çıxmayacağını zənn edirlər.

Halbuki, bu, səhvdir. Çünki insanın unutduğu çox əhəmiyyətli bir həqiqət var: Allah hər an hər şeyi bütün detalları ilə görəndir.

İnsan gözləri ilə ancaq müəyyən bir sahəni gördüyü halda, Allah o adamın olduğu otağı, onun xaricindəki digər otaqları, o evin hamısını, o evin yerləşdiyi şəhəri, şəhərin içində olduğu ölkəni, onları əhatə edən qitəni, bütün bunların hamısını əhatə edən dünyanı, bütün planetləri, kosmosu və onun da kənarındakı sərhədləri eyni anda görür. Quranda Allah'ın hər şeydən xəbərdar olduğu belə bildirilir:

**Sən nə iş görsən, Qurandan nə oxusan, nə iş görsəniz, onlara daldığınız zaman Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə**

**qədər bir şey sənin Rəbbindən gizli qalmaz. Ondan daha böyük, daha kiçik elə bir şey də yoxdur ki, açıq-aydın kitabda olmasın! (Yunis surəsi, 61)**

**Namaz qılın, zəkat verin! Özünüzdən ötrü etdiyiniz xeyri Allah yanında taparsınız. Həqiqətən, Allah nə etdiklərinizi görəndir! (Bəqərə surəsi, 110)**

**Onların Allah yanında dərəcələri vardır. Allah onların etdiyi işləri görəndir. (Ali-İmran surəsi, 163)**

**Ayələrimizi inkar edənlər Bizdən gizli qalmazlar. Cəhənnəm oduna atılan kəs yaxşıdır, yoxsa qiyamət günü arxayın gələn kəs?! İstədiyinizi edin. Şübhəsiz ki, O, nə etdiyinizi görəndir. (Fussilət surəsi, 40)**

**Əgər o kafirlər sizinlə döyüşə girişsəydilər, mütləq arxa çevirib qaçacaq, özlərinə nə dost, nə də havadar tapacaqdılar. Allah'ın əvvəldən qoyduğu qayda-qanun belədir. Sən Allah'ın qayda-qanununda heç vaxt bir dəyişiklik görə bilməzsən! Sizi onlara qalib etdikdən sonra Məkkə vadisində onların əlini sizdən, sizin də əlinizi onlardan çəkən Odur. Allah sizin nə etdiklərinizi görəndir! (Fəth surəsi, 22-24)**

**Allah göyləri və yeri ədalətlə yaratmışdır ki, hər kəs qazandığının əvəzini alsın. Belə ki, onlara heç bir haqsızlıq edilməyəcəkdir. (Casiyə surəsi, 22)**

# BASİT

## ***<u>Açan, genişlədən, bollaşdıran</u>***

**Allah yolunda yaxşı borc verən kimdir ki, onun mükafatını qat-qat artırsın?! Allah daraldar, genişlədər. Siz Onun hüzuruna qaytarılacaqsınız. (Bəqərə surəsi, 245)**

Allah Özünə iman edən, ürəkdən itaət edənlərə dünyada maddi və mənəvi bolluq, genişlik verir. Onların qarşılarındakı çətinlikləri açır. İman edənlər qarşılaşdıqları hər cür çətinlikdə, darlıq və xəstəlikdə yalnız Allah'a sığınırlar və Onu vəkil edirlər. Bunun qarşılığı olaraq Allah inkar edənlərin işlərini çətinləşdirərkən, möminlərin işlərini asanlaşdırır.

Bu mövzuda Quranda verilmiş bir çox nümunə var. Məsələn, hz. Musa və ona tabe olan İsrail oğulları fironun zülmünə görə yurdlarından çıxmaq məcburiyyətində qalmışdılar. Ancaq firon onları təqib etmiş və tutmaq üçün ordusu ilə birlikdə onları izləmişdir. Bu qaçış əsnasında fironun ordusu ilə dəniz arasında qalan İsrail oğulları həqiqətən tutulduqlarını zənn etmişdilər. Lakin Allah hz. Musanın duasını qəbul etmiş, möcüzə göstərərək dənizi yarmış və İsrail oğullarını fironun zülmündən qurtarmışdır. Üstəlik, bunun ardından fironu və ordusunu yox etmiş, onların çıxdıqları yerlərə İsrail oğullarını varis etmişdir. **"Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik tapar. Kim evindən çıxıb Allah'a və onun Peyğəmbərinə tərəf hicrət etsə, sonra isə ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah Özü verər! Allah bağışlayandır, rəhm edəndir!"** (Nisa surəsi, 100) ayəsi də təcəlli etmişdir.

Şübhəsiz, Allah'ın vədi bütün inanan qulları üçün hər dövrdə eti-

barlı olub və olacaq. Bir ayədə belə xəbər verilir:

**Həqiqətən, Rəbbin istədiyi şəxsin ruzisini artırar da, azaldar da. Doğrudan da, O, Öz bəndələrinin halından xəbərdardır, görəndir! (İsra surəsi, 30)**

**De: "Rəbbimiz hamımızı bir araya cəmləşdirib sonra da aramızda ədalətlə hökm verəcəkdir. O, ən ədalətli Hakimdir, biləndir". (Səba surəsi, 26)**

# BATİN

## *Gizli*

**Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi bilәndir! (Hədid surəsi, 3)**

Hal-hazırda olduğunuz otaqda ətrafınıza baxın. Gözlərinizlə görə bildiyiniz hər şeyin hazırlanmış olduğunu görərsiniz. Qapı, stolun üzərindəki maqnitofon, divara asılmış şəkil, pəncərə... Bütün bunların kimsə tərəfindən hazırlanıb, oraya yerləşdirildiyindən əminsiniz. İndi də pəncərədən çölə baxın. Gördüyünüz mənzərədə böyük ehtimalla dəniz, ağaclar, Günəş, səma, uçan quşlar, bəlkə ada və ya bunlara bənzər şeylər olacaq. Əgər gecədirsə, səmada parıldayan ulduzları və Ayı da görə bilərsiniz. Bəs oturduğunuz otaqdakı əşyaların kimsə tərəfindən hazırlanmış olduğuna əmin olduğunuza görə, çöldə gördüklərinizin də hazırlandığı dəqiq deyilmi?

Əlbəttə, dəqiqdir. Əgər divardakı şəkilin təsadüfən meydana gəlib oraya gəldiyini iddia edə bilmirsinizsə, Günəşin, ulduzların və Ayın da təsadüfən meydana gəlib səmadakı yerlərini aldıqlarını əsla iddia edə bilməzsiniz. Yerdə və göydə gördüyünüz hər şeyin hazırlayanı, istehsalçısı, yaradıcısı var. Belə ki, hər şeyi üstün sənətlə var edən Rəbbimiz yaratdığı şeylərlə Özünü bizə tanıdır.

Pəncərədən çölə baxdığınızda Onu görə bilməzsiniz, çünki Allah'ın varlığı, gücü və sənəti yaratdığı şeylərlə açıq-aşkar görünməsinə baxmayaraq, Şəxsi gizlidir.

Allah'ın yuxarıdakı ayədə bildirilən Batin sifətinin mənası budur. Onun varlığı və hakimiyyəti kainatdakı hər nöqtədə açıq-aşkar görülür, ancaq insanlar Onun Şəxsini görə bilməz. Onu (Allah'ın diləməsi xaricində) heç kim görə bilməz, amma O, hər yeri əhatə etmişdir. Aşağıdakı ayədə bildirildiyi kimi:

**Gözlər Onu dərk etməz. O, gözləri dərk edər. O, Lətifdir, xəbərdardır! (Ənam surəsi, 103)**

# BƏDİ

## *Nümunəsiz olaraq yaradan*

**Göyləri və yeri icad edən Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: “Ol !” –deyər, o da olar. (Bəqərə surəsi, 117)**

Ən qabiliyyətli, ən ağıllı insanın kəşf edə biləcəyi yenilik, düşünə biləcəyi fərqli fikir, ancaq o günə qədər öyrəndikləri və ətrafında gördükləri ilə məhdudlaşır. İnsan yer üzünə beş hiss ilə gəlmişdir və bu hisslərdən başqa altıncı hissi təxəyyül etməsi belə mümkün deyil. Üstəlik, sahib olduğu hisslərdən də ancaq müəyyən çərçivədə istifadə edə bilir. Məsələn, müəyyən rəngləri görür, müəyyən tezliklərdəki səsləri eşidir. Buna görə də yer üzündə olmayan bir şeyi düşünməsi, kəşf etməsi, ağlına gətirməsi əsla mümkün deyil.

Necə ki, bu gün elmi kəşflərin bir qismini araşdırdığımız zaman insanların təbiətdə gördükləri canlıları və bunların arasındakı qüsursuz sistemləri özlərinə nümunə götürdüklərini görürük. Məsələn, delfinlərin burun çıxıntısı müasir böyük gəmilərin hazırlanmasında istifadə edilir. Radarların iş prinsipi yarasaların səs dalğaları yayaraq çalışan qəbul etmə sistemi ilə eynidir. Bunlar kimi daha bir çox nümunə də verilə bilər. *(Baxın Harun Yəhya, Düşünen İnsanlar İçin)*

Halbuki, Allah’ın elmi sonsuzdur. İnsanın ətrafında gördüyü və görə bilmədiyi hər şeyi Allah nümunəsiz yaratmışdır. Kainatın, qalaktikaların, planetlərin, canlıların, hətta sadəcə bir hüceyrənin belə olmadığı zamanda Allah’ın diləməsi və: “Ol”, -deməsi ilə atomlardan, molekullardan, hüceyrələrdən, canlılardan, planetlərdən, ulduzlardan, qalaktikalardan ibarət olan qüsursuz bir sistem meydana

gəlmişdir. İnsanların minlərlə il sonra kəşf etdikləri mikrodünyadan, ancaq 20-ci əsrdə xəbərdar olunan göy cisimlərinə qədər hər şey Allah'ın hazırladığı sistemlərdir və Onun təyin etdiyi qanunlara tabedir. Allah heç bir nümunə yox ikən kainatı və içindəki hər detalı meydana gətirmişdir. Allah'ın hər şeyi yaradan olduğu ayələrdə belə xəbər verilir:

**De: "Rəbbim ədaləti əmr etdi. Hər səcdədə üzünüzü (Ona) tutun. Dini yalnız Ona məxsus edərək ibadət edin. Sizi (yoxdan) yaratdığı kimi, yenə Onun hüzuruna qayıdacaqsınız!" (Əraf surəsi, 29)**

**O, göyləri və yeri var edəndir. Allah'ın necə övladı ola bilər ki, Onun heç bir yoldaşı yoxdur. Hər şeyi O yaratmışdır. O, hər şeyi biləndir! (Ənam surəsi, 101)**

**Həqiqətən, Allah ağcaqanadı və ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən (gələn) haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə (demək) istədi?" Halbuki, O, bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

**Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Nur surəsi, 45)**

# BƏRR

## ***<u>Qullarına qarşı yaxşılığı çox olan</u>***

**Biz bundan əvvəl Ona ibadət edirdik. Şübhəsiz ki, O, kərəm sahibidir, rəhm edəndir! (Tur surəsi, 28)**

Allah insanı yaratmış və onu yaşaması üçün hər cəhətdən əlverişli olan məkana yerləşdirmişdir. Bu məkanda var olan hər şeyi insan üçün xüsusi yaratmış və onun xidmətinə vermişdir. "Nəhl" surəsində Allah insanlara təqdim etdiyi nemətlərin bir qismini belə xəbər verir:

**Allah insanı nütfədən xəlq etdi. Bununla belə, o, birdən-birə açıq-aşkar bir düşmən kəsildi. Davarı da O yaratdı. Bunlarda sizin üçün istilik, cürbəcür mənfəət vardır, həm də onlardan yeyirsiniz. Onları səhər naxıra, axşam axura gətirdikdə baxıb zövq alırsınız. Onlar sizin yüklərinizi özünüzü yormadan çata bilməyəcəyiniz bir ölkəyə daşıyarlar. Həqiqətən, Rəbbin şəfqətlidir, mərhəmətlidir! Sizin minməyinizdən ötrü, həm də zinət üçün atı, qatırı və uzunqulağı (O yaratdı). (Allah) hələ sizin bilmədiyiniz neçə-neçə şeylər də yaradacaqdır. Doğru yolu göstərmək Allah'a aiddir. Ondan kəc olan yol da vardır. Əgər (Allah) istəsəydi, sizin hamınızı doğru yola salardı. Göydən sizin üçün yağmur endirən Odur. Ondan siz də, içində (heyvanlarınızı) otardığınız ağaclar da içər. (Allah) onunla sizin üçün əkin, zeytun, xurma, üzüm və bütün meyvələrdən yetişdirir. Düşünüb-daşınanlar üçün bunda dəlillər vardır! O, gecəni və gündüzü, Günəşi və Ayı sizə ram etdi. Ulduzlar da Onun əmrinə boyun əymişdir. Doğrudan da,**

**bunda ağılla düşünənlər üçün ibrətlər vardır! (Allah) yer üzündə yaratdığı cürbəcür şeyləri də sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün, sözsüz ki, bunda da əlamətlər vardır! Təzə ət yeməyiniz, taxdığınız bəzək şeylərini çıxartmağınız üçün dənizi də sizə ram edən Odur. (Allah'ın) nemətindən ruzi axtarmağınız üçün sən gəmilərin onu yara-yara üzüb getdiyini görürsən. Bəlkə, şükür edəsiniz! Sizi yırğalamasın deyə, yer üzündə möhkəm dayanan dağlar və gedib çata biləsiniz deyə, çaylar və yollar yaratdı; əlamətlər də (müəyyən etdi). (İnsanlar gecə vaxtı) yollarını ulduzlar vasitəsilə taparlar. (Nəhl surəsi, 4-16)**

Şübhəsiz, yuxarıda sayılan nemətlərdən sadəcə biri belə insanın öz imkanları ilə əldə etməsi, meydana gətirməsi, sahib olması mümkün olan şeylər deyil. Bunların hamısı Allah'ın insana lütf etdiyi gözəlliklərdir. Yuxarıda ard-arda sıralanan nemətlər Allah'ın qullarına qarşı yaxşılığının çox olduğunun açıq-aşkar dəlilləridir.

Bəs bu qədər yaxşılıq qarşısında insan nə etməlidir?

Allah yuxarıdakı ayələrin davamında verdiyi nemətlərin qarşılığında qullarının nəsihət alıb düşünməli və Özünə qulluq etməli olduqlarını belə bildirir:

**Heç yaradan yaratmayana bənzəyərmi?! Məgər düşünmürsünüz?! Əgər Allah'ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 17-18)**

# CAMİ

## ***<u>İstədiyini, istədiyi zaman, istədiyi yerdə toplayan</u>***

**Ey Rəbbimiz! Olacağına şübhə edilməyən bir gündə bütün insanları toplayan Sənsən. Allah Öz vədəsindən əsla dönməz! (Ali-İmran surəsi, 9)**

Dağınıq şeylərin bir yerə toplanması mənasını verən "cəm" sözü Allah'ın bütün kainatdakı sistemlər üzərində hakimiyyətini göstərən sifətini ifadə edir. Kainatı və içindəkiləri yaradan Allah canlı və cansız bütün varlıqlara dilədiyini etdirmə, istədiyi yerdə və istədiyi şəkildə toplama qüdrətinə malikdir. Quranda Allah dünyada möminləri bir yerə yığacağını belə vəd etmişdir:

**Hər kəsin üz tutduğu bir qibləsi vardır. Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın! Harada olursunuzsa olun, Allah sizi bir yerə toplayacaqdır. Həqiqətən, Allah hər şeyə qadirdir! (Bəqərə surəsi, 148)**

Ancaq həqiqi toplanma günü qiyamətlə reallaşacaq. Özünə şübhə olunmayan qiyamət günündə Allah'ın bütün qulları Onun hüzurunda toplanacaqlar. Dünyada Özünü və elçilərini yalanlayanların inkarlarını və bu inkarlarından qaynaqlanan bütün hərəkətlərini bilən Allah, elçiləri ilə bütün insanlığa xəbər verdiyi böyük hesab günündə gəlmiş-keçmiş bütün cəmiyyətləri bir yerə yığacaq. Sura üfürüldüyü gün günahkarların hamısı bir yerə yığılacaq və etdiklərindən hesaba çəkiləcəklər. İnkar edənlər üzüaşağı cəhənnəmə sürüklənəcək, layiq olduqları cəzanı yenə yoldaşları ilə birlikdə alacaqlar.

Allah Özünə iman edənləri isə etdiklərinə qarşılıq olaraq cənnətdə də -dünyada olduğu kimi- birlikdə mükafatlandıracaq. Allah

təqva sahiblərini də rəhbərləri ilə birlikdə hüzuruna gətirəcək. Onlar nurları önlərində və yanlarında Allah'ın izni və rəhməti ilə cənnətə girəcəklər. Özünü inkar edən insanları isə dünyada da bir-birlərinə dəstək olub qruplaşdıqları kimi, cəhənnəmdə də həmişə bir yerdə saxlayacaq, bir-birləri ilə dalaşıb mübahisə etmələrinə izn verəcək. Zülm edənlərin yoldaşları və ibadət etdikləri həmişə bir yerdə olacaqlar, işlədikləri günahların cəzasını cəhənnəmdə həmişə birlikdə çəkəcəklər. Çox arxalandıqları yoldaşları və dostları ilə birlikdə cəhənnəmə sürüklənmənin əzabını yaşayacaqlar. Allah dünyada şeytana itaət edən insanları axirətdə bir yerə yığaraq cəhənnəmə atacağını aşağıdakı ayəsi ilə bildirmişdir:

**Allah kitabda sizə nazil etmişdir ki, Allah'ın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman müşriklər başqa bir söhbətə girişməyənə qədər onlarla bir yerdə əyləşməyin! Çünki o vaxt siz də onların tayı olarsınız. Həqiqətən, Allah münafiqlərin və kafirlərin hamısını cəhənnəmdə bir yerdə toplayacaqdır! (Nisa surəsi, 140)**

**De: "Rəbbimiz hamımızı bir araya cəmləşdirib sonra da aramızda ədalətlə hökm verəcəkdir. O, ən ədalətli Hakimdir, biləndir". (Səba surəsi, 26)**

**Ey Rəbbimiz! Həqiqətən, şübhə edilməyən bir gündə insanları Sən yığacaqsan. Həqiqətən, Allah vədinə xilaf çıxmaz! Kafir olanların nə malları, nə də övladları onlara Allahın dərgahında heç bir şeylə fayda verə bilməz. Onlar cəhənnəmin yanacağıdırlar. (Ali-İmran surəsi, 9-10)**

# CABBAR

## *Dilədiyini zorla etdirməyə qadir olan*

**O Allah ki, Ondan başqa ilah yoxdur. Məlikdir; Qüddusdur; Salamdır; Mömindir; Mühəymindir; Əzizdir; Cabbardır; Mütəkəbbirdir. Allah, (müşriklərin) şirk qoşduqlarından çox ucadır. (Həşr surəsi, 23)**

Allah’a qarşı böyüklənməyin, Ona təslim olmamağın arxasında insanın özünü Allah’dan müstəqil varlıq olaraq görüb, sahib olduğu bəzi xüsusiyyətlərin özündən qaynaqlandığını zənn etməsi, buna görə də özünə mənlik verməsi dayanır. Halbuki, bu, səhv məntiqdir. İnsan bir az düşünsə, bu dünyaya öz iradəsi ilə gəlmədiyini, həyatının nə vaxt sona çatacağını bilmədiyini, sahib olduğu fiziki xüsusiyyətlərin öz seçimi ilə özünə verilmədiyini rahatlıqla görə bilər. Öz bədəni də daxil olmaqla, sahib olduğu hər şeyin keçici olduğunu və sonunda yox olacağını anlayar. Bütün bunlar insanın tamamilə aciz olduğunun, heç nəyin özünə aid və öz idarəsi daxilində olmadığının açıq dəlilləridir. Əgər bir az daha düşünsə, bu dəlillərin saysız-hesabsız olduğunu görə bilər.

İnsanın bütün bu gerçəklər qarşısında özünü yaradan Rəbbinə qarşı böyüklənməyə cəhd etməsinin nə qədər ağılsız hərəkət olduğu aşkardır.

Halbuki, insan Allah’ın böyüklüyünü, hər şeyi yoxdan yaratdığını, insanların sahib olduqları bütün imkan və xüsusiyyətləri verənin Allah olduğunu, dilədiyi anda da hamısını geri ala biləcəyini, bütün canlıların ölümlü olduğunu, tək baqi olanın Allah olduğunu qəbul edib, gerçək sahibinə təslim olmalıdır. Çünki Allah Özünə qarşı haq-

sız yerə böyüklənən, acizliyini bilməyən və üz çevirən hər kəsə di-lədiyi zaman məcburən boyun əydirməyə qadir olandır.

Quranda sahib olduğu şeylərdən ötəri qürurlanan və sonunda da Allah'ın Cabbar sifəti ilə acizliklərini görən və səhvlərini qəbul edən bağça sahiblərinin vəziyyəti ibrət olaraq izah edilmişdir. Sabahısı gün bağçalarını erkəndən yığacaqlarına dair and içən bağça sahiblə-rinin başlarına gələnlər belə bildirilmişdir:

**... Onlar yuxuda ikən sənin Rəbbindən o bağa bir bəla gəldi. Və o, (yanıb) qapqara qaraldı. (Qələm surəsi, 19-20)**

**(Bağı) bu vəziyyətdə gördükdə dedilər: "Yəqin ki, azmışıq! Xeyr, biz məhrum olmuşuq!" Onların ən ağıllısı dedi: "Məgər mən sizə (Allah'ı) həmd-səna ilə təqdis etməli olduğunuzu demədimmi?!" Onlar: "Rəbbimiz pakdır, müqəddəsdir! Hə-qiqətən, biz zalım idik!" – dedilər. Onlar bir-birini danlamağa başladılar. Və dedilər: "Vay halımıza! Biz azğınlıq edirdik. Ola bilsin ki, Rəbbimiz onun əvəzinə bizə daha yaxşısını ver-sin. Biz Rəbbimizdən (bizi bağışlamasını) diləyirik!" Əzab belədir. Şübhəsiz ki, axirət əzabı daha şiddətlidir. Kaş biləy-dilər! (Qələm surəsi, 26-33)**

**Biz cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. On-ların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

# DAİ

## ***<u>Çağıran, dəvət edən</u>***

**Ey iman gətirənlər! Peyğəmbər sizi sizləri dirildəcək bir şeyə dəvət etdiyi zaman Allah'ın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz! (Ənfal surəsi, 24)**

İnsan həmişə ən doğru olanı düşündüyünü, həyatı ilə əlaqədar ən məqsədəuyğun qərarları özünün qəbul etdiyini zənn edir. Özünə görə təyin etdiyi bəzi qaydalar var; əgər o qaydalar çərçivəsində bir həyat yaşasa, özü üçün ən yaxşı olanı təmin etmiş olacağını düşünür. Halbuki, bu, bir çox insanın yaşadığı səhv düşüncə tərzidir.

İnsanı Allah yaradıb və ona şahdamarından daha yaxındır. İnsan bəzən özü ilə əlaqədar olan bir çox mövzunu bilmir, amma insan özü ilə əlaqədar olan məlumatlardan xəbərsiz ikən Allah bunların hamısını bilir. Çünki onun daxilinə, xaricinə, düşüncələrinə, şüur altına tamamilə hakimdir. Hətta insan bir an sonra nə ilə qarşılaşacağını bilmir və ya keçmişdə qarşılaşdığı bəzi hadisələri unuda bilər. Amma Allah unutmur və yanılmır. İnsanın keçmişdə yaşadığı və gələcəkdə yaşayacağı hər hadisəyə də hakimdir. Buna görə, insan üçün ən xeyirli olanı bilən ancaq onu yaradan və həyatda yaşadığı hər anın məlumatına sahib olan Allah'dır.

Necə ki, Quranda **"...Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. Allah bilir, siz bilməzsiniz"** (Bəqərə surəsi, 216) ayəsi ilə bu həqiqətə açıq-aşkar diqqət çəkilmişdir.

Buna görə, insanın vəzifəsi Allah'ın özünə bildirdiyi, dəvət etdiyi

haqq yola, yəni özünə həyat verəcək şeylərə təslim olmaqdır. Allah bu doğru yolu Peyğəmbərimizə (s.ə.v.) vəhy etdiyi Quran vasitəsilə insanlara bildirmişdir. Hamının həyatı boyunca nə etməli olduğu, necə həyat yaşamalı olduğu, necə hərəkət etdikdə qurtulacağı Allah'ın ayələri ilə bir-bir bildirilmişdir.

# DAFİQ

## ***Bəlaları dəf edən, uzaqlaşdıran***

**Nəhayət, onlar Allah’ın izni ilə Calutu və qoşununu məğlub etdilər. Davud Calutu öldürdü. Allah Davuda həm hökmranlıq, həm də hikmət verdi və ona istədiyini öyrətdi. Əgər Allah insanların bir qismini, digər bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Lakin Allah bütün aləmlərə qarşı lütfkardır. (Bəqərə surəsi, 251)**

Möminləri maddi-mənəvi hər cür təhlükədən qoruyan Allah onlara kafirlərə, münafiqlərə, müşriklərə qarşı da böyük bir qüvvət, məğlub edilməz güc verir. İnkar edənlər hazırladıqları hiyləgər tələlərin, təşkil etdikləri sui-qəsd və hücumların hələ planlarını qurarkən Allah onlar üçün başqa bir tələ qurur. Beləliklə, vermək istədikləri zərəri möminlərdən dəf edərək tələlərini öz başlarına keçirər.

Digər tərəfdən, Allah inkarçıları öz aralarında da ayrılığa salaraq, bir-birləri ilə mübarizə etdirir və bu şəkildə gücdən salır. Müsəlmanlara kin saxlayanları onlardan uzaq saxlayır, öz canlarının dərdinə düşəcək bəlalar göndərir. Bu ilahi kömək Quranda belə bildirilmişdir:

**O kəslər ki, haqsız yerə, ancaq: “Rəbbimiz Allah’dır”, - dediklərinə görə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allah’ın adı çox zikr olunan sovməələr, kilsələr, məbədlər və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər…(Həcc surəsi, 40)**

Bununla yanaşı, bir çox çətinliyi, xəstəliyi, vəsvəsəni, şeytanın şərini və bəlasını da möminlərin üzərindən dəf edən və daha bilmə-

dikləri nə qədər müsibəti onlardan geri çevirən yalnız Allah'dır. Şübhəsiz, bunların hər biri Allah'ın möminlərə gizli və açıq şəkildə göstərdiyi köməkləridir. O, qullarına qarşı çox şəfqətli, Özünə sığınanlara, Özündən kömək istəyənlərə qarşı da əsirgəyənlərin ən xeyirlisidir.

**Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar. (Tövbə surəsi, 126)**

**Yaxud onlar Allah'ın hiyləsindən ehtiyat etmirdilərmi? Allah'ın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər. Məgər yer üzünün sakinlərindən sonra ona varis olanlara bəyan olmadımı ki, əgər Biz istəsəydik, onları da günahları üzündən müsibətə düçar edər, qəlblərinə möhür vurardıq və onlar da eşitməzdilər? Bu, o ölkələrdir ki, onların əhvalatlarından bəzisini sənə söyləyirik. Elçiləri onlara açıq-aydın dəlillər gətirdilər. Onlar isə daha öncə yalan hesab etdiklərinə görə iman gətirmədirlər. Allah kafirlərin qəlblərini beləcə möhürləyir. (Əraf surəsi, 99-101)**

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

# DƏRR

## ***Zərər verən şeylər yaradan***

**Mən heç Ondan qeyri tanrılarmı qəbul edərəm?! Əgər Rəhman mənə bir zərər yetirmək istəsə, onların şəfaəti mənə heç bir fayda verməz və onlar məni xilas edə bilməzlər. (Yasin surəsi, 23)**

Anidən gələn ölüm, gözlənilməyən xəstəlik, bütün məhsulları yox edən qasırğa, evləri yerlə bir edən zəlzələ, gələcək qorxusu, yol qəzası, stress, mal itkisi, qısqanclıq, qocalma...

Şübhəsiz, bütün bunlar axirətin varlığından qafil olan və gerçək həyatlarının dünyadakı həyat olduğunu zənn edən insanlar üçün əzab, qorxu və ümidsizlik yaradan hadisələrdir. Əlbəttə, hər insan özünə və ya yaxınlarına zərər verən bu cür hadisələrdən biri ilə və ya bunların bənzəri ilə hər an qarşılaşa bilər. Bu qarşılaşma böyük ehtimalla insanın heç gözləmədiyi bir anda reallaşır. Bir anda bütün bədəninə yayılan xərçəngə tutulduğunu öyrənə bilər, bir səhər bir yaxınının ölüm xəbəri gələ bilər, həyatı boyunca yığdığı pulunun oğurlandığını eşidə bilər və ya aynaya baxdığında heç gözləmədiyi şəkildə qocaldığını görər.

Yaxşı, insanlara qarşı bu qədər mərhəmətli olan Allah’ın dünya həyatında belə hadisələr yaratmasının hikmətləri nələrdir?

Bunun ən əhəmiyyətli səbəblərindən biri Allah’ın insanı çətinlik və sıxıntı ilə tərbiyələndirməsidir. Xəstəliyindən ötəri çətinliklə nəfəs alan insan qürurlanaraq digər insanları alçalda bilməz. Eyni zamanda, şikəst ikən yenidən yeriyə bilən, bütün malını-mülkünü itirmişkən bunlara təkrar qovuşan insan, şübhəsiz, bunların dəyərini

daha yaxşı qavrayır. Beləliklə, həm çətinliyi, həm də asanlığı yaradaraq dünyada imtahan mühitini yaradan Allah, qarşılıqsız verdiyi nemətlərin daha yaxşı təqdir edilməsini təmin edir.

Ancaq burada əhəmiyyətli olan bir cəhət var. Əgər bu tərz hadisələrlə qarşılaşan adam imanlıdırsa və axirətin gerçək həyatı olacağını bilirsə, onsuz da qəmgin olmur. Başına gələn hər cür çətinliyin Allah'dan olduğunu bilir və bunlara səbir edir, o çətinliklərdən özünü qurtarmağa qadir olanın da, yalnız Allah olduğunu bildiyi üçün Ona dua edir, Ondan kömək diləyir. Beləliklə, Allah Özünə inanan qullarını da öyrədir, Özünə yaxınlaşmalarını təmin edir və axirətdəki dərəcələrini yüksəldir.

Allah'a və axirət gününə inanmayan insanlar üçün isə vəziyyət fərqlidir. Allah "Darr" sifətini əsl mənada cəhənnəmdə onlara göstərəcək. Şübhəsiz, dünyada kədərləndikləri hər şey cəhənnəmdə qarşılaşacaqları ilə müqayisə ediləndə çox xəfif sayılar, çünki buradakıların hamısı müvəqqətidir.

Cəhənnəmdə isə insanların yanan dəriləri ağrını təkrar-təkrar hiss etsin deyə, yeniləri ilə dəyişdiriləcək. İnkar edənlərə boğazları parçalayan darı tikanı, bağırsaqları parçalayan qaynar sudan başqa heç nə verilməyəcək. Ölüm gələr, lakin ölməzlər, ardından daha çətin əzabla qarşılaşarlar. Orada dəmirdən qamçılar, oddan yataqlar olacaq, inkarçı insan cəhənnəmin ən dar və qaranlıq yerinə atılacaq. Cəhənnəmdə sümükləri çatladan inildəmələr eşidiləcək.

İnkarçılar cəhənnəm gözətçilərinə: "Rəbbinizə söyləyin, bizi buradan çıxarsın", -deyə yalvararlar. Əzabın yüngülləşdirilməsini istəyərlər. Allah onları cürbəcür əzaba uğradarkən bir tərəfdən də onlara cənnətdəkilərin necə bolluq və nemət içində olduqlarını göstərər. Onlar özlərinə kömək edəcək heç kimi tapa bilməzlər və (Allah'ın diləməsi xaricində) sonsuza qədər də alçaldılmışlar olaraq onun içində saxlanılarlar. Allah, beləliklə, gerçək çətinliyi və əzabı inkar edənlərə

cəhənnəmdə daddırar. Allah bir ayədə belə buyurur:

**Həqiqətən, əgər onlardan: “Göyləri və yeri kim yaratmışdır?!” –deyə soruşsan, mütləq: “Allah!” –deyə cavab verəcəklər. De: “Elə isə bir söyləyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allah’dan qeyri ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi?! Yaxud: “Əgər Allah mənə bir mərhəmət əta etmək istəsə, onlar Onun mərhəmətinə mane ola bilərlərmi?!” De: “Mənə təkcə Allah kifayət edər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edərlər!” (Zumər surəsi, 38)**

Allah inkarçıların üzərinə Dərr ismini təcəlli etdirir. Əlbəttə, bu, həmin insanların haqdan bilərəkdən üz çevirmələrinə görədir. Yoxsa Allah bütün qullarına qarşı sonsuz şəfqət və mərhəmət sahibidir. Rəbbimiz bütün insanların doğru yola yönəlmələri, sonsuz cənnət nemətinə qovuşmaları üçün dünya həyatında saysız-hesabsız fürsətlər yaradır. Xəta etdiklərində onları bağışlayır, dua edib yardım istədiklərində onlara lütf edir. Dünyadakı qüsurları göstərib onları cənnət üçün çalışmağa çağırır. Axirətdə sonsuz əzabın da olduğunu bildirib onları xəbərdar edir. Lakin uca Allah’ın insanlar üzərindəki bu rəhmətini və yaradılış hikmətlərini təqdir etməyənlərə Allah’ın əzabı gerçəkləşmiş olur. Çünki bu insanlara cənnət və cəhənnəm haqqında bilgi verilməsinə baxmayaraq, bu həqiqətdən üz çevirmişlər.

**Allah’ı qoyub, sənə nə bir fayda, nə də bir zərər verə bilməyən şeylərə yalvarma. Əgər belə etsən, sözsüz ki, zalımlardan olarsan. Əgər Allah sənə bir zərər toxundursa, bunu Ondan başqa heç kəs aradan qaldıra bilməz. Əgər sənə bir xeyir diləsə, heç kəs Onun lütfünün qarşısını ala bilməz. O, bunu Öz qullarından istədiyinə nəsib edər. O, bağışlayandır, rəhmlidir. (Yunis surəsi, 106-107)**

# ƏRHAMÜR-RAHİMİN

## *Mərhəmət edənlərin ən mərhəmətlisi*

**Əyyubu da (yada sal)! Bir vaxt o, Rəbbinə yalvarıb dua edərək belə demişdi: "Mənə bəla üz verdi. Sən rəhmlilərin rəhmlisisən!" (Ənbiya surəsi, 83)**

Yer üzündəki bütün canlılar kimi insan da ehtiyacları olan varlıqdır. Həyatının davam etməsi üçün çoxlu şərt vardır. Nəfəs almaq üçün oksigenə, bədəninin fəaliyyətlərini davam etdirmək üçün su və qidaya ehtiyacı olur. Əslində, bu nümunələri saymaqla bitirmək olmaz. Çünki insanın fiziki olaraq varlığının davam etməsi üçün saysız detala ehtiyacı var.

Ancaq yer üzündəki bütün insanlar ehtiyacları olan şeyləri əldə etmək üçün çox böyük səy göstərmədən həyatlarını rahat şəkildə davam etdirirlər. Hər birinin həm bədənlərində, həm də xarici dünyada ehtiyacları olan hər şey onlar üçün əvvəldən təyin olunmuş və onlara təqdim edilmişdir. Burada ilk aığla gələn nümunə yenə insanın nəfəs almasıdır. İnsanlar həyatlarını davam etdirmək üçün oksigen qəbul etməlidirlər. Bəs bu oksigenin atmosferdə lazım olan nisbətlərdə olmasını təmin edən kimdir? İnsanın bədəninə bu oksigeni qəbul etdirən və lazım olan hər hüceyrəyə bir-bir çatmasını təmin edən sistemi quran kimdir?

Əlbəttə, bunların heç biri insanın müvəffəqiyyəti deyil. Atmosferin və ya öz tənəffüs sisteminin meydana gəlməsində insanın heç bir rolu yoxdur.

İnsanın bu ən həyati ehtiyacından tutmuş bütün detallar özü üçün hazırlanmış və lazım olduğu şəkildə var edilmişdir. Şübhəsiz, burada

qarşımıza hər cür detalı insan üçün hazırlayan üstün ağılın varlığı və o ağılın sahibinin insana göstərdiyi sonsuz mərhəməti çıxır. Bu gücün sahibi isə mərhəmətlilərin ən mərhəmətlisi olan Allah'dır.

Allah'ın mərhəməti, əlbəttə ki, insanların fiziki ehtiyaclarının qarşılanması ilə məhdud deyil. O, insanları yaratmış, yaşamaları üçün ən əlverişli olan məkana yerləşdirmiş və bunun qarşılığında da yalnız Özünə qulluq etmələrini istəmişdir. İnsanlara Özünü necə razı edəcəklərini də bildirmiş, bunu öyrətmək üçün onlara dərgahından kitablar endirmiş, bütün ayələrini açıqlayan peyğəmbərlər göndərmişdir. Beləliklə, Allah insanlara həm Öz Şəxsini tanıtmış, həm də onları dinə və gözəl əxlaqa dəvət etmişdir. Şübhəsiz, bunların hamısı Rəbbimizin sonsuz mərhəmətinin açıq dəlillərindəndir.

**Dedi: "Bu gün siz qınanılmayacaqsınız. Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir. (Yusif surəsi, 92)**

**Əyyubu da (yada sal!) Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!" Biz onun duasını qəbul etdik və ona düçar olmuş bəlanı aradan qaldırdıq. Öz tərəfimizdən bir mərhəmət və ibadət edənlərə bir ibrət olsun deyə, ailəsini ona qaytardıq, üstəlik, bir o qədər də əlavə etdik. (Ənbiya surəsi, 83-84)**

**Rəbbiniz sizi çox yaxşı tanıyır. İstəsə, sizə rəhm edər, istəsə, sizə əzab verər. Biz səni onlara vəkil göndərməmişik. (İsra surəsi, 54)**

# ƏVVƏL

## ***İlk***

**O, Əvvəldir, Axırdır, Zahirdir, Batindir. O, hər şeyi biləndir. (Hədid surəsi, 3)**

Kainatın başlanğıcı vardırmı?

Şübhəsiz, bu sual əsrlərlə insanların cavab axtardıqları sual olmuşdur. Bu mükəmməl nizamın Yaradıcısının da olmasını qavrayan insanlar kainatın başlanğıcı olduğuna inanmışlar. Ancaq insanların bir qismi də Yaradıcının varlığını qəbul etmək istəməmiş və buna görə, kainatın başlanğıcı olmadığını, əzəldən gəldiyini və sonsuza gedəcəyini iddia etmişlər. Ancaq bu gün elmin gəldiyi nəticə bu şəxslərin açıq-aşkar səhv etdiklərini sübut etmişdir.

Bu günə qədər kainatın yaranması ilə əlaqədar müxtəlif tezislər ortaya qoyulub, ancaq bu dövrdə bütün elm sahələri ortaq nəticəyə gəliblər. Elmin yaxın zamanda kəşf etdiyi həqiqət bu vəziyyətə aydınlıq gətirib. 1929-cu ildə Edvin Habl tərəfindən kəşf olunduğu kimi, kainat davamlı genişlənir. Bu həqiqətdən qaynaqlanan elm adamları belə bir nəticəyə gəliblər: zaman anlayışını tərsinə çevirsək, genişlənməkdə olan kainatı büzüşən bir sistem olaraq, məsələn, yığılmaqda olan nəhəng ulduz kimi düşünə bilərik. Bu zaman ortaya çıxan nəticə belədir; keçmişə doğru səyahət etsək, daralan kainatın nə vaxtısa bir nöqtə halında olduğunu görərik. Yəni kainatın başlanğıcı bir nöqtənin partlaması ilə olmuşdur.

Bizim bundan çıxarmalı olduğumuz nəticə budur: içində yaşadığımız kainatın bir başlanğıcı var. Bu cür qüsursuz sistemin başlanğıcı olduğuna görə, əlbəttə, bu başlanğıcı hazırlayan bir gücün varlığı da

aşkardır. Bu güc sahibinin varlığı əzəli və əbədidir. Yəni O, hər şeydən əvvəl də vardır, sonra da olacaq.

Bu sonsuz gücün sahibi Allah’dır və canlıların, planetlərin, qalaktikaların, bütün kainatın yaradılmadığı və hətta zamanın da hələ var olmadığı anda yalnız Allah var. Çünki O, Əvvəldir.

# FALİQ

## *Yaran (qaranlığı yarıb səhəri çıxaran, toxumu yaran)*

**Şübhəsiz ki, toxumu da, çəyirdəyi də cücərdib çatladan, ölüdən diri, diridən də ölü çıxardan Allah'dır. Budur Allah! Axı siz Ondan nə cür döndərilirsiniz? Səhəri yarıb çıxaran, gecəni bir istirahət vaxtı, günəşi və ayı bir ölçü vasitəsi edən də Odur. Bunlar yenilməz qüvvət sahibi, bilən Allah'ın təqdiridir. (Ənam surəsi, 95-96)**

Yer üzərində müxtəlif bitki növləri yetişir. Bunların hər birinin toxumu bir-birindən fərqlidir. Quru toxumları götürüb otaqda saxlasanız, illərlə eyni şəkildə qaldıqlarını görəcəksiniz. Amma bu toxumlar torpağın altına və ya uyğun bir mühitə düşdükdə birdən yarılaraq cücərməyə başlayırlar. Müəyyən bir müddətdən sonra baxanda görəcəksiniz ki, bu toxumdan nəhəng bir ağac əmələ gəlib.

Şübhəsiz, quru toxumdan fərqli növlərdə bitkilərin yetişməsi, ən əhəmiyyətlisi isə canlı orqanizmin meydana gəlməsi son dərəcə heyrətamizdir. Quru toxumdan ağacın meydana gəlməsi üçün toxum torpaqdan lazımi vəsaitləri götürərək cücərməlidir. Toxumun ehtiyacı olan mineralları, su miqdarını özünün təyin etməsi isə mümkün deyil. Üstəlik, bunu bacarsa belə, bir-birindən çox fərqli meyvələr yetişdirən ağac növlərini və ya yaşıl bitkiləri meydana gətirmək üçün üstün qabiliyyətləri olmalıdır.

Əgər toxumun bu qərarı özünün verdiyini iddia etsək, toxumun qabiliyyətli olduğunu qəbul etməli olarıq. Ancaq, əlbəttə ki, bəhs edilən qabiliyyətlərin toxumun özünə aid olduğunu iddia etmək

mümkün deyil. Yuxarıdakı ayələrdə də bildirildiyi kimi, toxumu və çəyirdəyi yaran Allah'dır. Onun diləməsi ilə yer üzündə minlərlə növ ağac, bitki yetişir. Necə ki, bir başqa ayədə Allah'ın hər şeyin Yaradıcısı olduğu belə bildirilmişdir:

**Göydən su endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, yaşıl fidanlar göyərtdik, onlardan bir-birinə sarmaşmış dənələr çıxartdıq. Biz xurma ağacından, onun tumurcuğundan bir-birinə sarmaşmış salxımlar yetişdirdik. Üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar yetişdirdik. Bar verdiyi vaxt meyvəsinə və onun yetişməsinə baxın. Şübhəsiz ki, bunda iman gətirən bir camaat üçün dəlillər vardır. (Ənam surəsi, 99)**

**Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır. Yer üzündə bir-birinə yaxın torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır. Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da bunda başa düşən adamlar üçün dəlillər vardır. Əgər təəccüblənirsənsə, onların: "Doğrudanmı biz torpaq olduqdan sonra yenidən yaradılacağıq?" - sözünə təəccüblən. Onlar Rəbbini inkar edənlərdir. Onlar boyunlarında qandallar olanlardır. Onlar od sakinləridirlər və orada əbədi qalacaqlar. (Rəd surəsi, 3-5)**

# FASİL

***<u>Ayıran, açıqlayan</u>***

**Həqiqətən, Allah iman gətirənlər, yəhudilər, sabiilər, xaçpərəstlər, atəşpərəstlər və müşriklər arasında qiyamət günü hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah hər şeyə şahiddir! (Həcc surəsi, 17)**

İnsanlardan bəzisi həyatlarını dünyəvi məqsədlər əldə etmək üçün keçirir və axirəti unudaraq dünya həyatı üçün çalışırlar. Gerçək məsuliyyətini unudaraq dünya mənfəətlərinin arxasına düşürlər. Allah'a ortaq qoşduqları bu bütləri razı etmək, onların məmnuniyyətini qazanmaq üçün səy göstərir və bu şəkildə, çox qazanclı iş gördüklərini düşünürlər.

İnsanlardan bəziləri də bütün həyatlarını özlərini yaradan Allah'ı razı etmək üçün keçirirlər. Dünya həyatındakı imkanları və nemətləri bu şüurla qiymətləndirirlər. Hədəfləri doğru yola yönəlmək, Allah'ın razı olacağı saleh əməllər işləmək, Onun tövsiyə etdiyi üstün əxlaqa sahib olmaqdır.

Əlbəttə, bu iki insanın vəziyyəti eyni deyil. Allah bu insanların vəziyyəti ilə əlaqədar Quranda belə bir nümunə verir:

**Kor ilə görən eyni olmaz. Zülmətlə nur da (eyni deyildir)! Kölgə ilə isti (eyni olmaz). Dirilərlə ölülər də eyni deyillər! Şübhəsiz ki, Allah dilədiyinə eşitdirər. Sən isə qəbirlərdə olanlara eşitdirən deyilsən! (Fatir surəsi, 19-22)**

Bir-birindən fərqli vəziyyətdə olan, tam fərqli yollara yönələn bu insanların arasını Allah qiyamət günü ayıracaq, hər birinə etdiklərini bildirəcək. O gün hər kəsə etdiklərinin qarşılığı tamamilə ödənəcək. O gün Allah'ın sonsuz ədaləti təcəlli edəcək...

**Həqiqətən, sənin Rəbbin onların arasında qiyamət günü ixtilafda olduqları məsələlər barədə hökm verəcəkdir! (Səcdə surəsi, 25)**

**Sonra hər bir firqədən Rəhmana ən çox asi olanı dartıb çıxardacağıq. Sonra cəhənnəmə girib yanmağa ən çox layiq olanları, sözsüz ki, Biz daha yaxşı bilirik. Sizdən elə bir kəs olmaz ki, oraya varid olmasın. Bu, Rəbbinin buyurduğu vacib bir hökmdür. Sonra Biz Allah'dan qorxub pis əməllərdən çəkinənlərə nicat verəcək, zalımları isə orada diz üstə çökmüş halda saxlayacağıq! (Məryəm surəsi, 69-72)**

**Nə qohumlarınız, nə də övladlarınız sizə bir fayda verə bilər. Qiyamət günü Allah sizi bir-birinizdən ayıracaqdır. Allah nə etdiklərinizi görür. (Mumtəhinə surəsi, 3)**

**De: "Rəbbimiz hamımızı bir araya cəmləşdirib sonra da aramızda ədalətlə hökm verəcəkdir. O, ən ədalətli Hakimdir, biləndir". (Səba surəsi, 26)**

# FATİR

## *Yaradan, icad edən*

**Ey Rəbbim! Sən mənə səltənətdən bir pay verdin. Mənə yuxu yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim ixtiyar sahibimsən. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur! (Yusif surəsi, 101)**

Yaşadığımız dünyaya baxdığımız zaman üzərində həyatın olması üçün xüsusi olaraq yaradıldığını görürük. Dünyanın kosmosdakı mövqeyi, canlıların ehtiyacı olan hər cür detalın dünyada var olması bu planetin üstün bir ağılın əsəri olduğunun açıq-aşkar dəlilidir. Həyat üçün son dərəcə əlverişli yaradılan bu planetin üzərində yaşayan canlılara baxdığımız zaman da eyni gerçəklə qarşılaşırıq. Dünya üzərində var olan bütün canlılarda heyrətamiz bir dizayn var. Hər canlı özü üçün uyğun mühitdə, uyğun bədən quruluşu ilə həyatını davam etdirir.

Bununla yanaşı, canlıların meydana gəlməsindəki detalları araşdırdıqca qarşıya çıxan yaradılış həqiqəti daha da dəqiqləşir. Bütün canlıların əsas quruluş mənbəyi olan hüceyrə mükəmməl sistemə malikdir. Hüceyrədəki nizam elə qüsursuzdur ki, canlıların təsadüfən əmələgəlmə ehtimalının qeyri-mümkünlüyünü öz-özlüyündə sübut edir.

Ətrafımızda gördüyümüz və ya görə bilmədiyimiz bütün detallarda açıq-aşkar dizaynın izləri var. Şübhəsiz, bunların hamısının dizaynı hər şeyin yaradıcısı olan Allah'a aiddir. Kainatdakı varlıqlara aid olan ən kiçik detalda belə Rəbbimizin qüsursuz sənətini görmək mümkündür. Allah yaratdığı sistemin qüsursuzluğunu "Mülk" surə-

sində belə xəbər vermişdir:

**Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! (Mülk surəsi, 3-4)**

**De: "Mən göyləri və yeri yaradan, hamısını bəsləyib Özü bəslənməyən Allah'dan başqasını özümə Rəbmi edərəm?!" De: "Mənə ilk müsəlman olmaq əmr edildi və: "Müşriklərdən olma!" (-deyə buyuruldu)" (Ənam surəsi, 14)**

**Peyğəmbərləri də belə cavab vermişdilər: "Məgər göyləri və yeri yaradan Allah'a da şübhə etmək olarmı?! (Allah) günahlarınızı bağışlamaq və sizə müəyyən bir vaxta qədər möhlət vermək üçün imana dəvət edir". Onlar demişdilər: "Siz də bizim kimi adi bir insansınız. Bizi atalarımızın ibadət etdiklərindən döndərmək istəyirsiniz, elə isə açıq-aşkar bir dəlil gətirin!" (İbrahim surəsi, 10)**

**De: "Sizi yaradan, sizə qulaq, göz və ürək verən Odur. Necə də az şükür edirsiniz!" De: "Sizi yer üzünə yayan da Odur. Siz Onun hüzuruna toplanılacaqsınız!" (Mülk surəsi, 23-24)**

**Göyləri və yeri icad edən Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol !" –deyər, o da olar. (Bəqərə surəsi, 117)**

# FƏTTAH

## *Çox yaxşı hökm verən, açan, hökm edən*

**Əgər o məmləkətlərin əhalisi iman gətirib çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar yalançı hesab etdilər, Biz də onları qazandıqlarına görə məhv etdik. (Əraf surəsi, 96)**

Fəttah Allah'ın açan sifətidir. Allah insanları çətinliklərlə sınayır, ancaq heç kimə qaldıra biləcəyindən çoxunu yükləmir. Allah səmimi qullarına çətinlik verdiyi zaman ondan çıxış yolunu da açır; mütləq çətinliyin yanında bir asanlıq da göstərir. Necə ki, Quranda Peyğəmbərimizin (s.ə.v) qarşılaşdığı çətinliklər nümunə verilərək bunların asanlıqla birlikdə verildiyi belə bildirilmişdir:

**Məgər Biz sənin köksünü açıb genişlətmədikmi?! Ağır yükünü səndən götürmədikmi?! (Elə bir yük ki) sənin belini bükürdü. Sənin ad-sanını ucaltmadıqmı?! Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (İnşirah surəsi, 1-6)**

Quranda Allah'ın iman edənlərə verdiyi asanlıqlara bir çox nümunə verilmişdir. Hz. Musa da Allah'ın müxtəlif çətinliklərlə sınadığı elçilərdən biridir. Ancaq Allah hz. Musanı köməyi ilə dəstəkləmiş və işlərini asanlaşdırmışdır.

Hz. Musa firona təbliğ etməyə gedərkən qardaşı Harunu özünə köməkçi etməsini Allah'dan istəmiş, Allah da onun duasını qəbul edərək hz. Harunu ona köməkçi etmişdir.

Quranda bir çox başqa hadisələrdə də göstərildiyi kimi, Allah möminlərə həmişə kömək edib. Onların başına gələn və aşılması

qeyri-mümkün kimi görünən çətinlikləri ortadan qaldırıb. Ancaq bu inkarçılara aid deyil. Allah onların ürəklərini daraldır, sıxır və bütün nemətlərin qapısını bağlayır. Rəbbimizin diləməsi ilə bağlanan bu qapıları sonsuza qədər aça biləcək heç bir güc yoxdur.

Allah inkarçılar üçün nemət qapılarını bağladığı kimi, onların üzərinə əzab qapısı açar. İnkarçılara verilən bu əzab bir ayədə belə bildirilir:

**Nəhayət, onların üzünə bir əzab qapısı açdığımız zaman dərhal ümidsizliyə qapıldılar. (Muminun surəsi, 77)**

**Nə üçün əzabımız onlara gəldiyi zaman boyun əymədilər? Onların qəlbləri sərtləşdi, şeytan da onlara etdikləri əməlləri gözəlləşdirdi. Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman hər şeyin qapılarını onların üzünə açdıq. Özlərinə verilən şeylərə sevindikləri vaxt isə onları qəflətən yaxaladıq və onlar naümid qaldılar. Zalım camaatın kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi Allah'a. De: "Bir deyin görək, əgər Allah sizin eşitmə və görmə qabiliyyətinizi əlinizdən alsa, qəlblərinizə möhür vursa, Allah'dan başqa hansı ilah onları sizə qaytara bilər?" Bax gör, Biz ayələri necə izah edirik, sonra onlar üz çevirirlər. De: "Bir deyin görək, əgər Allah'ın əzabı sizə qəflətən və ya açıq-açığına gəlsə, zalım camaatdan başqası həlak edilərmi?" (Ənam surəsi, 43-47)**

# QƏFFAR

## ***Bağışlaması çox olan***

**Və dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O, çox bağışlayandır!" (Nuh surəsi, 10)**

Allah'ın bağışlaması sonsuzdur. O, yaratdığı bütün qullarına tövbə edərək təmizlənmə imkanı verir. İnsan cahilliklə etdiklərindən ötəri dünyada bağışlanma diləyərək cəhənnəm əzabından xilas ola bilər. Səmimi bir şəkildə Qurana tabe olaraq Allah'ın əmrlərinə dəqiq şəkildə itaət etdiyi təqdirdə Rəbbimizin bağışlayan və əsirgəyən olduğunu görər. Allah saleh əməllər işləyən qullarının bütün günahlarını bağışlayacağını müjdələmişdir. Allah bir ayəsində: **"Əgər siz şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki…" (Nisa surəsi, 147) -** deyərək insanlar üzərində nə qədər geniş bağışlama sahibi olduğunu onlara bildirmişdir. Necə ki, cahil və nankor olan insanların bir çox nemət içində həyatlarını davam etdirmələri də Allah'ın bağışlaması ilədir. Allah bu həqiqəti Quranda belə bildirir:

**Əgər Allah insanları etdikləri günahlara görə cəzalandırsaydı, (Yer) üzündə bir nəfəri belə (sağ) qoymazdı. Lakin Allah onları müəyyən bir vaxta qədər gecikdirər. Nəhayət, onların vaxtı gəlib çatdıqda artıq, şübhəsiz, Allah öz bəndələrini görəndir! (Fatir surəsi, 45)**

Allah bütün insanlara nəsihət alanın nəsihət ala biləcəyi qədər müddət verir. Onlara özlərini xəbərdar edib qorxudacaq elçilər göndərir və bu elçilər vasitəsi ilə qorxub çəkinməli olduqları hər şeyi bildirir. Ancaq bütün bunlara baxmayaraq, inkarda dirənən insanlar

da, əlbəttə, işlədikləri günahların cəzasını çəkəcəklər. Allah ayələrdə belə buyurur:

**Şübhəsiz ki, Mən həm də tövbə edib iman gətirəni yaxşı işlər görüb, sonra da doğru yolu tutanı çox bağışlayanam! (Taha surəsi, 82)**

**Sonra Rəbbin cahillikləri üzündən pis iş görən, ondan sonra tövbə edib özlərini islah edən kimsələri (əfv edər). Həqiqətən, Rəbbin sonra bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 119)**

**Ey iman gətirənlər! Allah’dan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, sizə Öz mərhəmətindən iki pay versin, sizə getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir! (Hədid surəsi, 28)**

**Pis əməllər etdikdən sonra tövbə edib iman gətirənlərə gəldikdə isə Rəbbin tövbədən sonra bağışlayandır, rəhm edəndir! (Əraf surəsi, 153)**

**Ya Peyğəmbər! Əlinizdə olan əsirlərə de: “Əgər Allah ürəklərinizdə bir yaxşılıq olduğunu bilsə, sizə sizdən alınandan daha yaxşısını verər və sizi bağışlayar. Axı Allah bağışlayandır, rəhm edəndir!” (Ənfal surəsi 70)**

**Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, kərəmi böyük olan (Allah’dandır)! Ondan başqa heç bir tanrı yoxdur. Axır dönüş də Onadır! (Mömin (Ğafir) surəsi, 3)**

# QƏNİYY

## *Çox zəngin, hər şeydən müstəğni (münəzzəh) olan (heç kimə ehtiyacı olmayan)*

**Ey insanlar! Siz Allah'a möhtacsınız. Allah isə möhtac deyildir. O, şükürə layiqdir! (Fatir surəsi, 15)**

Tarix boyunca yaşayan azğın və özündənrazı şəxslərin ortaq xüsusiyyətlərindən biri də güc və mal-mülk sahibi olmalarıdır. Bu şəxslər Allah'ın verdiyi nemət və imkanlarla Allah'a qarşı böyüklənmiş və Ondan üz çevirmişlər. Sahib olduqları hər şeyin gerçək sahibinin Allah olduğunu unutmuş, Onun özlərinə lütf edib bağışladığı mal-mülkü sahiblənməyə çalışmışlar. Sadəcə inkar etməklə qalmamış, iman edənlərə də təzyiq və zülm etmiş, Allah'ın elçilərinə də düşmənliklə baş qaldırmışlar. Sonda Allah dözülməz bir əzabla onları cəzalandırmış, özlərini də, mallarını da məhv etmiş və hər şeydən müstəğni olduğunu (heç kimə ehtiyacı olmadığını) göstərmişdir. Allah bu qövmlərin vəziyyətlərini bir ayədə belə xəbər verir:

**Çünki peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirir, onlar isə: "Məgər bizi doğru yola bir insanmı salacaqdır?!" – deyərək inkar edir və üz döndərirlər. Allah'ın ehtiyacı yoxdur. Allah heç bir şeyə möhtac deyildir. O, şükürə layiqdir! (Təğabun surəsi, 6)**

Bu inkarçı və təkəbbürlü insanların unutduqları, ya da qavraya bilmədikləri həqiqət göylərin, yerin və bu ikisi arasında olan hər şeyin xəzinələrinin gerçək sahibinin Allah olduğudur. Allah bu həqiqəti Quranda belə bildirmişdir:

**Göylərdə və yerdə nə varsa, Allah'a məxsusdur. Biz sizdən**

**əvvəl kitab verilənlərə də, sizə də Allah'dan qorxmanızı tövsiyə etdik. Əgər Allah'ı inkar etsəniz belə, göylərdə və yerdə nə varsa, Allah'ındır. Allah ehtiyacsızdır, şükür olunmağa layiqdir. (Nisa surəsi, 131)**

Ayələrdə xəbər verilən bu şəxslər mal sahibi olduqları üçün böyüklənmiş, Allah'a ibadət etməkdən və özlərinə haqqı gətirən elçilərdən üz çevirmişlər. Quranda inkarçıların bu davranışlarına qarşılıq hz. Musanın sözləri nümunə verilərək belə buyurulur:

**Musa dedi: "Əgər siz və bütün yer üzündə olanlar nankorluq etsəniz, (bununla Allah'a heç bir zərər yetirə bilməzsiniz). Çünki Allah möhtac deyildir. Tərifə layiqdir!" (İbrahim surəsi, 8)**

Qurandakı bir çox ayədə xəbər verildiyi kimi, Allah güc və zənginliyin gerçək sahibidir. O, heç kimə və heç nəyə möhtac deyildir, ancaq hər şey Ona möhtacdır. Bu gerçək bir ayədə belə bildirilir:

**Məgər onlar yer üzündə dolaşıb özlərindən əvvəlkilərin axırının necə olduğunu görmürlərmi? Halbuki, onlar bunlardan daha qüvvətli idilər. Göylərdə və yerdə Allah'ı aciz edə biləcək heç bir şey yoxdur. Həqiqətən, O, biləndir, qadirdir! (Fatir surəsi, 44)**

**Çünki peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirir, onlar isə: "Məgər bizi doğru yola bir insanmı salacaqdır?!" – deyərək inkar edir və üz döndərirlər. Allah'ın ehtiyacı yoxdur. Allah heç bir şeyə möhtac deyildir. O, şükürə layiqdir! (Təğabun surəsi, 6)**

**Cihad edən ancaq özü üçün cihad edər. Allah aləmlərə əsla möhtac deyildir. (Ənkəbut surəsi, 6)**

# XƏBİR

## *Hər şeyin iç üzündən, gizli tərəflərindən xəbərdar olan*

**Ey iman edənlər, Allah'dan qorxun. Hər kəs sabah üçün nəyi təqdim etdiyinə baxsın. Allah'dan qorxun. Heç şübhəsiz Allah, etdiklərinizdən xəbərdardır. (Həşr surəsi, 18)**

İnsan zaman və məkana tabe olan varlıqdır. Başqa bir nəfərdən xəbər almadıqca ancaq öz olduğu yerdə (məkanda) və zamanda baş verən hadisələrdən xəbərdar ola bilər. Olduğu zaman və məkanın xaricinə çıxaraq hadisələri qiymətləndirməsi əsla mümkün deyil. Bu da insanın ən böyük acizliklərindən biridir.

Halbuki, insanı yaradan Allah zaman və məkanın da yaradıcısıdır, bu səbəbdən də bunlardan asılı deyil. Zamandan və məkandan münəzzəh olan Allah təbii ki, kainatda baş verən hər hadisədən də xəbərdardır. Belə ki, içində yaşadığımız Südyolu qalaktikasından milyonlarla işıq ili uzaqlıqda olan qalaktikada neçə ulduz olduğundan, hansı səma cisminin hansı orbiti izlədiyindən, torpağın altından yerin üstünə çıxmağa çalışan cücərmiş toxumdan da xəbərdardır... Bundan başqa, Allah bu ana qədər yaşamış, bu an yaşayan və bundan sonra da yaşayacaq bütün insanların həyatlarının hər saniyəsindən də xəbərdardır.

Kimin nə vaxt, harada doğulduğu və öldüyü, həyatı boyunca nələr etdiyi, hansı məqsədlər üçün çalışacağı, hətta nə vaxt güldüyü, nə vaxt ağladığı kimi bütün detalların elmi də Onun qatındadır. Çünki O, hər şeyin yaradıcısıdır. Üstəlik, bu insanların hər an gördükləri işlərlə yanaşı, ürəklərindən keçirdikləri də Allah'dan gizli

qalmır. Allah insanların içlərindən keçirdikləri, niyyət edib tətbiq etdikləri, gizlicə hazırladıqları hər şeydən xəbərdardır.

**Allah tərəfindən bəxş olunmuş mal-dövləti sərf etməyə xəsislik edənlər heç də bunu özləri üçün xeyirli hesab etməsinlər. Xeyr, bu, onlar üçün zərərlidir. Onların xəsislik etdikləri şey qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allah'a məxsusdur. Allah hər bir əməlinizdən xəbərdardır! (Ali-İmran surəsi, 180)**

**Gözlər Onu dərk etməz. O, gözləri dərk edər. O, lətifdir, xəbərdardır! (Ənam surəsi, 103)**

**Ölməz, həmişə diri olana bel bağla və Onu həmd-səna ilə təqdis et. (Allah'ın) Öz bəndələrinin günahlarından xəbərdar olması kifayət edər. (Furqan surəsi, 58)**

**Qiyamət saatının məlumatı, şübhəsiz, Allah'ın qatındadır. Yağışı yağdırar; rəhmlərdə olanı bilər. Heç kim sabah nə qazanacağını bilməz. Heç kim də hansı yerdə öləcəyini bilməz. Heç şübhəsiz, Allah biləndir, xəbərdardır. (Loğman surəsi, 34)**

**"Oğlum! (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, xəbərdardır. (Loğman surəsi, 16)**

**O, göylərdə və yerdə olanları da, sizin gizlində və aşkar da nə etdiyinizi də bilir. Allah ürəklərdə olanları biləndir! (Təğabun surəsi, 4)**

# HADİ

## ***Hidayət lütf edən, doğru yola aparan***

**Və elm verilən kəslər də bilsinlər ki, haqq sənin Rəbbindəndir. Artıq ona inansınlar və ürəkləri ondan arxayın olsun. Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər! (Həcc surəsi, 54)**

Yer üzündə iki cür insan var: Allah'ın gücünü bilib təqdir edənlər və Allah'ın gücünü tanımayıb buna görə də təqdir edə bilməyənlər.

İkinci qrupdakı insanlar normal həyat yaşayır və ölürlər. Həyatları ərzində nə üçün yaşadıqlarını, onları kimin yaratdığını, özlərini yaradan Allah'a qarşı hər hansı bir məsuliyyətlərinin olub-olmadığını və ya özləri ilə birlikdə bütün kainatı yoxdan var edən Rəbbimizin sonsuz gücünü düşünmək istəmirlər. Onların ağlını məşğul edən mövzular, ümumiyyətlə, necə təhsil alacaqları, iş yerində yaxşı bir mövqeyə gəlmək üçün nə etməli olduqları, uşaqlarını necə böyüdəcəkləri kimi gündəlik həyatla əlaqədar mövzulardır. Əlbəttə ki, bunların hamısı təbii istəklərdir və düşünülməlidir. Ətraflarındakı çox insan kimi beş-on il yaşayıb sona çatdırdıqları həyatlarını bu mövzuları özlərinə məqsəd edərək keçirirlər. Bu zaman dünyada və bütün kainatda var olan saysız möcüzələri görə bilmirlər. Üstəlik, görsələr də, üzərində düşünmək istəmirlər.

Birinci qrup olaraq bəhs etdiyimiz Allah'ın varlığının dəlillərini və mütləq gücünü tanıyıb təqdir edən insanlar isə bundan tam fərqli həyat yaşayırlar. Vicdanları güclü olduğu üçün ətraflarını heyranlıqla müşahidə edir, gördükləri detalları yaradanın Rəbbimiz olduğunu bilirlər. Buna görə də kainatın yaradıcısı, üstün güc sahibi Allah'a qarşı

məsuliyyətlərinin də şüurundadırlar. Həyatlarını Allah'ın məmnuniyyətini qazanacaqları işlər görərək, Onun tövsiyə etdiyi həyatı yaşayaraq və ən əhəmiyyətlisi də öldükdən sonra Ona hesab verəcəklərini bilərək keçirirlər.

Bu birinci qrup Allah'ın hidayət verdiyi insanlardır. Dünya üzərindəki sayları hər zaman çox az olub, amma doğru olan yol onlarınkıdır. Allah hidayətə çatmış olanlarla inkar edənlər arasındakı fərqi ayələrində belə xəbər verir:

**O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. Onlar öz Rəbbindən (gələn) doğru yoldadırlar. Məhz onlar nicat tapanlardır. Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməzlər. Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 4-7)**

Şübhəsiz, bu insanlardan olmaq Allah'dan verilən çox böyük bir nemətdir. Çünki O, diləməzsə, hidayət verəcək, doğru yola çatdıracaq heç kim yoxdur:

**Gerçək budur ki, sən sevdiyini hidayətə çatdıra bilməzsən, ancaq Allah dilədiyini hidayətə çatdırar; O, hidayətə çatacaq olanları daha yaxşı biləndir. (Qəsəs surəsi, 56)**

**O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən xərcləyirlər; O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. Onlar öz Rəbbindən (gələn) doğru yoldadırlar. Məhz onlar nicat tapanlardır. Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməzlər. (Bəqərə surəsi, 3-6)**

# HAFİD

## ***Alçaldan***

**O alçaldacaq, ucaldacaqdır. (Vaqiə surəsi, 3)**

Hər insan müəyyən bir zəka səviyyəsi, görmə, düşünmə və düşündüklərindən nəticə çıxarma qabiliyyətinə malikdir. Məsələn, insan öz bədəninin quruluşundakı qüsursuzluğa baxdıqda mükəmməl bir dizayn görür. Bu dizaynın detallarındakı ağıl əlamətlərini düşündükdə bütün bunları planlayan, hazırlayan və var edənin olduğunu dərk edir.

Ancaq, şübhəsiz, bu sayılanlar sahib olduqları qabiliyyətləri istifadə edən insanlara aiddir. Bir də qarşılaşdıqları hadisələr üzərində heç düşünməyən insanlar vardır ki, bunlar yer üzündəki insanların əksəriyyətini təşkil edirlər. Daha əvvəl də ifadə etdiyimiz kimi, bu insanlar dünyaya gəlir, böyüyür, hər kəs kimi normal bir həyat yaşayır və ölürlər. Halbuki, Allah Quranda düşünüb nəticə çıxaranları tərifləmiş, digərlərini isə alçaldacağını bildirmişdir. Ayələrdə belə buyurulur:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah’ı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür (və deyirlər:) “Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi odun əzabından qoru! Ey Rəbbimiz! Sən oda saldığın kəsi rüsvay edərsən. Zalımların köməkçiləri olmaz. (Ali-İmran surəsi, 191-192)**

Düşünüb nəticə çıxaranlar Allah’ın ucaltdığı insanlardır. Bu insanlar Allah’a qul olmaq üçün əmrləri tam olaraq yerinə yetirir və bu xüsusiyyətləri ilə digərlərindən tamamilə fərqlənirlər. Digər qrup

(düşünməyən insanlar) isə insani qabiliyyətlərə sahib olmalarına baxmayaraq, bunlardan istifadə etmir və sadə həyat yaşayırlar. Heyvan kimi fiziki ehtiyaclarını təmin edəcəkləri həyatı seçirlər. Bu insanlar da Allah'ın yaratdığı, ancaq vicdanlarından istifadə etmədikləri, düşünmədikləri və adi yaşayışı seçdikləri üçün alçaltdığı şəxslərdir. Bu şəxslərlə əlaqədar Quranda belə bir nümunə verilir:

> **Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey anlamayanları haylayanın məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, anlamazlar. (Bəqərə surəsi, 171)**

> **Özlərinə qoyulan qadağanı pozduqları zaman Biz onlara: "Mənfur meymunlar olun!"– dedik. O zaman Rəbbin onlara qiyamət gününədək ən ağır əzab verəcək kimsələr göndərəcəyini bildirdi. Doğrudan da sənin Rəbbin tez cəza verəndir. Həqiqətən də O, bağışlayandır, rəhmlidir. Biz onları yer üzündə ümmətlərə böldük. İçərilərində həm əməlisaleh olanlar, həm də belə olmayanlar vardır. Biz onları yaxşılıq və pisliklə sınadıq ki, bəlkə dönələr. (Əraf surəsi, 166-168)**

> **Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki tel qədər haqsızlıq edilməz. (Nisa surəsi, 49)**

# HAFİZ

## ***Qoruyan, nəzarət edən, mühafizə edən***

**Əgər üz çevirsəniz, mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir camaat gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir. (Hud surəsi, 57)**

Bu gün elm adamlarının çoxu kainatın yoxdan var olması mövzusunda ortaq fikirdədirlər. Çünki əllərindəki bütün dəlillər bu gerçəyə işarə edir. Kainatın yoxdan yaranması əsnasında ortaya çıxan atomlarla, bu gün canlı-cansız hər şeyi meydana gətirən atomların bir-birləri ilə eyni olduğunu da elm ortaya qoyur. Kainatın ilk yaradılış anında nə qədər atom varsa, hazırda da o qədər atom var. Ancaq bir fərqlə: yoxdan yaranma anında böyük bir sürətlə ətrafa dağılan atomlar bu gün ulduzları, dünyanı, atmosferdəki havanı, yer üzündəki suyu, torpağı və hətta sizin bədəninizi meydana gətirirlər. Üstəlik, bunu elə qüsursuz bir şəkildə təşkil edirlər ki, hər bir atoma hakim olan yaradıcı gücün varlığı dəqiq şəkildə özünü göstərir. Çünki bir nizamın varlığı onu yaradanın varlığını zəruri edir.

Bu nöqtədə qarşımıza bu həqiqət çıxır: ortada heç bir şey yox ikən maddəni yaradan və qüsursuz bir nizam meydana gətirən Allah, əlbəttə ki, bu nizamın meydana gəlməsindəki hər mərhələdən də xəbərdardır. Çünki belə kompleks sistemin tək bir anının belə idarəsiz meydana gəlməsi mümkün deyil.

Budur, bu həqiqət bizə kainatdakı sistemi təşkil edən, var edən Allah'ın sonsuz elmini göstərir. O, hər şeyi yoxdan var etmiş və qüsursuz bir nizam qurmuşdur. Hələ də bu nizamı müşahidə edir və qo-

ruyur. Necə ki: **"Həqiqətən, sənin Rəbbin nəzarət edir" (Fəcr surəsi, 14)** ayəsi Allah'ın kainat üzərindəki davamlı qorumasını bizlərə bildirir.

**Həqiqətən, Biz yerin onlardan nəyi alıb əskiltdiyini bilirik. Bizdə qoruyan bir kitab (Lövhi-məhfuz) vardır. (Qaf surəsi, 4)**

**Halbuki, o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir. (Səba surəsi, 21)**

**Allah'dan başqası ilə dostluq edənlərə Allah Özü nəzarət edir. Sən onların mühafizəçisi deyilsən. (Şura surəsi, 6)**

**Allah'ın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır. Həqiqətən də insanlar nəfslərində olanı dəyişmədikcə Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir camaata pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur. (Rəd surəsi, 11)**

**Həqiqətən də Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün üzücü bir əzab vardır. (Ali-imran surəsi, 77)**

# HAKİM

## *Hökm edən, haqqı yerinə yetirən*

**(De:) "Allah bu kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasınımı hakim qəbul etməliyəm?" Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma. (Ənam surəsi, 114)**

Allah insanları yaratmış, yaxşılıq edənlərlə pislik edənləri ayırmaq üçün imtahan yeri olan dünyaya yerləşdirmişdir. Bundan başqa, insanlara elçilər göndərmiş və elçilərinə də doğrunu səhvdən ayırmalarını təmin edəcək hökmləri olan kitablar vermişdir. İnsanlıq tarixi boyunca bütün elçilər göndərildikləri qövmləri Allah'ın əmr etdiyi hökmləri olan bu haqq kitablarla xəbərdar edib qorxutmuşlar, onları doğru yola çağırmışlar.

Ancaq zaman içində elçilərin gətirdiyi kitablar insanlar tərəfindən təhrif edilmiş, Allah'ın göndərdiyi hökmlər inkarçı sistemlərin öz mənfəətlərini qoruyan səhv hökmlərlə dəyişdirilmişdir. Lakin Allah insanlara yenə özlərini doğru yola çatdıracaq bir rəhbər olaraq Quranı endirmiş və "Şübhəsiz ki, zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq" (Hicr surəsi, 9) ayəsi ilə içindəki hökmləri qiyamətə qədər qoruyacağını vəd etmişdir.

Əlbəttə, Quran insanın qarşılaşacağı hər hadisədə doğru olanı tapmaq, doğruya çatmaq üçün müraciət edəcəyi yeganə qaynaqdır. Çünki Quran Allah'ın hökmlərini ehtiva edən tək haqq kitabdır və Allah'ın göndərdiyi bu kitaba tabe olanlar, Allah'ın əmrlərinə itaət edənlər doğru yolu tapanlardır. Dünyada Allah'ın hökmləri ilə hökm edənlər, Onun əmrlərinə itaət edənlər, əlbəttə, axirətdə də qazanc içində olacaqlar.

# HƏKİM

## *Hikmət sahibi, sağlam, möhkəm olan*

**O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!**

Daha əvvəl də üzərində dayandığımız kimi, insanın çevrəsində gördüyü hər şey yaradılışın açıq dəlillərini göstərir. Kainatda müəyyən bir istiqamətdə hərəkət edən qalaktikalar, Günəşin ətrafında müəyyən orbitdə dövr edən dünya, canlıların vücudlarındakı -hələ yeni kəşf edilən- mürəkkəb sistemlər və gözlə görülməyən mikro aləmdə meydana gələn hadisələr... Şübhəsiz, insanların elmi sahədəki inkişaflarla biliyi artdıqca kainatdakı ən kiçikdən ən böyüyə qədər hər bir xüsusiyyətin nə qədər incə hesablarla var edilməsi də artıq dəqiqləşir.

Bu gün əldə olunan elmi səviyyə ilə bu həqiqət ortaya çıxmışdır: kainatın yoxdan var olduğu ilk andan bu yana bütün hadisələr müəyyən bir plan daxilində baş vermişdir. Belə ki, bu planın nəticəsində üzərindəki bütün canlılarla birlikdə dünya yaranmışdır. Ağıl sahibi bir varlıq olan insan da yer üzündə yerini almışdır. Əlbəttə, bu durumda insanın üzərinə düşən öz varlığı üçün ən uyğun olan şərtlərin nizam içində yaradıldığının fərqində olmaq, kainatın əmələgəlmə mərhələlərindəki hikmətləri qavramaqdır.

İnsan özünə verilən bu qədər nemət qarşısında unutmamalıdır ki, hər şeyin müəyyən bir yaradılış məqsədi və hikməti vardır. Özünün rahat yaşaya bildiyi bir qalaktika yaradılmışdır. Sadəcə bu mövzu

üzərində düşünmək belə Allah'ın hər şeyi sonsuz bir hikmətlə yaratdığını görmək üçün kafidir. Ayələrdə belə buyurulur:

**Onlar: "Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. bilən Sən, hikmət sahibi Sənsən", - dedilər. (Bəqərə surəsi, 32)**

**Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar. Onlar yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılıb zəkat verər, Allah'a və Peyğəmbərinə itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Tövbə surəsi 71)**

**Həqiqətən, Rəbbin onları bir yerə yığacaq. O, hikmət sahibidir, biləndir! (Hicr surəsi 25)**

**Yenilməz qüvvət, hikmət sahibi olan Allah sənə və səndən əvvəlkilərə belə vəhy edir! Göylərdə və yerdə nə varsa Onundur! O, ucadır, uludur! Göylər az qala bir-birinin üstündən çatlayıb dağılsın. Mələklər də Rəbbini həmd-səna ilə təqdis edər və yerdəkilərin bağışlanmasını diləyərlər. Bilin ki, Allah, həqiqətən, bağışlayandır, rəhm edəndir! Allah'dan başqasını dost tutanlar üzərində Allah Özü nəzarətçidir. Sən onlara zamin deyilsən! (Şura surəsi, 3-6)**

**Özlərindən savayı hələ onlara qoşulmamış başqalarına da (peyğəmbər göndərmişdir) O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Cümə surəsi, 3)**

# HAQQ

## *Varlığı heç dəyişmədən dayanan*

**Bu, belədir. Çünki Allah Haqdır. Ondan başqa ibadət etdikləri isə batil (bütlərdir). Həqiqətən, Allah ən ucadır, ən böyükdür. (Loğman surəsi, 30)**

Zaman və məkan canlı-cansız hər şey kimi yaradılmış anlayışlardır. Zaman və məkanın heç olmadığı bir anda yoxdan bir maddə aləmi yaradılmış və bu aləmin daxilində zaman-məkan anlayışları meydana gəlmişdir. Belə ki, zaman içində geriyə getdiyimizdə bir sərhədlə qarşılaşırıq və bu sərhədin gerisinə əsla gedə bilmirik. Bir hadisə üçün istifadə edə biləcəyimiz ən qədim ifadə kainatın yaradılış anıdır. Hətta bu gün elm sahələrində təsbit edilən sərhəd kainatın yaradılma anından etibarən $10^{-43}$ saniyədir. Bu zaman dilimindən əvvəl nə vaxt, nə də məkan təyin edilmir.

Bu an qarşımıza zamanın və məkanın olmadığı vaxt çıxır. İnsanın tabe olduğu bu iki anlayış müəyyən bir anda yaradılmış olduqlarına görə bu yaradılışdan əvvəl bir zamansızlıq və məkansızlıq mövcud idi. Bizim əsla xaricinə çıxa bilmədiyimiz bu anlayışları yaradan onların xaricində olan Allah’dır.

Allah zamandan və məkandan münəzzəhdir və dolayısilə, varlığı hər zaman mövcuddur, əsla dəyişməz. Tək gerçək varlıq Odur, Onun Şəxsi xaricində hər şey ancaq Onun: “Ol”, -deməsi ilə var olmuşdur. Allah’ın Şəxsi xaricində hər şey ölümlüdür və yox olacaqdır. Quranda da bildirildiyi kimi, Haqq olan yalnız Odur.

**Haqq Hökmdar olan Allah ucadır! Onun (ayələrinin) vəhyi sənə tamamlanmayınca Quranı oxumağa tələsmə və: “Ey Rəbbim! Elmimi artır!”– de. (Taha surəsi, 114)**

**Bunun səbəbi Allah'ın Haqq olmasındadır. O, ölüləri dirildir və hər şeyə qadirdir. (Həcc surəsi, 6)**

**Belə hallarda kömək etmək ancaq Haqq olan Allah'a məxsusdur. Ən yaxşı mükafat verən və ən gözəl aqibət nəsib edən Odur. (Kəhf surəsi, 44)**

**Allah hər şeyin xaliqidir. O, hər şeyə vəkildir! Göylərin və yerin açarları Onun əlindədir. Allah'ın ayələrini inkar edənlər – məhz onlar ziyana uğrayanlardır! De: "Ey cahillər! Mənə Allah'dan başqasınamı ibadət etməyi əmr edirsiniz?" Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər (Allah'a) şərik qoşsan, bütün əməlin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan! Xeyr, yalnız Allah'a ibadət et və şükür edənlərdən ol!" Allah'ı lazımınca qiymətləndirmədilər. Halbuki, qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə bükülədəkdir. (Allah Ona) aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır! Sur çalınacaq, Allah'ın göylərdə və yerdə olan istədiyi kimsələrdən başqa, dərhal hamı yıxılıb öləcək. Sonra bir daha çalınan kimi onlar qalxıb (Allah'ın əmrinə) müntəzir olacaqlar! (Zumər surəsi, 62-68)**

# XALİQ

## ***Hər şeyin varlığını və varlığı boyunca görüb-keçirəcəyi halları, hadisələri təsbit və təyin edən və ona görə yaradan, yoxdan var edən***

**Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Nur surəsi, 45)**

Arı pətəyindəki bütün arılar vəzifələrini qüsursuz yerinə yetirirlər. İşçi arılar şanın istehsalında işləyir, şanı havalandıraraq temperaturunu həmişə sabit saxlayır, şana çiçəklərdən yığdıqları qidaları gətirirlər. Kraliça arı isə şanın içində qalaraq nəslin davamını təmin edir. Ağcaqanad yumurtadan çıxdığı an yetkin halına heç bənzəmir. Ağcaqanad sürfəsi inkişafını tamamlayana qədər 4 dəfə dərisini dəyişdirir. Sürfə dövrünün sonuna yaxın dərisi açılır və yetkin ağcaqanad sürfənin içindən suya dəymədən çıxır.

Yuxarıda bəhs etdiyimiz canlılar yer üzündə yaşayan saysız canlıdan sadəcə ikisidir. Digər canlılarda olduğu kimi, bu canlıların da doğumlarını, həyatlarını və ölümlərini Allah təyin etmişdir. Bu canlılar yaradıldıqları andan etibarən Allah'ın təsbit etdiyi, uyğun hesab etdiyi və əmr etdiyi şəkildə həyatlarını davam etdirirlər. Əsla Allah'ın özləri üçün təqdir etdiyi vəzifənin xaricinə çıxmırlar. Səhralarda +50 dərəcədə yaşayan kərtənkələlər də, qütblərdə -50 dərəcədə yaşayan pinqvinlər də, dənizin minlərlə metr altında yaşayan süngərlər də eyni vəziyyətdədir. Hamısı həyatlarını Allah'ın təsbit etdiyi şəkildə yaşayırlar. Onlardan əvvəlki nəsillər də eyni şəkildə yaşamışdır, son-

rakı nəsillər də eyni şəkildə yaşayacaqlar. Çünki Allah canlıların hamısı üçün bir həyat forması seçmişdir.

Nəticə olaraq, kainatdakı heç bir canlının öz həyat tərzini təyin etmə haqqı yoxdur. Bütün canlıları Allah yaratmış və bu şəkildə həyatlarını təqdir etmişdir. Onlar da qeydsiz-şərtsiz bu hökmə boyun əymişlər.

İnsan da kainatın kiçik bir hissəsidir. Allah insanı bir damla sudan yaratmış və həyat tərzini təqdir etmişdir. Heç bir insan öz qərarı ilə həyatda yaşayacağı müddəti təyin edə bilməz, yaşlanmağı və ölümü gecikdirə bilməz, acizliklərindən xilas ola bilməz. Bütün bunları təyin edən, dilədiyi şəkildə yaradan Allah'dır. Allah'ın gücünün bənzərsizliyi və hər şeyi hakimiyyəti altında saxladığı ayələrdə belə xəbər verilir:

**O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir. (Ənam surəsi, 101)**

**De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allah'dır!" De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allah'a, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allah'dır. O, təkdir, qalib gələndir". (Rəd surəsi, 16)**

**Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şahidlik edirsiniz?"– deyəcəklər. (Dəriləri) deyəcək: "Hər şeyi danışdıran Allah bizi danışdırdı. Sizi ilk dəfə O yaratmışdır və siz Ona qaytarılacaqsınız". (Fussilət surəsi, 21)**

# HƏLİM

## *Şəfqətli, mərhəmətli, həlim olan*

**(Uhudda) iki qoşun qarşılaşdığı gün içərinizdən üz döndərənləri şeytan, qazandıqları bəzi günahlar üzündən səhv etməyə vadar etdi. Allah artıq onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, Həlimdir. (Ali-İmran surəsi, 155)**

İnsanları yaradan Allah onlara doğru yolu göstərən kitab göndərib. Onun qatından göndərilən, hökmləri qorunan bu kitab son haqq kitabdır. Allah bu kitabda insanların yerinə yetirməli olduqları əmrləri, qadağaları açıq-aşkar bildirmişdir. Üstəlik, bu kitabdakı əmrlərə itaət edərək həyatını Allah'ın razılığını qazanmaq üçün keçirənlərin sonsuza qədər cənnətdə qalacaqlarını müjdələmişdir. İtaət etməyənlərin isə sonsuza qədər içində qalacaqları cəhənnəmi və onun içindəki əzabları bütün detalları ilə izah etmişdir.

Allah'a yönəlmək və Onun razılığını qazanmağa çalışmaq üçün endirilən bu kitab 1400 il əvvəl Peyğəmbərimiz hz. Muhəmmədə (s.ə.v) nazil edilən Qurandır. Allah Quranda insanlara hər şeyi izah etmişdir; həyatı, ölümü, cənnəti, cəhənnəmi...

Lakin insanların bir çoxu haqq kitabı oxumaqdan üz çevirir, hətta bir qismi ömürləri boyunca Allah'ın göndərdiyi bu kitabı əllərinə belə almırlar. Allah'ın ayələrini görməzlikdən gəlib dünya həyatının zövqünə və əyləncəsinə aldanırlar. Ölümlərindən sonra qarşılaşacaqları hesabı və axirət həyatını isə heç düşünmürlər. Allah'ın qadağalarına əməl etmir, əmr etdiyi gözəl əxlaqı da yaşamırlar. Mallarını, mülklərini heç kimlə paylaşmır, çətində olanlara kömək etmirlər. Üstəlik, özlərinə iman etmələri təklif edildiyində: "Biz nə etdiyimizi

bilirik", - deyə cavab verirlər. İçlərindən çox az qismi Allah'a lazımınca iman edir və Onun hökmlərini əskiksiz tətbiq edirlər.

Yuxarıda izah edilənləri düşündükdə Allah'ın insanlar üzərindəki sonsuz mərhəməti və şəfqəti aydın şəkildə görünür. İnkar edənlər bilə-bilə haqq dindən üz çevirmələrinə və Allah'ın qadağanlarını pozmalarına baxmayaraq, Allah onları dərhal əzablandırmır. Hətta onları dünya həyatında rifah içində yaşadır, hər cür neməti verir. Onlara iman etmələri və haqq dinə dönmələri üçün müddət verir. Üstəlik, Allah göndərdiyi dini çox asanlaşdıraraq sonsuz şəfqətini göstərir. Bundan başqa, insanları unutduqlarına və yanıldıqlarına görə məsul tutmur. Kor, topal, xəstə olana məsuliyyət yükləmir. İnsanlara səbri və təvəkkülü öyrədərək çiyinlərindəki yükü qaldırır. Bütün bu nümunələr Allah'ın sonsuz mərhəmətini və şəfqətini, inkar edən insanların isə nankorluğunu anlamaq üçün kifayətdir.

Amma insan bir məqamı da unutmamalıdır: Allah həm də sonsuz ədalət sahibidir. Dünyada da, axirətdə də insanların etdiklərinin qarşılığını lazımi şəkildə verəcək. Allah'ın Həlim sifəti ayələrdə belə xəbər verilir:

**Allah sizi qərəzsiz içdiyiniz andlara görə cəzalandırmaz, lakin O, sizi qəlbinizin qərəzinə görə cəzalandıracaqdır. Allah bağışlayandır, Həlimdir. (Bəqərə surəsi, 225)**

**Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, bağışlayandır. (İsra surəsi, 44)**

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də O, Həlimdir, bağışlayandır. (Fatir surəsi, 41)**

# HƏMİD

## ***Ancaq Özünə şükür edilən, bütün varlığın dili ilə tək təriflənən***

**(İnsanlar) ümidlərini kəsdikdən sonra yağış endirən və Öz mərhəmətini yayan Odur. O, Vəlidir, Həmiddir. (Şura surəsi, 28)**

Kainatdakı bütün bitkilər və heyvanlar Allah'ın onları yer üzündə yerləşdirdiyi şəkildə yaşayırlar. Beləliklə, Allah'ı təsbih edib Onu ucaldırlar. Dənizin dibində yaşayan balıq da, səhrada yetişən kaktus da tam təslimiyyətlə həyatını davam etdirir. Allah'ın özləri üçün təqdir etdiyi şəkildə yaşamaları, Onun qurduğu nizamı əsla pozmamaları bütün canlıların Allah'ı təsbih etdiklərini göstərir. Səmadakı və yer üzündəki hər şey; dənizlər, dağlar və səmada uçuşan buludlar, ard-arda çaxan şimşək və göy gurultusu da Allah'ı təsbih edir. Onun sonsuz elmini və gücünü insanlara göstərir. Lakin iman etməyənlər onların bu təsbihlərini qavraya bilmirlər. Allah "İsra" surəsinin 44-cü ayəsində bu gerçəyi insanlara bildirir:

**Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, bağışlayandır. (İsra surəsi, 44)**

İman edənlər də Allah'ın ucalığını və böyüklüyünü qavrayaraq Rəbbimizi zikr edir, lütf etdiyi nemətlər üçün Allah'a şükür edirlər. Çünki verilən hər cür nemət qarşılığında özlərindən istənilən yalnız şükür edən, həmd edən bir qul olmalarıdır. Ayələrdə belə buyurulur:

**Göylərdə və yerdə nə varsa, Allah'a məxsusdur. Biz sizdən**

**əvvəl kitab verilənlərə də, sizə də Allah'dan qorxmanızı buyurduq. Əgər inkar etsəniz, (bilin ki,) göylərdə və yerdə nə varsa, Allah'a məxsusdur. Allah Zəngindir, tərifəlayiqdir. (Nisa surəsi, 131)**

**Musa dedi: "Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, (Allah'a heç bir zərər yetirə bilməzsiniz). Çünki Allah, həqiqətən də Zəngindir, tərifə layiqdir". (İbrahim surəsi, 8)**

**Elm verilmiş insanlar Rəbbindən sənə nazil edilənin haqq olduğunu, onun qüdrətli, tərifəlayiq Allah'ın yolunu göstərdiyini görürlər. (Səba surəsi, 6)**

**O kəsləri ki, özləri xəsislik edir, insanlara da xəsislik etməyi əmr edirlər. Kim üz çevirsə, (bilsin ki,) Allah, həqiqətən də zəngindir, tərifəlayiqdir. (Hədid surəsi, 24)**

**Onlarda sizin üçün – Allah'a və axirət gününə ümid bəsləyənlər üçün gözəl nümunə vardır. Kim üz döndərsə (bilsin ki,) Allah zəngindir, tərifəlayiqdir. (Mumtəhinə surəsi, 6)**

**Həqiqətən, Loğmana: "Allah'a şükür et!" (-deyə) hikmət verdik. Kim şükür etsə, özü üçün şükür edər. Kim nankor olsa, (bilsin ki) Allah onun şükürünə möhtac deyildir, şükürə layiqdir! (Loğman surəsi, 12)**

# HASİB

## *Haqq-hesab çəkən*

**Onlar Allah'ın risalətini təbliğ edir, Ondan qorxur və Allah'dan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab surəsi, 39)**

Allah insanı yaradır və hələ o, ana bətnində ikən ona surət verir. Hər insanı diqqətlə və tam fərqli bir yaradılışla dünyaya gətirir. Daha heç bir şeyin şüurunda deyil ikən onu qoruyur, bəslənməsini və inkişafını təmin edir. Ana bətnində keçən doqquz aylıq müddət insan üçün qaranlıq bir dövrdür. Heç kim bu dövrü və doqquz ay içində Allah'ın özü üçün necə inanılmaz möcüzələr reallaşdırdığını bilmir. Lakin Allah insan tək bir hüceyrə ikən belə onun ilk halına şahiddir. Uşaqlıq dövrü də eyni şəkildədir. İnsanın yaddaşında uşaqlığı ilə əlaqədar yalnız bir neçə xatirə qalır. Amma Allah o bilməzkən belə hər an yanındadır, hər etdiyinə şahiddir.

Allah'ın şahid olduğu yalnız insanın əməl olaraq etdikləri deyil, həm də içindən keçirdikləridir. Çünki Allah insanın həm içinə, həm xaricinə, qısaca, ruhuna tamamilə hakimdir. O, nəfsini müdafiə edərək nəyi nə üçün etdiyini bilməzkən belə Allah onun hər hərəkətini nə məqsədlə etdiyini bilir. İnsan tək bir hüceyrə halında ikən də, ölmək üzrə son nəfəsini verərkən də Allah onun etdiklərinə şahiddir. Dünyada yaşadığı vaxt ərzində oturarkən, danışarkən, yemək yeyərkən, yatarkən, gecə-gündüz hər saniyə etdiklərini bütün detalları ilə bilir, ağzından çıxanı eşidir, ağlından keçirdiyi hər düşüncəni bilir. Heç bir şey Ondan gizli qalmır.

Halbuki, insan həyatı boyu etdiyi işləri, söylədiyi sözləri unudur.

İllər keçdikcə zehnindəki xatirələr pozulur. Keçmişdə yaşadıqlarını saymağa çalışdıqda çox az şey saya bilər. On il əvvəl yaşadığı bir hadisə özünə xatırladılıb o an nə düşündüyü soruşularsa, heç bir şey xatırlaya bilməz. Sanki bütün yaşadıqları zehnindən silinmişdir, geriyə çox az bir qalıq qalmışdır. Allah isə bütün insanların həyatları boyunca etdiklərini, hər saniyə ağıllarından nələr keçdiyini bilir. Hesab günü hər kəsin önünə pisliklərini, yaxşılıqlarını, saleh əməllərini və günahlarını əskiksiz gətirəcəkdir. Buna görə, insan Allah'ın özünə şahid olduğunu əsla unutmamalıdır. Allah'ın Hasib sifəti ayələrdə belə xəbər verilir:

**Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir. (Nisa surəsi, 86)**

**Yetimləri yetkinlik yaşına çatana qədər imtahana çəkin. Əgər onların həddi-buluğa çatdıqlarını görsəniz, mallarını özlərinə qaytarın. Onlar böyüyüb (mallarını məndən alacaqlar) deyə o malı israfçılıqla, tələm-tələsik yeməyin. Varlı olan nəfsini saxlasın, yoxsul olan isə o (maldan ) insafla yesin. (Yetimlərin) mallarını özlərinə qaytardığınız zaman onlara şahidlər tutun. Haqq-hesab çəkməyə Allah yetər. (Nisa surəsi, 6)**

**Ən yüksək dərəcələrin və ərşin sahibi Odur. O, Öz əmri ilə vəhyi qullarından istədiyinə nazil edir ki, o, (insanları) görüş günü ilə qorxutsun. O gün (insanlar) (yer üzünə) çıxacaq və onların heç bir şeyi Allah'dan gizli qalmayacaqdır. (Allah deyəcək:) "Bu gün hökm kimə məxsusdur? Tək olan, qalib gələn Allah'a!" Bu gün hər kəsə qazandığının əvəzi veriləcəkdir. Bu gün haqsızlıq olmaz. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Mömin (Ğafir) surəsi, 15-17)**

# HAYY

## ***<u>Diri, hər şeyi bilən və hər şeyə gücü çatan</u>***

**O, Hayy olandır. Ondan başqa ilah yoxdur; elə isə dini yalnız Ona məxsus edərək dua edin. Aləmlərin Rəbbinə həmd olsun. (Mömin surəsi, 65)**

İnsan acizdir və çox az şeyə gücü çatır. Dünyaya gəldiyi andan etibarən həyatının 5-10 ili yarı şüurlu halda keçir. Bu dövr ərzində qulluğa möhtacdır. Bundan sonra yaşadığı həyatın isə böyük bir hissəsi öz bədəninə baxmaqla, təmizlənməklə keçir. Əgər bu sayılanları etmək istəməzsə və təxirə salasa, qısa müddət ərzində pis vəziyyətə düşür.

Bundan başqa, insanın bədənlə əlaqədar ehtiyacı olan böyük bir qüsuru daha var: yuxu. İnsan ömrünün hardasa üçdə biri yuxuda keçir. Yuxuya ayıracağı zamanlarda başqa nə isə etmək istəsə belə, buna bir-iki gündən çox dözə bilmir. Hətta 24 saat yatmayan insanın şüurunda bulanıqlıq, idrakında yavaşlama görünür. Həmişə təbii olaraq etdiyi işləri görə bilmir, qarşılaşdığı hadisələri sağlam mühakimə edə bilmir, hətta danışmaqda çətinlik çəkməyə, bildiyi şeyləri unutmağa başlayır.

Əlbəttə, insan və insan kimi yaradılmış olan digər bütün canlılar aciz varlıqlardır. Canlı və cansız bütün kainatın Yaradıcısı olan Allah isə Hayydır. Daim diridir, hər an hər şeyə hakimdir, hər şeyi bilir, hər şeyə güc yetirir, Onu yuxu və mürgüləmə tutmur, hər cür acizlikdən də münəzzəhdir. O, yaratdıqlarına müxtəlif acizliklər vermiş və bu əskiklikləri bilib yalnız Özünə qulluq etmələrini, hər şeyi Özündən istəmələrini əmr etmişdir. İnsana düşən də Allah diləmə-

dikcə heç bir şeyə güc çatdıra bilməyəcəyini, tək bir saniyə belə həyatını davam etdirə bilməyəcəyini bilərək Rəbbimizə yönəlib dönməsidir. Allah'ın Hayy sifətinin xəbər verildiyi ayələrdən bəziləri bunlardır:

**Allah... Ondan başqa ilah yoxdur. Diridir, Qəyyumdur. (Ali-İmran surəsi, 2)**

**Sən əsla ölməyən və daim diri olan (Allah'a) təvəkkül et və Onu həmd ilə təsbeh et. Qullarının günahlarından Onun xəbərdar olması yetər. (Furqan surəsi, 58)**

**(O gün) üzlər (əbədi) yaşayan, (yaradılanların) qəyyumu (olan Allah) qarşısında zəlil bir görkəm alacaq. Günaha batanlar isə ziyana uğrayacaqlar. (Taha surəsi, 111)**

**Allah, Ondan başqa ilah yoxdur, (əbədi) yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)**

**Şübhəsiz ki, diriləndən də, öldürən də Bizik. Dönüş də yalnız Bizədir. O gün yer onlardan ötrü yarılacaq, onlar sürətlə çıxacaqlar. Beləcə, onları bir yerə yığmaq Bizim üçün asandır. (Qaf surəsi, 43-44)**

# QABİD

## *Sıxan, daraldan*

**Kim Allah’a gözəl bir borc versə, O da onun üçün bunu qat-qat artırar. Allah (kimisinin ruzisini) azaldar, (kimisinin ruzisini də) artırar. Siz Ona qaytarılacaqsınız (Bəqərə surəsi, 245)**

Göylərin, yerin və bu ikisi arasında olanların yaradıcısı olan Allah kainatdakı hər şeyin tək sahibidir. O, bütün varlıqları yaratmış və dünyanı da insanın yaşaya biləcəyi nemətlərlə təchiz etmişdir. Qullarının sahib olduğu hər cür zənginlik Allah’a aiddir, mülkün tək sahibi Odur. Allah dilədiyi insanları dünyada ikən zəngin, dilədiyini də kasıb edir. Amma mal-mülk sahibi olan da, heç bir şeyə sahib olmayan da unutmamalıdır ki, sahib olunan hər şeyi verən və bunların gerçək sahibi olan Allah’dır.

Allah dilədiyi adamın imkanlarını artıraraq şükür edib-etməyəcəyini, dilədiyinin də imkanlarını daraldaraq nankorluq edib-etməyəcəyini sınayır. Bu səbəbdən, insanların sahib olduğu və ya ola bilmədiyi şeylər özləri üçün qazanc deyil. Bunlar yalnız keçici dünya həyatını, yoxsa gerçək yurd olan axirəti istədiklərini sınamaq üçün Allah’ın yaratdığı imtahanlardır.

Əgər adam bu həqiqəti dərk etməyib əlindəki hər şeyi özünün zənn edib xəsislik edərsə və Allah’ın dilədiyi şəkildə xərcləməzsə, o zaman Allah əlindəki imkanları daralda bilər. Əksinə, əlindəki hər şeyin özünə Allah’ın razılığını qazanacaq şəkildə istifadə edilməsi üçün verildiyini bilənlərin də imkanlarını artırar, dünyada da axirətdə də onlara ən gözəli ilə cavab verər. Ayələrdə bu gerçək belə xəbər verilir:

**Nə qədər bacarırsınızsa, Allah'dan qorxun. (Peyğəmbərə) qulaq asıb itaət edin və öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır. Əgər Allah'a gözəl bir borc versəniz, O, bunu sizin üçün qat-qat artırar və sizi bağışlayar. Allah şükürün əvəzini verəndir, Həlimdir. (Təğabun surəsi, 16-17)**

Əlbəttə ki, dünya həyatında Allah'ın insanlar üçün yaratdığı nemətlər təkcə maddi mövzularda deyil. Rəbbimiz mənəvi mənada da insanlara saysız-hesabsız nemət verir. Allah diləyərsə, insanı bu yöndəki nöqsanlarla da sınağa çəkər. Rəbbimizə olan təslimiyyət və təvəkküllərində qərarlı olmaları üçün Allah belə vəziyyət yarada bilər. İnkarçılara isə Allah inkarda inadkarlıq etdiklərinə görə, dünya həyatında belə bir qarşılıq verə bilər. Buna görə, insanın qəlbində mənəvi mənada sıxıntı hissi ola bilər. Bu, Allah'ın Qabid isminin təcəllisidir. Belə vəziyyətdə insan yenə də özünü hər cür sıxıntı və çətinlikdən qurtaran Allah'ı düşünməlidir. Allah sıxan və daraldan olduğu kimi, eyni zamanda da Basit, yəni açan və genişləndirəndir. Allah Özünə səmimi şəkildə yönələn, yardımı yalnız Ondan gözləyən ixlaslı qullarının qəlbinə hüzur, güvənlik və genişlik hissi verir. Onları yardımı, sevgisi və rəhməti ilə dəstəkləyib işlərini asanlaşdırar. Allah Quranda qəlblərin yalnız Rəbbimizə sığınmaqla hüzur tapacağını belə xatırladır.

**De: "Ondan və bütün sıxıntılardan sizi Allah xilas edir. Sonra siz şərik qoşursunuz". (Ənam surəsi, 64)**

**Bunlar, iman gətirənlər və qəlbləri Allah'ı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allah'ı zikr etməklə rahatlıq tapır. (Rəd surəsi, 28)**

# QABİL

## *Qəbul edən, bağışlayan*

**Qullarının tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur. (Şura surəsi, 25)**

İnsan həddən artıq aciz varlıqdır. Yaşamağı üçün lazım olan şərtlərin hamısı təmin edilməzsə, həyatını davam etdirməyi qeyri-mümkündür. Ancaq bütün bu acizliyinə baxmayaraq, təkəbbür, azğınlıq və Allah’a qarşı nankorluq etməyə meyillidir. İnsanın bu xüsusiyyəti ilə əlaqədar olaraq Quranda belə bildirilir:

**Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu daşımaqdan imtina etdilər. Lakin insan onu boynuna götürdü. Doğrudan da, o, zalım və cahildir. (Əhzab surəsi, 72)**

**Həqiqətən, insan Rəbbinə qarşı çox nankordur. (Adiyat surəsi, 6)**

İnsanı yaradan Allah, şübhəsiz, onun içindəkiləri də bilir. İnsanın hər an səhv edə biləcəyi, nankorluq, cahillik edə biləcəyi Onun elmi daxilindədir. Şübhəsiz, O, qullarına qarşı çox şəfqətli və mərhəmətlidir. Bu qədər mərhəmətli olduğu üçün insanlara xilas yolunu göstərmişdir: tövbə etmək.

Zalım, cahil və nankor olan insana nəfsindəki bu pisliklərdən qorunmaq və işlədiyi səhvləri düzəltmək üçün böyük bir imkan verilib. İnsanın hər cür pis hərəkəti ola bilər, hər cür səhv edə bilər, Allah’a heç gözlənilməyən şəkildə nankorluq da etmiş ola bilər. Ancaq səmimi, Allah’a qəlbən bağlı və Onun əzabından içi titrəyərək qorxub çəkinən insandırsa, tövbə edər və bu şəkildə nicat tapar. Çünki Allah səmimi edilən tövbələri qəbul edəcəyini, Özündən qorxan qullarının səhvlərini bağışlayacağını vəd etmişdir.

Şübhəsiz, Allah’ın Qabil sifəti insanlar üzərindəki şəfqətinin və mərhəmətinin açıq nümunəsidir. Allah’ın heç nəyə ehtiyacı yoxdur. Diləsəydi, insanların bütün bu etdiklərinin heç birini qəbul etməzdi. Lakin Allah sonsuz rəhməti ilə insanların buna ehtiyaclarının olduğunu bilir və səmimi ürəklə edilən tövbələri qəbul edəcəyini xəbər vermişdir. Allah bağışlayan olduğunu bir ayədə belə bildirir:

**Məgər onlar bilmirlər ki, Allah qullarından tövbə qəbul edər, sədəqə alar və Allah tövbələri qəbul edəndir, rəhmlidir?! (Tövbə surəsi, 104)**

**Həqiqətən, Rəbbin bilir ki, sən və səninlə olan insanların bir qismi gecənin üçdə ikisindən az, yarısını, üçdə birini (namaz üçün) durursunuz. Gecə və gündüzü Allah ölçüb müəyyənləşdirir. O, sizin bunları hesablamaqda çətinlik çəkəcəyinizi nəzərə alaraq, tövbələrinizi qəbul etdi. Elə isə Qurandan asan gələni oxuyun! O bilir ki, bəziləriniz xəstə olacaq, digərləriniz Allah’ın mərhəmətindən (ruzi) əldə etmək məqsədilə müxtəlif yerlərə səfərə çıxacaq, bir qisminiz də Allah yolunda vuruşacaqdır. Buna görə, Qurandan sizə asan olanı oxuyun! Namaz qılın, zəkatınızı ödəyin və Allah’a gözəl bir borc verin. Qabaqcadan özünüzə hansı xeyirli əməlləri tədarük etsəniz, Allah yanında onun daha xeyirlisi ilə və daha böyük mükafatla əvəz olunduğunu görəcəksiniz. Elə isə Allah’dan sizi əfv etməsini istəyin! Şübhəsiz ki, Allah bağışlayandır, rəhmlidir! (Müzzəmmil surəsi, 20)**

# QADİ

## ***<u>Hökmünü yerinə yetirən, işini bitirən</u>***

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar. (Bəqərə surəsi, 117)**

Allah sonsuz qüvvət və qüdrət sahibidir. Ayələrdə də bildirildiyi kimi, bir şeyin olmasını istədiyi zaman ona yalnız: "Ol", -deyir və dilədiyi şey dərhal reallaşır. Şübhəsiz, bu, Allah'ın əzəmətinin, kainatdakı hakimiyyətinin açıq-aşkar təcəllisidir.

İnsanlar yer üzündə bəzi səbəb-nəticə əlaqələrindən asılı olaraq yaşayır. Məsələn, yer səthində sabit dayanmaq üçün cazibə qüvvəsinə, gəmilərini suda üzdürmək üçün suyun qaldırma qüvvəsinə və daha saysız-hesabsız səbəbdən, qanundan asılıdırlar. Halbuki, Allah bütün bunlardan münəzzəhdir. Çünki bütün səbəbləri və nəticələri yaradan Odur. Allah hər şeyi müəyyən qanunlar, səbəb-nəticə əlaqələri çərçivəsində yaradır və bu şəkildə insanları sınayır. Kimin, həqiqətən, qulluq edəcəyini, kimin də başqa ilahlar qəbul edərək inkar edəcəyini təyin edir. Heç şübhəsiz, Allah üçün səbəbsiz yaratmaq çox asandır. Necə ki, Quranda Allah'ın insanlara göstərdiyi möcüzələrdən bəhs edilir. Məsələn, hz. İsanın atasız doğumu bunlara bir nümunədir:

**(Məryəm) dedi: "Ey Rəbbim! Mənə bir insan toxunmadığı bir halda, necə övladım ola bilər?" (Allah) dedi: "Allah beləcə istədiyini yaradır. O, bir işin olmasını istədikdə ona ancaq "Ol!"– deyir, o da olur". (Ali-İmran surəsi, 47)**

Ayədən də göründüyü kimi, Allah: "Ol", -dedikdən sonra baş ver-

məyəcək heç bir hadisə yoxdur. Allah'ın sonsuz qüdrət sahibi, bütün kainatın maliki, bütün insanların hakimi olduğu ayələrdə belə xəbər verilir:

**Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. (Allah) onu torpaqdan yaratdı, sonra isə ona "Ol!"– dedi, o da oldu. (Ali-İmran surəsi, 59)**

**Göyləri və yeri haqq olaraq xəlq edən Odur. O: "Ol!"– dediyi gün (hər şey) olar. Onun sözü haqdır. Sur üfürüləcəyi gün hökm Ona məxsus olacaqdır. Qeybi və aşkarı bilən də Odur. O, müdrikdir, xəbərdardır. (Ənam surəsi, 73)**

**Bir şeyi (yaratmaq) istədikdə ona təkcə: "Ol!" deyər, o da olar. (Yasin surəsi, 82)**

**Dirildən də, öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: "Ol"– deyir, o da olur. (Mömin surəsi, 68)**

**Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir! O, bir işin olmasını istədikdə ona ancaq "Ol!"– deyər, o da dərhal olar. Həqiqətən, Allah həm mənim Rəbbim, həm də sizin Rəbbinizdir. Elə isə yalnız Ona ibadət edin! Düz yol da budur. (Məryəm surəsi, 35-36)**

**Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. O saat mütləq gələcəkdir. Odur ki, sən gözəl tərzdə bağışla. (Hicr surəsi, 85)**

# QƏDİM

## ***Əvvəldən xəbərdar edən, əvvəldən bildirən***

**(Allah) deyəcəkdir: “Mənim hüzurumda höcətləşməyin. Mən əvvəlcədən sizi xəbərdar etmişdim. (Qaf surəsi, 28)**

Allah sonsuz ədalət sahibidir. Özünə qulluq etmələri üçün yaratdığı insanlara elçilər göndərmiş, elçiləri vasitəsi ilə onları xəbərdar edib qorxutmuşdur. Yenə elçilərinə endirdiyi haqq kitablarla onlara doğrunu səhvdən ayıran düşünmə qabiliyyəti vermiş, yerinə yetirəcəkləri ibadətləri açıqlamış, məmnun olacağı əxlaqı xəbər vermişdir. Həmçinin kitablarında qeybdən xəbərlər vermiş; ölümün insanlara qəflətən gələcəyini, bütün kainatın yox olacağını, qiyamətin yaxınlaşaraq gəldiyini, hesab günündə bütün insanların xurma dənəsindəki sap qədər belə haqsızlıq edilmədən hesab verəcəklərini, dünyada Özünə qulluq etməyənlərin axirətdə sonsuz cəhənnəm əzabı ilə qarşılaşacaqlarını bildirmişdir.

Şübhəsiz, bütün bunlarla Allah insanları əvvəldən xəbərdar edir. Necə ki, Allah **“Xeyr! Şübhəsiz ki, bu, bir nəsihətdir. Kim istəsə, qoy onu xatırlayıb ibrət alsın“ (Əbəsə surəsi, 11-12)** ayələri ilə insanların Quran ilə öyüd alıb doğru yolu tapa biləcəklərinə diqqət çəkmişdir. Bundan başqa, Allah digər ayələrində nankorluq edənlərin qarşılaşacaqları sonu və keçmiş qövmlərdə yaşamış inkarçıların başlarına gələnləri ətraflı təsvir etmiş və onların bu vəziyyətindən qullarının ibrət almalarını tövsiyə etmişdir. Ayələrdə belə buyurulur:

**Məni, (ayələrimi) yalan sayan var-dövlət sahibləri ilə tək burax və onlara bir az möhlət ver. Həqiqətən, Bizdə qandallar və cəhənnəm hazırlanmışdır, boğazda tıxanıb keçməyən ye-**

**mək və ağrılı-acılı bir əzab da (vardır). O gün yer və dağlar titrəyəcək, dağlar səpələnən qum təpəsinə dönəcəkdir. Həqiqətən, Biz firona elçi göndərdiyimiz kimi, sizə də şahidlik edəcək elçi göndərdik. Firon elçiyə asi oldu. Biz də onu şiddətli bir əzabla yaxaladıq. Əgər küfr etsəniz, uşaqların saçlarının ağaracağı gündən necə yaxa qurtaracaqsınız? (O gün) göy parçalanacaq. (Allah'ın) vədi mütləq yerinə yetəcəkdir. Həqiqətən, bu, bir nəsihətdir. Kim istəsə, Rəbbinə tərəf yönələr. (Müzzəmmil surəsi, 11-19)**

Əlbəttə, Allah'ın xəbərdar edib qorxutmağı nəticəsində yuxarıdakı ayədə də bildirildiyi kimi, diləyən Rəbbimizə bir yol tapa bilər. Amma bütün bunlara baxmayaraq, üz çevirənlər üçün də kədərli bir əzab haqq olmuşdur. Çünki Allah ən ədalətli şəkildə cavab verəndir.

**Biz heç bir məmləkəti ora peyğəmbər göndərmədən məhv etmədik! (Peyğəmbərləri) öyüd-nəsihət vermək üçün (göndərdik). Biz zalım deyilik! (Quranı) əsla şeytanlar endirmədi. Bu onlara layiq deyildir. Onlar heç bacara da bilməzlər! Axı onlara (vəhyə qulaq asmaq) qadağan edilmişdir. Elə isə çəkin, Allah'la yanaşı, başqa bir tanrıya ibadət etmə, yoxsa əzaba düçar edilənlərdən olarsan! (Şüəra surəsi, 208-213)**

# QADİR

***<u>İstədiyini istədiyi kimi etməyə gücü çatan</u>***

**Yer üzünü qupquru görməyin də Onun dəlillərindəndir. Biz yerin üzərinə su endirdikdə o, hərəkətə gəlib qabarır. Şübhəsiz ki, onu diriltdən, ölüləri də hökmən dirildəcəkdir. Həqiqətən, O, hər şeyə qadirdir. (Fussilət surəsi, 39)**

Quranın bir çox ayəsində bildirildiyi kimi, reallaşan hər hadisə Allah'ın elmi daxilindədir və Onun: "Ol", - deməsi ilə yaranır. Yer üzündə hər bir yarpağın budaqdan qopub düşməyi Onun icazəsi ilədir, yenə heç bir dişi Onun icazəsi olmadan hamilə qalmaz və heç bir canlı Ondan xəbərsiz doğulmaz. Kainatda reallaşan hər hadisə ancaq Onun diləməsi ilə baş verir. O, iman etməyən bir qövmün yerinə dərhal yenisini gətirməyə qadirdir. Dilədiyinə tayı-bərabəri olmayan mülk verər, dilədiyindən bütün mülkünü alar. İman etməyən qövmə əzab heç gözləmədikləri anda və heç gözləmədikləri şəkildə gələr. Allah diləyərsə, yer üzünün bütün bərəkətini alar, onu qurudar və üzərində həyata dair heç bir iz buraxmaz. Göylərdə və yerdə Allah'ı aciz buraxacaq heç bir qüvvət yoxdur. O, istədiyini istədiyi şəkildə etməyə qadirdir. Allah'ın sonsuz güc və qüdrəti ayələrdə belə bildirilir:

**Məgər onlar yer üzündə gəzib-dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar ki bunlardan daha qüvvətli idilər. Göylərdə və yerdə Allah'dan qaçıb xilas ola biləcək heç bir şey yoxdur. Həqiqətən, O, biləndir və Qadirdir. (Fatir surəsi, 44)**

**And içirəm məşriqlərin və məğriblərin Rəbbinə! Biz doğrudan da, qüdrətə malikik ki, – (onları) daha yaxşıları ilə əvəz**

**edə bilərik. (Bunda) qarşımıza çıxa bilən tapılmaz. (Məaric surəsi, 40-41)**

Rəbbimiz inkar edən bir qövmə əzab verdiyi kimi, mömin qullarına da dilədiyi rəhməti verməyə qadirdir. Quranda Allah'ın gücünün hər şeyə çatdığına dair müxtəlif nümunələr verilmişdir. Allah həmişə iman edən qullarına kömək etmiş, ən çətin və qurtuluşun imkansız göründüyü vaxtlarda belə Qadir ismini təcəlli etdirib onlara çıxış yolu göstərmişdir. Hz. İbrahimi oddan, hz. Yusifi quyudan, hz. Yunisi balığın qarnından xilas etmişdir. Allah, eyni şəkildə, zövcəsi qısır və özü də yaşlı olduğu halda, hz. Zəkəriyyaya uşaq ehsan edib gücünün hər şeyə çatdığını insanlara göstərmişdir. Tarix boyunca Allah bütün elçilərini və iman edənləri dəstəkləmiş, təvəkkül və səbirlərinə qarşılıq onlara rəhm etmişdir.

# KAFİ

## ***<u>Varlığı varlıqların bütün ehtiyaclarına kifayət edən</u>***

**Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?! Onlar isə səni Ondan qeyriləri ilə qorxudurlar. Allah'ın yoldan çıxartdığı kimsəyə heç kəs yol göstərə bilməz. (Zumər surəsi, 36)**

Allah'a tam yəqinliklə iman etməyən insanların qorxduqları bir çox hadisə və varlıqlar var. Bəziləri insanlardan gələcək zərərlərdən qorxur, bəziləri təbiət hadisələrindən, bəziləri isə mal-dövlətini, sevdiklərini itirməkdən...

Halbuki, Allah yəqinliklə iman edən insanlara Quranda belə buyurur:

**Əgər yəqinliklə inanırsınızsa, (bilin ki, Allah) göylərin, yerin və onların arasında olanların Rəbbidir. Ondan başqa məbud yoxdur. O, həm dirildir, həm də öldürür. O, həm sizin Rəbbiniz, həm də əcdadlarınızın Rəbbidir. (Duxan surəsi, 7-8)**

Ayələrdə də bildirildiyi kimi, göylərdə və yerdə tək ilah Allah'dır. Möminlər bilir ki, Ondan başqa heç bir varlıq özlərinə zərər və ya fayda verməyə qadir deyildir. Əgər çətinliklə qarşılaşsalar, Allah'a yönəlir və Onun özlərinə kömək edəcəyini, dualarına qarşılıq verəcəyini bilirlər. Allah'dan başqasından kömək, fayda ummurlar. Çünki yer üzündə tək güc sahibi olan Odur və heç bir varlığın Onun diləməsi xaricində zərər və ya fayda vermə qabiliyyəti yoxdur.

Buna görə də, həqiqətən, iman edən insan yalnızca Allah'dan kömək istəyir, yalnızca Allah'dan qorxur. Necə ki, yuxarıdakı ayələrdə xəbər verilən "Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?" şəklindəki sualdan sonrakı ayələr belə davam edir:

**Allah'ın doğru yola yönəltdiyi kimsəni də azdıran olmaz. Məgər Allah qüdrətli, intiqam almağa qadir deyilmi? Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar mütləq: "Allah!"– deyəcəklər. De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allah'dan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O, mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!" (Zumər surəsi, 37-38)**

**...De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, Onun (edəcəyi işin) qarşısını kim ala bilər?" Xeyr, Allah sizin nə etdiyinizdən xəbərdardır. (Fəth surəsi, 11)**

# QƏHHAR

## *Qəhr edən, hər şeyə istədiyini edəcək surətdə qalib və hakim olan*

**O gün yer başqa bir yerlə, göylər də (başqa göylərlə) əvəz olunacaq (və insanlar) tək olan, qalib gələn Allah'ın hüzurunda duracaqlar. (İbrahim surəsi, 48)**

Allah insanların çətinliklərini aradan qaldırma gücünə və onların ürəklərinə fərahlıq verməyə necə qadir isə onları böyük bir əzabla qəhr etməyə də qadirdir. Quranda Allah'ın Öz qatından göndərdiyi əzablarla həlak olmuş qövmlərdən nümunələr verilir. Bu insanlar haqq dindən üz çevirdikləri və Allah'a baş qaldırdıqları üçün səhər vaxtı heç şüurunda belə olmadan böyük bir fəlakətlə yox edilmişlər. Allah inkar edən qövmlərin üzərinə evlərini yerlə bir edən qasırğalar göndərmiş, palçıqdan daşlar yağdırmışdır. Xəbərdar etdiyi insanların yaşadıqları şəhərləri yerlə-yeksan edən leysanlar yağdırmışdır. Torpağın altını üstünə çevirən zəlzələləri üstlərinə göndərmiş, yalnız bir səslə hamısını yerin dibinə keçirmişdir. Açıq-aydın göründüyü kimi, Allah'ın bir insanı qəhr etməsi heç nə ilə müqayisə edilə bilməz.

Lakin bütün bu saydıqlarımız Allah'ın dünya həyatında insanlara verdiyi əzablardır və onları etdiklərindən ötəri dünyada yaşayarkən qəhr etməsidir. Amma insanın əsl əzabla qəhr edilməsi cəhənnəmdədir. Allah'ın sonsuz rəhmətinə qarşılıq olaraq Onun qədrini təqdir edə bilməyən və nankorluq edən insanlar axirətdə cəhənnəm əzabı ilə qarşılaşacaqlar. Dünyada işlədikləri günahların tam qarşılığı axirətdə özlərinə veriləcək.

Allah inkarçıları cəhənnəmə atmaqla daha əvvəl heç qarşılaşmadıqları əzabla cəzalandıracaq, cəhənnəm odu ilə yanan dərilərini

yeniləri ilə dəyişdirəcək və onların üzərinə oddan divarlar hörəcək. Belə ki, insanın dünyada çəkdiyi əzablar cəhənnəmdə qarşılaşdıqlarının yanında çox yüngül olacaq. Necə ki, Quranda cəhənnəmə girən insanların Allah'dan özlərini öldürməsi və əzabdan qurtarması üçün yalvardıqları xəbər verilir.

Allah dünya həyatında Özündən üz çevirənləri cəhənnəmdə sonsuz gücü ilə qəhr edəcək. Allah'ın bu vədi ayələrdə belə xəbər verilir:

**O Öz qulları üzərində mütləq hakimiyyət sahibidir. O, müdrikdir, xəbərdardır. (Ənam surəsi, 18)**

**De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allah'dır!" De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allah'a, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və (bu) yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allah'dır. O, təkdir, qalib gələndir". (Rəd surəsi, 16)**

**O gün (insanlar) (yer üzünə) çıxacaq və onların heç bir şeyi Allah'dan gizli qalmayacaqdır. (Allah deyəcək:) "Bu gün hökm kimə məxsusdur? Tək olan, qalib gələn Allah'a!" (Mömin surəsi, 16)**

Allah qəhr edici sifətini inkara davam edən və axirətə qədər iman etməyən kəslərə yönəldir. Yoxsa Allah bütün qullarına qarşı sonsuz bağışlayıcı və mərhəmətli olandır. Səmimi şəkildə tövbə etdikdə Allah qullarının bütün günahlarını bağışlayır. İman edən qullarına dünya və axirətdə yardım edir, onları rəhməti ilə dəstəkləyir. Allah Quranda səmimi qullarına əzab vermədiyini və möminlərin üzərindəki ehsanını belə bildirir:

**Əgər siz şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin ki, Allah şükürə qiymət verəndir, biləndir! (Nisa surəsi, 147)**

# QƏYYUM

## *İdarə edib qüvvədə saxlayan*

**Allah, Ondan başqa ilah yoxdur, yaşayandır, Qəyyumdur. (Ali-İmran surəsi, 2)**

Bəzi insanlar kainatdakı qüsursuz sistemin bir dəfə yaradıldığını və bundan sonra da özbaşına buraxıldığını düşünürlər. Bu səhv düşüncə həmişə deyilməsə də, insanların şüur altına hakim olan ümumi fikirdir. Bu düşüncə özlərini Allah'a qarşı məsul saymayan, Allah'ın əmrlərinə tabe olmağı qəbul etməyən insanlar arasında bir növ qaçış yoludur. Belə düşündükləri zaman Rəbbimizə qarşı olan məsuliyyətlərinin azalacağını düşünürlər.

Ancaq varlığın təməlində o qədər incə və həssas detallarla nizamlanmış qanunlar, səbəblər var ki, hər an üstün bir gücün idarəsi olmadan fəaliyyətlərini davam etdirmələri mümkün deyil. Görən, eşidən və görüb-eşitdiklərindən bəsirətlə nəticə çıxarmağı bacaran insanlar bu böyük həqiqəti dərhal görürlər. Necə ki, "Fatir" surəsinin 41-ci ayəsində Allah göyləri və yeri Özünün saxladığını belə bildirir:

**Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar deyə, tutub saxlayır. Əgər öz mehvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Doğrudan da, (Allah) həlimdir, bağışlayandır! (Fatir surəsi, 41)**

Yuxarıdakı ayədən də göründüyü kimi, kainatı Allah yaratmışdır və onu hər an nəzarəti altında saxlayır. Kainatdakı həssas tarazlıqların, fövqəladə incəliklərlə dizayn edilmiş sistemlərin davam etməsi Allah'ın idarəsi ilə mümkündür. O diləməzsə, heç nə varlığını davam

etdirə bilməz. Allah yoxdan var etdiyi kainatı Qəyyum sifəti ilə qoruyub saxlayır. Bu həqiqəti xəbər verən ayələr belədir:

**Allah, Ondan başqa ilah yoxdur, yaşayandır, Qəyyumdur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)**

**(O gün) üzlər yaşayan, (yaradılanların) Qəyyumu qarşısında zəlil bir görkəm alacaq. Günaha batanlar isə ziyana uğrayacaqlar. (Taha surəsi, 111)**

**Biz göyü qüdrətimizlə yaratdıq və Biz onu genişləndirməkdəyik. Yeri də Biz döşədik. Döşəyənlər necə də gözəldir! Biz hər şeydən cüt-cüt yaratdıq. Bəlkə, bir düşünüb ibrət alasınız! "Allah'a tərəf qaçın! Mən sizi Ondan açıq-aşkar qorxudan bir Peyğəmbərəm! Allah'la yanaşı başqa bir tanrı qəbul etməyin. Mən sizi Ondan açıq-aşkar qorxudan bir Peyğəmbərəm!" (Zariyat surəsi 47-51)**

# QARİB

## *Yaxın olan*

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər. (Bəqərə surəsi, 186)**

Allah'ı haqqı ilə tanımayanlar və Quran ayələrindən uzaq yaşayanlar, Allah'ın varlığı haqqında çox səthi və az məlumata sahibdirlər. Bunlardan: "Yeri və göyləri yaradan kimdir?" - deyə soruşduqda: "Allah'dır", - deyirlər. Lakin insanı ən incə detalına qədər planlayıb, ən gözəl surətdə yaradan Allah'ın göylərdə olduğunu və özlərindən çox uzaqda olduğunu zənn edirlər. Halbuki, Allah qatından göndərdiyi ayələrlə Özünü qullarına tanıdır. İnsana nə qədər yaxın olduğunu "Qaf" surəsinin 16-cı ayəsində belə bildirir:

**İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. (Qaf surəsi, 16)**

Belə ki, iki adam danışarkən üçüncüsü Allah'dır, üç adam danışarkən dördüncüsü Allah'dır. İnsan pıçıldasa da, Allah onu eşidir, yerindən tərpənsə belə, onu görür. Allah adamın içindən keçən hər düşüncəni bilir. O, yatarkən də, yeriyərkən də, danışarkən də Allah onun yanındadır. O, bütün bunları edərkən Allah'ı görə bilmir, lakin Allah onu görür.

**... Elə isə ondan bağışlanma diləyin, sonra da Ona tövbə edin. Şübhəsiz ki, Rəbbim yaxındır, cavab verəndir. (Hud surəsi, 61)**

**De: "Əgər mən (haqq) yoldan çıxsam, öz əleyhimə çıxmış olaram. Yox, əgər doğru yolla gedirəmsə, bu da Rəbbimin mənə nazil etdiyi vəhyə görədir. Həqiqətən, O, eşidəndir, yaxındır". (Səba surəsi, 50)**

# QASİM

## ***Paylaşdıran, ruziləri, nemətləri ədalət, hikmət və rəhmət içində bölüb hamıya nəsibini verən***

**Sənin Rəbbinin mərhəmətini onlarmı bölüşdürürlər? Biz dünya həyatında onların dolanışıqlarını aralarında bölüşdürdük. Biri digərini öz yanına işçi götürsün deyə, bəzilərinin dərəcələrini digərlərindən üstün etdik. Sənin Rəbbinin mərhəməti onların yığdıqlarından daha xeyirlidir. (Zuxruf surəsi, 32)**

Amazonda yüz illərlə yıxılmadan dayanan ağaclar, şimal qütbündə hər tərəfi buzlarla əhatə olunmuş adada yaşayan pinqvin dəstəsi, səhrada 30 il heç tərpənmədən dayanan kaktus, yağış meşələrində daşıdıqları yarpaqlardan istehsal etdikləri göbələklərlə bəslənən qarışqalar və bunlar kimi milyonlarla il həyatlarını davam etdirən canlılar dəstəsi...

Yuxarıda sadalanan və sadalanması mümkün olmayan canlıların hamısı yaşamaq üçün qidalanmağa möhtacdır. Bəzisinin həddən artıq suya ehtiyacı olur, bəzisi illərlə heç su içmir, biri istini sevərkən, digəri istidə yaşaya bilmir. Bununla yanaşı, hamısının bir yerdə yaşaması üçün bir çox şərtin eyni anda olması vacibdir. Bütün bu canlıları yaradan Allah hər birinin ehtiyaclarını ayrı-ayrı yaratmışdır.

Allah 100 illərlə meşədə olan ağacı, burada adı çəkilən və ya çəkilməyən bütün canlıları qidalandırır və qoruyur. Bununla yanaşı, hamısına eyni torpaqla ruzi verir. Torpağın içindəki bütün mineralları, göydən endirdiyi yağışı canlılar arasında bərabər paylaşdırır.

Allah yaratdığı hər şeyin ehtiyacını qarşılaması və yaratdığı canlılar arasında rəhmətini paylaşdırması ilə sonsuz şəfqətini, mərhə-

mətini göstərir. Əlbəttə, insan da bu canlılar arasındadır. Allah insanın yaşaması üçün növbənöv nemətlər yaratmış, ehtiyacı olan hər şeyi özünə vermişdir. Necə ki, bu əhəmiyyətli həqiqətə Quranda belə diqqət çəkilir:

**O, sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allah'ın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. (Allah) onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. (Bunların) hamısı açıq-aydın yazıdadır. (Hud surəsi, 6)**

**Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? (Allah) iki məşriqin və iki məğribin Rəbbidir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? O, qarşı-qarşıya gələn iki dənizi bir-birinə qovuşdurdu. Onların arasında maneə vardır, onu keçə bilməzlər. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Onlardan mirvari və mərcan çıxır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Dənizdə dağlar kimi, yelkənləri qaldırılmış halda üzən gəmilər də Onundur. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? (Yer) üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli üzü əbədidir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Göylərdə və yerdə olan hər kəs Ondan diləyir. O, hər gün bir işdədir. (Rəhman surəsi, 16-29)**

# QAVİ

***Çox güclü olan***

**(Bunların əməli) firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir. Onlar Allah'ın ayələrini inkar etdilər, Allah da onları günahlarına görə yaxaladı. Şübhəsiz ki, Allah qüvvətlidir, cəzalandırması da şiddətlidir. (Ənfal surəsi, 52)**

Tarix boyu Allah müxtəlif qövmlərə elçilər göndərmiş, onların vasitəsi ilə insanlara yönəlməli olduqları doğru yolu bildirmişdir. Göndərilən elçilər də tək ilahın Allah olduğunu, yalnız Allah'dan qorxub çəkinməli və əmrlərini yerinə yetirməli olduqlarını qövmlərinə təbliğ etmişlər. Ancaq **"Bu, ona görə idi ki, elçiləri onlara açıq-aydın dəlillər gətirdikləri halda, onlar inkar edirdilər. Buna görə də Allah onları (əzabla) yaxaladı. Həqiqətən, O, qüvvətlidir, cəzası da şiddətlidir" (Mömin surəsi, 22)** ayəsində bildirildiyi üzrə qövmlərin çoxu inkar etmiş, elçiləri yalanlamış və Allah'ın əzabına düçar olmuşlar.

Hər dövrdə Allah'ın göndərdiyi elçiləri inkar edən, onlara mümkün olduğu qədər çətinlik yaratmağa çalışan inkarçılar Allah'ın əzabını görənə qədər bu hərəkətlərindən imtina etməmişlər. Onlar yer üzündə iqtidar, güc və sərvət sahibi olduqlarını düşündükləri üçün özlərini haqlı görmüş, təkəbbürlənmişlər. Halbuki, unutduqları çox əhəmiyyətli bir gerçək var: Allah ən böyük güc sahibidir.

Bu əhəmiyyətli gerçəyi qavramayan inkarçılar həmişə təkəbbürlənmişlər. Allah dilərsə, bütün mallarının bir fırtına ilə yox olacağını, şiddətli bir yağışla əkinlərinin məhv ediləcəyini, bir mikrobla bütün yaxınlarının ölə biləcəyini və bunun kimi bir çox səbəbi görməzlikdən gəlmişlər. Nəticədə, yer üzündə də, ölümdən sonra axirətdə də Allah'ın əzabı ilə üz-üzə gəlmişlər. Allah inkarçılara Quranda belə səslənir:

**İnsanlardan elələri də vardır ki, Allah'dan qeyrilərini (Ona) tay tutur, onları da Allah'ı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allah'a olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allah'a məxsus olduğunu və Allah'ın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)**

**Onlar Allah'ı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir! (Həcc surəsi, 74)**

**Allah kafirləri qəzəbli olduqları halda geri qaytardı və onlar heç bir xeyrə nail olmadılar. Döyüşdə Allah möminlərə kifayət etdi. Allah qüvvətlidir, qüdrətlidir. (Əhzab surəsi, 25)**

Allah Özünün üstün əxlaqını, ucalığını və böyüklüyünü gərəyi kimi təqdir edən qullarına qarşı isə sonsuz rəhmət sahibi olandır. Quranda möminlərin Allahın rəhməti ilə müjdələndikləri belə bildirilir:

**İman gətirib yaxşı işlər görənlərin Rəbbi iman gətirdiklərinə görə hidayətə qovuşdurar. Nəim cənnətlərində onların (köşkləri) altından çaylar axar. Onların oradakı duası "Pərvərdigara! Sən paksan, müqəddəssən!", orada salamlaşması "Salam!", duası: "Həmd olsun aləmlərin Rəbbi Allah'a!" sözləridir. (Yunis surəsi, 9-10)**

# KƏBİR

## *Çox böyük*

**(Allah) qeybi və aşkarı biləndir, böyükdür, ucadır. (Rəd surəsi, 9)**

Allah kainatdakı bütün canlıları öz idarəsi altında saxlayır; torpağın içinə atılan minlərlə toxumun nə vaxt cücərəcəyini, bir quyruqlu ulduzun dünyanın neçə kilometr uzaqlığından keçəcəyini, hansı canlının nə vaxt doğulacağını və nə vaxt öləcəyini, atomun nüvəsinin ətrafında fasiləsiz olaraq fırlanan elektronların orbitlərini və burada saya bilməyəcəyimiz hər şeyi bilir. Allah sonsuz böyüklüyü ilə yer üzündə yaşayan bütün insanların ağlından keçən düşüncələrə, hamısının şüur altına, gördükləri işlərindəki niyyətlərinə də hakimdir.

Allah hamısının qədərini (qismətini) ən incə detalına qədər təyin edir. Qeybin elmi yalnız Allah'a məxsusdur. Allah'ın sonsuz ağlını, elmini, bağışlamasını, mərhəmətini və əzabını insanın qavraması qeyri-mümkündür. Allah dilədiyi hər şeyi yaratmağa qadirdir.

Heç kim Onun qərarlarına kiçik bir müdaxilə belə edə bilməz. Allah kainatdakı hər hansı bir canlı üçün zərər diləyərsə, onu heç kim qaldıra bilməz, rəhmət dilədiyində də Onun rəhmətinə heç kim mane ola bilməz.

İnsanın vəzifəsi isə sadəcə bu cür böyük gücün qarşısında hörmət dolu bir qorxu ilə səcdə etmək, hər şeyin hakimi olan Rəbbimizə sığınıb özünə mərhəmət etməsini istəməkdir. Çünki Allah mərhəmət etməzsə, insanın qurtulması mümkün deyil. Allah'ın böyüklüyü və Ondan başqa ilah olmadığı ayələrdə belə xəbər verilir:

**Bu, belədir. Çünki Allah Haqdır. Ondan başqa yalvardıqları isə batildir. Həqiqətən, Allah ucadır, böyükdür. (Həcc surəsi, 62)**

**Bu, belədir. Çünki Allah Haqdır. Ondan başqa ibadət etdikləri isə batil (bütlərdir). Həqiqətən, Allah ən ucadır, ən böyükdür. (Loğman surəsi, 30)**

**Onun hüzurunda, izn verdiyi kimsələr istisna olmaqla, heç kəsin şəfaəti fayda verməz. Nəhayət, ürəklərindən o qorxu çıxınca onlar: "Rəbbiniz nə buyurdu?" – deyə soruşar, o biriləri də: "Haqqı. O, ucadır, böyükdür!" – deyə cavab verərlər. De: "Göylərdə və yerdən sizə ruzi verən kimdir?" De: "Allah'dır! Elə isə doğru yolda olan, yaxud açıq-aydın azan bizik, yoxsa siz?" De: "Siz bizim etdiyimiz günahlar barəsində sorğu-sual olunmayacaqsınız, biz də sizin etdiyiniz günahlar barəsində sorğu-sual olunmayacağıq! De: "Rəbbimiz bizi toplayacaq və aramızda ədalətlə hökm edəcəkdir. Ədalətlə hökm edən, bilən ancaq Odur!" De: "Ona qoşduğunuz şərikləri bir mənə göstərin. Xeyr. Yenilməz qüvvət, hikmət sahibi ancaq O Allah'dır! (Səba surəsi, 23-27)**

# KƏRİM

## ***Kərəmi bol olan, comərd olan***

**... Kim şükür etsə, yalnız özü üçün şükür edər; kim nankor olsa, həqiqətən, Rəbbim möhtac deyildir, kərəm sahibidir! (Nəml surəsi, 40)**

Allah kainatı ən incə detalına qədər yaratmış və Öz sifətləri ilə şəkilləndirmişdir. Var olan hər şey Ondandır. Bütün gözəlliklər, incəliklər Onun ağlının təcəllilərididir. Digər bütün varlıqlar kimi insanlar da Onun diləməsi ilə yer üzünə gəlirlər. Ana bətnində bir tikə ət parçası olan insan doğulur, böyüyür, gözəl simaya sahib olur və beləliklə, Allah'ın yaratma sənətini əks etdirir. Necə ki, ayələrdə insanın üstünlüyü belə bildirilmişdir:

**Ey insan! Səni Kərim olan Rəbbinə qarşı aldadan nədir? O Rəbbin ki, səni yaratdı, düzəldib qaydaya saldı. Sənə Özü istədiyi surətdə biçim verdi. (İnfitar surəsi, 6-8)**

Ancaq bəzi insanlar düşünmə qabiliyyətinə sahib olduqları halda, bu cür mükəmməl təşkil edilmiş dünyaya necə gəldiklərini, ətraflarındakı saysız neməti kimin verdiyini düşünmürlər. Quranda bu insanlar üçün belə deyilir:

**İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır! Həqiqətən, Biz insanı qarışıq bir nütfədən yaratdıq. Biz onu imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq. Biz ona haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor. (İnsan surəsi, 1-3)**

Özünə verilmiş qabiliyyətdən istifadə edən və görüb-düşünən insan isə özünü kimin yaratdığını, özünün əldə edə bilməyəcəyi saysız

neməti ona kimin verdiyini, hiss etmə, düşünmə qabiliyyətlərinə necə sahib olduğunu düşünür. Bunları düşünən insanın qarşısına çıxan gerçək budur: Onu var edən və əsla gücünün çatmayacağı üstün nemətləri bağışlayan, son dərəcə comərd bir yaradıcı var. Bu yaradıcı göyün və yerin Rəbbi olan Allah'dır və Quranda insanlara belə buyurur:

**Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. İnsana bilmədiklərini öyrətdi. Xeyr, insan azğınlıq edər, Özünün dövlətli olduğunu gördüyü üçün! Axı sənin axır dönüşün Rəbbinədir! (Ələq surəsi, 1-8)**

Yuxarıdakı ayələrdən də göründüyü kimi, insanın özünü yaradan ən böyük kərəm sahibi olan Allah'a qarşı vəzifəsi şükür etməkdir. Allah insana saysız nemətlər vermiş və qarşısında da yalnız Özünə qulluq etməsini, təkəbbür etməməsini istəmişdir. Bu, Allah'ın səmimi qullarının sahib olduqları əxlaqdır. Onlar da dünyada göstərdikləri bu fəzilətli davranışlarının qarşılığını axirətdə daha gözəli ilə alacaqlar.

**Əgər Allah'ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 18)**

**Sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allah'ın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, həm də çox nankordur. (İbrahim surəsi, 34)**

# QUDDÜS

## *Səhvdən, qəflətdən və hər cür əskiklikdən çox uzaq, çox təmiz*

**Göylərdə və yerdə olanların hamısı Məlik, Quddüs, Əziz, Hakim olan Allah'ı təsbeh edər. (Cümə surəsi, 1)**

Allah yerdə, göydə, kosmosda, torpağın altında olan hər şeyin, qısası mikro və makro aləmlərdəki hər şeyin tək yaradıcısıdır. İnsanın gözünü çevirib ətrafına baxdığı zaman gördüyü və görmədiyi hər yerdə olan nizam, qanunlar, sabit quruluş tamamilə Allah'a aiddir. **"Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar deyə, tutub saxlayır. Əgər öz mehvərindən çıxsalar, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz..." (Fatir surəsi, 41)** ayəsi ilə bildirildiyi kimi, var olan bütün sistemi təşkil edən və qoruyan Odur.

Allah'ın yaratdığı aciz insanlar səhv edir, unudur, qəflətə düşürlər. Eyni zamanda, həm bədəni, həm ruhi cəhətdən son dərəcə əskik və acizdirlər. Ömürləri boyu bədənlərinə baxmaq, yaşamaq üçün ona davamlı qulluq etmək məcburiyyətindədirlər. Bir az çox işləsələr, bir neçə gün yuxusuz və ya bir gün susuz qalsalar, çox aciz vəziyyətə düşürlər. Ancaq hər şeyin yaradıcısı və ən gözəl adların sahibi olan Allah bütün əskikliklərdən münəzzəhdir. Allah'ın sonsuz gücü, ucalığı, ağlı və sərhədsiz elmi Quranda insanlara bildirilmişdir. Bir ayədə Allah belə buyurur:

**Allah, Ondan başqa ilah yoxdur, Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxlu-**

**qatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)**

**Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın! Şübhəsiz ki, Allah'dan qeyri ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər – lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də! Allah'ı layiqincə qiymətləndirmədilər. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! Allah mələklərdən də elçilər seçər, insanlardan da. Həqiqətən, Allah eşidəndir, görəndir! (Allah) onların önlərindəkini də, arxalarındakını da bilir. Bütün işlər Allah'a qayıdar!**

**Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız! Allah yolunda layiqincə cihad edin. O, sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı – atanız İbrahimin dini kimi. Allah bundan əvvəl də, bunda da sizə müsəlman adını verdi ki, Peyğəmbər sizə, siz də insanlara şahid olasınız. Elə isə namaz qılın, zəkat verin və Allah'a sığının. (Allah) sizin ixtiyar sahibinizdir. O, nə yaxşı ixtiyar sahibi, necə də gözəl imdada yetəndir! (Həcc surəsi, 73-78)**

# LƏTİF

## ***Lütf sahibi, lütf edən***

**Allah Öz qullarına qarşı lütfkardır. O, istədiyinə ruzi verir. O, qüvvətlidir, qüdrətlidir. (Şura surəsi, 19)**

Daha əvvəl də dediyimiz kimi, dünyada iki cür insan yaşayır: Allah'a təslim olanlar və Onu inkar edənlər. Allah çoxlu sayda insan yaratmış, ancaq bunlardan çox az qismini Özünə təslim olanlardan etmişdir. Quranda bir çox ayədə insanların çoxunun iman etməyəcəyindən, doğru yola yönəlməyəcəyindən bəhs edilir. Bu insanlar şeytanın yoluna tabe olduqları, Allah'ı unutduqları, vicdanları qəbul etdiyi halda inkar etdikləri üçün cəhənnəm əhli olmağa layiq olmuşlar.

Allah'a təslim olan, Onun razılığı üçün yaşayan insanlar isə dünyada və axirətdə xoşbəxt yaşayırlar. Şübhəsiz, insanların elçilərlə, kitablarla xəbərdar edilmələri və beləliklə, doğru yolu tapmaları Allah'ın lütflərindən biridir. Quranda Allah'ın möminlərə olan lütfü belə bildirilmişdir:

**Allah möminlərə, öz aralarından onlara ayələrini oxuyan, onları təmizləyən, onlara kitabı və hikməti öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki, əvvəllər onlar açıq-aydın azğınlıqda idilər. (Ali-İmran surəsi, 164)**

Lətif olan Allah mömin qullarına hər cür çətin vəziyyətdə kömək edərək də lütfünü göstərir. Quranda keçmiş qövmlərdən bəhs edilən hekayələrdə Allah'ın səmimi qullarına dəstək olması, onlara lütf etməsi ilə əlaqədar müxtəlif nümunələr verilmişdir. Məsələn, Allah hz. Musanın qövmünü fironun zülmündən qurtarmış və onları yer üzünə

varis etmişdir. Bu həqiqət ayələrdə belə bildirilir:

**Həqiqətən, firon yer üzündə təkəbbürlük göstərib onun əhalisini zümrələrə bölmüşdü. (Firon) onlardan bir zümrəni zəiflədir, onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Həqiqətən, o, fitnə-fəsad törədənlərdən idi. Biz istədik ki, həmin yerdə aciz qalanlara mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək. (Qəsəs surəsi, 4-5)**

Allah iman edənlərin dünyada tək dostu və vəlisi olduğu kimi, axirətdə də onlara kömək edəcək, pisliklərini yaxşılıqlara çevirəcək və onlara lütf edəcək. Necə ki, möminlərin cənnətdəki ifadələri bu gerçəyi belə bildirir:

**Onlar deyəcəklər: "Biz əvvəllər ailəmiz içində olarkən qorxurduq. Allah da bizə mərhəmət göstərdi və bizi qızmar yel əzabından qorudu. Biz əvvəllər Ona dua edirdik. Həqiqətən, O, yaxşılıq edəndir, rəhmlidir!" (Tur surəsi, 26-28)**

**Məgər yaradan bilməzmi?! O, incəliyinə qədər biləndir. (Mülk surəsi, 14)**

**Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir. O, Lətifdir, xəbərdardır. (Ənam surəsi, 103)**

**Məgər Allah'ın göydən yağış yağdırdığını və yer üzünü yaşıllığa bürüdüyünü görmürsənmi? Həqiqətən, Allah lütfkardır, xəbərdardır. (Həcc surəsi, 63)**

**(Loğman dedi:) "Oğlum! (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, xəbərdardır. (Loğman surəsi, 16)**

# MAKİR

## ***Tələ quran***

**Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. (Ənfal surəsi, 30)**

Tarix boyu haqq dinə qarşı hiylə quran inkarçılar öz eqoist istəkləri üçün (iqtidar həvəsi, fərdi mənfəətləri kimi) insanları dindən uzaqlaşdırmağa çalışmış və onları axirətdə: **"... Siz bizə Allah'ı inkar etməyi və Ona şəriklər qoşmağı əmr edirdiniz…" (Səba surəsi, 33) -** deyəcəkləri vəziyyətdə qoymuşlar. Ancaq burada diqqət edilməli çox əhəmiyyətli bir nöqtə var, Allah bir ayəsində belə bildirir:

**Onlardan əvvəlkilər də hiylə qurdular. Halbuki, bütün hiylələr Allah'a aiddir… (Rəd surəsi, 42)**

Yuxarıdakı ayədə ifadə edildiyi kimi, hiylə Allah'a aiddir, buna görə də inkarçıların qurduqları hiyləyə qarşılıq olaraq ən böyük hiyləni quran yenə Allah'dır. Allah "İbrahim" surəsinin 46-cı ayəsində inkarçıların möminlərə qarşı tələ qurmaq istəyərkən içində olduqları çıxılmaz vəziyyətə belə diqqət çəkmişdir:

**(Zalımlar) öz hiylələrini qururdular. Halbuki, onların hiyləsi Allah'a bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpənən deyildir. (İbrahim surəsi, 46)**

Ayələrdən də göründüyü kimi, möminlərə qarşı qurulan hiyləli tələlərə qarşılıq olaraq Allah qatında mütləq rəhmani, yəni möminləri qorumaq üçün nizam var. Bu, Allah'a görə çox asandır. Allah elçilə-

rini, möminləri hədəf seçən tələlərin hamısını puç edir və tələlərini inkarçıların öz başlarına keçirir. Ayədə buyurulduğu kimi: **"...Allah daha tez hiylə qurar..." (Yunis surəsi, 21)**

Şübhəsiz, Allah hər hadisəni bir xeyirlə yaradır. Allah inkarçıların bütün bu cəhdləri ilə iman edənləri imtahandan keçirir. Yaratdığı hadisələrdəki xeyir və gözəllikləri görə bilən qullarına yardım edir və bütün bunları onların lehinə çevirir.

> **Məgər o məmləkətlərin əhalisi əzabımızın onlara gecə yatarkən gəlməyəcəyinə əmin idilərmi? Və ya o məmləkətlərin əhalisi əzabımızın onlara gündüz oynayıb əylənərkən gəlməyəcəyinə arxayın idilərmi? Yaxud Allah'ın onları dolaşdırıb bəla toruna salmayacağına əmin idilərmi? Allah'ın dolaşdırıb bəla toruna salmayacağına özlərinə zərər eləyənlərdən başqa heç kəs arxayın ola bilməz! (Əraf surəsi, 97-99)**

> **Şübhəsiz ki, Allah iman gətirən kəslərdən (kafirlərin əzab-əziyyətini) dəf edər. Allah, həqiqətən, heç bir xaini, nankoru sevməz! (Həcc surəsi, 38)**

# MALİKİ-YƏVMUD-DİN

## ***<u>Din gününün sahibi</u>***

**Din gününün Malikidir. (Fatihə surəsi, 3)**

İnsanların öldükdən sonra diriləcəkləri, bir yerə yığışaraq hesab verəcəkləri gün din günüdür. O gün insanın başqaları ilə, hətta öz anası, atası, yoldaşı və uşaqları ilə belə maraqlanmağa nə halı, nə fürsəti var. Din gününün şiddəti və fövqəladə qorxusu hər kəsi öz dərdinə salmışdır. Allah o diriliş gününü, digər adı ilə din gününü Quranda belə təsvir edir:

**Sən haradan biləydin ki, haqq-hesab günü nədir? Doğrudan da sən haradan biləydin ki, haqq-hesab günü nədir? O gün heç kəs heç kəsə fayda verə bilməz və həmin gün hakimiyyət Allah'a məxsus olacaqdır! (İnfitar surəsi, 17-19)**

O gün dünya həyatında insanın ən çox dəyər verdiyi şeylərin Allah'ın əzabı qarşısında heç bir əhəmiyyəti yoxdur. Artıq insanlar arasındakı dünyəvi yaxınlıqların, qohumluqların heç bir mənası qalmayıb. Tək dəyər insanın imanıdır. Heç kim heç kimə kömək edə bilməz. İçində olduğu bu çətin vəziyyətdən onu ancaq Allah qurtara bilər. O da yenə Allah'ın diləməsinə bağlıdır.

İnsan din gününün tək sahibi olan Allah'ın hüzurunda ilk yaradıldığı kimi təkdir. Dünyadakı həyatı ərzində hər etdiyi, hər düşündüyü din günündə qarşısına çıxmışdır. Ən kiçik bir detal belə unudulmamışdır. Allah əzəmət və şanına yaraşan bir mühit yaratmış və yaratdığı qullarını sorğu-suala tutmuşdur. Ancaq kimi diləyərsə, onu rəhməti ilə qurtarar.

İnkarçıların çox böyük peşmanlıq yaşadığı bu gün möminlər şən və sevinclidirlər.

**... O gün Allah peyğəmbəri və onunla birlikdə iman edənləri utandırmayacaq... (Təhrim surəsi, 8)**

Çünki Allah Quranda elçilərinə və iman edənlərə həm dünya həyatında, həm də şahidlərin (şahidlik üçün) gətiriləcəkləri gün kömək edəcəyini vəd etmişdir.

O günün tək sahibi Allah'dır və əmr Onundur. Ayələrdə belə buyurulur:

**Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən görməyə başlayacaqlar. (Günahkarlar) deyəcəklər: "Vay halımıza! Bu ki, haqq-hesab günüdür!" (Onlara deyiləcək:) "Bu, yalan saydığınız ayırd etmə günüdür!" (Saffat surəsi, 19-21)**

**O gün yalan hesab edənlərin vay halına! O kəslərin ki, haqq-hesab gününü yalan hesab edirlər. (Amma) bunu həddini aşan günahkardan başqa heç kəs yalan hesab etməz. (Mutəffifin surəsi, 10-12)**

**Onlar: "Əgər doğru söyləyirsinizsə, bu vəd nə vaxt yerinə yetəcək?" – deyərlər. Onlar bir-biri ilə çənə-boğaz olarkən özlərini saracaq yalnız bir dəhşətli səsə bənddirlər. Artıq nə bir vəsiyyət etməyə iqtidarları olar, nə də ailələrinin yanına qayıda bilərlər! Sur çalınan kimi qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar. Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? (Onlara deyiləcək: ) "Bu, Rəhmanın məxluqata buyurduğu vəddir. Peyğəmbərlər doğru deyirlərmiş!" Yalnız bir dəhşətli səs qopan kimi onlar hamısı qarşımızda hazır duracaqlar. (Yasin surəsi, 48-53)**

# MALİKÜL-MÜLK

## *Mülkün əbədi sahibi*

**De: “Ey mülkün sahibi Allah’ım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən. (Ali-İmran surəsi, 26)**

Hal-hazırda, gördüyünüz hər şeyin bir sahibi var. Oturduğunuz kreslo atomlardan meydana gəlib. Bu atomların hər birinin yaradıcısı Allah’dır. Saxsıda açan çiçək Rəbbimizin ona təmin etdiyi imkanlarla (günəş, su və s.) böyüyür. Pəncərədən görünən dəniz və içindəki bütün canlılar Allah dilədiyi üçün ordadırlar.

Hətta öz bədəniniz də sizdən asılı deyil, sizi yaradan Allah’ın idarəsindədir. Bütün üzvləriniz, damarlarınız, sinir sisteminiz, hüceyrələrinizin hər biri Rəbbimizin elminin və üstün ağlının əsərləridir. Bu sayılanların heç biri sizin sahib olmağı düşünüb hazırladığınız, sonra da var etdiyiniz şeylər deyil.

Siz dünyaya gözünüzü açdığınız zaman həm öz bədəninizdəki qüsursuz sistemlə, həm də yaşadığınız dünya ilə və hətta bütün kainatla qarşılaşdınız. Ancaq bundan əvvəl bunların heç birinə sahib deyildiniz və bundan sonra da öz iradənizlə bunlara sahib olmağınız mümkün deyil. Əlbəttə, bu həqiqət bütün insanlara aiddir. Deməli, bütün mülk hər şeyin yaradıcısı və sahibi olan Allah’a məxsusdur.

Bu həqiqətə baxmayaraq, insan bunları unudur və Allah’ın açıq-aşkar varlığını görməzlikdən gəlib əlindəki hər şeyin özünə məxsus olduğunu zənn edir. Bütün acizliyinə baxmayaraq, özünü üstün görən insan təkəbbürlənir və inkar edir. Lakin bu inkar yalnız özünə zərər verir, çünki hz. Musanın söylədiyi kimi: **“...Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, (Allah’a heç bir zərər yetirə bilməzsiniz). Çünki Allah, möhtac deyildir, tərifə layiqdir“. (İbrahim surəsi, 8)**

# MƏCİD

## ***<u>Şanı böyük və yüksək</u>***

**Ərşin sahibidir; Məciddir. (Büruc surəsi, 15)**

Allah’ın şanı bütün kainatda özünü açıq-aşkar dəlillərlə göstərir. Onun şanının ucalığını tanımayan heç bir insan yoxdur. Onu inkar edənlər, Ona inanmadıqlarını deyənlər belə Onun yaratdıqlarına şahid olduqları üçün gücünü və şanını tanıyıb bilirlər. Ancaq içlərindəki təkəbbürə görə inkar edirlər.

Allah’ın kainatda yaratdığı möhtəşəm gözəlliklər, qüsursuz sistemlər də Onun şanına yaraşan şəkildədir. Səmada tonlarla ağırlıqda su daşıyan buludlar, milyonlarla işıq ili uzaqlıqdakı ulduzlar, böyük səs-küylə və inanılmaz güclə axan şəlalələr, ucsuz-bucaqsız genişlikdəki okeanlar, zirvəsi qarlarla örtülmüş minlərlə metr yüksəklikdəki dağlar, içində bir-birindən fərqli rəngdə və səsdə saysız canlı növləri olan meşələr Allah’ın yaratdığı gözəlliklərdən yalnız bir neçəsidir.

Bir neçə saniyədə bir şəhəri yerlə bir edən zəlzələ, bir anda partlayaraq minlərlə dərəcə istiliyi olan lavalarını boşaldan vulkan, hər şeyi önünə alıb aparan sel, düşdüyü yerə ölüm gətirən ildırım, hər şeyi dağıdan tayfun, yalnız Allah’ın gücünün nümunəsidir. Allah hamısını şanına yaraşan şəkildə yaradıb.

Sadalananlar və burada sadalanmayan milyonlarla nümunə yalnız Allah’ın şanının böyüklüyünün kainatdakı dəlillərindəndir. Allah ayələrdə belə buyurur:

**Doğrudan da Rəbbimizin şanı çox yüksəkdir. O, nə zövcə, nə də övlad sahibi olmuşdur. (Cin surəsi, 3)**

**Onlar dedilər: “Allah’ın əmrinə təəccübmü edirsən? Ey ev əhli! Allah’ın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, təriflənməyə layiq olandır, Məciddir”. (Hud surəsi, 73)**

# MƏLCA

## *Özünə sığınılan*

**Geri qalmış üç nəfəri də (bağışladı). Hətta yer üzü öz genişliyinə baxmayaraq, onlara dar gəlmiş, ürəkləri sıxılmış və yəqin bilmişdilər ki, Allah'dan, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir. (Tövbə surəsi, 118)**

İnsanların hamısı dua etməyə möhtacdır. Dua edən insan qarşısına çıxa biləcək çətin, yaxud asan hər hadisəni kainatın yaradıcısı və hakimi olan Allah'a yönəltmiş, Ona sığınmışdır. Problemləri həll etmənin və ya zərərin qarşısını almanın bütün yollarının Allah'a dayandığını bilmək, bütün işlərdə yalnız Ona sığınmaq qullar üçün böyük güvən qaynağıdır.

Bu sığınma gücü məhdud və sonlu olan insanın sonsuz güc və qüdrət qarşısında acizliyini qəbul edərək ehtiyacını Ondan istəməsi ilə reallaşır. İnsanı yalnız bir damla sudan yaradan, bütün varlıq aləmini yoxdan var edən Allah üçün hər hansı bir adamın çətinliyini, yaxud ehtiyacını aradan qaldırmaq çox asandır. Ondan başqa sığınılacaq heç kim, heç bir məbud yoxdur. Göydə və yerdə nə varsa ehtiyacını Allah'dan istəyir. Allah'dan başqa kömək axtaranların isə öz nəfslərinə belə gücü çatmaz. İstəyən aciz olduğu kimi, özündən istənən də eyni mövqedədir, acizdir. Allah Özündən başqa kömək axtaranların içində olduqları vəziyyəti aşağıdakı ayədə bir nümunə ilə belə açıqlayır:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allah'dan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri**

**ala bilməzlər. (Bunu etmək) istəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**

İnsanların hamısı çətinliyə düşdükləri zaman Allah'dan başqa sığınacaq bir güc olmadığını anlayırlar və Allah'ın yardımını ümid edirlər. Bu həqiqət Quranda belə bildirilmişdir:

**De: "Acizanə və gizlicə: "Əgər bizi bundan qurtarsan, əlbəttə ki, şükür edənlərdən olarıq", – deyə yalvardığınız zaman sizi qurunun və dənizin zülmətlərindən xilas edən kimdir?" (Ənam surəsi, 63)**

İnsanın çətin anında yalnız Allah'ı ağlına gətirməsi, əslində, tək sığınacağı varlığın Allah olduğunu bildiyi mənasına da gəlir. Elə isə insan gecikmədən ayədə xəbər verildiyi kimi, Rəbbimizə sığınmalıdır:

**Allah tərəfindən qarşısıalınmaz gün gəlməmişdən əvvəl Rəbbinizin çağırışına cavab verin! O gün sizin üçün heç bir sığınacaq olmayacaq və siz inkar edə bilməyəcəksiniz. (Şura surəsi, 47)**

**Korla görən, iman gətirib yaxşı əməllər edənlərlə pislik edən eyni olmaz. Nə az düşünürsünüz! O, saat mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur. Lakin insanların çoxu inanmaz! Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar cəhənnəmə zəlil olaraq girəcəklər! (Mömin (Ğafir) surəsi, 58-60)**

# MƏLİK

## ***<u>Bütün kainatın sahibi və mütləq hökmdarı</u>***

**De ki: İnsanların Rəbbinə sığınaram. İnsanların Məlikinə, insanların ilahına; (Nas surəsi, 1-3)**

Allah'ın Məlik sifəti Onun var olan hər şeyin sahibi olduğu mənasını verir. Bizim gördüyümüz və görə bilmədiyimiz varlıqların hər birinin yaşadığı aləmlərin yaradıcısı və tək sahibi Allah'dır. Yaşadığımız kainatın əzəli və əbədi hökmdarı da Odur. Bütün ulduzlar, insanlar, heyvanlar və bitkilər, görə bilmədiyimiz aləmlərdə yaşayan cinlər, şeytanlar, mələklər və daha bilmədiyimiz bir çox varlıq Allah'ın əmrinə tabedir. Aləmlərin mülkünü əlində saxlayan və onlardakı fövqəladə nizamı təmin edən yalnız aləmlərin Rəbbi olan Allah'dır.

Sonsuz qüdrət sahibi olan yaradıcımıza tabe olduğunu bilən insanın özünü başıboş görməsi mümkün deyil. Allah hər şeydən xəbərdar, hər şeyə gücü yetən, hər şeyi görən və eşidəndir. Bunu bilən insan özünün Yaradana qarşı məsul olduğunu da bilməlidir. Möminlər də içində olduqları bu nizamın bir sahibinin olduğunu bilir, təbii olaraq etdikləri hər işdə hər şeyə və hər kəsə hakim olan, hər dilədiyini yerinə yetirən Allah'a yönəlirlər. Bu mövzu ilə əlaqədar olaraq Quranda xəbər verilən ayələrdən bir neçəsi belədir:

**Haqq hökmdar olan Allah ucadır! Onun vəhyi sənə tamamlanmayınca Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Elmimi artır!"– de. (Taha surəsi, 114)**

**Haqq hökmdar Allah ucadır! Ondan başqa heç bir ilah yoxdur. O, şanlı ərşin Rəbbidir. (Muminun surəsi, 116)**

**O, Özündən başqa heç bir məbud olmayan, hökmran, müqəddəs, pak, təsdiq edən, müşahidə edən, qüdrətli, Qadir, Məğrur Allah'dır. Allah onların Ona şərik qoşduqlarından ucadır. (Həşr surəsi, 23)**

**Göylərdə və yerdə nə varsa, mülkün hökmdarı, müqəddəs, yenilməz qüvvət, hikmət sahibi olan Allah'ı təqdis edib Onun şəninə tәriflər deyər! Ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. Əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara (Allah'ın) ayələrini oxuyar, onları təmizləyər, onlara kitabı və hikməti öyrədər. Özlərindən savayı hələ onlara qoşulmamış başqalarına da (peyğəmbər göndərmişdir) O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! Bu, Allah'ın istədiyinə əta etdiyi mərhəmətdir. Allah çox böyük mərhəmət sahibidir! (Cümə surəsi, 1-4)**

**Həqiqi hökmdar olan Allah ucadır. Ondan başqa heç bir tanrı yoxdur. O, kərim olan ərşin Rəbbidir! Kim Allah'la yanaşı, başqa bir tanrıya ibadət edərsə - bunun üçün isə onun heç bir dəlili yoxdur – onun cəzasını Rəbbi özü verəcəkdir. Həqiqətən, kafirlər nicat tapmazlar! (Muminun surəsi, 116-117)**

# MƏTİN

## *Çox qüdrətli olan*

**Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir. (Zariyat surəsi, 58)**

İnkarçıların ən çox yanıldıqları mövzu Allah'ın varlığı deyil, Allah'ın sifətləridir. Bəziləri Allah'ın hər şeyi əvvəldən yaradıb buraxdığını, daha sonra hadisələrin özbaşına inkişaf etdiyini, bəziləri Allah'ın insanı yaratdığını, lakin heç nədən məsul olmadığını düşünür.

Nəticədə, imansızlığın təməlində Allah'ın varlığını rədd etməklə yanaşı, **"Onlar Allah'ın qədrini haqqı ilə təqdir edə bilmədilər..." (Həcc surəsi, 74)** ayəsində də ifadə edildiyi kimi, Allah'ı lazım olduğu qədər təqdir edə bilməmək dayanır. Belə ki, dünya həyatında hər cür dəlili görmələrinə baxmayaraq, Allah'ın qüdrətini təqdir edə bilməyən insanların Allah'ın gücünü əsla inkar edə bilməyəcəkləri elə bir gün gələcəkdir ki, o gün Allah'ın əzəmətini, qüdrətini çox böyük şiddətlə hiss edəcəklər. Allah'ın qüvvəti ilə yer üzündəki ən möhkəm dayaqları olan o heybətli, sarsılmaz dağlar yerlərindən tərpədilər, köklərindən sovrular, parça-parça edilər:

**Sur bircə dəfə üfürüləcəyi, yer və dağlar qaldırılıb bircə dəfə bir-birinə çırpılacağı zaman –həmin gün vaqiə qopacaq. Göy yarılacaq və həmin gün o, süst olacaqdır. (Haqqə surəsi, 13-16)**

O gün meydana gələcək dağılma Allah'ın şanına, qüdrətinə yaraşan şəkildədir. Dünyadakı ən böyük kütlə və ən böyük həyat qaynağı olan okeanlar su kimi qaynayar, alovlanar.

İnsanın bildiyi, alışdığı və sonsuza qədər qalacağını zənn etdiyi bütün varlıqlar və nizamlar kökündən pozulmağa başlayar, darma-dağın olar. Milyonlarla ildir varlığını davam etdirən yer və göy onları inşa edən sonsuz güc tərəfindən parça-parça edilər. Yenə milyonlarla ildir işıq saçan, həyat qaynağı olan Günəş söndürülərək gerçək sahibinin qarşısına gətirilər. Beləliklə, hər şeyin üzərində tək və gerçək qüvvət sahibinin Allah olduğu, yeganə hakimiyyətin və gücün də Rəbbimizə aid olduğu bütün aydınlığı ilə ortaya çıxar. Bir ayədə bu həqiqət belə təsvir edilir:

**Onlar Allah'ın qədrini haqqı ilə təqdir edə bilmədilər. Halbuki, qiyamət günü yer bütünlüklə Onun ovcunda olacaq, göylər isə Onun əli ilə büküləcəkdir. O, pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır. (Zumər surəsi, 67)**

Rəbbimiz qiyamət günü yaşanacaq bu hadisələrlə sonsuz qüdrətini bütün insanlara göstərəcəkdir. Dünya həyatını inkarla keçirənlər o gün Allah'ın sonsuz gücünü dərk edəcəklər. İman edənlər isə bütün həyatları boyu Rəbbimizin rizasını qazanmaq üçün çalışdıqlarının mükafatı olaraq Allah'ın rəhməti ilə qarşılıq görəcəklər. Quranda möminlərin o gün yaşayacağı sevinc belə bildirilir:

**O gün bir çox üzlər parlayacaq, güləcək, sevinəcəkdir. (Əbəsə surəsi, 38-39)**

**Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən dəmiri də nazil etdik ki, Allah (Özünü) görmədən Ona və peyğəmbərlərinə kömək göstərənləri bəlli etsin. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Hədid surəsi, 25)**

# MÖVLA

## ***Dost, möminlərin dostu olan, onlara xeyir yolları açan və onları işlərində müvəffəq edən***

**Xeyr, sizin mövlanız Allah'dır. O, kömək edənlərin ən xeyirlisidir. (Ali-İmran surəsi, 150)**

Mömin hər kəsin və hər şeyin yaradılışının Allah'a borclu olduğunu bilir. Özü də daxil olmaqla, bütün varlıqları Allah yaradır və dilədiyi anda yox edib ortadan qaldıra bilər. Çünki hər şeyin gerçək sahibi Allah'dır. Buna görə də möminin yeganə dostu Allah'dır. Onu vəkil etdiyi üçün həyatı boyu hər cür çətinlik və kədərdən də uzaqdır. Hər şeydən əvvəl Rəbbimizin -ən böyük dostunun- köməyi və dəstəyi onunladır. Allah da vəlisi olduğu qulunun üzərinə əminlik (Tövbə surəsi, 26) endirmişdir.

Möminin bu dincliyi hər namazda, hər saleh əməldə, Allah rizası üçün etdiyi kiçik-böyük hər işdə Rəbbimizin özünü gördüyünü və bunların qarşılığını qat-qat verəcəyini bilməsindən qaynaqlanır. Yenə Allah'ın özünü görünməyən ordularla və mələklərlə dəstəklədiyini, qarşısından və arxasından izləyənləri olduğunu və bunların Allah'ın əmri ilə onu qoruduğunu (Rəd surəsi, 11), Onun yolunda aparılan mübarizədə qalib gələnlərin, cənnətlə müjdələnənlərin həmişə möminlər olduğunu bilir. İman edən insan mövlamız olan Allah'ın heç kimi gücü çatdığından çox yükləməyəcəyini də bilir. Qədərə və hər işi idarə edənin Allah olduğuna dəqiq iman edir və beləliklə də yalnız Allah'a təvəkkül edir. Möminlərin yaşadıqları bu ruhi hala Quranda bu ifadə ilə diqqət çəkilmişdir:

**De: "Allah'ın bizim üçün yazdığından başqa bizim başımıza**

**heç nə gəlməz. O, bizim Mövlamızdır. Qoy, möminlər Allah’a təvəkkül etsinlər!” (Tövbə surəsi, 51)**

Şübhəsiz, Allah’ın dostluğu insanların dostluğuna bənzəməz. O, kimi dost etmişsə, həmin adamı dünyada və axirətdə ən üstün nemətə qovuşdurmuşdur. Hər şeyi yaradan Rəbbimizin yaratdığını Özünə dost etməsi isə çox böyük lütfdür. Ayələrdə belə buyurulur:

**Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı. Peyğəmbər sizə, siz də insanlara şahid olasınız deyə, Allah həm əvvəl, həm də bu (kitabda) sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allah’a möhkəm sarılın. O, sizin Mövlanızdır. O, nə gözəl Mövla, nə gözəl yardımçıdır! (Həcc surəsi, 78)**

**“... Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Mövlamızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!” (Bəqərə surəsi, 286)**

**Sonra onlar Allah’a – özlərinin həqiqi himayədarına qaytarılacaqlar. Hökm yalnız Ona məxsusdur və O, ən tez haqq-hesab çəkəndir. (Ənam surəsi, 62)**

**Əgər onlar üz döndərsələr, bilin ki, Allah sizin Mövlanızdır. O, nə gözəl Mövla, nə gözəl yardımçıdır! (Ənfal surəsi, 40)**

# MÜƏXXİR / MÜQƏDDİM

## *İstədiyini yubadan, istədiyini irəli keçirən, tezləşdirən*

**Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını (sağ) qoymazdı. Lakin (Allah) onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. (Nəhl surəsi, 61)**

Allah dilədiyi hadisəni təxirə salıb yubadan, dilədiyini də önə alıb irəli keçirəndir. Hər şeyin tək yaradıcısı olduğu üçün kainat üzərindəki hər cür canlı və cansız varlıq üzərində dilədiyini etməyə qadirdir. Dünya üzərində reallaşan hər hadisənin zamanı Allah qatında əvvəldən təsbit edilmişdir. Bütün varlıqların gerçək sahibi olan Allah bu varlıqların həyatlarındakı bütün hadisələri öz zamanı ilə təyin edib. Günü, saatı, hətta saniyəsi gəldiyi an reallaşmalı olan hadisə mütləq reallaşır. Bu reallaşan hadisə ancaq Allah'ın diləməsi ilə olur. Ondan başqa heç kim hər hansı bir hadisəni tezləşdirə və ya təxirə sala bilməz. Necə ki, bu həqiqətə Quranda belə diqqət çəkilir:

**Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər. (Əraf surəsi, 34)**

Hadisələrin təyin edilən vaxtlarını Allah'dan başqa heç kim bilmir. Allah'ın təqdir etdiyi an gəlmədən bir yarpaq belə düşə bilməz. Var olan hər şey doğduğu andan ölənə qədər bu ilahi qanuna tabedir. Heç kimin Allah'ın özü üçün təyin etdiyi vaxtın xaricinə çıxmağa, heç bir hadisəni təxirə salmağa, ya da önə çəkməyə gücü çatmaz.

Ancaq Allah təqdir edərsə, dilədiyini təxirə salar, dilədiyini də qabağa keçirər. Allah ayələrində bunu belə bildirir:

**Zalımların etdikləri əməllərdən Allah'ın xəbərsiz olduğunu sanma. (Allah) sadəcə onları gözlərin bərələ qalacağı günə saxlayır. (İbrahim surəsi, 42)**

**Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə də yubada bilər. (Hicr surəsi, 5)**

Bu vəziyyətdə Allah'a iman edən bir qulun vəzifəsi Allah'ın nəyi irəli çəkdiyini, nəyi təxirə saldığını araşdırmadan Ona yaxınlaşmağa çalışmaq, Allah'ın özünə verdiklərindən tam razı olmaqdır. Çünki ayələrdə də bildirildiyi kimi, insan tələskəndir (İsra surəsi, 11). Bəzən bir hadisənin dərhal reallaşmasını istəyir, bəzən də bir hadisənin dərhal bitməsini istəyir. Amma insan üçün ən xeyirli olanı bilən, təsbit edən Allah'dır. İnsanın xeyirli gördüyü bir şey özü üçün şər ola bilər. Buna görə də mömin üçün əhəmiyyətli olan Allah'ın təqdir etdiyi hadisələrdən tamamilə razı olmaqdır.

**Məgər onlar yer üzündə dolaşıb özlərindən əvvəlkilərin axırının necə olduğunu görmürlərmi? Halbuki, onlar bunlardan daha qüvvətli idilər. Göylərdə və yerdə Allah'ı aciz edə biləcək heç bir şey yoxdur. Həqiqətən, O, biləndir, qadirdir! Əgər Allah insanları etdikləri günahlara görə cəzalandırsaydı, (Yer) üzündə bir nəfəri belə (sağ) qoymazdı. Lakin Allah onları müəyyən bir vaxta qədər gecikdirər. Nəhayət, onların vaxtı gəlib çatdıqda, artıq şübhəsiz, Allah öz bəndələrini görəndir! (Fatir surəsi, 44-45)**

# MÜƏZZİB

## *Əzablandıran*

**O gün heç kəs Onun verdiyi əzab (kimi) əzab verə bilməz və heç kəs Onun buxovladığı (kimi) buxovlaya bilməz. (Fəcr surəsi, 25-26)**

Ətraflarındakı bütün dəlillərə baxmayaraq, Allah'a iman etməyən, Onun böyüklüyünü, qüdrətini tanımamaq üçün müqavimət göstərən insanlar, şübhəsiz, böyük bir əzaba da layiqdirlər. Çünki Allah insanı yaratmış, yer üzünə yerləşdirmiş və orada ehtiyacı olan hər şeyi özünə vermişdir. Ancaq Allah'ın verdiyi bütün bu nemətlərə baxmayaraq, bəzi insanlar inkar edirlər. Hətta bir qismi azğınlıqla Allah'a iman edən möminlərə kin bəsləyir, Allah'ın dininə maneə törətməyə çalışırlar. Əlbəttə, Allah bu insanlara layiq olduqları qarşılığı dünyada da, axirətdə də verəcək.

Allah dünyadakı hökmünü elçiləri vasitəsilə yerinə yetirir. Buna görə, inkar edənlərə daddırdığı dünya əzabının bir qismi də elçilərinin vasitəsi ilə olmuşdur. Allah elçiləri vasitəsi ilə inkarçıların öncüllərini əzablandırdığını ayələrində belə bildirir:

**Əgər münafiqlər, qəlblərində mərəz olanlar və Mədinədə qəsdən yalan şayiələr yayanlar (bu pis əməllərinə) son qoymasalar, şübhəsiz ki, səni onların üstünə qaldırarıq. Sonra onlar səninlə ancaq az bir müddət orada qonşu ola bilərlər. (Əhzab surəsi, 60)**

**Allah'ın öncə gəlib-getmişlər haqqında qayda-qanunu belədir. Sən Allah'ın qoyduğu qayda-qanunda əsla dəyişiklik görməzsən! (Əhzab surəsi, 62)**

İnkarçıların axirətdə qarşılaşacaqları əzab isə sonsuza qədər davam edəcək qorxunc bir əzabdır. Allah orada insanı həm fiziki, həm də psixoloji cəhətdən əzablandıracaq çox müxtəlif üsullar yaradıb. Çünki Allah yaratdığı qullarının zəifliklərini ən yaxşı biləndir və bu zəifliklərə görə ən çox əzabı da yenə Allah verəcək. Müəzzib olan Allah axirətdə inkarçılara verəcəyi əzabı Quranda bir çox ayə ilə bildirmişdir. Ayələrdə belə buyurulur:

**Fasiqlərə gəldikdə isə onların sığınacağı yer od olacaqdır. Hər dəfə onlar oradan çıxmaq istədikdə yenidən ora qaytarılacaq və onlara: "Yalan saydığınız odun əzabını dadın!"– deyiləcəkdir. Ən böyük əzabdan əvvəl Biz onlara mütləq kiçik əzabdan daddıracağıq ki, bəlkə (doğru yola) qayıtsınlar. (Səcdə surəsi, 20-21)**

**Qullarıma xəbər ver ki, Mən bağışlayanam, rəhmliyəm. Əzabım isə üzücü əzabdır. (Hicr surəsi, 49-50)**

**Onlardan öncəkilər də hiylə qurmuşdular. Sonra Allah onların tikililərini özülündən dağıtdı, tavanları başlarına uçdu və əzab onlara gözləmədikləri yerdən gəldi. (Nəhl surəsi, 26)**

Ancaq unutmaq olmaz ki, Allah dünya həyatında insan üçün saysız-hesabsız fürsətlər yaradır. Hər insanın ölənə qədər tövbə etmə, Allah'ın rəhmətinə sığınma imkanı vardır. Belə bir vəziyyətdə həyatı boyu nə qədər xəta etmiş olsa da, insan Allah'ın diləməsi ilə Rəbbimizi çox əsirgəyən və çox bağışlayan görər. Allah səmimi tövbə edənləri Quranda sonsuz rəhməti ilə belə müjdələyir:

**Lakin hər kəs gördüyü haqsız işdən sonra tövbə edib özünü düzəltsə, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Maidə surəsi, 39)**

**Şübhəsiz ki, Mən həm də tövbə edib iman gətirəni yaxşı işlər görüb, sonra da doğru yolu tutanı çox bağışlayanam! (Taha surəsi, 82)**

# MÜHİT

## *Əhatə edən*

**Doğrudan da onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir. (Fussilət surəsi, 54)**

Dindən uzaq yaşayan insanlar gizli şəkildə etdikləri saxtakarlıqları, söylədikləri yalanları qarşılarındakı insanların bilmədiyini düşündükləri üçün içlərində qəribə bir həyəcan hiss edirlər. Etdiklərini çox böyük bir qazanc olaraq görür, hətta bundan ötəri ağılsızlıqla təkəbbürlənirlər. Halbuki, bütün saxtakar hərəkətlər şəxsin öz əleyhinədir. Belə ki, inkar edən adam zərərdə olduğunun fərqində belə deyil. Lakin düşünmədiyi bir nöqtə daha var: hər şeyin üzərində şahid olan, eşidən, görən Allah özünü hər tərəfdən əhatə edir.

İnkarçılar Allah'ı etdiklərindən xəbərsiz sanırlar. Bu həqiqət aşağıdakı ayədə belə bildirilir:

**Onlar (öz günahlarını) insanlardan gizlədir, Allah'dan isə gizlətmirlər. Halbuki, onlar (Allah'ın) razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)**

Heç bir düşüncə, heç bir pıçıltı Allah'dan gizli qalmaz. O, bütün insanların ürəklərində olanı bilir, onlara şah damarlarından daha yaxındır. Allah insanları və etdiklərini əhatə etdiyi kimi, bütün kainatı da əhatə etmişdir. Onun hakim olmadığı varlıq yoxdur. Allah cinlərin və mələklərin olduğu və daha bilmədiyimiz aləmləri də yaradan və elmi ilə əhatə edəndir. "Ali-İmran" surəsində bu həqiqətə belə diqqət çəkilir:

**Sizə bir uğur nəsib olsa, onları kədərləndirər. Sizə bir fəlakət üz verdikdə isə, buna fərəhlənərlər. Əgər səbir etsəniz və (Allah'dan) qorxsanız, onların qurduğu hiylə sizi ziyana sala bilməz. Həqiqətən, Allah onların etdiklərini əhatə edir. (Ali-İmran surəsi, 120)**

**Allah'ın məscidlərində Onun adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə çalışanlardan daha zalım kim ola bilər? Halbuki onlar oraya ancaq qorxa-qorxa girməli idilər. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir! Şərq də, qərb də Allah'ındır: hansı tərəfə yönəlsəniz Allah oradadır. Şübhəsiz ki, Allah genişdir, biləndir! Dedilər: "Allah övlad götürmüşdür". Allah pak və müqəddəsdir. Bəli, göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir! Göyləri və yeri icad edən Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol!" –deyər, o da olar. (Bəqərə surəsi, 114-117)**

**Sizə bir mənfəət yetişəndə onlar qəmgin olur, sizə bir zərər toxunanda isə ona sevinirlər. Əgər səbir edib özünüzü qorusanız, onların hiyləsi sizə heç bir zərər yetirməz. Şübhəsiz ki, Allah onların nə etdiklərini biləndir. (Ali-İmran surəsi, 120)**

# MÜBKİ / MÜDHİK

## ***Ağladan / güldürən***

**Güldürən də, ağladan da Odur! (Nəcm surəsi, 43)**

Mömin yaşadığı hər şeyi Allah'ın yaratdığını bilir və buna görə də hər cür hadisə qarşısında Allah'dan razıdır. Ən böyük çətinliyi belə təvəkküllə qarşılayır. Dünyaya aid hər şeyin müvəqqəti olduğunu bildiyi üçün bunların itkisindən kədərlənmir. Çünki bilir ki, bu dünyada əlindən çıxan hər şey gözəl əxlaq göstərdiyi üçün axirətdə özünə qat-qat artığı ilə geri veriləcək. Üstəlik, Allah inananlara dünyada da ən gözəl həyatı vəd etmişdir.

İnkar edənlər üçün isə vəziyyət belə deyil. Onlar yalnız dünya həyatını özlərinə məqsəd edir və yaşadıqları bütün hadisələri, qarşılaşdıqları bütün insanları Allah'dan müstəqil olaraq qiymətləndirdikləri üçün ruhən sıxıntı yaşayırlar. Daima ətrafdakı insanları razı etmək, dünyəvi istəklərinə qovuşmaq üçün çalışmağın yaratdığı qorxu və təlaş içindədirlər. Allah'ı özlərinə dost və yardımçı etmədikləri üçün hər şeyi özləri düşünməli, həll etməlidirlər. Amma heç nəyə gücləri çatmır. Yalnız Allah'a təvəkkülə və imana görə yaradılmış olan insanın təbii olaraq nə ruhu, nə də bədəni bu yükü qaldıra bilər. Belə ki, ağlamaq, kədər, çətinlik də bu zaman ortaya çıxır. Çünki bu insanlar Allah'dan üz çevirməklə ən böyük zülmü işləyirlər. Allah bu şəxslərə həm dünyada, həm də axirətdə bəla verəcəyini bu şəkildə xəbər verir:

**Elə isə qazandıqlarının cəzası olaraq az gülsünlər, çox ağlasınlar. (Tövbə surəsi, 82)**

Bu, yuxarıda da ifadə etdiyimiz kimi, Allah'ın inkarçılara təqdir

etdiyi bəladır. Ağlayacaqları hər hadisəni, hər səbəbi Allah yaradır və vaxtını da o təyin edir.

Allah inkarçıları ağladarkən mömin qullarına Öz qatından sevinc, rahatlıq və dinclik verir, üzlərini daima güldürür. Onların vəlisi və dostu olduğu üçün hüznü və pisliyi onlardan uzaqlaşdırır. Çətinliklə qarşılaşsalar belə, onlara səbir və güc verir, sevinclərini azaltmır. Möminlər ancaq səcdədə ikən Rəbbimizin böyüklüyü qarşısında bəslədikləri sevgi dolu qorxudan ötrü ağlayırlar. Bunun xaricində Allah diləmədikcə heç bir hadisə onları ağlada bilməz. Allah’ın onlar üçün hökmü dünyada da, axirətdə də şadlıqdır. Möminlərin məmnuniyyəti ayələrdə belə bildirilir:

**İman gətirib yaxşı işlər görənlərə gəlincə isə onlar cənnət bağçalarında şadlıq içində olacaqlar. (Rum surəsi, 15)**

**Həqiqətən də cənnət əhli həmin gün nemətlər işində kef çəkəcək. (Yasin surəsi, 55)**

**Ey qullarım! Həmin gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də. Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz. Siz də, zövcələriniz də fərəhlə cənnətə daxil olun! (Zuxruf surəsi, 68-70)**

**Şübhəsiz ki, müttəqilər cənnət bağlarında və nemət içində yaşayacaqlar. Rəbbinin onlara bəxş etdiyinə sevinəcəklər. Rəbbi onları cəhənnəm əzabından xilas etmişdir. (Tur surəsi, 17-18)**

Şübhəsiz, inkarçılarla möminlər axirətdə bir-birlərindən üzlərindəki ifadə ilə də ayrılacaqlar. Allah möminlərlə inkarçılar arasındakı ayrı-seçkiliyi ayələrdə belə bildirir:

**O gün (neçə-neçə) üzlər parlayacaq, güləcək və fərəhlənəcəkdir. O gün (neçə-neçə) üzlərə toz-torpaq hopacaq, onları zülmət bürüyəcəkdir. Məhz onlardır kafirlər, günahkarlar! (Əbəsə surəsi, 38-42)**

# MÜVƏFFİ

## ***Əhdini yerinə yetirən, hər şeyin qarşılığını tam verən, ödəyən***

**Onların nəyə ibadət etdiklərinə şübhə etmə. Onlar da atalarının əvvəllər ibadət etdiyi kimi ibadət edirlər. Şübhəsiz ki, Biz onların cəzasını əskiltmədən tam verəcəyik. (Hud surəsi, 109)**

İnsanın ömrü boyu hər etdiyi əməl, hər düşündüyü Allah qatında yazılır. Ən kiçik detal belə unudulmur. Ayəyə görə **"... (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, xəbərdardır". (Loğman surəsi, 16)**

Hesab günü gəldiyi zaman hamı öz əməllərini görəcək və buna uyğun da əvəz alacaq. Allah Quranda belə bildirir:

**O gün insanlar əməllərinin onlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər. Zərrə qədər yaxşılıq edən (əvəzini) alacaqdır. Zərrə qədər pislik edən də (əvəzini) alacaqdır. (Zəlzələ surəsi, 6-8)**

O gün kitablardakı əməllər hesab günü üçün xüsusi olaraq hazırlanmış həssas tərəzilərdə ölçüləcək. Allah'ın ədaləti qarşısında heç kimə zərrə qədər haqsızlıq edilməyəcək:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)**

Dünyada işlənən hər əməl, ən kiçik detallar belə əskik qalmadan bu tərəziyə qoyulacaq. Veriləcək qarşılıq bu həssas tərəzinin ağır tərəfinə görə olacaq:

**(O gün) kimin tərəziləri ağır gələrsə, xoşbəxt güzəran sürəcək. Kimin tərəziləri yüngül gələrsə, məskəni Haviyə olacaqdır. Sən haradan biləsən ki, o nədir? O, çox qızmar bir oddur! (Qariə surəsi, 6-11)**

Beləliklə, Allah öz ədaləti ilə hamının işlədiyi əməllərin qarşılığını tam olaraq verəcək. Digər tərəfdən, Allah insanların dualarına və əməllərinə bu dünyada da qarşılıq verir. Bu, möminlər üçün böyük lütf ikən, inkarçılar üçün isə qorxulu tələdir. Allah ayələrində bu aldanışı belə bildirir:

**Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar. (Hud surəsi, 15-16)**

**Yoxsa elə güman edirsiniz ki, Allah içərinizdə cihad edənləri, Allah’dan, Onun Peyğəmbərindən və möminlərdən başqasını özlərinə dost tutanları ayırd etməmiş siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır! Müşriklər küfr etdikləri barədə öz-özlərinə şahid olduqları halda, Allah’ın məscidlərini təmir etmək onlara layiq olmaz. Onların əməlləri puça çıxmışdır. Onlar cəhənnəmdə (əbədi qalacaqlar). (Tövbə surəsi, 16-17)**

# MÜHSİ

## ***Sonsuz da olsa, hər şeyin sayını bilən***

**(Allah) onları hesablamış və bir-bir saymışdır. (Məryəm surəsi, 94)**

**“O, yaratdığını bilməzmi?” (Mülk surəsi, 14)** ayəsində bildirildiyi kimi, Allah kainatda yaratdığı hər şeyi ən incə detalına qədər bilir, bütün canlılara hakimdir. Çünki onların hər birini rənglərinə, formalarına, görünüşlərinə, xüsusiyyətlərinə qədər Allah yaratmışdır. Yaratdığı canlı və cansız varlıqların sayını da dəqiq təyin edib. Şübhəsiz, bu, insanın əsla sahib ola bilməyəcəyi, gücü çatmayacağı bir elmdir və yalnız aləmlərin Rəbbi olan Allah’a məxsusdur.

Allah kosmosun dərinliklərində neçə ədəd planet və neçə ədəd meteorit olduğunu, ulduzların sayını, atomun nüvəsinin ətrafında dönən elektronların sayını bilir. Dünyada olan ağacların hamısında neçə yarpaq olduğunu və hər yarpaqda nə qədər atom olduğunu da bilir. Allah yerin daxilində və səthində nə qədər qum dənəciyinin olduğunu, yağan yağış damcılarının, dünyadakı bütün dənizlərin dibində yaşayan balıqların sayını bilir. Yer üzündə neçə milyard bitki və heyvan növünün olduğunu da dəqiqliklə yenə Özü bilir. Yer üzündə hz. Adəmdən bəri yaşayan, bu an yaşayan və qiyamətə qədər də yaşayacaq insanların sayını da yalnız Allah bilir...

Allah insanların bütün işlərini və düşündüklərini əskiksiz bilir və din günündə bunları onlara xəbər verəcək. Edilən hər əməl, ən kiçik detallar belə əskik qalmadan din günündə ortaya gətirilir. Allah bu həqiqəti bir ayədə belə xəbər verir:

**O gün Allah onların hamısını diriləcək və etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah onları hesaba almış, onlar isə unutmuşlar. Allah hər şeyə şahiddir. (Mücadilə surəsi, 6)**

# MÜHSİN

## *Lütfkar*

**... De: “Şübhəsiz ki, doğru yol Allah’ın haqq yoludur!” De: “Şübhəsiz ki, lütf Allah’ın əlindədir və onu istədiyinə verir! Allah əhatə edəndir, biləndir”. O, Öz mərhəmətini istədiyi kəsə məxsus edir. Allah böyük lütf sahibidir. (Ali-İmran surəsi, 73-74)**

Həm mükafat və şövq qaynağı, həm də qarşılıqsız lütf və lütfkarlığın nümunəsi olaraq saleh qullarına dünyada nemət və gözəllik verməsi Allah’ın dəyişməz qanunudur.

Zənginlik, ehtişam və gözəllik cənnətin ən əsas xüsusiyyətlərindən olduğu üçün Allah sevdiyi qullarına cənnəti xatırladacaq, onların cənnətə olan arzu və həyəcanlarını artıracaq nemətlərin və mühitlərin bənzərlərini bu dünyada da yaradır. İnkarçıların əbədi əzabları necə ki, daha bu dünyada ikən başlayırsa, saleh möminlər üçün vəd edilən əbədi gözəlliklər də özlərinə dünyadakı həyatlarında göstərilməyə başlayır.

Allah Özündən bağışlanma diləyən, tövbə edən saleh möminləri cənnətlə yanaşı, dünyada da gözəl şəkildə faydalandıracağını və onlara lütf edəcəyini bir çox ayəsində bildirmişdir. Bir ayədə belə buyurulur:

**Həm də Rəbbinizdən bağışlanma diləyəsiniz, sonra da tövbə edəsiniz ki, O, sizə müəyyən olunmuş vaxtadək gözəl güngüzəran nəsib etsin və hər fəzilət sahibinə Öz lütfündən versin. Əgər üz çevirsəniz, (bilin ki), mən sizə üz verəcək əzəmətli günün əzabından qorxuram. (Hud surəsi, 3)**

Mömin özünü yaradan uca Allah'ın böyüklüyünün şüurunda olmasından, Onun əmr və qadağalarına riayət etməsindən, Onun insanlar üçün seçib bəyəndiyi dinini yaşamasından və ən əhəmiyyətlisi ölümdən sonraya böyük ümid bəsləməsindən ötrü daim Allah'ın köməyi və lütfkarlığı ilə qarşılaşır. Allah bütün etdiklərinə ən gözəli ilə cavab verir. Çünki Allah Özü üçün edilən heç bir lütfkarlığı qarşılıqsız buraxmır. Ayələrdə belə buyurulur:

**Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi? (Rəhman surəsi, 60)**

**Allah'a qarşı yalan uyduranların qiyamət günü barədə fikirləri nədir? Həqiqətən, Allah insanlara qarşı lütfkardır, lakin onların çoxu şükür etmir. (Yunis surəsi, 60)**

**Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə xərclədikləri elə bir kiçik və ya böyük məsrəf, keçdikləri elə bir vadi yoxdur ki, onlara (savab) yazılmasın. (Tövbə surəsi, 121)**

**Mallarını Allah yolunda xərcləyənlərin məsəli yeddi sünbül verən bir toxumun məsəlinə bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah dilədiyi kimsənin (mükafatını) artırar. Allah əhatə edəndir, biləndir. (Bəqərə surəsi, 261)**

**Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah əhatə edəndir, biləndir. (Bəqərə surəsi, 268)**

**Allah'a iftira yaxanların qiyamət günü barəsindəki zənləri nədən ibarətdir? Allah insanlara qarşı mərhəmətlidir, lakin onların əksəriyyəti şükür etməz! (Yunis surəsi, 60)**

# MÜHYİ

## ***Can, sağlamlıq verən, dirildən, yaşadan***

**O, həm dirildir, həm də öldürür. Siz yalnız Ona qaytarılacaqsınız. (Yunis surəsi, 56)**

Bir varlığa can vermək, onu yoxdan yaratmaq və onun həyatını davam etdirməsi üçün uyğun şərait yaratmaq, yalnız sonsuz güc sahibi Allah'a məxsus olan xüsusiyyətdir.

Allah gözlə görülməyəcək qədər kiçik bir yumurta ilə spermanı birləşdirir. Sperma yumurtanın içinə girən kimi yumurtanın ətrafı pərdə ilə örtülür və həyat başlayır. Allah bu kiçik hüceyrəni əvvəl iki, sonra dörd hissəyə bölür, bu bölünmə sürətlə davam edir. Beləliklə, ananın qarnında möcüzəvi bir həyat başlayır. Eyni hüceyrələr bir müddət sonra fərqliləşərək həm beyni, həm sinir sistemini, həm də sərt sümükləri və qığırdaqları meydana gətirir. Beləliklə, Allah doqquz ay ərzində yoxdan görən, eşidən, danışan və düşünən insanı yaradır. Ona can bağışlayır. Bir canlının yaranma mərhələlərində baş verən bu möcüzəvi hadisələri bir yumurta ilə spermanın bacara bilməyəcəyi aydındır. Onları birləşdirən və ana qarnındakı körpəni doqquz ay ərzində qoruyaraq böyüdən yalnız Allah'dır. Bu, ilk yaradılış və ilk diriltmədir.

İnsan dünyaya gəldikdən sonra onun yaşamasına izn verən də Allah'dır. Sonra bütün insanlara qədərlərində bir ölüm günü təyin etmişdir. Bu ölüm gününə qədər də onları müəyyən bir müddət dünya həyatında saxlayaraq sınayır. Təyin edilən müddət gəldiyi zaman isə insanların canını alır və dünyada işlədikləri əməllərin əvəzini vermək

üçün daha əvvəl yoxdan var etdiyi kimi, ölümdən sonra təkrar dirildir. Şübhəsiz, bu, sonsuz gücə sahib olan Allah üçün çox asan işdir.

Ancaq insanların bir qismi bu dirilişdən xəbərsizdirlər:

**O, Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" (Yasin surəsi, 78)**

Əlbəttə, insanların qəflətdə olduqları, inkar etdikləri bu həqiqəti Allah vəd edir və onların gətirdiyi misalın ən hikmətli cavabını Quranda belə verir:

**De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. (Yasin surəsi, 79)**

**Dirildən də, öldürən də Odur. Gecə ilə gündüzün bir-birini əvəz etməsi Ona aiddir. Məgər anlamırsınız? (Muminun surəsi, 80)**

**Sən Allah'ın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir. Şübhəsiz ki, O, ölüləri də mütləq dirildəcəkdir. O, hər şeyə qadirdir. (Rum surəsi, 50)**

**Yer üzünü qupquru görməyin də Onun dəlillərindəndir. Biz yerin üzərinə su endirdikdə o, hərəkətə gəlib qabarır. Şübhəsiz ki, onu dirildən ölüləri də hökmən dirildəcəkdir. Həqiqətən, O, hər şeyə qadirdir. (Fussilət surəsi, 39)**

**(Allah) ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir. Siz də belə çıxardılacaqsınız.**

**Sizi torpaqdan yaratması, sonra da sizin bir insan olub yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərindəndir. (Rum surəsi, 19-20)**

# MÜQƏLLİB

*Çevirən (ürəkləri)*

**Biz onların ürəklərini və gözlərini, ilkin inanmadıqları kimi tərsinə çevirərik və onları tüğyanları içində çaşmış kimi gəzər bir vəziyyətdə tərk edərik. (Ənam surəsi, 110)**

İnsan Allah’ın özü üçün seçib bəyəndiyi dinini öyrənmədən və onu yaşamadan Allah’ı haqqı ilə tanıya bilməz, yaradılış məqsədini qavraya bilməz. Həyatın, ölümün, axirətin, cənnətin, cəhənnəmin, şeytanın və mələklərin nə üçün yaradıldığını da tam mənası ilə qavramaya bilməz. Milyardlarla canlının yaşadığı kainatın yaradılışındakı hikmətləri düşünməz. Bu insan ömrü boyu qəflət içində yaşayıb, yenə qəflət içində ölər. Ancaq Allah insanın ürəyinə iman verdiyi təqdirdə bütün bu sualların cavabını tapar. Beləliklə, Allah daha əvvəl Özünə inanmayan insanın ürəyini çevirərək səmimi edə bilər. Əvvəldən din haqqında mənfi düşünən insan artıq müsbət düşünməyə, Onun əmrlərindən üz çevirən insan bunları dəqiq şəkildə tətbiq etməyə başlayar. Allah’ı heç zikr etmədiyi halda, davamlı Onu xatırlamağa, heç şükür etmədiyi halda, davamlı şükür etməyə başlayar. Daha əvvəl Allah’ın varlığının dəlillərini, Onun bağışladığı nemətləri, şəfqətini və mərhəmətini heç dərk etmədiyi halda, artıq bunları açıq bir şüurla dərk edər. Belə ki, iman edən adam sanki yuxudan oyanar. Çünki Allah onun ürəyinə imanı yerləşdirmiş və küfrdən çevirmişdir.

Göründüyü kimi, imanı insana ancaq Allah verir və dilədiyi anda da geri alır. İnsanın imanlı olması isə ürəyinin Allah’ın ayələrinə qarşı yumşalmasına bağlıdır. Ancaq Allah’a təslim olanlar hidayət tapar.

İnkarçılar iman etmədikləri üçün ətraflarındakı böyük gerçəkləri

görə bilmirlər. Bütün kainat Allah'ın varlığının açıq-aşkar dəlilləri ilə doludur, amma inkar edənlər bunu dərk etmirlər. Allah bununla əlaqədar olaraq bir çox ayədə inkarçıların ürəkləri üzərində qavramalarına mane olan bir pərdə olduğunu bildirir. Bir ayədə belə buyurulur:

**Biz elçiləri yalnız müjdə verənlər və xəbərdarlıq edənlər kimi göndəririk. Kafirlər isə batil ilə haqqı aradan qaldırmaq üçün mübahisə edirlər. Onlar Mənim ayələrimə və xəbərdar olunduqları şeylərə istehza edirlər. (Kəhf surəsi, 57)**

İnkarçılar bəzən özlərinə təbliğ edilən dini anlamadıqlarını etiraf edirlər. Özlərini hidayətə dəvət edən hz. Şüeybə qarşı Quranda xəbər verilən və: **"… Ey Şüeyb! Dediklərinin çoxunu anlamırıq..." (Hud surəsi, 91) -** deyən inkarçılar bunlara bir nümunədir.

Əgər insanın ürəyi üzərində pərdə varsa və Allah bu adamın anlayışını bağlayırsa, artıq onu doğru yola çevirmək Allah'ın diləməsi xaricində mümkün deyil. Allah bu mövzuya Quranda belə diqqət çəkir:

**(Yusif) onlardan qurtulacağını yəqin etdiyi kimsəyə dedi: "Ağanın yanında məni yada sal!" Lakin şeytan ona ağasının yadına salmağı unutdurdu və o, zindanda bir neçə il də qaldı. Padşah dedi: "Mən (yuxuda) yeddi arıq inəyin yeddi kök inəyi yediyini, həmçinin yeddi yaşıl sünbül və bir o qədər də qurusunu gördüm. Ey zadəganlar! Əgər yuxu yoza bilirsinizsə, yuxumun yozumunu mənə bildirin". (Yunis surəsi, 42-43)**

Allah ancaq ürəkdən iman etməyi və Özünə yaxın olmağı istəyənin ürəyini yumşaldar, beləsini səmimi müsəlmanların arasına qatar. Səmimiyyətsiz olanların da ürəyini çevirərək onları küfrə geri qaytarar. O, dilədiyinin ürəyini dilədiyi anda çevirməyə qadirdir. Onun çevirdiyi ürəyi təkrar geri çevirə biləcək heç kim yoxdur.

# MÜKMİL

## ***Kamilləşdirən***

**... Bu gün kafirlər dininizdən əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim. Hər kəs günaha meyil etməyərək aclıq üzündən məcbur olarsa, (bilsin ki,) Allah bağışlayandır, rəhmlidir. (Maidə surəsi, 3)**

İnsanı yaradan Allah'dır və **"Yaradan Lətif və xəbərdar olduğu halda, ola bilərmi ki, O, bilməsin?" (Mülk surəsi, 14)** ayəsi ilə də vurğulandığı kimi, yaratdığı qulunu ən yaxşı tanıyan, onun istək və ehtiyaclarını ən yaxşı biləndir.

Allah qulları üçün təyin etdiyi dini fitrətlərinə ən uyğun şəkildə təşkil etmişdir. Məqsəd insanların çətinlik çəkmədən, fitrətlərinə ən uyğun olan sistem içində Allah'ı tanımaları, Ona qulluq etmələri və beləliklə də gerçək qurtuluş və xoşbəxtliyə çatmalarıdır. İslam dini sonsuz ağıl sahibi olan Rəbbimizin seçib bəyəndiyi dindir. Şübhəsiz, bu din vasitəsi ilə qullarını kamala çatdıran da yalnız Allah'dır.

**Batildən haqqa tapınaraq üzünü Allah'ın fitri olaraq insanlara verdiyi dinə tərəf tut. Allah'ın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməz. Tövbə edərək Ona tərəf dönün. Ondan qorxun, namaz qılın və müşriklərdən olmayın! (Rum surəsi, 30-31)**

# MÜQTƏDİR

## *Qüvvət və qüdrət sahiblərinin üzərində olan*

**Onlara dünya həyatını misal çək. Bu, göydən göndərdiyimiz yağışa oxşar. Yerdəki bitkilər onunla qarışıb yetişər, sonra isə küləyin sovurub apardığı quru çör-çöpə dönər. Allah hər şeyə qadirdir. (Kəhf surəsi, 45)**

Allah tarixdə bəzi insanları qüdrətli etmiş, onlara həm bənzərsiz mülk vermiş, həm də mövqe sahibi etmişdir. Yaşadıqları qövmün başına keçirmiş, bütün insanların və torpaqların rəhbərliyini onlara vermişdir. Firon da bu insanlardan biridir. Ancaq firon Allah'a qarşı böyüklənmiş, gerçək qüvvətin və gücün özündə olduğunu zənn etmişdir. Belə ki, bu, özünü ilah elan etməsinə qədər çatmışdır. Bu vəziyyət bir ayədə belə xəbər verilir:

**Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram... (Qəsəs surəsi, 38)**

**Firon qövmünü çağırıb dedi: "Ey xalqım! Məgər Misir səltənəti və altımdan axan bu çaylar mənim deyilmi?.. (Zuxruf surəsi, 51)**

Buna görə, bütün gücün tək sahibi olan Allah firon və ordusunu suda boğaraq onlardan intiqam almışdır:

**Firon və onun əsgərləri yer üzündə haqsız yerə təkəbbür göstərdilər və elə güman etdilər ki, hüzurumuza qaytarılmayacaqlar. Biz də onu və onun əsgərlərini tutub dənizə atdıq. Bax gör, zalımların aqibəti necə oldu. (Qəsəs surəsi, 39-40)**

Günahlarına görə Haman və Qarunun da fironla eyni sonu olmuşdur. Bu azğın insanlar sahib olduqları malları və ordularına görə

yer üzündə təkəbbürlənmiş, güclü və qüdrətli olduqlarını zənn etmişlər. Beləliklə də Allah gerçək gücün kimə aid olduğunu bütün qövmə göstərmişdir.

**Qarunu, fironu və Hamanı da (məhv etdik). Həqiqətən, Musa onlara aydın dəlillər gətirdi. Onlar isə yer üzündə təkəbbürlük etdilər və qaça bilmədilər. Biz hər birini öz günahına görə yaxaladıq. Onlardan kimisinin üstünə daşlar göndərdik, kimisini qorxunc səs yaxaladı, kimisini yerə batırdıq, kimisini də (suya) qərq etdik. Allah onlara zülm etmirdi, onlar ancaq əməlləri ilə özləri özlərinə zülm edirdilər. (Ənkəbut surəsi, 39-40)**

Halbuki, kainatdakı bütün iqtidar və qüdrətin yeganə sahibi Allah'dır. Yer üzündə güc və səlahiyyət sahibi olanlara əllərində olan malları, olduqları mövqeləri və orduları verən də Özüdür. Hər gün Günəşi doğuran, gecəni və gündüzü ard-arda gətirən, kosmosda sürətlə hərəkət edən planetləri orbitlərində saxlayan və kainatdakı saysız nizamı qüsursuz idarə edən Allah'ın gücü aşkardır. İnsan isə əlindən malı alındığı, mövqeyindən endirildiyi zaman bütün gücünü itirir. Bədəninin müqavimətini itirdikdə isə çox acizləşir. Beləliklə, Allah qullarına gerçək gücün kimdə olduğunu göstərir. Allah'ın hər şeyin üstündə güc sahibi olduğu Quranda belə bildirilir:

**Onlar dəlillərimizin hamısını yalan saydılar. Biz də onları qüvvət və qüdrətimizə layiq şəkildə əzabla yaxaladıq. (Qəmər surəsi, 42)**

**Yaxud onlara vəd etdiyimizi sənə göstərəcəyik. Şübhəsiz ki, Bizim onlara gücümüz çatar. (Zuxruf surəsi, 42)**

# MÜNTƏQİM

## *İntiqam alan, günahkarları layiq olduqları cəza ilə cəzalandıran*

**Onlar Bizi qəzəbləndirdikdə onlardan intiqam alıb hamısını (dənizdə) batırdıq. (Zuxruf surəsi, 55)**

Allah bütün cəmiyyətləri şirk və degenerasiyadan xilas etmək üçün seçdiyi elçiləri ilə xəbərdar edir. Həmin cəmiyyətlər bu xəbərdarlıqları dinləmədikdə və hətta azğınlıqlarını daha da artırdıqda Allah intiqam alır. Allah'ın intiqamı isə, əlbəttə, insanlarınkına bənzəmir:

**Kafirlərə belə xitab olunacaq: "Siz imana dəvət olunarkən küfrünüzdə israr etdiyiniz zaman Allah'ın sizə olan nifrəti sizin özünüzə olan nifrətinizdən daha böyük idi". (Mömin surəsi, 10)**

Allah xəbərdar edilən və gerçəyi öyrənən insanlardan çox vaxt dərhal intiqam almır. Onlara iman etmələri və günahlarından təmizlənmələri üçün müəyyən bir müddət verir. Halbuki, insanların çoxu özlərinə verilən bu müddəti əleyhlərində istifadə etməklə daha azır və üsyan edirlər. Beləliklə də əzab onlara haqq olur. Allah ayədə belə buyurur:

**Vay sənin halına, vay! Yenə də vay sənin halına, vay! Bəlkə, insan özbaşına qoyulacağını güman edir? (Qiyamət surəsi, 34-36)**

Şübhəsiz, insanın Rəbbimizi inkar etməsi, üsyan etməsi, nankorluq etməsi və bu davranışlarını davam etdirməsi ən böyük günahlardandır. Məhz burada Allah inkarçılardan intiqam alaraq daha əvvəl

heç qarşılaşmadıqları əzablarla onları tanış edir. Çünki buna layiqdirlər. Allah bir ayəsində intiqam alan olduğunu belə bildirir:

**(Kafirləri) böyük bir müsibətlə yaxalayacağımız gün Biz intiqam alacağıq. (Duxan surəsi, 16)**

Bununla yanaşı, Allah Quranın bir çox ayəsində Rəhman və Rəhim sifətlərini və insanlara qarşı sonsuz əsirgəyici olduğunu göstərir. İnkarçıların axirətdə qarşılaşacaqları bu əzab yalnız inkara davam etmələrinə görədir. Allah bunu Quran ayələrində insanlara xatırladır və qullarına əzab və zülm etmədiyini bildirir:

**Bu sizin öz əllərinizlə qazandığınız günahlara görədir. Yoxsa Allah bəndələrinə əsla zülm edən deyildir! (Ənfal surəsi, 51)**

**...Bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz! (Ənfal surəsi, 33)**

**Budur Allah'ın ayələri! Biz onları sənə olduğu kimi oxuyuruq. Allah aləmlərə zülm etmək istəməz. (Ali-İmran surəsi, 108)**

Bağışlayıcı olan Rəbbimiz bütün qullarını doğruya yönləndirmək və üzərilərindəki neməti tamamlamaq istədiyini isə ayələrdə belə bildirir:

**Allah sizə bildirmək, sizdən əvvəlkilərin getdiyi yolları sizə göstərmək və tövbələrinizi qəbul etmək istər. Allah biləndir, hikmət sahibidir! (Nisa surəsi, 26)**

**... Allah sizi çətinliyə salmaq istəməz, lakin O, sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə, şükür edəsiniz! (Maidə surəsi, 6)**

# MÜSƏVVİR

## *Təsvir edən, hər şeyə şəkil və surət verən*

**O, Xaliq, yoxdan yaradan, surət verən Allah'dır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir. (Həşr surəsi, 24)**

Dünyada yüz minlərlə fərqli növdə canlı yaşayır. Bu növlərin hamısı bir-birlərindən tamamilə fərqli görünüşlərə və fövqəladə xüsusiyyətlərə malikdir. Məsələn, kəpənəyin qanadlarındakı qüsursuz simmetriyaya nəzər salaq. Hər bir qanadın üstü müxtəlif şəkillər və rənglərlə bəzənmişdir. Bu şəkillər və rənglər nə qədər qarışıq olsa da, qanadlardakı bənzərsiz simmetriya əsla pozulmur. Belə ki, bütün kəpənəklər göz zövqünə xitab edən gözəllikdədirlər. Bu gözəllikdə təcəlli edən ağılın bir qaynağı olduğu açıqdır. Çünki adi çəkilmiş bir şəklin belə rəssamı var və şəklin öz-özünə ortaya çıxması mümkün deyil. O halda, heç kim bu cür qüsursuz yaradılmış və sənət əsəri qədər estetik olan belə bir canlının təsadüfən yarandığını deyə bilməz. Bunların hamısını yaradan, hazırlayan, əmələ gətirən bütün kainatın Rəbbi olan Allah'dır.

İnsanı yaradan, bədəninin xaricindəki və daxilindəki bütün sistemləri son dərəcə mükəmməl şəkildə hazırlayan Allah bu kompleks quruluşdakı hər nöqtədə üstün yaratmasını və izzətini göstərir. Məsələn, insan bədəninin sütununu əmələ gətirən skelet öz-özlüyündə bir mühəndislik möcüzəsidir. Bədənin dayaq-hərəkət sistemidir və beyin, ürək, ağciyər kimi həyati orqanların qorunmasını təmin edir, daxili orqanlara dəstək olur. İnsan bədəninə bənzərsiz hərəkət qabi-

liyyəti verir. Bundan başqa sümük toxuması çoxlarının zənn etdiyi kimi cansız deyil. Bədənin ehtiyacına görə kalsium, fosfat və s. mineralları toplayır və ya daha əvvəldən topladıqlarını bədənə verir. Bütün bunlarla yanaşı, qırmızı qan hüceyrələrinin istehsalı da sümüklər vasitəsi ilə edilir. Bu bəhs edilən çox funksiyalı sistem insan bədənindəki mükəmməl sistemlərdən sadəcə biridir.

Bunların hamısını bənzərsiz bir dizayn ilə yaratmış olan və hələ də yaratmağa davam edən Allah qüdrətinin təcəllilərini bizlərə davamlı göstərir. Bir ayədə möminlərin belə söylədikləri xəbər verilir:

**(Musa) dedi: "Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da doğru yolu göstərəndir!" (Taha surəsi, 50)**

# MÜBƏŞŞİR

## ***Müjdələyən***

**İman gətirib yaxşı işlər görən qullarına Allah’ın müjdə verdiyi budur. De: “Mən sizdən bunun əvəzində qohumluq sevgisindən başqa bir şey istəmirəm”. Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah bağışlayandır, şükürün əvəzini verəndir. (Şura surəsi, 23)**

Quranda bildirilən mömin əlamətlərini göstərən, Allah’a heç bir şeyi şirk qoşmayan və Allah’ın seçib bəyəndiyi din əxlaqına sonuna qədər sadiq qalaraq iman edən saleh qullar dünyada və axirətdə alacaqları qarşılıqlarla müjdələnilmişlər. Allah’ın ayələri ilə bildirdiyi bir müjdəsi belədir:

**Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnət bağları ilə müjdələyir. (Tövbə surəsi, 21)**

Bir başqa ayədə isə möminlərə müjdə olaraq bu hökm bildirilir:

**Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allah’ın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 64)**

Allah Quranda möminləri mələklər vasitəsi ilə də müjdələdiyini açıq və dəqiq şəkildə bildirmişdir:

**Həqiqətən də: “Rəbbimiz Allah’dır!”– deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub (deyirlər:) “Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. (Fussilət surəsi, 30-32)**

Sonsuz xoşbəxtlik və sevinc qaynağı olan cənnətin yanında Allah dünya həyatında da mömin qullarına çoxlu müjdə verir. Quranda bu müjdələr xəbər verilmiş və Allah'ın dualara necə qarşılıq verdiyi nümunələrlə bildirilmişdir.

Allah peyğəmbərlərə azğınlıqla baş qaldıran qövmlərin yerlə-yeksan ediləcəyi müjdəsini ayələrdə xəbər verildiyi kimi, əvvəldən bildirmişdir. Bundan başqa, Allah Özünə dua edərək övlad istəyən peyğəmbərlərin dualarını qəbul etmiş, hz. Zəkəriyyanı hz. Yəhya ilə, hz. Məryəmi hz. İsa ilə, hz. İbrahimi də hz. İshaq və hz. Yaqubla müjdələmişdir. Ayələrdə belə buyurulur:

**"Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı öncə kimsəyə qoymamışıq!" (Məryəm surəsi, 7)**

**Biz də onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik. (Saffat surəsi, 101) Sevdiyiniz başqa bir şey də - Allah dərgahından kömək və yaxın qələbə gözləyir. Möminlərə müjdə ver! (Səff surəsi, 13)**

**Tövbə, ibadət və şükür-səna edənlər, oruc tutanlar, rüku və səcdə edənlər, yaxşı işlər görməyi əmr edib pis işləri yasaq edənlər və Allah'ın hədlərini qoruyanlardır. Belə möminləri müjdələ! (Tövbə surəsi, 112)**

# MÜBƏYYİN

## ***Açıqlayan***

**Allah Öz ayələrini sizə belə bəyan edir ki, bəlkə başa düşəsiniz. (Bəqərə surəsi, 242)**

İnsan niyə yaradıldığını, nə etməli olduğunu və öldükdən sonra nə ilə qarşılaşacağını sadəcə Allah özünə açıqladığı üçün bilir. Yoxsa insan Allah'ın endirdiyi kitablar, göndərdiyi elçilər və onlar vasitəsi ilə açıqlanan məlumatlar olmasa, çox çarəsiz, aciz və qorxu içində yaşamaq məcburiyyətində qalardı. Halbuki, qullarına qarşı çox şəfqətli və mərhəmətli olan Allah bütün sualların cavabını insanlara göndərdiyi kitabı ilə açıqlamış və onları qarşılaşacaqları çarəsizliklərdən qurtarmışdır.

Bütün bunlar möminlərə şövq verir. Necə ki, Allah'ın həm elçilər, həm də endirdiyi kitablar vasitəsi ilə göstərdiyi yollar, qadağan etdiyi və ya tövsiyə etdiyi şeylər, etdiyi xəbərdarlıqlar, diqqət çəkdiyi bütün mövzular yalnız insanların qurtuluşu və Allah'ın hüzurunda sevinərək hesab vermələri üçündür.

Qulları üçün dünyada və axirətdə zülm istəməyən uca Allah onların sonsuz əzabdan qurtarmasına vəsilə olan bütün çıxış yollarını detallı olaraq təsvir etmiş, insanın yerinə yetirməli olduğu hər mövzunu açıqlamışdır. Bundan başqa, özlərindən əvvəlkilərin səhvlərini təkrarlamamaqları üçün insanlara keçmiş qövmlərdən də nümunələr vermiş və doğru yolu tapmaları üçün peyğəmbərlərin həyatlarından nümunələr çəkmişdir. Belə ki, insanların bilməsinin mümkün olmayacağı və sonsuza qədər də öyrənə bilməyəcəkləri bəzi hadisələri də Allah kitabında xəbər vermişdir. Məsələn, heç kim hz. Musanın mü-

qəddəs vadi olan Tuvada Allah'la olan danışmasına şahid olmayıb və bu gün heç bir insan tarixi məlumatla bu hadisəni öyrənmə imkanına sahib deyil. Amma Allah Quranda bizlərə bu söhbətlə əlaqədar bəzi detalları açıqlamışdır. Beləliklə, əsrlərlə bundan əvvəl Rəbbimizin qarşısında tək olduğu anda hz. Musaya deyilən sözlər qiyamətə qədər yaşayacaq hər insana hər kəlməsi ilə çatıb. Bunu xəbər verən ayələrdə belə buyurulur:

**Biz Musaya əmri yerinə yetirməyi tapşırdıqda sən qərb tərəfində deyildin. Sən şahid olanlardan da deyildin. Lakin Biz neçə-neçə nəsillər yaratdıq və onlar uzun ömür sürdülər. Sən Mədyən sakinləri arasında olub ayələrimizi onlara oxumurdun. Lakin elçiləri Biz göndəririk. Biz çağırdığımız zaman da sən dağın yanında deyildin... (Qəsəs surəsi, 44-46)**

İnsanların Allah'ın kitabından əlavə heç bir məlumat əldə edə bilməyəcəkləri mövzulardan biri də axirət həyatıdır. Ölümdən sonra həyat olduğu, dünyada keçən müddətin isə yalnız bu həyata hazırlıq mərhələsi olduğu Quranda xəbər verilir. Əks halda, insanlar yalnız dünyaya aid məlumatlarla kifayətlənmək məcburiyyətində qalar və ölümdən sonra nə olacağı ilə əlaqədar ən kiçik bir fikirləri belə olmazdı. Bunlar Allah'ın qullarına açıqladığı mövzulardan yalnız bir neçəsidir. Rəbbimiz Quran vasitəsilə insanlara ehtiyacları olan hər şeyi açıqlamışdır. Ayədə belə buyurulur:

**... (Bu Quran) uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Şübhəsiz, Allah'ın bizə açıqladıqlarından başqa bizim heç bir məlumatımız yoxdur.

# MÜDƏBBİR

## *İdarə edən, yoluna qoyan, bütün yaradılmışları nizam və tarazlıqla idarə edən və bir-birinə köməkçi edən*

**Şübhəsiz ki, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da ərşə ucalan Allah'dır. İşləri yoluna qoyan Odur... (Yunis surəsi, 3)**

Allah bütün kainatı idarə edir. Ondan xəbərsiz bir atom belə hərəkət edə bilməz. Allah kiçik bir toz zərrəsindən, boşluqda sürətlə hərəkət edən planetlərə və insan gözünün əsla görə bilməyəcəyi mikro aləmdə yaşayan milyardlarla canlıya qədər hər şeyin üzərində idarəçi olan tək gücdür. Səma, içində olan milyardlarla ulduz, bir-birinin ardınca hərəkət edən planetlər və Günəş tam təslimiyyətlə Allah'a boyun əyiblər. Kainatdakı qüsursuz nizam bütün varlıqları hər an nəzarəti altında saxlayan və hər şeyin üzərində olan bir gücün varlığını bizə sübut edir. Bu, Allah'ın qüsursuz yaratmasıdır.

Yer üzünə baxdığımız zaman da yenə fövqəladə bir nizamla qarşılaşırıq. Allah hər canlıya müəyyən vəzifələr verib. Bunlar özlərinə verilən vəzifələri bir gün, bir dəqiqə belə axsatmadan yerinə yetirirlər. Məsələn, ağaclar havadakı karbonu alıb əvəzinə oksigen vermək məcburiyyətindədirlər. Torpaq canlıların yeməsi üçün növbənöv ruzilər verir. Göydən yağan yağış müəyyən sürətdə və müəyyən miqdarda yağır, şimşəyin arxasından mütləq göy gurultusu gəlir. Təbiətdəki tarazlıq hər zaman qorunur, bəziləri ölərkən, bəziləri dünyaya yeni göz açır. Bütün varlıq aləmini yaradan Allah hər bir varlığa öz vəzifəsini ilham edərək həyatlarını davam etdirmələrini təmin edir.

Allah yaratdığı bütün canlıların bədənlərini də müəyyən bir tarazlıqla və daima idarə edir, bütün orqanları bir-birinə köməkçi edir. Belə ki, insan bədəninin funksiyalarının demək olar ki, hamısı insanların idarəsi xaricindədir. Heç kim ürəyinin döyünməsini, ya da yediklərinin mədəsində həzm edilməsini təmin edə bilməz. Qanındakı ağ qan hüceyrələrinin mikroblara qarşı apardığı mübarizədən xəbəri belə olmaz. Bədənini meydana gətirən hüceyrələrdəki saysız kimyəvi əməliyyatlardan nə xəbəri var, nə də bunlara nəzarət edə bilər.

Eynilə bədənindəki bu proseslər kimi, insanın həyatının asılı olduğu saysız xarici amil də var. Bu milyonlarla xarici amildən hər birini Allah davamlı olaraq və tarazlıqla idarə edir.

Əgər bəzi insanların iddia etdiyi kimi, Allah dünyanı yaradıb başıboş buraxsaydı, şübhəsiz, hər şey daha o anda pozulardı. Gerçək budur ki, bu qədər sistemi ancaq yaradıcımız olan Allah qoruyur və kainat ancaq Rəbbimizin idarəsi ilə varlığını davam etdirir. Çünki Allah kainatın gerçək sahibidir, yaradılışı Ona aid olduğu kimi, rəhbərliyi də yalnız Ona aiddir. Bu mövzuya Quranda belə diqqət çəkilir:

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də O, Həlimdir, bağışlayandır. (Fatir surəsi, 41)**

**De: “Sizə göydən və yerdən kim ruzi verir? Qulaqlara və gözlərə sahib olan kimdir? Ölüdən diri, diridən ölü çıxardan kimdir? Hər işi düzüb qoşan kimdir? Onlar: “Allah’dır!” – deyəcəklər. De: “Bəs onda Allah’dan qorxmursunuz?” (Yunis surəsi, 31)**

# MÖMİN

## *Təhlükəsizliyi təmin edən, əminlik yaradan*

**O Allah ki, Ondan başqa ilah yoxdur. Məlikdir; Qüddusdur; Salamdır; Mömindir; Mühəymindir; Əzizdir; Cabbardır; Mütəkəbbirdir. Allah (müşriklərin) şirk qoşduqlarından çox ucadır. (Həşr surəsi, 23)**

Allah möminlərə dünyada da, axirətdə də razı olacaqları həyatı bəxş edir. Bu həyat hər cəhətdən çox mükəmməl olduğu kimi, mənəvi olaraq da möminlərin çox güclü olmalarını təmin edir. Allah saleh qullarına mənəvi cəhətdən rahatlıq, arxayınlıq və əmin-amanlıq verir. Möminlərə dünyada çətinlik çəkdikləri dövrlərdə kömək edir, ürəklərini gücləndirir, Özünə edilən təvəkküllə rahat həyat yaşadır. Quranda Peyğəmbərimiz (s.ə.v) dövründə müharibədə məğlubiyyətin ardından Allah'ın möminlərə olan mənəvi dəstəyi belə izah edilir:

**Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Hüneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma (bu) sizin karınıza gəlmədi. Yer üzü genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız. Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası. Bundan sonra isə Allah istədiyinin tövbəsini qəbul edər. Çünki Allah bağışlayandır, rəhmlidir. (Tövbə surəsi, 25-27)**

Şübhəsiz, möminlərin qarşısına həmişə inkar edən bir qrup çıxmışdır. Bu inkarçı qrup Allah'a səmimi qəlbdən yönələn möminləri doğru yoldan ayırmağa, öz dinlərinə tabe olmağa çağırmışlar. Bu ça-

ğırışdan üz çevirənləri isə şiddətli əzabla qorxutmuşlar. Ancaq belə dövrlərdə də Allah inkar edənlərin səylərini puç etmiş və möminlərə hər cəhətdən kömək etmişdir:

**Kafirlər öz qəlbində təkəbbürlüyə – cahiliyyə lovğalığına qapıldıqları zaman Allah Öz Elçisinə və möminlərə rahatlıq nazil etdi və onlara təqva sözünü vacib buyurdu. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi bilir. (Fəth surəsi, 26)**

Allah'ın bütün möminlərə, xüsusilə də elçilərinə olan mənəvi dəstəyi başqa ayələrdə də xəbər verilib. Peyğəmbərimiz (s.ə.v) dövründəki inkarçı qövm Peyğəmbərin hicrət etməsinə səbəb olduğu üçün Allah onu hər cür mühitdə dəstəkləyəcəyini vəd etmiş, inkarçıların hücumunun qarşısını almış, mənəvi olaraq da elçisinə rahatlıq və təhlükəsizlik hissi vermişdir. Allah'ın bu köməyi ayələrdə belə xəbər verilir:

**Əgər siz (Peyğəmbərə) kömək etməsəniz, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq (Məkkədən) çıxartdılar. O iki nəfər mağarada olarkən biri öz yoldaşına dedi: "Qəm yemə, Allah bizimlədir!" Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allah'ın sözü ucadır. Allah qüdrətlidir, müdrikdir. (Tövbə surəsi, 40)**

Yuxarıda sayılanların hamısı Allah'ın insanlara dünyada verdiyi təhlükəsizlik və rahatlıq hissidir. Ancaq axirətdə olan rahatlıq və təhlükəsizlik dünyadakı ilə müqayisə edilməyəcək qədər böyük bir nemətdir. Çünki oradakı mənəvi rahatlıq sonsuza qədər davam edəcək və Allah diləmədikcə yox olmayacaq.

Allah möminlərin cənnətdə yaşayacaqları, maddi və mənəvi hər cəhətdən təmin olunmuş bu halı belə təsvir edir:

**Sözsüz ki, müttəqilər cənnət bağlarında və çeşmələr başında olacaqlar. (Onlara deyiləcək): "Oraya sağ-salamat və xatircəmliklə daxil olun!" Biz onların köksündəki kin-küdurəti çıxarıb kənar etdik. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşlar olacaqlar. Onlara orada heç bir yorğunluq toxunmayacaq və onlar oradan çıxarılmayacaqlar. (Hicr surəsi, 45-48)**

**Allah evlərinizi sizin üçün yaşayış yeri etdi, mal-qaranın dərilərindən istər səfərə çıxdığınız vaxt, istərsə düşərgə saldığınız zaman sizin üçün asanlıqla apara biləcəyiniz çadırlar, üstəlik də onların yunundan, tiftiyindən və tükündən müəyyən vaxta qədər (istifadə edəcəyiniz) ev əşyaları və başqa şeylər düzəltdi. Allah yaratdıqları şeylərdən sizin üçün kölgələr əmələ gətirdi, dağlarda sizin üçün mağaralar saldı, sizi istidən qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək zirehli geyimlər düzəltdi. Beləcə, (Allah) Öz nemətini sizə tamamlayır ki, bəlkə müsəlman olasınız. Əgər üz çevirsələr, (bil ki,) sənin vəzifən ancaq aşkar təbliğat aparmaqdır. Onlar Allah'ın neməti haqqında bildikləri halda, sonradan onu inkar edirlər. Onların çoxu kafirdir. (Nəhl surəsi, 80-83)**

# MÜCİB

## ***Özünə yalvaranların istəklərini verən, razılıq edən***

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm... (Bəqərə surəsi, 186)**

Dua Allah ilə qulu arasında xüsusi əlaqədir. Qul bütün çətinliklərini və istəklərini Allah’a açır, Ona yalvarır, Allah qulunun istəyini eşidir və ona qarşılıq verir.

Allah insana şah damarından daha yaxın olan, hər şeyi bilən, eşidəndir. İnsanın içindən keçirdiyi bir düşüncə belə Allah’dan gizli qalmaz. O halda, səmimi olaraq Allah’dan nə isə istəmək üçün insanın yalnız düşünməsi belə kifayətdir. Budur, Allah’ın razılığı bu qədər yaxındır.

Mömin dua etdiyi zaman Allah’ın özünü eşitdiyindən və duasına mütləq qarşılıq verəcəyindən əmindir. Çünki bütün hadisələrin ancaq Onun diləməsi ilə olduğunun fərqindədir. Allah’ın duaya verəcəyi qarşılığa şübhə ilə yaxınlaşmaq isə Allah’ın gücünü və qüdrətini təqdir edə bilməməkdir. Allah üçün hər hansı bir adamın çağırışına cavab vermək, duasına cavab vermək çox asandır. Amma duaya qarşılıq bir şeyin eynilə reallaşması mənasını vermir. Allah bir ayədə bu mövzu ilə əlaqədar olaraq belə xəbər verir:

**İnsan xeyir dilədiyi kimi, şər də diləyir. Doğrusu, insan tələsəndir. (İsra surəsi, 11)**

İnsan üçün nəyin şər, nəyin xeyir olduğunu isə ən yaxşı Allah bilir. Çünki hər şeyi təqdir edən Odur. Hər işində olduğu kimi, dualara qarşılıq verməsində də bir çox hikmət gizlidir.

Bu həqiqət "Bəqərə" surəsində belə bir örnəklə xəbər verilir:

**Sizin xoşunuza gəlməsə də, cihad sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bilmirsiniz. (Bəqərə surəsi, 216)**

Gizli, açıq hər çağırışa daim qarşılıq verməsi Allah'ın şanından, ucalığındandır. Allah dua mahiyyətində ağıldan keçən bir düşüncəni belə əsla qarşılıqsız buraxmır, cavabsız qoymur. Allah'dan başqa duaları eşidən və onlara qarşılıq verən yoxdur. Allah Özündən başqa heç kimin duaya qarşılıq verə bilməyəcəyini, insanlara kömək edə bilməyəcəyini belə bildirmişdir:

**Allah'dan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. (Əraf surəsi, 194)**

**Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar. Fani dünyanın bərbəzəyini arzu edib nəzərlərini onlardan çevirmə. Qəlbini Bizi xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan bir kimsəyə itaət etmə! (Kəhf surəsi, 28)**

**De: "Əgər ibadətiniz olmasa, Rəbbimin yanında nə qədir-qiymətiniz olar? Siz təkzib etdiniz. Buna görə də (əzab) yaxanızdan əl çəkməyəcəkdir!" (Furqan surəsi, 77)**

# MÜHƏYMİN

## ***Nəzarət edən və qoruyan***

**O Allah ki, Ondan başqa ilah yoxdur. Məlikdir; Qüddusdur; Salamdır; Mömindir; Mühəymindir; Əzizdir; Cabbardır; Mütəkəbbirdir. Allah şirk qoşduqlarından çox ucadır. (Həşr surəsi, 23)**

Bütün kainatın qüsursuz bir nizam içərisində hərəkət etməsini təmin edən fizika qanunları onları yaradan Allah'ın qulları üzərindəki İlahi qorumasının ən gözəl dəlillərindəndir. Məsələn, yerin cazibə qüvvəsini düşünək. Bu cazibə qüvvəsi daha zəif olsaydı, nə olardı? Əvvəla, yüngül əşyalar yer üzündə sabit dayanmazdı. Çox zəif küləklə yerdən qalxan toz və qum zərrələri saatlarla havada uçuşardı. Yağış damcılarının sürəti çox yavaşlayar, yerə enmədən yenidən buxarlanardı.

Nümunə olaraq verilə biləcək bir başqa qanun Nyutonun klassik cazibə qüvvəsi nəzəriyyəsidir. Bu qanun dünyanın, ayın və planetlərin orbitlərinin içində olduqları həssas tarazlığı açıqlayır. Bu tarazlıqda yaranacaq ən kiçik bir pozulma Yerin ya sürətlə Günəşə yaxınlaşıb istidən qovurulmasına, ya da Günəşdən uzaqlaşaraq kosmosa uçmasına və soyuqdan donmasına səbəb olar.

Bəs cisimlər və səthlər arasında sürtünmə qüvvəsi olmayan Yer necə olardı? Qələm insanların əllərindən sürüşüb düşər, kitablar və dəftərlər stolun üstündən sürüşər, stol döşəmənin üzərindən sürüşüb divara çırpılar, qısası, bütün cisimlər, bir səthə toxunana qədər sürüşər və diyirlənərdi. Sürtünmə qüvvəsi olmayan Yerdə bütün əlaqələr pozular, mismarlar və vintlər yerlərindən çıxar, avtomobillərdə əyləc

tutmaz, səs əsla dayanmayıb bir divardan o birinə əks-səda salar...

Allah'ın canlıların qorunması üçün yaratdığı xüsusiyyətlər, şübhəsiz, sadəcə fizika qanunları ilə məhdud deyil. Buna bir başqa nümunə də insanın üzərində yaşadığı yer üzünün möhkəm və təhlükəsiz olmasıdır. Dünyanın mərkəzinə doğru endikcə istilik hər kilometrdə 30°C artır. Nüvədə bu istilik 4.500°C kimi inanılmaz dərəcədə yüksəkliyə çatır. Yerin yalnız 1 km dərinliyində istiliyin 60°C-yə yaxın olduğu düşündükdə bunun nə qədər böyük bir təhlükə olduğu açıq-aşkar görünür. Buna baxmayaraq, bütün canlılar çox rahat vəziyyətdə, ayaqları altında qaynayan maqmadan xəbərsiz halda, həyatlarını davam etdirirlər.

Göründüyü kimi, Allah altında çox güclü od qaynayan yer üzündə mükəmməl bir nizam yaratmışdır. Belə ki, dünyanın heç bir yerində zərrə qədər nizamsızlıq yoxdur. O, göyləri və yeri idarəsi altında saxlayır, kainatdakı bütün canlıları bildikləri və ya bilmədikləri böyük təhlükələrə qarşı hər an qoruyur. İnsanı isə daha döl halında ikən qorumaq üçün möhkəm bir yerə yerləşdirib onu müdafiə edir.

Görürük ki, insanların əksəriyyətinin təbii qarşıladığı bir çox xüsusiyyət, əsasən, Allah'ın qullarına olan mərhəmətinə və İlahi müdafiəsinə işarə edir. Çünki nizam-intizamı təmin edən yüzlərlə fizika qanununun hal-hazırkı vəziyyəti üçün heç bir məcburedici səbəb yoxdur. Allah qoruyanların ən xeyirlisidir.

**Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz oradan zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! (Mülk surəsi, 3-4)**

# MÜTƏALİ

## *Ağılın dərk edə biləcəyi hər şeydən çox uca*

**Haqq hökmdar olan Allah ucadır! Onun vəhyi sənə tamamlanmayınca Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Elmimi artır!"– de. (Taha surəsi, 114)**

İnsanların bir qismi ətraflarındakı saysız dəlilə baxmayaraq, Allah'ın ululuğunu, ucalığını təqdir edə bilmirlər. Son dərəcə aciz olduqları halda, təkəbbürlənir, özlərini yaradan Allah'ı isə heç düşünmürlər. Bu təkəbbürün səbəbi insanın pisliyi əmr edən nəfsə sahib olmasıdır. Ancaq iman edənlər Allah'ın ucalığı qarşısında insanın nə dərəcə aciz bir varlıq olduğunu, buna görə, heç nəyə güc yetirə bilməyəcəklərini bilirlər. Çünki Allah Quranda insanların acizliyinə və Özünün ucalığına belə bir misalla diqqət çəkir:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allah'dan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. (Bunu etmək )istəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**

**Onlar Allah'ı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir! (Həcc surəsi, 74)**

Halbuki, kainatın hər nöqtəsi Allah'ın böyüklüyünü əks etdirir. Amma Onun sonsuz gücünü və elmini izah etməyə əsla kafi deyil. Allah şirkdən, qüsurdan, əskiklikdən münəzzəh olandır. Bütün üstün sifətlərin və bütün gözəl adların tək sahibidir. Onun elmi, ağlı, gücü, qüdrəti, rəhməti, şəfqəti və lütfkarlığı sonsuzdur.

"Sonsuz" sözü Allah'ın böyüklüyünü qavramaq üçün üzərində yaxşı-yaxşı düşünmək tələb edən anlayışdır. Allah ölümlərindən sonra insanları yeni bir yaradılışla yaradacaq və bundan sonra dünyada etdiklərinin qarşılığı olaraq cənnət və ya cəhənnəmdə davam edəcəkləri sonsuz həyatlarını başladacaq. Burada yüz deyil, min deyil, yüz min və ya milyard il də deyil, trilyon, ya da katrilyon dəfə katrilyon il də deyil, sonsuza qədər davam edəcək ömürdən bəhs edilir. Yəni yüz trilyon insan olsa, gecə gündüz heç dayanmadan yüz trilyonu yüz trilyon ilə vursalar, yüz trilyon ömürləri olsa və ömürləri boyu bu işlə məşğul olsalar, yenə də il sayını hesablaya bilməzlər.

Halbuki, Allah elə böyük bir elmə malikdir ki, insana görə sonsuz olan hər şeyi O bilir. Zamanın ilk yaradıldığı andan sonsuza qədər davam edəcək hər hadisəni, hər düşüncəni, zamanı hər halı ilə təyin edən və bilən Allah'dır. Bu həqiqətə Quranda belə diqqət çəkilir:

**Biz, həqiqətən də hər şeyi qədərincə yaratdıq. Biz bircə dəfə əmr edirik, o da bir göz qırpımında yerinə yetir. Biz həmtaylarınızı məhv etmişik. Amma heç yada salan varmı? Onların etdiyi hər şey kitablarındadır. Hər bir kiçik və böyük (əməl) yazılmışdır. (Qəmər surəsi, 49-53)**

**(Allah) onlara sağlam övlad verdikdə isə özlərinə verdiyi şeydə Ona şərik qoşmağa başladılar. Allah isə onların qoşduqları şəriklərdən ucadır. (Əraf surəsi, 190)**

**Qurunun və dənizin qaranlıqlarında sizə doğru yol göstərən, küləkləri Öz mərhəməti önündə müjdəçi kimi göndərən kimdir? Heç Allah'la yanaşı başqa bir məbudmu var? Allah onların qoşduqları şəriklərdən ucadır. (Nəml surəsi, 63)**

**Sizi yaradan, sonra sizə ruzi verən, sonra sizi öldürən, sonra da sizi dirildəcək məhz Allah'dır. Şərikləriniz içərisində bunlardan birini edə bilən varmı? O, pakdır və Ona şərik qoşduqlarından ucadır. (Rum surəsi, 40)**

# MÜTƏKƏBBİR

## ***<u>Hər şeydə və hər hadisədə böyüklüyünü göstərən</u>***

**“O Allah ki, Ondan başqa ilah yoxdur. Məlikdir; Qüddusdur; Salamdır; Mömindir; Mühəymindir; Əzizdir; Cabbardır; Mütəkəbbirdir. Allah şirk qoşduqlarından çox ucadır”. (Həşr surəsi, 23)**

Allah böyüklüyünü və qüdrətini Quranda verdiyi nümunələrlə izah edir. Bu nümunələrdən biri hz. Musanın Allah’ı görmək istəməsidir. Hz. Musa Allah’ı görmək istəmiş, buna görə də Ona səslənərək: **“Rəbbim, mənə göstər, Sənə baxım”, -**demişdir. Bunun üzərinə Allah: **“Sən məni görə bilməzsən. Lakin dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən”, -** deyə cavab verir. Allah dağa təcəlli edincə onu parça-parça edir və hz. Musa huşunu itirərək yerə yıxılır. Özünə gələn kimi: **“Sən pak və müqəddəssən!“ (Əraf surəsi, 143)** -deyir.

Hz. İbrahim isə ayələrdə xəbər verildiyinə görə**: “Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!“** - demişdir. Bunun üzərinə Allah: **“Quşlardan dördünü tut və onları özünə tərəf çəkib tikə-tikə et. Sonra hər dağın başına onlardan bir parça qoy, sonra da onları çağır, tez sənin yanına gələcəklər. Bil ki, Allah qüdrətlidir, müdrikdir!“ (Bəqərə surəsi, 260)** - şəklində cavab verir. Beləliklə, Allah ona böyüklüyünün bir dəlilini daha göstərir.

Allah, hz. Luta da səhər vaxtı qövmündən iman etmiş kəslərlə birlikdə çıxmasını və qövmünü tərk edərkən arxasına belə baxmamasını söyləyir. Səhər vaxtında isə hz. Lutu və yaxınlarını qurtararaq inkarçı qövmü böyük bir əzabla həlak edir.

Atəşə atılan hz. İbrahimə isə atəşi sərin etmişdir. Hz. İsanın əli ilə ölüləri diriltmiş, kor olanları sağaltmışdır. Dənizi yararaq fironu və ordusunu suda boğmuşdur. Beləliklə, Allah insanlara hər hadisədə böyüklüyünü və sonsuz gücünün təcəllilərindən bəzilərini açıq-aşkar göstərir.

Allah hər an, hər yerdə və hər hadisədə böyüklüyünü və qüdrətini açıq-aşkar göstərir. Dünya həyatına və istəklərinə aldanan insanların üzərinə səhər vaxtı qasırğa göndərir. Onların yaşadıqları şəhəri alt-üst edir və yaşanılması mümkün olmayan hala salır. Mallarını, mülklərini və sahib olduqları hər şeyi əllərindən alır.

Bir şəhəri yalnız yağış yağdıraraq suların içində qoyur, bir neçə saniyə davam edən zəlzələ ilə bir şəhəri xəritədən silir. Onun əmri ilə hərəkət edən yer, göy, külək və yağış haqqında əzab hökmü yazılmış şəhəri məhv edir. O şəhərin xalqı da Allah'ın sarsılmaz gücünə məruz qaldıqları əzabla birlikdə şahid olurlar.

Şübhəsiz, Allah Mütəkəbbirdir. Onun gücü və qüdrəti qarşısında yer üzündə böyüklük edən heç kim yoxdur. O, qarşısında səcdə edilməli tək məbuddur.

**Allah, Ondan başqa ilah yoxdur, (əbədi) yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, ucadır, uludur. (Bəqərə surəsi, 255)**

# MÜSƏVVA

***Şəkilləndirən, surət verən***

**Ey insan! Səni öz səxavətli Rəbbinə qarşı qoyan nədir? O ki, səni yaradıb kamilləşdirdi və sənə gözəl bir surət verdi. Səni istədiyi şəklə saldı. (İnfitar surəsi, 6-8)**

İnsan yumurta ilə spermanın birləşməsi ilə əmələ gələn tək bir hüceyrədən yaranır. Bu hüceyrə ayələrdə bildirildiyi kimi, əvvəl bir parça ət formasında olur. Daha sonra Allah insanı şəkildən şəklə salaraq ana qarnında inkişaf etdirir və insan olaraq yer üzünə gətirir. Yer üzünə gələn insanın surəti isə, şübhəsiz, son dərəcə mükəmməldir. Allah insanın yaradılışı ilə əlaqədar belə buyurur:

**Sizin üçün yeri məskən, göyü də tavan edən, sizə surət verib surətlərinizi gözəl şəklə salan, sizə pak nemətlərdən ruzi verən Allah'dır. Budur sizin Rəbbiniz olan Allah. Aləmlərin Rəbbi olan Allah nə qədər xeyirxahdır! (Mömin surəsi, 64)**

Əlbəttə, insan Quranda bildirildiyi kimi, dünyadakı ən gözəl canlıdır. Allah insan bədəninin həm daxilində, həm də xarici görünüşündə saysız iman dəlilini göstərir. İnsan bədəninə yalnız xaricdən baxdığımız zaman belə Allah'ın mükəmməl sənəti dərhal görünür. Hər insanda mövcud olan bədən simmetriyasının-iki qolun, iki ayağın olması, gövdənin qollara, ayaqlara və başa olan nisbəti ilk baxışda diqqət çəkəcək dərəcədə nizamlıdır. Bu nisbətin hər birini Allah tam bir uyğunlaşma ilə yaratmışdır. Məsələn, hər insanın bədən uzunluğu baş uzunluğunun səkkiz mislidir, üzü burun uzunluğunun üç misli qədərdir, iki göz arasında bir göz qədər məsafə var, qol və ayaq nisbətləri və uzunluqları həm estetik cəhətdən mükəm-

məldir, həm də insanın ehtiyaclarını qarşılamaq üçün əlverişlidir.

Yuxarıda verilən simmetriya ilə əlaqədar detalları görmək üçün ətrafınızdakı insanlara baxmağımız kifayətdir, bu xüsusiyyətləri hər birində ayrı-ayrı görə bilərsiniz. Hətta bütün bu xüsusiyyətlər bu ana qədər yaşayan təxminən 150 milyard insan üzərində də görülüb və (Allah'ın diləməsi xaricində) bundan sonra yaşayacaq olan insanlarda da görüləcək. Çünki bu, Allah'ın yaratmasıdır və Allah'ın yaratmasında qüsur görmək mümkün deyil. Allah'ın mükəmməl yaratması ilə əlaqədar ayələrdən bəziləri belədir:

**Allah, Ondan başqa ilah yoxdur, yaşayandır, (bütün yaradılanların) Qəyyumudur. (Ali-İmran surəsi, 2)**

**O, göyləri və yeri ədalətlə yaratdı, sizə surət verib onları gözəl şəklə saldı. Dönüş də Onadır. (Təğabun surəsi, 3)**

**Bətnlərdə sizə istədiyi surəti verən Odur. Ondan başqa ilah yoxdur, qüdrətlidir, müdrikdir. (Ali-İmran surəsi, 6)**

**O, Xaliq, yoxdan yaradan, surət verən Allah'dır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir. (Həşr surəsi, 24)**

**Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa, həqiqətən, Biz sizi torpaqdan, sonra mənidən, sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş və düşməmiş bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə göstərək. İstədiyimizi ana bətnində müəyyən bir müddət saxlayar, sonra sizi uşaq olaraq çıxardarıq. Sonra yetkinlik çağına yetişəsiniz deyə (sizi böyüdərik). Kiminiz vəfat edər, kiminiz də ömrün elə bir rəzil çağına çatdırılar ki, vaxtilə bildiyini bilməz olar... (Həcc surəsi, 5)**

# MÜSTƏAN

## ***Özünə ehtiyac olunan və***
## ***Özündən kömək gözlənilən***

**(Peyğəmbər) dedi: "Ey Rəbbim! ədalətlə hökm ver! Sizin aid etdiyiniz sifətlərə qarşı ancaq ər-Rəhman olan Rəbbimizdən kömək diləmək lazımdır". (Ənbiya surəsi, 112)**

İnsanın sadəcə tək və çarəsiz qaldığı zaman deyil, rahat olduğu vaxtlarda da Allah'ın varlığını, gücünün böyüklüyünü hiss edərək dua etməyə ehtiyacı var. Başqa sözlə, yaradılmış olan insanın duaya möhtac olmadığı bir an belə yoxdur. Çünki Allah diləmədikcə insanın heç nəyə gücü çatmır. İnsan çox böyük acizlik içində yaradılmışdır. İnsan ancaq Allah'ın lütfü və rəhməti sayəsində yaşaya bilər.

Allah isə yalnız Özünə sığınılan, ehtiyac olunan İlahdır. Özündən kömək gözlənilən, mədət umulan da yalnız Odur. Ondan başqa heç kimin nəinki başqasına, öz nəfsinə belə kömək etməyə gücü yoxdur. Allah dilədiyini dilədiyi şəkildə istiqamətləndirməyə, dəyişdirməyə qadirdir. Onun: "Ol", - deməsi ilə hər dilədiyi olur.

Qullarına ruzi verən, göydən suyu endirən, nemətlər bağışlayan, xəstələndiyi zaman şəfa verən, güldürən, ağladan, ucaldan, önə keçirən, göydən yerə qədər bütün işləri idarə edən yalnız Allah'dır. Rəbbimiz nemətlərini geri alarsa, ya da bir müsibət diləyərsə, insanı bundan qoruyacaq heç kim yoxdur, ya da bir xeyir diləyərsə, bunun da qarşısını ala biləcək heç kim yoxdur. Özünə ehtiyac olunan və kömək umulan da yalnız Odur. Xeyir Onun əlindədir. Yalnız insanlar deyil, bütün kainat Allah'a sığınır, Ondan kömək diləyir.

Allah Özündən başqa kömək dilənəcək heç kimin olmadığını bir

çox ayədə bildirib. Ayələrdə belə buyurulur:

**Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri şərik qoşurlar? (Bütlər) nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər. Siz onları doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da, sizin üçün fərqi yoxdur. Allah'dan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər. Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: "Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin! Həqiqətən, mənim himayədarım kitabı nazil edən Allah'dır. O, əməlisalehlərə himayəçilik edir. Ondan savayı çağırdıqlarınız nə sizə yardım edə bilər, nə də özlərinə köməkçi ola bilərlər". Siz onları doğru yola çağırsanız, eşitməzlər. Onları sənə baxan görürsən, halbuki, onlar görmürlər. (Əraf surəsi, 191-198)**

**O kəslər ki, haqsız yerə, ancaq: "Rəbbimiz Allah'dır", - dediklərinə görə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allah'ın adı çox zikr olunan sovməələr, kilsələr, məbədlər və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət, qüdrət sahibidir! (Həcc surəsi, 40)**

# MÜTƏHHİR

***Təmizləyən; şirkdən, pislikdən, mənəvi çirklərdən təmizləyən***

**O zaman (Allah) Öz tərəfindən bir təskinlik olsun deyə, sizə yüngül bir mürgü göndərmiş, göydən sizin üzərinizə yağmur endirmişdi ki, onunla sizi təmizləsin, şeytanın vəsvəsəsini sizdən uzaq etsin, qəlbinizi möhkəmləndirsin və onunla qədəmlərinizi sabit etsin. (Ənfal surəsi, 11)**

İnsan müxtəlif acizliklərlə yaradılmış varlıqdır. Ömrü boyu səhvlər edir. Əlbəttə ki, mömin əlindən gəldiyi qədər bunlardan çəkinir, Allah’ın dinini tətbiq etməkdə səhv etməməyə və günaha girməməyə səy göstərir. Ancaq Allah’ın aciz bir qulu olduğu üçün səhvsiz yaşaması mümkün deyil. Necə ki, bu həqiqət bir Quran ayəsində belə xəbər verilir:

**Əgər Allah insanları etdikləri günahlara görə (dərhal) cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı. Lakin Allah onlara müəyyən vaxtadək möhlət verir. Vaxtları çatanda isə (hər kəsə öz əməlinə görə cəza, yaxud mükafat verəcəkdir). Şübhəsiz ki, Allah Öz qullarını görür. (Fatir surəsi, 45)**

Bu İlahi hökmə əsasən, Allah’ın qullarından tələbi heç səhv etməmək, ya da heç günah işləmək deyil. Mömindən gözlənilən Allah’ın məmnuniyyətini axtarmaq və sərhədlərinə diqqət yetirmək, işlədiyi bütün yanlış və günahlar üçün Allah’a yönəlmək və Onun rəhmətinə sığınmaqdır. Bundan sonra Quranda bildirildiyinə görə, Allah onun nəfsinin pisliklərini aradan qaldıracaq, onu günahların-

dan təmizləyəcək. Çünki Allah iman edən qullarını təmizləmək istəyir. Rəbbimiz bunu bir ayədə belə xəbər verir:

**... Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir. (Əhzab surəsi, 33)**

İnsan böyük günahlar işləyə, üsyankarlıq edə, Allah'a və dinə zidd olan uzun ömür yaşaya bilər. Ancaq Allah o qədər böyük rəhmət sahibidir ki, sadəcə bir səmimi tövbə ilə insanın bütün günahlarını təmizləyər. Hətta ən böyük günahları işləyən, Allah'a və elçisinə qarşı çıxan kafirləri və münafiqləri belə, əgər səmimi qəlblə Özünə yönəlsələr, bağışlayacağını və pisliklərindən təmizləyəcəyini bildirmişdir. Ayələrdə belə buyurulur:

**Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsində olacaqlar və sən onlara heç bir köməkçi tapa bilməzsən. Tövbə edənlər, islah edənlər, Allah'dan möhkəm yapışanlar və öz dinlərini Allah'a məxsus edənlər istisnadır. Bunlar möminlərlə birgə olacaqlar. Möminlərə isə Allah böyük mükafat verəcəkdir. (Nisa surəsi, 145-146)**

Bu hökmlər Allah'ın qullarına olan sonsuz rəhmətinin təcəllilərididir. Şübhəsiz, qullarını Ondan başqa şirkdən, pislikdən, mənəvi çirklərdən təmizləyəcək heç kim yoxdur. Allah mərhəmətlilərin ən mərhəmətlisidir.

**Cihad edən ancaq özü üçün cihad edər. Allah aləmlərə əsla möhtac deyildir. İman gətirib yaxşı işlər görənlərin günahlarının üstünü örtər və onlara etdikləri əməllərdən daha gözəl mükafat verərik. (Ənkəbut surəsi 6-7)**

# MÜYƏSSİR

## *Xeyirdə və şərdə qulunun yolunu asanlaşdıran, dində asanlıq verən, heç kimə gücünün çatmayacağı yükü yükləməyən*

**... Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, (istəyir ki,) siz müddəti tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə, şükür edəsiniz. (Bəqərə surəsi, 185)**

Allah insanları daim asan olana yönəldir. Qulları üçün seçib-bəyəndiyi İslam dininin təməlində də həmişə bu asanlıq var. Quranda dinin asanlığı belə bildirilir:

**Allah yolunda lazımınca cihad edin. O, sizi seçdi və atanız İbrahimin dinində olduğu kimi, bu dində də sizin üçün heç bir çətinlik yaratmadı... (Həcc surəsi, 78)**

Quran nəsihət almaq istəyənlər üçün asanlaşdırılıb. İçindəki hökmlər insan həyatında həmişə asanlıq yaradacaq şəkildədir. Məsələn, Allah kor, topal, ya da xəstə olana məsuliyyət yükləməmiş, xüsusilə müharibənin qızışdığı anlarda, səfərdə, aclıqda, çətin şərtlərdə qullarına asanlıq yaradacaq yollar göstərmiş, insanları günahları hər nə olursa-olsun etdikləri səmimi tövbə ilə bağışlayacağını söyləmişdir. Ayədə belə buyurulur:

**Biz Quranı yada salmaq üçün asanlaşdırdıq. Amma heç bir yada salan varmı? (Qəmər surəsi, 17)**

Bundan başqa, möminlərin hər cür müvəffəqiyyət qazanmasının asanlığına da **"Səni ən asan olana müvəffəq edərik" (Əla surəsi, 8)** ayəsi ilə diqqət çəkmişdir.

İnsanın hiss etdiyi, ya da gözü ilə gördüyü bütün asanlıqlar Allah'dandır. Bütün bu asanlıqlar Allah'ın şanındandır. O, mərhəmətlilərin ən mərhəmətlisidir və qulları üzərinə ağır yük yükləməyəndir.

**Allah sizin üçün yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır. (Nisa surəsi, 28)**

Allah insanı yaratdığı kimi, onun hansı şeylərə gücünün çatıb-çatmayacağını da bilir. Buna görə, qullarının heç bir işində çətinliyə razı olmaz. Allah Quranda **"... Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir..." (Bəqərə surəsi, 185)** ayəsi ilə bu həqiqəti xəbər verir.

Əksinə, Allah qullarının üzərindəki yükü qaldırır. Onlara ən çətin şərtlərdə belə mütləq bir asanlıq verir. Hər çətinlikdən çıxış yolu göstərir. Bu nemətini qullarına Quranda belə xatırladır:

**Məgər Biz sənin üçün köksünü açmadıqmı? Yükünü səndən götürmədikmi? (Onlar) belini bükürdü. Biz adını sənə görə ucaltmadıqmı? Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. (İşlərini) qurtaran kimi çalış! Rəbbinə üz tut! (İnşirah surəsi, 1-6)**

Allah mömin qullarına razılığına və rəhmətinə çatmağın yollarını asanlaşdırarkən, inkarçılar üçün də əxlaqlarına uyğun layiq olduqları şəkildə əzabın asanlaşdırılacağını xəbər verir:

**Kim də xəsislik edərək ehtiyacı olmadığını güman edirsə və ən gözəl olanı yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik. (Leyl surəsi, 8-10)**

**... Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız. (Ənam surəsi, 152)**

# MÜZƏKKİ

## ***Bütün qüsur və ayıblardan, mənəvi çirklərdən qullarını təmizə çıxaran, təmizləyən***

**Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki tel qədər haqsızlıq edilməz. (Nisa surəsi, 49)**

Qüsurdan münəzzəh olan yalnız Allah'dır. İnsan isə unuda bilər, yanıla bilər, qəflətə düşüb səhv edə bilər. Bu vəziyyət insanın hər mövzuda aciz olduğunun və hər şeydə Allah'a möhtac olduğunun göstəricisidir. Mömininin vəzifəsi səhv və günahını dərk etdikdə dərhal peşman olub tövbə edərək eyni günahı təkrar işləməməyə diqqət etməkdir. Yoxsa özünü səhvsiz, günahsız göstərmək, təmizə çıxarmaq deyil... Çünki bu, çox böyük səhvdir. Bir ayədə belə buyurulur:

**Onlar kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən çəkinirlər. Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir. O, sizi torpaqdan yaradanda da, siz analarınızın bətnində rüşeym halında olanda da sizi yaxşı tanıyırdı. Özünüzü təmizə çıxartmayın! Çünki O, kimin qorxduğunu yaxşı bilir. (Nəcm surəsi, 32)**

Səmimi mömin səhvlərinin, acizliyinin şüurundadır, buna görə, davamlı olaraq Allah'dan bağışlanma diləyir. Allah'ın rəhmətini və razılığını ümid edir. Allah da onun qüsurlarını örtür, günahlarını bağışlayır, gerçək mənada təmizləyir və üstün mövqeyə yüksəldir.

# MÜZƏYYİN

## ***Bəzəyən***

**Bilin ki, Allah'ın Elçisi aranızdadır. Əgər o, bir çox işlərdə sizə güzəştə getsəydi, çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır. (Hücurat surəsi, 7)**

İmanı sevmək və imanın təsiri ilə maddi-mənəvi ləzzətlərdən zövq almaq, Allah'ı inkardan nifrət edib onu çirkin görmək hər nə qədər təbii davranış kimi görünsə də, əslində, tamamilə Allah'ın lütfü sayəsində qovuşulan nemətdir. Allah bu metafizik vəziyyəti yuxarıdakı ayəsi ilə bildirmişdir.

Bunun əksinə, Allah bu böyük lütfkarlığın dəyərini möminlərə göstərmək üçün eyni vəziyyətin tərsini də inkar edənlər üçün yaratmışdır. İnkar edənlər imanın ehtiva etdiyi gözəllikləri möcüzəvi şəkildə görə bilmir, əksinə, dindən uzaq yaşayanların qaranlıq və əzablı zülm sistemindən zövq alırlar. İnkar edənlərin sistemlərinin ehtiva etdiyi bütün pisliklər onlar üçün gözəl göstərilmişdir. Allah Quranda bu sirri belə xəbər verir:

**Məgər öz Rəbbindən aydın dəlilə istinad edən kimsə pis əməli özünə gözəl göstərilən və öz nəfslərinə uyan kimsələr kimi ola bilərmi?! (Muhəmməd surəsi, 14)**

Allah'ı tanıyan və Onun üzərindəki rəhmətini görən, Onun sayəsində var olduğunu və sevib-xoşlandığı hər şeyin Ondan gəldiyini dərk edən mömin isə Allah sevgisinin və imanın üstünlüyünə çatır. İman edən insan Allah'dan başqa heç kimi məmnun etmə ehtiyacı hiss etmir və Allah'dan başqasından kömək gözləmir. Belə ki, ürəyi

yalnız Allah'ı xatırlamaqla rahatlıq tapır. Allah rizası üçün bir iş görməyi, gözəl əxlaqlı olmağı, Allah'ın əmr və qadağalarını qorumağı, müsəlmanlara düşkünlüyü, axirət üçün saleh əməllər işləməyi sevinc və xoşbəxtlik vəsiləsi olaraq görür.

Şübhəsiz, bu cür möhkəm və güclü iman ancaq Allah'ın möminlərə olan lütfü sayəsində olur.

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali-İmran surəsi, 14)**

**Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, (doğru yolla gedən kimsə eyni ola bilərmi?) Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma. Şübhəsiz ki, Allah onların nə törətdiklərini bilir. (Fatir surəsi, 8)**

**Məgər ölü ikən diriltdiyimiz və özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs qaranlıqlar içində qalıb oradan çıxa bilməyən kəs kimi ola bilərmi? Kafirlərə gördükləri işlər beləcə gözəlləşdirildi. (Ənam surəsi, 122)**

# MÜZİL

## ***<u>Zillətə salan, alçaldan və zəlil edən</u>***

**Elə isə yer üzündə dörd ay gəzib dolaşın və bilin ki, siz Allah'dan yaxa qurtara bilməyəcəksiniz və Allah kafirləri rüsvay edəcəkdir. (Tövbə surəsi, 2)**

Allah inkarçıları dünya əzabının bir hissəsi olaraq alçaldır. Bütün həyatlarını başqalarına özünü göstərmək, onlardan təqdir almaq üçün yaşayan inkarçılar üçün alçaldılma çox böyük əzabdır. Allah Quranda dünyada verilən bu əzabın xüsusiyyətini belə bildirir:

**Onlardan əvvəlkilər də yalançı saymışdılar və əzab da onlara gözləmədikləri yerdən gəldi. Allah onlara dünya həyatında rüsvayçılığı daddırdı. Axirət əzabı isə daha böyükdür. Kaş ki, biləydilər! (Zumər surəsi, 25-26)**

Allah bu ismini möminlərin və xüsusilə də elçinin əli ilə təcəlli etdirir. Bu həqiqətə Quranda belə işarə edilib:

**... Allah sizin əllərinizlə onlara əzab versin, onları rüsvay etsin, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin və möminlərin qəlbindən qəzəbi silib aparsın. Allah istədiyi kəsin tövbəsini qəbul edər. Allah biləndir, müdrikdir. (Tövbə surəsi, 14-15)**

Quranda bizə bildirildiyinə görə, hz. Süleyman öz hakimiyyətində inkarçıların ürəklərinə qorxu salmış, onları alçaltmışdır. Hz. Süleyman inkarçı qövmə göndərdiyi mesajda belə demişdi:

**Onların yanına qayıt! Biz onların üstünə qarşısında dura bilməyəcəkləri bir ordu ilə gəlib onları oradan zəlil və alçalmış vəziyyətdə çıxardarıq! (Nəml surəsi, 37)**

Bundan başqa, Allah bir çox ayəsində axirətdə inkarçılara alçaldıcı bir əzab olduğunu xəbər verir. Bu, inkarçıların dünya həyatındakı qürur və təkəbbürlənmələrinə qarşı Allah'ın təqdir etdiyi cəzadır. Çünki dünya həyatında inkarçıların ən böyük hədəflərindən biri başqa insanlar tərəfindən təqdir edilməkdir. Buna görə də həyatlarını Allah'ı tərifləməklə deyil, özlərinə tərif yığmaqla keçirirlər. Allah da bu istəklərinə qarşı cəhənnəmdə onları alçaldır. Ən böyük alçaldılmanı isə cəhənnəmdə insanların qarşısında alçaldılaraq yaşayacaqlar. Bir ayədə belə buyurulur:

**Kafirlər Odun qarşısına gətiriləcəkləri gün (onlara deyiləcəkdir:) "Siz dünya həyatınızda pak nemətlərinizi sərf edib qurtardınız və onlardan zövq aldınız. Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və asi olduğunuza görə alçaldıcı əzabla cəzalandırılacaqsınız!" (Əhqaf surəsi, 20)**

Allah'ın cəhənnəmdə hazırladığı alçaldılma bənzərsizdir və minlərlə növü var. Cəhənnəmdəki bu alçaldılmanın inkarçıların ruhunda yaratdığı kiçiklik üzlərinə də əks olunacaq, üzlərini bir zillət örtəcək. Mövzu ilə əlaqədar ayələr belədir:

**O gün üzlər zəlil olub yerə dikiləcək. (Ğaşiyə surəsi, 2)**

**Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər. Onları zillət bürüyər. Onları Allah'dan qoruya bilən bir kimsə də yoxdur. Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar od sakinləridir və orada əbədi qalacaqlar. (Yunis surəsi, 27)**

Allah inkar edənlər üzərində zillətə düşürən, xor və həqir edən ismini təcəlli etdirərkən, iman edənlər üzərində də Rəhman və Rəhim isimlərini təcəlli etdirir. Rəbbimiz cənnət və rəhmətini ehsan edib onları hər cür pislikdən təmizləyir. İnkar edənlərin yaşayacağı alçaldılmanın tam əksinə, Allah saleh qullarına rizasını, cənnət və nemətini lütf edir.

# MÜĞNİ

## ***<u>İstədiyini zəngin edən</u>***

**Dövlətli edən də, kasıb edən də Odur. (Nəcm surəsi, 48)**

Gerçək zənginlik yalnız Allah'a aiddir. O, dilədiyini Öz fəzlindən zəngin edir, dilədiyini də müəyyən bir müddətə qədər kasıblıqla sınayır. "Varis" sifətində də ifadə etdiyimiz kimi, hər şeyin varisi yalnız Allah'dır. İnsanların dünyada sahib olduqları zənginliklər, mal-mülk də yalnız Allah'a aiddir.

Hər insan ömrü boyu çalışıb qazandığı hər şeyi ölümlə birlikdə geridə buraxır. Ancaq bütün bunlara baxmayaraq, yaşadığı qısa həyatda mal-mülk sahibi olmaqla fəxr edən, zənginliyi ilə təkəbbürlənən və bunun nəticəsində Allah'ı unudan şəxslər üçün Quranda belə hökm verilir:

**Yoxsa elə hesab edirlər ki, onlara var-dövlət və övlad verməklə onlara yaxşılıq etməyə tələsirik? Xeyr, onlar fərqinə varmırlar. (Muminun surəsi, 55-56)**

Allah dilədiyi qullarını isə dünyada böyük bir mülklə mükafatlandırmışdır. Xüsusilə elçilərə verilən böyük mülkə Quranda bir çox ayə ilə diqqət çəkilmişdir. Allah'ın dünyada hz. İbrahimi, hz. Məhəmmədi, hz. Davudu və hz. Yusifi zənginliklə mükafatlandırıb. Hz. Süleyman isə Allah'dan dünyada heç kimə verilməyən böyük bir mülk istəmiş və buna sahib olmuşdur.

Ancaq unudulmamalıdır ki, Allah'ın elçiləri özlərinə verilən mülkü Rəbbimizi razı etmək, Onun məmnun olacağı xeyir işlər görmək üçün istifadə etmişlər. Sahib olduqları ilə öyünüb azan, mülkün gerçək sahibini unudan insanlardan fərqli olaraq əllərindəki hər şeyi

Allah üçün xərcləmişlər. Çünki onlar bilərlər ki, mülkün hamısı Allah'a aiddir, Allah dilədiyinə mülk verir, dilədiyindən də mülkünü geri alır.

Göründüyü kimi, kainatdakı hər şeyin tək hakimi, mülkün yeganə sahibi olan Allah dünyada dilədiyi insanı zəngin edir. Gerçək zənginliyi isə axirətdə verəcək. Özünə iman edən, bütün həyatını saleh əməllər işləyərək, Onun razılığını qazanmağa çalışaraq keçirən möminləri axirətdə çox böyük bir zənginliklə nemətləndirəcək.

Allah'ı razı edərək cənnətə girməyə haqq qazanan insanın orada qarşılaşacağı zənginlik Quranda bir çox ayədə ətraflı təsvir edilmişdir. Ayələrdə bu ehtişam belə xəbər verilir:

**Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər və onlara səbir etdiklərinə görə cənnəti bəxş edər və (orada geyəcəkləri) ipəklə mükafatlandırar. (Onlar) orada taxtlar üzərində dirsəklənəcək və orada nə günəş, nə də şaxta görəcəklər. (Cənnət ağaclarının) kölgələri onlara yaxınlaşacaq, meyvələri də tam onların ixtiyarına veriləcək. Onların ətrafına gümüşdən hazırlanmış qablar və büllur qədəhlər dolandırılacaq. Gümüşdən olan elə büllur qədəhlər ki, onları içmək istədikləri həcmdə hazırlamışlar. Orada onlara zəncəfil qatılmış (şərab) badəsi içirdiləcək. (Bu elə) bir bulaqdandır ki, Səlsəbil adlanır. Onların ətrafında həmişə gənc olan cavanlar dolanacaqlar. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını sanarsan. (Cənnətdə) hara baxsan, nemət və əzəmətli səltənət görərsən. Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların (qoluna) gümüş bilərziklər bağlanacaq. Onların Rəbbi onlara tərtəmiz şərab içirdəcəkdir. (Onlara deyiləcəkdir): "Həqiqətən, bu, sizə bir hədiyyədir və səyiniz təşəkkürə layiqdir". (İnsan surəsi, 11-22)**

**Ey iman gətirənlər! Müşriklər, doğrudan da, murdardırlar. Özlərinin bu ilindən sonra Məscidül-hərama yaxınlaşmasınlar. Əgər yoxsulluqdan qorxursunuzsa, (bilin ki) əgər Allah istəsə, öz nemətindən sizi mütləq dövlətli edəcəkdir. Allah biləndir, hikmət sahibidir! (Tövbə surəsi, 28)**

**Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və cariyələrinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər. Allah (lütfü ilə) genişdir, biləndir! (Nur surəsi, 32)**

# NASİR

## *Kömək edən*

**Onlara kömək göstərdik və qalib gəldilər. (Saffat surəsi, 116)**

İnananların tək köməkçisi və vəlisi Allah’dır. Möminlər hər çətinlikdə, hər şəraitdə Ondan kömək diləyir və Allah da onlara kömək edir. Peyğəmbərlər hökm verməK lazım olduğu zaman ədaləti təmin etmək və dünyada Allah’ın razılığını qazanmaq məqsədi ilə xərclənəcək mal-mülk üçün, xəstələndiklərində şəfa tapmaq üçün və həyatlarının hər anında istədikləri hər şey üçün yalnız Allah’a yönəlmişlər. Allah da onların bu səmimi istəklərinə qarşılıq vermiş və onlara hər mövzuda kömək etmişdir. Allah kitabında elçilərinə bu vədləri vermişdir:

**Bizim elçi göndərdiyimiz qullarımız haqqında bu sözümüz əzəldən deyilmişdi: “Həqiqətən, onlara kömək göstəriləcəkdir”. (Saffat surəsi, 171-172)**

**Beləcə, Biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən etdik. Doğru yolu göstərən rəhbər və yardımçı kimi Rəbbin sənə yetər. (Furqan surəsi, 31)**

Allah möminlərin də tək köməkçisidir. Quranda Allah **“... Möminlərə yardım etmək Bizə haqdır…“ (Rum surəsi, 47)** ayəsi ilə bütün iman edən qullarına kömək edəcəyini xəbər vermişdir. Ancaq Allah’ın köməyini qazanmaq üçün ən əhəmiyyətli şərtlərdən bəziləri Onun dininə kömək etmək, hədlərini qorumaq və bunun uğrunda cəhd göstərməkdir.

Bu cür səmimi səyin qarşılığında möminlər daim Allah’ın kö-

məyi ilə qarşılıq alırlar. Allah'ın vəd etdiyi kimi, zəfər yalnız Rəbbimizə inananların, Onun razılığı və məmnuniyyəti üçün səy göstərənlərindir. Bir ayədə belə buyurulur:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi, onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)**

Dünyada möminləri tək və köməksiz buraxmayan Allah ölümlərindən sonra axirət həyatlarında da onların yeganə vəlisi və köməkçisi olacaq. Allah möminlərə dünyada və axirətdə kömək edəcəyini vəd etmişdir və şübhəsiz, Allah vədinə xilaf çıxmayandır:

**Şübhəsiz ki, Biz Öz elçilərimizə və möminlərə həm dünya həyatında, həm də şahidlərin şəhadət verəcəyi gün yardım edəcəyik. (Mömin surəsi, 51)**

**Sonra sizə onların üzərində yenidən qələbə qazandırdıq, var-dövlət və oğullarla sizə yardım etdik və sizin sayınızı çoxaltdıq. Yaxşılıq etsəniz, özünüzə yaxşılıq etmiş, pislik etsəniz, öz əleyhinizə etmiş olursunuz. Sonuncu vədin vaxtı gələndə, üzünüzü qara etsinlər, birinci dəfə məscidə girdikləri kimi ora girsinlər və ələ keçirdikləri hər şeyi darmadağın etsinlər deyə (düşmənlərinizi üstünüzə göndərdik). (İsra surəsi, 6-7)**

# NUR

## ***Aləmləri nurlandıran, istədiyi simalara, zehinlərə və könüllərə nur yağdıran***

**Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzəyir; o çıraq şüşənin içindədir, şüşə isə sanki inci kimi bir ulduzdur. O, təkcə şərqə və ya təkcə qərbə aid edilməyən mübarək zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. (Bu), nur üstündə nurdur. Allah dilədiyini Öz nuruna yönəldir. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi Biləndir. (Bu nur) Allah’ın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izn verdiyi evlərdədir. Orada səhər-axşam Ona təriflər deyirlər. (Nur surəsi, 35-36)**

Allah Nur sifətinin sahibidir və yuxarıdakı ayədə də bildirildiyi kimi, göylərin və yerin nuru Odur. Ancaq Allah bu sifətini insanlar üzərində də təcəlli etdirir. Allah’a iman edən, Onun böyüklüyünü tanıyıb təqdir edən, haqq din olan İslama yönələn və İslam əxlaqı ilə yaşayan qullarına da Özündən nur bəxş edir:

**Məgər Allah’ın, köksünü İslam üçün açdığı və Rəbbinin nura yönəltdiyi şəxs (kafirlə eyni ola bilərmi)? Qəlbi Allah’ın zikrinə qarşı sərt olanların vay halına! Onlar, həqiqətən, azğınlıq içindədirlər. (Zumər surəsi, 22)**

İnkarçıların vəziyyəti isə buna tam ziddir. Onlar üçün yer üzündə heç bir nur qaynağı yoxdur. Qaranlıqdan çıxmaq üçün bir yol tapmaları da mümkün deyil. Allah inkarçıların yaşadığı qaranlığı belə təsvir edir:

**Yaxud (onların əməlləri) əngin dənizdəki qaranlığa bənzəyir.**

**Onu bir dalğa, onun üstündən də bir dalğa örtər; onun da üstündə bir bulud vardır; bir-birinin üstündə olan qaranlıqlar! (İnsan) əlini çıxartsa, az qala onu görməz. Allah kimə nur verməsə, onun nuru olmaz. (Nur surəsi, 40)**

Allah kafirləri qaranlıqların içində buraxdığı kimi, mömin qullarını da bütün işlərində qaranlıqdan işığa çıxarır. Bu iki qrupun vəziyyətlərinin bir-birindən çox fərqli olduğuna və möminlərin tam üstün olduqlarına dair Quranda belə bir nümunə verilmişdir:

**Məgər ölü ikən diriltdiyimiz və özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs qaranlıqlar içində qalıb oradan çıxa bilməyən kəs kimi ola bilərmi? Kafirlərə gördükləri işlər beləcə gözəlləşdirildi. (Ənam surəsi, 122)**

Möminləri doğru yola – Öz nuruna - yönəltmək üçün Allah müxtəlif xəbərdarlıqlar edir. Həm elçiləri, həm də elçiləri ilə göndərdiyi haqq kitabları nur qaynağı edir. Onların gətirdiyi hökmlərə tabe olanlar isə doğru yola çatmış və Allah qatından nur qazanmışlar. Bu həqiqət ayələrdə belə xəbər verilir:

**Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdar edən olaraq göndərdik. (Səni) həm də Allah'ın izni ilə Ona tərəf çağıran və nur saçan bir çıraq kimi (göndərdik). (Əhzab surəsi, 45-46)**

**Sizi zülmətlərdən nura çıxartmaq üçün Öz quluna açıq-aydın ayələri nazil edən Odur. Həqiqətən, Allah sizə şəfqətlidir, rəhmlidir. (Hədid surəsi, 9)**

**Ey kitab əhli! Artıq sizə kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allah'dan bir nur və açıq-aydın bir kitab gəldi. Allah Onun rizasını arayan şəxsləri əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)**

Allah'ın saleh qulları sonsuza qədər xoşbəxt yaşayacaq, nurları ilə tanınacaqlar. İnkar edənlər isə axirətdə də sonsuz qaranlıqda qalacaq və möminlərin sahib olduğu nurdan istəyəcəklər. Axirətdə möminlərlə inkarçıların arasındakı bu ziddiyyətlər ayələrdə belə bildirilmişdir:

**O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. (Onlara:) "Bu gün sizin müjdəniz altından çaylar axan cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız! Bu, böyük uğurdur. O gün münafiq kişilər və münafiq qadınlar iman gətirənlərə: "(Bir az) gözləyin ki, biz də sizin işığınızdan alaq", – deyəcəklər. (Onlara) deyiləcəkdir: "Geriyə qayıdıb işıq axtarın!" Onların arasına içəri tərəfində mərhəmət, çöl tərəfində əzab olan qapılı bir sədd çəkiləcəkdir. (Hədid surəsi, 12-13)**

**Allah iman gətirənlərin himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 257)**

**Sizi zülmətlərdən nura çıxartmaq üçün sizə rəhm edən Odur. Onun mələkləri də (sizin üçün bağışlanma diləyərlər). (Allah) möminlərə qarşı rəhmlidir. (Əhzab surəsi, 43)**

**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, kitab qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir. (Zumər surəsi, 69)**

**Allah'a və Onun elçilərinə iman gətirənlər – məhz onlar doğru olanlardır. Şəhidlər isə öz Rəbbi yanındadırlar. Onların öz mükafatları və öz nurları vardır. Kafir olub ayələrimizi**

**yalan sayanlara gəlincə onlar cəhənnəm sakinləridir. (Hədid surəsi, 19)**

**Ey iman gətirənlər! Allah'dan qorxun və Onun elçisinə iman gətirin! Onda O, sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah bağışlayandır, rəhmlidir. (Hədid surəsi, 28)**

**Ey iman gətirənlər! Allah'a səmimi-qəlbdən tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün və sizi altından çaylar axan cənnətlərə daxil etsin. O gün Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların nuru önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: "Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!" (Təhrim surəsi, 8)**

**Muhəmməd Allah'ın elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allah'dan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu, onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu, cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir. (Bu,) kafirləri qəzəbləndirmək üçündür. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir. (Fəth surəsi, 29)**

# RƏBBİL-ALƏMİN

## ***Aləmlərin Rəbbi***

**Göylərin Rəbbi, yerin Rəbbi və aləmlərin Rəbbi olan Allah’a həmd olsun! Göylərdə və yerdə böyüklük yalnız Ona məxsusdur. O, qüdrətlidir, müdrikdir. (Casiyə surəsi, 36-37)**

Kainatda bir-birindən fərqli bir çox aləm var. İnsanın bunların hamısının adını, sayını və xüsusiyyətlərini bilməsi qeyri-mümkündür. Çünki kainatda yaradılan saysız aləm öz içində də fərqli aləmlərə ayrılır. Yalnız bir balıq növünün özünə bənzər minlərlə növü, bir meyvənin özünə bənzəyən yüzlərlə növü var. Heyvanların, bitkilərin, əşyaların milyardlarla, küləklərin və buludların onlarla növü var. Allah bir-birinə heç bənzəməyən, fərqli irqlərə, bədənlərə, dillərə və mədəniyyətlərə sahib olan milyardlarla insan yaratmışdır.

Bunlarla yanaşı, Allah gözlə görülməyən atomların dünyasını, bədənimizin hər millimetrini əmələ gətirən mükəmməl sistemlərə sahib hüceyrələri və yenə insan gözü ilə görülməyən yüzlərlə canlını yaratmışdır. Dənizin minlərlə metr dərinliyində yaşayan, heç kimin görmədiyi mərcan koloniyasının da Rəbbi Allah’dır. Allah mikroorqanizmlərin əmələ gətirdiyi mikro aləmdən, kosmosdakı göy cisimlərinin əmələ gətirdiyi makro aləmə kimi saya bilməyəcəyimiz qədər geniş aləmə biz yatarkən, oyaq ikən, ya da bir işlə məşğul olarkən davamlı nəzarət edir, hamısını idarə edir, hamısını bəsləyir və həyatlarını davam etdirmələrinə izn verir. Allah bütün aləmlərin Rəbbi olduğunu insanlara belə bildirir:

**Sizin üçün yeri məskən, göyü də tavan edən, sizə surət verib surətlərinizi gözəl şəklə salan, sizə pak nemətlərdən ruzi**

**verən Allah'dır. Budur sizin Rəbbiniz olan Allah. Aləmlərin Rəbbi olan Allah nə qədər xeyirxahdır! O, yaşayandır, Ondan başqa məbud yoxdur. Dini yalnız Ona məxsus edərək dua edin. Aləmlərin Rəbbi olan Allah'a həmd olsun! (Mömin surəsi, 64-65)**

İnsan yalnız bir okeanın içindəki həyatı, burada yaşayan canlıların qidalanmalarını, yaşadıqları ortaq həyatı və soylarının davamı üçün qorunan həssas tarazlığı düşündüyü zaman Allah'ın yaratmasındakı sonsuz qüdrəti təqdir edəcək.

Şübhəsiz, Allah yalnız kainatın içində olan saysız aləmin deyil, tam başqa zamanda və məkanda yaşayan cinlərin və mələklərin də Rəbbidir. Bu varlıqların da hamısını Allah yaratmış və hamısına boyun əydirmişdir. Allah'ın yaratdığı aləmlər insan ağlının və təxəyyülünün xaricindədir. Hamısı Onun qüsursuz yaratmasının, sənətinin və sonsuz gücünün əsərləridir.

Allah'ın bu ucalığı və böyüklüyü qarşısında insanın vəzifəsi hz. İbrahim kimi özünə**: "Təslim ol"**, - buyurulduğu zaman Rəbbimizə Quranda xəbər verildiyi kimi: **"... Aləmlərin Rəbbinə təslim oldum"** (Bəqərə surəsi, 131) - deyib yönəlməkdir. Bütün həyatını Quranda **"De: "Şübhəsiz ki, mənim namazım da, ibadətim də, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah'a məxsusdur!"** (Ənam surəsi, 162)" ayəsi ilə əmr edildiyi kimi, yalnız Allah'ın razılığını qazanmaq üçün yaşamaqdır. Ayələrdə belə buyurulur:

**Zalım camaatın kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi Allah'a. (Ənam surəsi, 45)**

**Doğrudan da Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da ərşə ucalan Allah'dır. O, gündüzü sürətlə təqib edən gecə ilə örtüb bürüyür. Günəşi, ayı və ulduzları Öz əmrinə tabe edən də Odur. Əslində, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi Allah nə qədər xeyirxahdır. (Əraf surəsi, 54)**

# RAFİ

## *Yüksəldən*

**Kitabda İdrisi də xatırla! Həqiqətən, o, düz danışan adam və bir peyğəmbər idi. Biz onu yüksək bir məqama ucaltdıq. (Məryəm surəsi, 56-57)**

Cahiliyyə cəmiyyətində yaşayan insanlar Allah’ın əmr və qadağalarından uzaq, özlərinə verilən saysız neməti təqdir etmədən yaşayırlar. Düşünmədikləri, təqdir edə bilmədikləri üçün də cəhalət içindədirlər.

Allah tarix boyu bütün cəmiyyətlərə Öz əmrlərini, qadağalarını və tövsiyələrini çatdıran elçilər göndərmişdir. Bu yolla dindən uzaq yaşayan cəmiyyətləri içində olduqları cəhalətdən xilas olmağa dəvət etmiş, onlara doğru yola çatmaq üçün imkan vermişdir.

Allah’ın göndərdiyi elçilər eyni qövmün içindən çıxan, lakin üstün əxlaq, ağıl və yüksək vicdanları ilə cəmiyyət içində diqqət çəkən insanlardır. Elçilər Allah’ın Quranda bildirdiyi kimi, yaşadıqları qövmə xüsusi olaraq göndərdiyi və seçdiyi insanlardır. Elçilər yaşadıqları cəmiyyətin insanlarından fərqlidirlər. Allah’ın varlığını və axirətin yaxınlığını dərk etmişlər. Əlbəttə, bu xüsusiyyətlər elçilərin üstün insanlar olduqlarının açıq-aşkar dəlillərindəndir.

Allah’ın varlığının və böyüklüyünün şüurunda olan elçilər özlərinə peyğəmbərlik mövqeyinin verilməsindən sonra yaşadıqları cəmiyyətləri Quran əxlaqını yaşamağa dəvət etmiş, onları axirət əzabına qarşı xəbərdar edib qorxutmuşlar. Yaşadıqları çətin şərtlər, göndərildikləri inkarçı və azğın qövmlər, özlərinə davamlı çətinlik yaradan, hətta bəzən canlarına qəsd edən cəmiyyətlər onları yolla-

rından döndərməmiş, əksinə, imanlarını artırmışdır. Bəzən: “İman etdik, təslim olduq”, -dedikdən sonra çətin vəziyyətdə elçini tək qoyan və geri dönən toplumlarla da qarşılaşmış, ancaq bu çətinliklər elçiləri əsla qorxutmamışdır. Onlar Allah’ın seçdiyi üstün bir mövqeyə layiq görülmüş qullardır və ən nəzərə çarpan xüsusiyyətləri isə Allah’a olan səmimi təslimiyyətləri və təvəkkülləridir.

Bu səmimiyyətlərinin qarşılığını da dünyada və axirətdə seçilərək almışlar. Ayələrdə Allah belə xəbər verir:

**Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq. Şübhəsiz ki, Rəbbin müdrikdir, biləndir. Biz ona İshaqı və Yaqubu bəxş etdik. Hər ikisini doğru yola yönəltdik. Əvvəl Nuhu da doğru yola yönəltmişdik. Onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da. Hamısı əməlisalehlərdən idilər. İsmayılı, Əlyəsəni, Yunisi və Lutu da. Hamısını aləmlərdən üstün etdik. (Ənam surəsi, 83-86)**

**Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki tel qədər haqsızlıq edilməz. (Nisa surəsi, 49)**

# RƏHMAN-RƏHİM

***Mərhəmətli, verdiyi nemətlərdən yaxşı istifadə edənləri daha böyük və əbədi nemətlər verməklə mükafatlandıran, əzəldə bütün yaradılmışlar haqqında xeyir və rəhmət buyuran, sevib-sevmədiyini ayırmadan saysız nemətlərə qovuşduran***

**O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı bilən Allah'dır. O, mərhəmətlidir, rəhmlidir. (Həşr surəsi, 22)**

Rəhman olan Allah sonsuz mərhəmətini və lütfünü görünən-görünməyən hər şeydə təcəlli etdirir. İnsan bu görünən və görünməyən nemətlərin vasitəsi ilə həyatını davam etdirir.

Allah hər gün torpağın içindən milyonlarla toxumu cücərdən, bu bərəkətli torpaqla yerin altındakı 4.500 dərəcə istilikdəki nəhəng kütləni saxlayan, göydən tonlarla saf su endirən, eyni anda dünyanın hər yerində milyardlarla canlıya ruzi verən, nəfəs aldığımız oksigeni yaradan və həyat verən saysız nemətləri ilə yaratdıqlarını əhatə edəndir.

Allah 100 trilyon hüceyrədən ibarət olan insanın hər bir hüceyrəsini yaradan, bunların hamısına ayrı-ayrılıqda vəzifəsini öyrədən, içlərinə hər biri 1 milyon səhifəlik məlumatı ehtiva edən DNT-ləri yerləşdirən, bütün bunlarla insana can verən və varlığını hər an davam etdirəndir. Bütün insanlar ana rəhminə düşdüyü andan torpağa geri döndüyü ana qədər yalnız Allah'ın yaratdığı nemətləri tanıyır, bilir və onlarla yaşayırlar. İnsanlardan bu nemətləri görən və yaradılış məqsədini qavrayaraq Ona qulluq edənlər olduğu kimi, nankorluq

edərək Allah'a qulluq etməkdən üz çevirənlər də var. Buna baxmayaraq, Allah insanların üzərində Rəhman adını ən gözəl şəkildə təcəlli etdirir. İman etməyənlər, münafiqlər və müşriklər də dünya həyatında nəfəs aldıqları hava, içdikləri su daxil olmaqla, gizli-açıq bütün nemətlərdən faydalanırlar. Allah möminlərə verdiyi kimi, onlara da mal-mülk, yaşayacaqları gözəl evlər və nəsillərini davam etdirəcəkləri övladlar verir. Onları da gözəl ruzilərlə bəsləyir. Onlara da sağlamlıq, güc və gözəllik verir. Çünki Allah Rəhmandır.

Allah dünya həyatında inkar edənləri bəlkə dinə dönərlər, düşünüb dərk edərlər və Özünə şükür edərlər deyə faydalandırır. Lakin üz çevirənlər Allah'ın nemətlərindən ancaq göz açıb-bağlayacaq vaxtı qədər olan dünya həyatları müddəti boyu faydalana bilərlər. Axirətdə isə bütün nemətlər sahib olduqlarını yalnız Allah'a yaxınlaşmaq, Onun razılığını axtarmaq üçün istifadə edən və Rəbbimizə hər an şükür edən möminlərə aiddir. Çünki Allah Rəhimdir və cənnəti yalnız mömin qullarına müjdələmişdir. Ayələrdə belə buyurulur:

**(Bu cənnət) ər-Rəhmanın Öz qullarına vəd etdiyi və onların görmədikləri Ədn bağlarıdır. Onun vədi mütləq yerinə yetəcəkdir. (Məryəm surəsi, 61)**

**Mərhəmətli və Rəhmli Allah'ın adı ilə! (Fatihə surəsi, 1)**

**De: "İstər Allah deyib çağırın, istərsə də ər-Rəhman deyin. Necə çağırsanız da, hər halda, ən gözəl adlar Ona məxsusdur". Namazını nə uca səslə, nə də pıçıltı ilə qıl. Bunların arasında orta bir yol tut. (İsra surəsi, 110)**

**O gün insanlar heç bir yana meyil etmədən carçının arxasınca yeriyəcəklər. Ər-Rəhmanın qarşısında səslər kəsiləcək və sən yalnız pıçıltı eşidəcəksən. (Taha surəsi, 108)**

**(Peyğəmbər) dedi: "Ey Rəbbim! Ədalətlə hökm ver! Sizin**

**aid etdiyiniz sifətlərə qarşı ancaq ər-Rəhman olan Rəbbimizdən kömək diləmək lazımdır". (Ənbiya surəsi, 112)**

**Ruh və mələklər səf-səf duracağı gün, mərhəmətli (Allah'ın) izn verdiyi kimsələrdən və doğru deyənlərdən başqa heç kəs danışmayacaq. (Nəbə surəsi, 38)**

**Sən ancaq Qurana tabe olub, Rəhmandan (Onu) görmədən qorxan kimsəni qorxuda bilərsən. Beləsinə (axirətdə) bağışlanacağı və çox gözəl bir mükafata nail olacağı ilə müjdə ver! (Yasin surəsi, 11)**

**Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, mərhəmətli (Allah'ın) vəd etdiyi (qiyamətdir). Elçilər doğru deyirlərmiş". Bircə dəhşətli səs qopan kimi onların hamısı hüzurumuza gətiriləcəklər. Bu gün heç kəsə heç bir haqsızlıq edilməyəcəkdir. Sizə ancaq etdiyiniz əməllərin əvəzi veriləcəkdir. Həqiqətən də cənnət əhli həmin gün nemətlər içində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. Orada onlar üçün meyvələr və istədikləri hər şey vardır. Üstəlik, rəhmli Rəbb (onlara): "Salam", - deyəcək. (Yasin surəsi, 52-58)**

# RAQİB

## ***<u>Bütün varlıqlara nəzarət edən, bütün işləri idarə edən</u>***

**Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın (törədib yer üzünə) yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allah'dan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir. (Nisa surəsi, 1)**

Allah yoxdan yaratdığı bütün varlıqları qoruyan və onlara nəzarət edəndir. Kosmosun dərinliklərindəki ulduzlar və sistemlərdən, dünyanı əhatə edən atmosferdəki hadisələrə, insanların əmələ gətirdiyi cəmiyyətlərdən yer üzünü örtən bitki örtüyünə, insan bədənindəki kompleks sistemlərdən mikro və makro aləmlərə qədər və gözlə görə bilmədiyimiz hər şeyi müşahidə edən, şahid olan, nəzarət edən Allah'dır.

İnsan başıboş buraxıldığını, məqsədsiz olaraq həyatını davam etdirə biləcəyini zənn edə bilər. Amma hansı iş üzərində olursa olsun, Allah onun üzərində şahiddir. Heç kim Allah'dan bir şey gizlədə bilməz. Gizli razılaşma, plan, sirr, tələ… Bunlar Allah qatında əsla gizlədilməsi mümkün olmayan hadisələrdir. Hər şeyi görən, eşidən və bilən Allah'ın zatından heç nə gizli qalmadığı üçün hər kəsin etdiyinə ədalətlə qarşılıq verilir. İnsanların çoxunda "Allah kainatı yaradıb, sonra hər şeyi öz halına buraxıb" kimi səhv düşüncə var. Halbuki, bu, çox böyük yanılma və zəndir.

İnsanın adi gözlə heç bir zaman görə bilməyəcəyi hüceyrənin içindəki detalları Allah ən incə detalına qədər biləndir. Bədəndəki

bir hüceyrə digər trilyonlarla hüceyrə ilə birlikdə çox nizamlı şəkildə hərəkət edərkən bəzən fərqli davranır və bu gün tam olaraq qaynağı və müalicəsi tapılmayan xərçəng ortaya çıxır. İnsan öz içində yaranan bu hadisədən xəbərsiz ikən Allah bütün bunların üzərində şahiddir və hər mərhələni öz idarəsi altında saxlayır. Necə ki, insan Allah'ın izni olmadan bir addım belə ata bilmirsə, o hüceyrə də Allah'dan xəbərsiz kiçik bir hərəkət belə edə bilməz.

Allah hər şeyi yaradandır, biləndir. O, bütün məlumatların tək qaynağıdır. Heç bir varlıq Onun elmi xaricində bir şey edə bilməz. Bir ayədə belə buyurulur:

**... Allah hər şeyə nəzarət edəndir. (Əhzab surəsi, 52)**

**Halbuki, o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir. (Səba surəsi, 21)**

**Onlara dünya həyatında əzab vardır. Axirət əzabı isə daha məşəqqətlidir. Onları Allah'dan qoruyan olmaz. (Rəd surəsi, 34)**

**Onları ürəklərin xirtdəyə çatacağı, qəm-qüssə içində olacaqları yaxınlaşan günlə qorxut. (O gün) zalımların nə bir yaxın dostu, nə də sözü keçən bir şəfaətçisi olar. (Mömin (Ğafir) surəsi, 18)**

# RAUF

## *Çox əsirgəyən, çox şəfqətli*

**Beləliklə, Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun. Biz əvvəl üz tutduğun qibləni ancaq ona görə təyin etdik ki, peyğəmbərin ardınca gedənləri üz döndərənlərdən fərqləndirək. Bu, Allah'ın doğru yola yönəltdiyi şəxslərdən başqa (hamısına) ağır gəldi. Allah sizin imanınızı puç etməz. Həqiqətən də Allah insanlara qarşı şəfqətlidir, rəhmlidir. (Bəqərə surəsi, 143)**

Allah'ın yaratdığı bütün canlılar qüsursuz, üstün yaradılış və kompleks quruluş sayəsində həyatlarını davam etdirirlər. Bu, Rəbbimizin mərhəmətinin və rəhmətinin dəlillərindəndir. Çünki heç bir canlı özü üçün ən uyğun, ən əlverişli şəkildə yaşamaq üçün güc sərf etməmiş, yalnız Allah'ın üstün ağlına təslim olmuşdur. Allah ehtiyacları olan hər şeyi onsuz da onlara vermişdir. Məsələn, bütün canlıların özlərini müdafiə etmək üçün fərqli qabiliyyətləri var. Bəzisi həddən artıq qorxuducu görünüşə malikdir, bəzisi zəhərli, pis qoxulu və ya yandırıcı qazlar püskürdür. Bəziləri cəlddir, düşmənlərindən sürətlə qaçır, bəziləri isə fərqli bir müdafiə şəkli olaraq möhkəm zirehlərlə örtülüdür. Bir qismi bədənlərini düşmənlərindən qoruyan görünüşə, digər bir hissəsi də özünü ölülüyə vuraraq düşməni aldatmaq qabiliyyətinə malikdir.

Şübhəsiz, canlılar bütün bu xüsusiyyətlərə təsadüfən və ya öz istəkləri ilə nail olmamışlar. Allah bu canlıların üzərindəki şəfqətini onları bu cür qüsursuz və böyük bir elmlə yaratması ilə göstərir.

Bütün bu canlıların sahib olduqları xüsusiyyətlərlə yanaşı, insan-

ların xidmətinə verilən imkanlar isə daha üstündür. Belə ki, insan maddi və mənəvi sahib olduğu bütün xüsusiyyətləri düşündüyü zaman həyatını davam etdirə bilməsi üçün xüsusi olaraq yaradılmış bir dünyada yaşadığını çox açıq şəkildə görə bilər. Varlığını davam etdirmək üçün ehtiyac duyduğu hər şeylə təmin edilməsi də Allah'ın rəhmətinin çox böyük dəlillərindəndir. Lakin bütün bunlardan daha əhəmiyyətli bir mövqe var: insanın görməsi, eşitməsi, danışması... Bütün bunlar üçün göz, qulaq və dili yaradan Allah, eyni zamanda, verdiyi düşünmə qabiliyyəti ilə də insanı yer üzündəki bütün canlılardan üstün etmişdir. Allah'ın Rauf sifəti Quranda belə bildirilir:

**O gün ki, hər kəs etdiyi yaxşı və pis əməlləri hazır görəcək, özü ilə (pis əməllərinin) arasında çox böyük məsafə olmasını arzulayacaqdır. Allah sizi Özündən çəkindirir. Allah qullarına şəfqətlidir. (Ali-İmran surəsi, 30)**

**Məgər Allah'ın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə O tutub saxlayar. Həqiqətən, Allah insanlara şəfqətlidir, mərhəmətlidir. (Həcc surəsi, 65)**

**Sizi zülmətlərdən nura çıxartmaq üçün Öz quluna açıq-aydın ayələri nazil edən Odur. Həqiqətən, Allah sizə şəfqətlidir, rəhmlidir. (Hədid surəsi, 9)**

**O gün dostun dosta heç bir faydası olmaz, onlara kömək də edilməz! Allahın rəhm etdiyi kimsədən başqa! Şübhəsiz ki, O, yenilməz qüvvət, mərhəmət sahibidir! (Duxan surəsi, 41-42)**

# RƏZZAQ

## ***<u>Ruzi verən, insanların faydalanması üçün nemətlərini verən</u>***

**Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir. (Zariyat surəsi, 58)**

Nə dağ, nə də dənizi olan çox fərqli bir dünyada gözlərinizi açdığınızı düşünün. Üzərində yeridiyiniz torpaq qara və qupqurudur. Üzərində heç bir bitki yetişmir, heyvan yaşamır. Yalnız insanların yeyə bilməsi üçün acı ot bitir.

İnsanların bəslənməsi üçün bu otdan başqa heç nə yoxdur. Torpağı qazsanız da, əksəniz də, heç məhsul vermir. Yaşadığınız yerdə su da yoxdur. Su içmək üçün kilometrlərlə irəlidə olan bir bulağa getməli və oradan su daşımalısınız. Siz bu dünyada doğulduğunuz zaman həyatınızı davam etdirmək üçün ömrü boyu o acı otdan yeyər, su içmək üçün də hər gün kilometrlərlə yol gedərdiniz. Bu çətinliklərin hamısına da ölənə qədər dözərdiniz. Bir gün belə: “Niyə bu torpaqdan sulu və gözəl qoxulu meyvələr, bir-birindən ləzzətli və növ-növ tərəvəzlər çıxmır?” -deməzdiniz. Çünki ömür boyu qarşılaşmadığınız üçün torpağın belə məhsullar verə biləcəyini bilməzdiniz.

Quluna qarşı çox şəfqətli və mərhəmətli olan Allah insanları içində sayılması mümkün olmayacaq qədər çox nemətlə dolu olan torpaqlarda yaşadır. Belə ki, insan torpağı əkib-becərmədən belə torpaq yamyaşıl məhsullar və sünbüllər yetişdirir. İçindən sarı, qırmızı, yaşıl, narıncı meyvə və tərəvəzlər çıxır. Gömgöy dənizlərdə isə minlərlə növ və ləzzətdə balıqlar var. Bütün bunların yanında Allah insanlara həm yerdəki heyvanların ətini, həm də göydəki quşların ətini yedirir, heyvanların qarnından tərtəmiz süd çıxarır, arılara bal hazır-

ladır... Bütün bunları insanlara Allah bağışlayır.

**“Ya da O, Öz ruzisini kəssə, sizə kim ruzi verə bilər?“ (Mülk surəsi, 21)** ayəsində bildirildiyi kimi, Allah diləyərsə, torpaq məhsul verməz, yağış yağmaz, hər yer qupquru və quraqlıq olar. Lakin Allah Rəhman və Rəhimdir, insanlara qatından bağışladığı ruziləri sözlə ifadə etmək mümkün deyil. Qullarına saysız nemət bəxş edən Allah Quranda belə bildirir:

**Ey insanlar! Allah'ın sizə verdiyi lütfünü bir xatırlayın. Allah'dan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir məbud yoxdur. Necə də döndərilirsiniz! (Fatir surəsi, 3)**

Allah yuxarıda sayılan bütün nemətləri insanlara dünya həyatında bağışlayır. Cənnətdə isə möminlər üçün daha gözəli var. Belə ki, Quranda **“Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir“ (Səcdə surəsi, 17)** şəklində buyurularaq cənnətdəki nemətlərin üstünlüyünə diqqət çəkilmişdir. Cəhənnəmə girənlər isə boğazları parçalayan darı tikanı, zəqqum ağacı və qaynar su ilə qarşılaşacaqlar. Sonsuza qədər də bunlardan başqa heç nə tapa bilməyəcəklər.

**Həqiqətən, zəqqum ağacı günahkar adamın yeməyidir. Əridilmiş yağın çöküntüsü kimi qarınlarda qaynayar – qaynar su qaynayan kimi. Onu tutub cəhənnəmin ortasına sürüyün! Sonra əzab vermək üçün başına qaynar su tökün! (Duxan surəsi, 43-49)**

Ayələrdə belə xəbər verilir:

**De: “Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?” Onlar deyəcəklər: “Allah!” De: “Bəs qorxmursunuz?” (Yunis surəsi, 31)**

**(Bu ona görədir) ki, Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın, onlara olan lütfünü artırsın. Allah dilədiyinə hesabsız ruzi verir. (Nur surəsi, 38)**

# SƏMƏD

## ***Heç kəsə möhtac olmayan***

**Allah, Səməddir (hər şey Ona möhtacdır; daimdir, heç bir şeyə ehtiyacı olmayandır). (İxlas surəsi, 2)**

Bütün kainatda gerçək güc sahibi olan yalnız Allah'dır. İnsanın qarşılaşdığı hər cür çətinliyi, ehtiyacı qarşılamağa qadir olan da ancaq Odur.

İnsanlar bəzən özlərini yaradan Rəbbimizi unudub Ondan başqa vəlilər seçir, gücü, qüdrəti və köməyi onların yanında tapmağa çalışırlar. Halbuki, bu insanlar aldanırlar, çünki yuxarıda da ifadə etdiyimiz kimi, Allah'dan başqa güc sahibi yoxdur. Allah diləmədikcə heç kimin bir başqasına faydası və ya zərəri toxuna bilməz. Quranda bu həqiqətə belə diqqət çəkilmişdir:

**Möminləri qoyub kafirləri dost tutanlar gücü və əzəməti onlardamı axtarırlar? Halbuki, qüvvət və əzəmət tamamilə Allah'a məxsusdur. (Nisa surəsi, 139)**

İnsan üçün hər cür çətinlikdən xilas olmağın yeganə yolu bütün güc və qüvvətin sahibi olan Allah'a sığınmaqdır. Çünki Rəbbimiz çətinlik və ehtiyac içində olub Özünə yönələn səmimi qullarından razı olur və onların üzərindəki çətinlikləri, sıxıntıları qaldırır. "Nəml" surəsində Allah'ın saleh qullarına köməyi belə xəbər verilmişdir:

**Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allah'la yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz? (Nəml surəsi, 62)**

Yuxarıdakı ayədə insanların Allah'ın köməyinə qarşılıq nankor-

luq etdikləri, üzərilərində Allah'ın şəfqət və mərhəmətini görə bilmədikləri və ya unutduqları da bildirilmişdir. Halbuki, Allah **"De ki: "Ondan və bütün sıxıntılardan sizi Allah xilas edir..." (Ənam surəsi, 64)** ayəsi ilə xəbər verdiyi kimi, hər cür çətinlikdən insanı qurtaran tək məbuddur. Bunun qarşılığında insanın vəzifəsi isə bu razılığı görmək, gördüyünün əhəmiyyətini düşünmək və bu düşüncələrin sonunda Allah'a təslim olaraq şükür edən qul olmaqdır.

> **Bilin ki, Allah'ın Elçisi aranızdadır. Əgər o, bir çox işlərdə sizə güzəştə getsəydi, çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır. Bunlar Allah'ın lütfü və neməti sayəsindədir. Allah biləndir, müdrikdir. (Hucurat surəsi, 7-8)**

> **Sonra onlar Allah'a – özlərinin həqiqi himayədarına qaytarılacaqlar. Hökm yalnız Ona məxsusdur və O, ən tez haqq-hesab çəkəndir. De: "Acizanə və gizlicə: "Əgər bizi bundan qurtarsan, əlbəttə ki, şükür edənlərdən olarıq", – deyə yalvardığınız zaman sizi qurunun və dənizin zülmətlərindən xilas edən kimdir?" De: "Ondan və bütün sıxıntılardan sizi Allah xilas edir. Sonra siz şərik qoşursunuz". (Ənam surəsi, 62-64)**

# SADİQ

## *Vədinə sadiq, doğru sözlü*

**(Budur) Allah'ın vədi. Allah Öz vədinə xilaf çıxmaz. Amma insanların əksəriyyəti bilmir. (Rum surəsi, 6)**

Allah insanları yaratmış, onlara yaxşılığı əmr edib pislikdən çəkindirən elçilər və bu elçilərlə birlikdə doğru yolu göstərən kitablar göndərmişdir. Bu kitablardan Quran Allah'ın insanları qaranlıqdan işıqlığa, doğru yola çıxarmaq üçün göndərdiyi son haqq kitabıdır.

Quranda Allah özünə inananlara da, inanmayanlara da bəzi vədlər vermişdir. Bu vəd inkarçılar üçün dünyada çətin dolanışıq, axirətdə isə sonsuza qədər əzab çəkəcəkləri cəhənnəmdir. Ancaq bu dəqiq həqiqətə ehtimal verməyən inkarçılar Allah'ın vəd etdiyi əzabla qarşılaşmayacaqlarını zənn edirlər. Böyük yanlışlıq içində olan bu insanlara Allah belə buyurur:

**Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Allah Öz vədinə əsla xilaf çıxmaz... (Həcc surəsi, 47)**

İnananlara vəd edilən isə dünyada da, axirətdə də məmnun qalacaqları həyatdır və onlar Allah'ın bu vədini yerinə yetirəcəyinə tam iman edirlər. Allah dünyada saleh qullarına olan vədini Quranda belə bildirmişdir:

**Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi, onları da yer üzünün varisləri edəcək, möminlər üçün onların Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir... (Nur surəsi, 55)**

Möminlərə axirət üçün vəd edilən isə sonsuza qədər məmnun ya-

şayacaqları həyatdır. Bu həyat Allah’ın açıq vədidir və şübhəsiz, Allah vədindən dönməz. Ayələrdə belə buyurulur:

**İman gətirib saleh əməllər edənləri isə altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağlarına daxil edəcəyik. (Bu,) Allah’ın gerçək vədi sayəsində olacaqdır. Sözündə Allah’dan daha doğruçu kim ola bilər? (Nisa surəsi, 122)**

**Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, eşidəndir, görəndir. (Ənam surəsi, 115)**

**De: “Allah doğru söylədi. Odur ki, İbrahimin hənif dininin ardınca gedin. O, müşriklərdən deyildi”. (Ali-İmran surəsi, 95)**

**Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən! (Ali-İmran surəsi, 194)**

**Göy yarılacağı zaman; dağlar dağılacağı zaman; elçilərə vaxt təyin olunacağı zaman (deyiləcəkdir): “Verilmiş möhlət hansı günə qədərdir?” (Deyiləcəkdir): “Ayırd etmə gününədək!” Sən ayırd etmə gününün nə olduğunu bilirsənmi? (Qiyaməti) yalan sayanların o gün vay halına! (Mursəlat surəsi, 9-15)**

# SAİQ

## *Cəhənnəmə atan*

**Günahkarları isə cəhənnəmə susamış olduqları halda qovub apararıq. (Məryəm surəsi, 86)**

İnsan Allah'a qul olmaq üçün yaradılmış və bu qulluq vəzifəsini yerinə yetirib yetirməyəcəyinin sınanması üçün dünyaya göndərilmişdir. Dünyada ehtiyacı olan hər şeyi Allah yaratmış, özünə növbənöv nemətlər bəxş etmişdir. Amma insanların bir qismi Allah'ın verdiyi bütün nemətlərə baxmayaraq, yaradılış məqsədini unutmuş və nankorluq etmiş, üsyan etmişlər.

Əlbəttə, insanların dünyada etdikləri üsyan qarşılıqsız qalmayacaq, çünki Allah sonsuz ədalət sahibidir. Allah Özünü inkar edən, təkəbbürlənən inkarçıların uğrayacaqları sonu aşağıdakı ayələri ilə bildirmişdir:

**(Onların əməli) firon nəslinin və onlardan əvvəlkilərin əməlinə bənzəyir. Onlar Bizim ayələrimizi yalan hesab etdilər, Allah da onları günahlarına görə yaxaladı. Allah şiddətli cəza verəndir. Kafirlərə de: "Siz tezliklə məğlub olacaq və cəhənnəmə toplanılacaqsınız! Ora nə pis yataqdır!" (Ali-İmran surəsi, 11-12)**

Ayələrdə bildirildiyi kimi, alçaldılaraq toplu şəkildə cəhənnəmə atılan inkarçıların oradakı peşmanlıqları da Quranda bildirilmişdir. Dünyada yaşadıqları həyat boyu özlərinə Allah'a qulluq etmək üçün saysız fürsət verilmiş, xatırlatmalar gəlmiş, amma onlar yenə də üz çevirib təkəbbürlənmişlər. Bunun nəticəsi olaraq bu şəxslərin hesab günündə vəziyyətlərinin necə olacağı ayələrdə belə xəbər verilir:

**... Sən zalımları əzabı gördükləri zaman: “Qayıtmağa bir yol yoxdurmu?”– deyən görəcəksən. (Cəhənnəm) qarşısına gətirildikləri zaman sən onların zəlillikdən başlarını aşağı salıb gözucu gizlin-gizlin baxdıqlarını görəcəksən. Möminlər deyəcəklər: “Şübhəsiz ki, ziyana uğrayanlar Qiyamət günü özlərini və ailələrini itirənlərdir”. Həqiqətən, zalımlar daimi əzab içində olacaqlar. (Şura surəsi, 44-45)**

İnkar edənlərin axirətdə qarşılaşacaqları bu vəziyyət Allah’ın insanlar üzərindəki sonsuz ədalətinin bir təcəllisidir. Bir ayədə hər insanın yalnız layiq olduğu ilə qarşılıq görəcəyi belə bildirilmişdir:

**Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər (qulun gördüyü iş) yaxşı əməl olarsa, (Allah) bunu artırar və Öz tərəfindən böyük mükafat verər. (Nisa surəsi, 40)**

Bu üstün ədalətinin bir gərəyi olaraq Allah iman edənlərə bənzəri olmayan nemətlərlə dolu sonsuz cənnətləri lütf edəcək. Quranda bütün həyatını Rəbbimizin rizasını qazanmaq üçün keçirən möminlərə bu müjdə belə bildirilir:

**İman gətirib saleh əməllər edənlərə müjdə ver ki, onlardan ötrü altından çaylar axan cənnət bağları vardır. Hər dəfə onun meyvələrindən onlara ruzi verildikcə: “Bu ki, əvvəlcə bizə verilən ruzidir!”– deyəcəklər. Halbuki, onlara oxşarı veriləcəkdir. Onlardan ötrü orada pak zövcələr var və onlar orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 25)**

# SANİ

## ***<u>Sənətçi, sonsuz gözəllikləri sənətinin içində yaradan</u>***

**Sən dağlara baxıb onları hərəkətsiz durmuş güman edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedərlər. (Bu,) hər şeyi kamil şəkildə edən Allah'ın işidir. Şübhəsiz ki, O, etdiklərinizdən xəbərdardır. (Nəml surəsi, 88)**

Yer üzündə yaradılan canlı və cansız hər varlıqda üstün ağılın, sonsuz elmin bir çox dəlilinə rast gəlmək mümkündür. Şübhəsiz, bunlar Allah'ın Alim sifətinin təcəllilərindəndir. Ancaq bu varlıqlarda diqqət çəkən çox əhəmiyyətli bir xüsusiyyət daha var: çox incə sənət. Allah'ın Sani sifəti yaratdığı hər şeyə son dərəcə estetik bir görünüş, qüsursuzluq, incə və bənzərsiz bir sənət, uyğunlaşma və dizayn olaraq əks olunur. Məsələn, insan bədənini araşdırsaq, qüsursuz və əskiksiz şəkildə dizayn edildiyini görərik. Bütün orqanlar lazımi yerlərə yerləşdirilmiş, məsələn, gözlərin yeri ilə sinə qəfəsində qorunan ürəyin yeri həm bir çox hikmətə görə təyin olunmuş, həm də gözə ən xoş görünəcək şəkildə yaradılmışdır. İnsan bədəninin xarici görünüşündə simmetriyanı təmin edən qızıl nisbətdən bəhs etmək mümkündür. Necə ki, rəssamlar çəkdikləri şəkillərdə bu qızıl nisbətdən istifadə edirlər. Belə ki, hər insanın ağzı, burnu, gözləri son dərəcə incə nisbətlə lazım olduqları yerə yerləşdirilmişdir. Bədəndəki simmetriya da ilk baxışda hər kəsin diqqətini cəzb edir.

Allah bir-birindən fərqli canlılarda Sani sifətini əks etdirən detallar yaratmışdır. Heç birinin xarici görünüşü bir başqasına bənzəmir. Tropik zonaya məxsus quşun qanadlarında, ya da çiçəyin

yarpaqlarında fosforlu rənglər istifadə edilərkən kəpənəyin qanadlarında çox fərqli tonlar yaradılmışdır. Eyni şəkildə, sürünənlə quşun və ya dəniz canlısının görüntüsü də bir-birindən tamam fərqlidir.

Bitkilər aləmində də Allah'ın sonsuz sənətini müşahidə etmək mümkündür. Belə ki, **"Yer üzündə sizin üçün yaratdığı müxtəlif rəngli şeyləri də (sizə ram etdi)..." (Nəhl surəsi, 13)** ayəsində bildirildiyi kimi, Allah bir-birindən fərqli milyonlarla növ bitki və çiçək yaratmışdır. Hamısının qoxusu, forması, rəngi, simmetriyası fərqlidir. Sadəcə bir çiçəyin, məsələn, bir səhləb çiçəyinin belə, bəlkə, yüzlərlə fərqli görünüşdə, fərqli rəngdə növü var. Eyni şəkildə, hər hansı bir gülün bir-birindən fərqli çoxlu rəngi və bu rənglərin də öz içlərində fərqli tonları var. Şübhəsiz, bu rənglər, tonlar, naxışlar açıq-aşkar bir sənətin nümunəsidir.

Allah bu qədər fərqli görüntüdə, amma hər biri çox estetik olan növləri göstərərək sənətindəki sonsuzluğu insanlara göstərmişdir. Diləsəydi, hər canlı növündən sadəcə bir növ də yarada bilərdi. Lakin bir neçə növ yaradaraq insanları heyrətləndirən sənət meydana gətirmişdir. Əlbəttə, bu sənəti kitab səhifələrində təsvir etmək, əskiksiz olaraq nümayiş etmək mümkün deyil. Çünki insan dünya üzərində başını çevirdiyi hər yerdə bu sənətin nümunələri ilə qarşılaşacaq. Allah qüsursuz yaradandır.

**Allah hər bir canlını sudan yaratmışdır. Onlardan bəzisi qarnı üstə sürünür, bəzisi iki ayaq üstündə gəzir, bəzisi də dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Şübhəsiz ki, Allah hər şeyə qadirdir. (Nur surəsi, 45)**

**Məgər Allah'ın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə, O tutub saxlayar. Həqiqətən, Allah insanlara şəfqətlidir, mərhəmətlidir. (Həcc surəsi, 65)**

# SALAM

## ***<u>Hər cür təhlükələrdən qullarını salamatlığa çıxaran, cənnətdəki qullarına salam edən</u>***

**O Allah ki, Ondan başqa ilah yoxdur. Məlikdir; Qüddusdur; Salamdır; Mömindir; Mühəymindir; Əzizdir; Cabbardır; Mütəkəbbirdir. Allah şirk qoşduqlarından çox ucadır. (Həşr surəsi, 23)**

Allah Özünə inananlara sonsuz cənnəti müjdələmişdir. Ancaq nəzərdən qaçırılan bir həqiqət var ki, iman edənlər yalnız axirətdə deyil, dünyada da gözəl bir həyatla mükafatlandırılmışlar. Allah dünyadakı və axirətdəki bu müjdəni Quranda belə bildirmişdir:

**Sizdə olan nemətlər tükənəcək, Allah'ın dərgahında olan nemətlər isə daim qalacaqdır. Səbirli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 96-97)**

Şübhəsiz, dünyadakı və axirətdəki gözəl həyat qulları üzərində sonsuz şəfqət sahibi olan Allah'ın Salam sifətinin təcəllilərindəndir. Dünyada gözəl həyat yaşayan, Rəbbimizə qulluq edib etdiyi saleh əməllərdən əcr qazanan mömin axirətdə də razı salınmış olaraq cənnətə girəcək. Allah səmimi qullarının axirətdə qarşılaşacaqları mühiti Quranda belə xəbər vermişdir:

**Cənnət müttəqilərə yaxınlaşdırılacaq, uzaqda olmayacaqdır. Budur sizə vəd edilən. O, hər bir üz tutan, (Onun əmrinə) riayət edən mərhəmətli (Allah'dan) (Onu) görmədən qorxan**

**və (Allah'a) yönəlmiş qəlblə gələn kimsələr üçündür. Ora sağ-salamat daxil olun! Bu, əbədiyyət günüdür. Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı vardır. (Qaf surəsi, 31-35)**

Allah'ın Salam sifəti, eyni zamanda, cənnətə qəbul etdiyi qullarına salam verməsi mənasına da gəlir. Allah "Yasin" surəsinin 58-ci ayəsində **"Üstəlik, Rəhmli Rəbb: "Salam", - deyəcək"** şəklində buyuraraq cənnətə girən insanlara salam verəcəyini bildirir. Şübhəsiz, Allah'ın salamı möminlər üçün ola biləcək ən böyük müjdədir. Ayələrdə belə buyurulur:

**Biz səni ancaq müjdə verən və xəbərdarlıq edən kimi göndərdik. (Furqan surəsi, 75)**

**Kora, çolağa, xəstəyə çətinlik yoxdur. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əllərinizdə olan evlərdə, yaxud dostlarınızın evlərində yemək yeməkdən heç bir günah gəlməz. Bir yerdə, yaxud ayrı-ayrılıqda yeməyinizdə də heç bir günah yoxdur. Evlərə daxil olduğunuz zaman özünüzü Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın. Allah ayələri sizə belə izah edir ki, düşünüb daşınasınız! (Nur surəsi, 61)**

# SƏMİ

## ***Eşidən***

**Həqiqətən, özlərinə bir dəlil gəlmədən Allah'ın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur. Onlar heç vaxt buna çatmayacaqlar. Sən Allah'a sığın! Həqiqətən, O, eşidəndir, görəndir. (Mömin surəsi, 56)**

İnsana şah damarından daha yaxın olan Allah həm hər şeyi görən, həm də eşidəndir. Allah kainatdakı hər səsi eşidir. Ucsuz-bucaqsız kosmosda böyük sürətlə irəliləyən qalaktikaların, planetlərin, meteoritlərin səslərini eşitdiyi kimi, mikro aləmdə yaşayan və insanların gözlə əsla görə bilməyəcəyi milyardlarla canlının da səsini eşidir. Çünki Özü bütün bunları yaradandır. Allah torpağın altında yarılan toxumun da, səmada çaxan şimşəyin də, yerə düşən bir yağış damlasının və ya uçan quşun qanad səsini də eşidir. Bu həqiqət **"Dedi ki: "Rəbbim göydə və yerdə deyilən sözləri bilir. O, eşidəndir, biləndir!" (Ənbiya surəsi, 4)** ayəsi ilə bizlərə bildirilmişdir. Şübhəsiz, Allah'ın böyüklüyünün və qüdrətinin dəlillərindən biri bütün kainatdakı canlı və cansız bütün səsləri eyni anda eşitməsidir.

Allah yaşayan bütün insanların Özünə gizlicə yönələrək etdikləri bütün duaları eyni anda eşidir və eyni anda qarşılıq verir. Necə ki, bir başqa ayədə: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm..." (Bəqərə surəsi, 186) -**deyə bildirmişdir. Allah qatında zaman və məkan olmadığı, Allah hər an hər yerdə olduğu üçün bu, Ona çox asandır. Eyni zamanda, gizli pıçıltıların, danışıqların da hamısını eşidir.

Allah ürəkləri ürpərərək Özünə dua edənlərin, gizlicə yönəlib dönənlərin səslərini eşitdiyi kimi, üsyan edənlərin, inkar edənlərin də səslərini, qurduqları planların ən həssas nöqtələrini də eşidərək bilir. Onun elmi hər yeri əhatə etmiş, heç bir canlı Ondan gizli bir söz belə deyə bilməmiş və deyə də bilməyəcək. Axirətdə ağzından çıxan hər sözün qarşısına gətirildiyini görüncə bunu daha yaxşı anlayacaq.

**De: "Allah'ı qoyub sizə nə bir zərər, nə də bir fayda verə bilməyən şeylərəmi ibadət edirsiniz?" Allah eşidəndir, biləndir. (Maidə surəsi, 76)**

**Rəbbi onun duasını qəbul etdi və onların hiyləsini ondan uzaq etdi. Həqiqətən, O, eşidəndir, biləndir. (Yusif surəsi, 34)**

**Göylərdə və yerdə nə varsa, Allah'a məxsusdur. Allah zəngindir, tərifəlayiqdir. Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də (mürəkkəb olub) ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allah'ın sözləri qurtarmazdı. Həqiqətən, Allah qüdrətlidir, müdrikdir. Sizi yaratmaq və diriltmək ancaq bir adamı yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah eşidəndir, görəndir. Məgər Allah'ın gecəni gündüzə, gündüzü də gecəyə qatdığını, müəyyən olunmuş vaxtadək hərəkət edən günəşi və ayı ram etdiyini, üstəlik, Allah'ın, nə etdiklərinizdən xəbərdar olduğunu görmürsənmi? (Loğman surəsi, 26-29)**

# ŞAFİ

## ***Şəfa verən***

**"Xəstələndiyim zaman mənə şəfa verən Odur". (Şüəra surəsi, 80)**

İnsanın acizliyini qavradığı və nə qədər möhtac olduğunu ən çox anladığı zamanlardan biri də xəstə olduğu vaxtlardır. Allah insana bu duyğunu yaşatmaq üçün bir-birindən fərqli yüzlərlə xəstəlik yaratmışdır. Hər xəstəliyin insan üzərində meydana gətirdiyi fiziki və ruhi təsirlər bir-birindən çox fərqlidir. Ancaq hamısı hikmətli yaradılışın dəlilidir. Gözlə belə görülməyən bir virusun insanı tanınmayacaq hala gətirməsi, bədənə girən bir mikrobun, bəzən diaqnozunun qoyula bilməməsi Allah'ın gücünün ən açıq dəlillərindəndir. Elm adamlarının tək bir virusu ortadan qaldırmaq üçün apardıqları təcrübə və araşdırmalar Allah'ın yaratmadakı üstünlüyünü göstərir.

Xəstəliyi verən Allah olduğu üçün bu xəstəliyin keçməsi də ancaq Allah'ın diləməsi ilə olur. Allah dilədiyi təqdirdə Şafi sifəti ilə verdiyi xəstəliyi ortadan qaldırır. Necə ki, Allah diləmədikcə bütün dünyanın həkimləri, ən inkişaf etmiş texnoloji cihazlar, kəşf edilən ən son dərmanlar toplansa, yenə də o adamın xəstəliyinin yaxşılaşması qeyri-mümkündür. İstifadə edilən dərmanların hamısı xəstəliyin yaxşılaşması üçün vəsilədir. Əgər Allah diləyərsə, tətbiq olunan müalicəni vəsilə edərək adamın yaxşılaşmasına izn verər. Necə ki, Allah diləmədikcə çox sadə görünən xəstəlik də adamın ölümünə səbəb ola bilər.

Bu vəziyyətdə insanın vəzifəsi öz acizliyinin yanında Rəbbimizin sonsuz gücünü görmək və çətinlik çəkdiyi hər an Ondan kömək di-

ləməkdir. Mömin bilməlidir ki, heç vaxt Allah'dan başqa köməkçi və vəli tapa bilməyəcək. Hz. Əyyub bu mövzuda Quranda nümunə göstərilən, Allah'a təslimiyyəti ilə təriflənən elçidir. Hz. Əyyubun şeytan tərəfindən özünə toxundurulan çətinlik qarşısında göstərdiyi gözəl əxlaq, səbir və təvəkkül bütün möminlərə nümunə olmuşdur. Mövzu ilə əlaqədar ayədə belə buyurulur:

**Əyyubu da (yada sal!) Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!" (Ənbiya surəsi, 83)**

Bu çağırışın ardından Allah onun duasını eşitmiş və onu bu çətinlikdən qurtarmışdır. Hz. Əyyub isə səbir etmənin və yalnız Allah'a yönəlib dönmənin böyük əcrini almışdır.

**O, həm dirildir, həm də öldürür. Siz yalnız Ona qaytarılacaqsınız. Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yolu göstərən rəhbər və mərhəmət gəlmişdir. De: "(Bunlar) Allah'ın lütfü və mərhəməti sayəsindədir!" Qoy, onlar sevinsinlər. Bu ki, onların yığdıqlarından daha xeyirlidir. (Yunis surəsi 56-58)**

**Rəbbin bal arısına belə təlqin etdi: "Dağlarda, ağaclarda və (insanların) düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin asanlaşdırdığı yollarla get". (O arıların) qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 68-69)**

# ŞƏFİ

## ***Şəfaətçi***

**Yoxsa onlar Allah'dan qeyrilərinimi özlərinə şəfaətçi etdilər? De: "Əgər onlar heç bir şeyə malik deyillərsə və heç bir şey anlamırlarsa, bəs necə olsun?" De: "Şəfaət bütünlüklə Allah'a məxsusdur. Göylərin və yerin hökmranlığı da Ona məxsusdur. Sonra siz Ona qaytarılacaqsınız". (Zumər surəsi, 43-44)**

Allah'a şərik qoşaraq iman edənlər Onun hüzura gətirildikləri zaman mütləq bir şəfaətçinin şəfaətinə sığınacaqlarını və o şəfaətçinin özlərinə kömək edəcəyini zənn edirlər. İnanclarına görə, bu şəfaətçi bəzən onların günahlarını öz boynuna götürəcək, bəzən də onları müdafiə edəcək. Buna görə, dünya həyatında daima bu şəfaətçini razı etməyə çalışır, daim onu zikr edirlər. Halbuki, bu onların zənnidir və əsla baş verməyəcək. Allah bir çox ayəsində hesab günündə -Allah'ın diləməsi xaricində- heç kimin heç kimə şəfaət edə bilməyəcəyini bildirmişdir. Bu ayələrdən biri belədir:

**Dinlərini oyun və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri tərk et. Bununla xatırlat ki, heç kəs qazandıqlarına görə özünü məhvə məhkum etməsin. Allah'dan başqa onun nə bir hamisi, nə də bir havadarı olacaqdır. O, nə cür fidyə versə də, ondan qəbul olunmayacaq. (Ənam surəsi, 70)**

O gün heç kim heç kimlə dost deyil, heç kim də bir başqasının günahını yüklənməz. Allah ancaq Özündən məmnun olduğu adamın şəfaət edə biləcəyini söyləyir. Bu adam da yalnız doğrunu söyləyəcək. İnkar edənlər üçün o gün nə köməkçi, nə də şəfaətçi var. Heç

kim başqasının əvəzinə heç nə ödəyə bilməz. O gün heç bir dəstək, heç bir alış-veriş və heç bir şəfaət yoxdur. Heç bir insanın Allah'dan başqa vəlisi və şəfaətçisi də yoxdur...

**Göyləri, yeri və onların arasındakıları altı gündə yaradan, sonra da ərşə ucalan Allah'dır. Sizin Ondan başqa nə bir haminiz, nə də bir şəfaətçiniz vardır. Məgər düşünərək ibrət götürməyəcəksiniz? (Səcdə surəsi, 4)**

**O gün insanlar heç bir yana meyil etmədən carçının arxasınca yeriyəcəklər. Ər-Rəhmanın qarşısında səslər kəsiləcək və sən yalnız pıçıltı eşidəcəksən. O gün ər-Rəhmanın izn verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməyəcəkdir. Allah onların gələcəyini də, keçmişini də bilir. Onların elmi isə Onu ehtiva edə bilməz! (O gün) üzlər (əbədi) yaşayan, (yaradılanların) Qəyyumu (olan Allah) qarşısında zəlil bir görkəm alacaq. Günaha batanlar isə ziyana uğrayacaqlar. Mömin olub yaxşı işlər görən şəxslər isə nə haqsızlıqdan, nə də naqislikdən qorxacaqlar. (Taha surəsi 108-112)**

**Onun qarşısında, izn verdiyi kəslərdən başqa heç kimin şəfaəti fayda verməz. Nəhayət, (mələklərin) qəlbindən qorxu keçib getdikdə onlar: "Rəbbiniz nə buyurdu?"– deyə soruşarlar, digərləri isə: "Haqqı (buyurdu)! O, ucadır, böyükdür!"– deyə cavab verərlər. (Səba surəsi, 23)**

# ŞARİH

## *Açan*

**Məgər Allah'ın köksünü İslam üçün açdığı və Rəbbinin nura yönəltdiyi şəxs (kafirlə eyni ola bilərmi)? Qəlbi Allah'ın zikrinə qarşı sərt olanların vay halına! Onlar, həqiqətən, azğınlıq içindədirlər. (Zumər surəsi, 22)**

Allah'ın və axirətin varlığı açıq-aşkardır. Ancaq buna baxmayaraq, insanların çoxu iman etmir. Həqiqi imanın ürəyə yerləşməsi isə ancaq yuxarıdakı ayədə bildirildiyi kimi, Allah'ın insanın köksünü İslam üçün açması ilə mümkündür. Belə ki, iman Allah'ın insana verdiyi ən böyük nemətdir. Allah'ın səmimi qulları üzərindəki fəzli və rəhməti olmasa, heç birinin qurtulması mümkün olmazdı. Allah insanları yaradarkən onlara pisliyə yönəldən nəfsi vermiş, lakin bununla bərabər, nəfsə də fücurunu (sərhəd tanımaz günah və pisliyi) və ondan çəkinməyi ilham edərək səmimi qullarının doğru yola çatmalarını təmin etmişdir.

Adamın vicdanı vasitəsi ilə çatdığı bu doğru yol, əlbəttə, səmimi imana sahib insanlara verilən bir nemətdir. Allah başqa ayələrdə bu neməti belə xəbər verir:

**Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır. Bunlar Allah'ın lütfü və neməti sayəsindədir. (Hucurat surəsi, 7-8)**

Bütün dəlillərə baxmayaraq, necə yaradıldığını unudaraq inkara sapanların vəziyyəti isə fərqlidir. Allah vicdanından istifadə etməyən, nəfsinə uyan bu insanların ürəklərini İslama açmayacaq. Allah'ın bu

şəxslər üçün Quranda verdiyi hökm belədir:

**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməzlər. Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 6-7)**

**Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allah'dan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? (Casiyə surəsi, 23)**

**Məgər Biz sənin üçün köksünü açmadıqmı? Yükünü səndən götürmədikmi? (Onlar) belini bükürdü. Biz adını sənə görə ucaltmadıqmı? Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Həqiqətən, hər çətinliyin ardınca asanlıq gəlir. (İşlərini) qurtaran kimi (Allah yolunda) çalış! Rəbbinə üz tut! (İnşirah surəsi 1-8)**

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar. (Ənam surəsi, 125)**

# ŞƏHİD

## *Şahid olan, hər zaman və hər yerdə hazır olan*

**De: “Mənimlə sizin aranızda Allah’ın şahid olması yetər. Həqiqətən, O, qullarından xəbərdardır, görəndir”. (İsra surəsi, 96)**

Allah əzəli və əbədidir. Mütləq olan tək varlıqdır. Zamana və məkana tabe deyil. Buna görə də keçmiş və gələcək anlayışları Allah qatında eynidir. Allah keçmişdə olan bütün hadisələri də, gələcəkdə baş verəcək hadisələri də bilir. Kainatın ilk yaradıldığı andan etibarən, yox olacağı qiyamət gününə qədərki son ana qədər hər şeyə şahiddir.

Yaşanan hər hadisəni, söylənən hər sözü bilir. Allah qatında gizli olan heç nə yoxdur. Onun üçün gündüzün işıqlığı da, gecənin qaranlığı da birdir. Allah gecənin qaranlığında gizlənənlərin, bir yerə yığışaraq pıçıldaşanların bütün danışıqlarına da şahiddir. Cahil olan insan gecə qaranlığının günahlarını gizləyəcəyinə, heç kimin görməyəcəyinə və bilməyəcəyinə inanır. Halbuki, Allah insana hər an, hər yerdə şahiddir. Tək olanda da, milyardlarla insanın arasında olanda da insanın vəziyyəti Allah qatında eynidir. Quranda bu vəziyyət belə xəbər verilir:

**Məgər Allah’ın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, (onların) dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, (Allah) onların yanındadır. Sonra qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir. (Mücadilə surəsi, 7)**

Allah bütün insanların hər an, hər saniyə ürəklərindəki niyyətə, ağıllarından keçən hər düşüncəyə şahiddir. Dünyada insanların yaşadıqları hər hadisəyə şahid olan Allah hesab günündə onlara əməllərinin tam qarşılığını əskiksiz verəcək. Allah'ın özünü görməyəcəyini, danışıqlarını eşitməyəcəyini zənn edənlər və gizli günahlarının qarşılarına heç vaxt çıxmayacağını düşünənlər qiyamət günündə nə qədər yanıldıqlarını anlayacaqlar. Çünki Allah insanın doğulduğu andan son nəfəsini verdiyi ölüm anına qədər yaşadığı hər hadisəyə bütün detalları ilə şahid olmuşdur. **"O gün Allah onların hamısını dirildəcək və etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah onları hesaba almış, onlar isə unutmuşlar. Allah hər şeyə şahiddir" (Mücadilə surəsi, 6)** ayəsi ilə bildirdiyi kimi, insanın işlədiyi hər əməl axirətdə tam qarşılığını görəcək. Ayələrdə belə buyurulur:

> **Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Yerdə və göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın yazıda olmasın. (Yunis surəsi, 61)**
>
> **Fəqət Allah sənə nazil etdiyinə şahiddir. O, bu (Quranı) Öz elmi ilə nazil etmişdir. Mələklər də şahiddirlər. Şahid olaraq Allah kifayətdir. (Nisa surəsi, 166)**
>
> **Onlara vəd etdiyimiz (əzabın) bəzisini sənə göstərsək və yaxud da (göstərmədən öncə) səni öldürsək, yenə də onların dönüşü Bizədir. Həm də Allah onların nə etdiklərinə şahiddir. (Yunis surəsi, 46)**
>
> **(Quranın) haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil? (Fussilət surəsi, 53)**

# ŞƏKUR

## *Öz razılığı üçün edilən yaxşı işlərə daha gözəli ilə qarşılıq verən*

**Əgər Allah'a gözəl bir borc versəniz, O, bunu sizin üçün qat-qat artırar və sizi bağışlayar. Allah şükürün əvəzini verəndir, Həlimdir. (Təğabun surəsi, 17)**

Şübhəsiz, Allah yer üzündə insanlara saysız nemət vermiş və bunların qarşılığında da yalnız şükür etmələrini əmr etmişdir. Allah "İbrahim" surəsinin 7-ci ayəsində şükürün əhəmiyyətinə belə diqqət çəkir: "**O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıraram, yox əgər nankorluq etsəniz, (bilin ki,) Mənim əzabım şiddətlidir".**

Əlbəttə, Allah'dan gələn bütün nemətlərə əvəz olaraq şükür etməyən insanın mükafatı axirətdə əskiksiz veriləcək. Bu, Allah'ın sonsuz ədalətinin təcəllisidir. Ancaq Allah qullarına qarşı çox şəfqətli və mərhəmətlidir. Allah başqa bir ayəsində belə hökm etmişdir:

**Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər yaxşı əməl olarsa, bunu artırar və Öz tərəfindən böyük mükafat verər. (Nisa surəsi, 40)**

Yuxarıdakı ayədə də göründüyü kimi, Allah nankorluq edəni əzabla cəzalandıracaq, ancaq yaxşılıq edənlərin əcrini də qat-qat artıracaq. Kim Allah üçün xeyir iş görsə, hesab günündə daha gözəli ilə qarşılığını alacaq. Kim Allah üçün savab iş görsə, hesab günündə daha yaxşısı ilə qarşılaşacaq.

**İman gətirib yaxşı işlər görən qullarına Allah'ın müjdə verdiyi (nemət) budur. De: "Mən sizdən bunun əvəzində qo-**

**humluq sevgisindən başqa bir şey istəmirəm”. Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah bağışlayandır, şükürün əvəzini verəndir. (Şura surəsi, 23)**

**(Allah) onlara mükafatlarını tam olaraq versin, üstəlik də onlara Öz lütfünü artırsın. Həqiqətən, O, bağışlayandır, şükürün əvəzini verəndir. (Fatir surəsi, 30)**

**Onlar deyəcəklər: “Qəm-qüssəni bizdən uzaq edən Allah’a həmd olsun! Həqiqətən, Rəbbimiz bağışlayandır, şükürün əvəzini verəndir. (Fatir surəsi, 34)**

**De: “Həqiqətən, Rəbbim istədiyinin ruzisini bol edər, (istədiyininkini də) azaldar. Lakin insanların çoxu (bunu) bilmir”. Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar (cənnətdəki) mənzillərində asudə yaşayacaqlar. (Səba surəsi, 36-37)**

**Kimdir o şəxs ki, Allah’a gözəl bir borc versin, O da onun üçün bunu qat-qat artırsın? Onun üçün çox dəyərli bir mükafat da vardır. O gün sən mömin kişilərin və mömin qadınların nurunun onların önlərindən və sağ tərəflərindən yayıldığını görəcəksən. (Onlara:) “Bu gün sizin müjdəniz (ağacları) altından çaylar axan cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!”– (deyiləcək.) Bu, böyük uğurdur. (Hədid surəsi, 11-12)**

# TƏVVAB

## *Tövbələri qəbul edib günahları bağışlayan*

**Yalnız tövbə edənlər islah edənlər və bəyan edənlər istisnadır. Mən onların tövbəsini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, rəhmliyəm! (Bəqərə surəsi, 160)**

Allah'ın ayələrində də bildirdiyi kimi, insan cahil və nankor olaraq yaradılmışdır. Hər an səhv edə, günah işləyə, zəiflik göstərə bilər. Həm də özünü daim Allah'a üsyan etməyə sövq edən, vəsvəsə verməyə çalışan düşməni - şeytan - var. Ancaq insana bu mənfi xüsusiyyətlərə görə edəcəyi səhvləri düzəltmək üçün yol göstərilmişdir: tövbə etmək...

Yuxarıda da ifadə etdiyimiz kimi, insan hər an səhv edə, günah işləyə və ya vəsvəsəyə qapıla bilər. Ancaq nə qədər böyük səhv etsə də, özü üçün dönüş yolu var. Allah səmimi olaraq tövbə edən qullarının tövbələrini qəbul edir və onları bağışlayır. Buna görə, insan keçmişində nə qədər qafil olsa belə, ümidsizliyə qapılması doğru olmaz. Allah Quranda belə xəbər verir:

**De: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allah'ın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, bağışlayandır, rəhmlidir!" (Zumər surəsi, 53)**

Ancaq bütün bunlarla birlikdə unudulmamalı çox əhəmiyyətli bir həqiqət var:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah bilən-**

**dir, müdrikdir. Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!"– deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün üzücü bir əzab hazırlamışıq. (Nisa surəsi, 17-18)**

Yuxarıdakı ayələrdə də bildirildiyi kimi, Allah ancaq səmimi qullarının tövbələrini qəbul edir. Çünki tövbə həqiqi peşmanlıq və eyni günahı bir daha təkrar etməmək qərarı ilə məna qazanır. Əks halda, bütün həyatını Allah'ın əmrlərinə üsyan edib, şeytana aldanaraq keçirmiş birinin ölümlə qarşılaşdığı anda gerçəyi anladığından ötrü davranışlarını dəyişdirməsinin mənası olmayacaq. Belə ki, bu haqda Quranda fironun səmimiyyətsiz tövbəsindən bu cür bəhs edilmişdir:

**Biz İsrail oğullarını dənizdən keçirtdik. Firon və onun qoşunu zülm və düşmənçilik məqsədilə onları təqib etdilər. Nəhayət batdığı vaxt dedi: "İsrail oğullarının iman gətirdiklərindən başqa ilah olmadığına inandım. Mən də müsəlmanlardanam!" "İndimi? Sən ki əvvəllər asilik etmiş və fəsad törədənlərdən olmuşdun". (Yunis surəsi, 90-91)**

**Geri qalmış üç nəfəri də (bağışladı). Hətta yer üzü öz genişliyinə baxmayaraq, onlara dar gəlmiş, ürəkləri sıxılmış və yəqin bilmişdilər ki, Allah'dan, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra peşman olsunlar deyə, onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir. (Tövbə surəsi, 118)**

**Əgər Allah'ın sizə lütfü və mərhəməti olmasaydı, Allah tövbələri qəbul edən və müdrik olmasaydı, (yalan danışanlar Allah'ın lənətinə gələrdilər). (Nur surəsi, 10)**

# VAHİD

## ***Tək olan, şəxsində, sifətlərində, işlərində, adlarında, hökmlərində, əsla ortağı və ya bənzəri, tayı olmayan***

**Sizin ilahınız tək bir ilahdır; Ondan başqa ilah yoxdur; O, Rəhmandır, Rəhimdir. (Bəqərə surəsi, 163)**

Allah'ın böyüklüyünü qavramayan insanlar Allah'a bərabər güclər tapmağa çalışmış və bunun nəticəsində gözlərində böyütdükləri şeylərə ibadət etmişlər. Bəzisi çox parlaq və güclü gördüyü üçün Günəşi daha üstün tutmuş və ona ibadət etmiş, bəzisi də ulduzların qarşısında əyilmişdir. Hətta bəziləri bütün acizliklərinə baxmayaraq, özlərinin də güc sahibi olduqlarını iddia etməyə cəsarət etmişlər. Quranda hz. İbrahimlə Allah'ın gücü və birliyi mövzusunda mübahisə edən adam bu mövzuya veriləcək ən əsas nümunədir. Hz. İbrahim isə Allah'a kimsənin ortaq ola bilməyəcəyini belə bir örnəklə isbat etmişdir:

**Allah'ın verdiyi hakimiyyətə görə İbrahim ilə Rəbbi barəsində höcətləşən kəsin (əhvalatını) bilmirsənmi? İbrahim: "Mənim Rəbbim həm dirildir, həm də öldürür!"– dedikdə: "Mən də həm dirildir, həm də öldürürəm!"– demişdi. İbrahim: "Allah günəşi məşriqdən gətirir. Sən də onu məğribdən gətir!"– dedikdə, o kafir çaşıb qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz. (Bəqərə surəsi, 258)**

Allah'dan başqa ilahlar tapmaq yalnız keçmişdə yaşayan insanlara məxsus olan ağılsızlıq deyil. Bu dövrdə də bir çox insan Allah'a ortaq qoşaraq, Onun yoldaşının və bənzərinin ola bilməyəcəyini in-

kar edir. Bu şəxslər bəlkə ətrafda Günəş, ulduzlar və s. kimi bütlər seçməmişdir, amma onlar da özləri kimi aciz olan digər insanlara və ya dəyər verdikləri əmtəələrə (zənginlik, gözəllik, güc və s.) sitayiş edirlər. Məsələn, bütün həyatlarını zənginlik, mal-mülk əldə etmək üçün keçirir və bu zaman Allah'ın özlərindən razı olub-olmadığını heç düşünmürlər. Allah'ı insanlarla, digər varlıqlarla bərabər tuturlar ki, bu da açıq-aşkar şirkdir.

Allah yaradandır. Heç kim Günəşi qərbdən gətirə bilməz, heç kim kosmosda fövqəladə bir sürətlə genişlənən kainatı dayandıra bilməz, heç kim göyü və yeri tuta bilməz və heç kim yoxdan bir insan yarada bilməz. Bunları ancaq kainatda tək olan və tayı-bənzəri olmayan Allah edə bilər. Yaradanla yaradılan isə əsla bənzər deyil. Quranda şirk qoşanların acizliyindən belə bəhs edilir:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allah'dan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. (Bunu etmək) istəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**

**…Yoxsa onlar Allah'a, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və (bu) yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allah'dır. O, təkdir, qalib gələndir". (Rəd surəsi, 16)**

**... Məryəm oğlu İsa Məsih ancaq Allah'ın elçisi, Onun Məryəmə göndərdiyi kəlməsi və Onun tərəfindən bir ruhdur. Allah'a və Onun elçilərinə iman gətirin və: "(İlah) üçdür!" deməyin. (Batil əqidənizə) son qoyun! (Bu,) sizin üçün xeyirli olar. Həqiqətən, Allah tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər. (Nisa surəsi, 171)**

# VARİS

## *Sərvətlərin həqiqi sahibi*

**Biz xoş güzəranı ilə qürrələnən neçə-neçə şəhəri məhv etdik. Budur onların yurdları. Özlərindən sonra bəzilərindən başqa heç kəs sakin olmadı. Onlara Biz varis olduq. (Qəsəs surəsi, 58)**

İnsanlar dünyadakı həyatları boyunca daima qazanmağa, zənginliklərini, mal və mülklərini artırmağa çalışırlar. Hətta bəzi insanlar həyatı boyunca başqa heç bir məqsəd axtarmadan, varlığının gerçək səbəbini heç düşünmədən səhər-axşam daha çoxunu əldə etmək uğrunda çalışırlar. Ancaq bu insanların qulaqardı etdikləri bir həqiqət var:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 103-104)**

Bəli, bu insanlar həyatları boyu boş bir məqsəd uğrunda səy göstərirlər. Lakin bir gün bəlkə də heç gözləmədikləri bir anda ölüm mələkləri gəlir və Allah'ın əmri ilə onların canlarını alır. Hamının qibtə etdiyi böyük sərvətə sahib olan bu insanlar yalnız bir bezə sarılaraq torpağın bir neçə metr altına basdırılır və axirətə gedərkən ömürləri boyu qazandıqları heç nəyi özləri ilə apara bilmirlər. Torpağın içinə çılpaq bədənlərindən başqa heç nə qoyulmur. Onlar istəsələr də evləri, avtomobilləri, bütün malları, torpaqları və övladları geridə qalır. Axirətdə yanlarında olan isə yalnız təqvaları və Allah'a olan yaxınlıqlarıdır.

Onlardan sonra yer üzünə varis olan isə yalnız Allah və Onun zəngin etdiyi səmimi qullarıdır. Yuxarıda da ifadə etdiyimiz kimi, insan nə qədər istəsə belə, mal-mülkünə, dünyadakı etibarına, zənginliyinə sonsuza qədər sahib ola bilməz. Əlindəki hər şey ona qısa bir müddət istifadə etməsi üçün dünyada verilən nemətlərdir. Ancaq bu nemətləri verən Allah dilədiyi zaman adamın canını alar və malı dünyada, bədəni də torpaqda buraxılaraq Allah'ın hüzuruna çıxarılar...

**Şübhəsiz ki, Biz həm dirildir, həm də öldürürük və varis olan da Bizik. (Hicr surəsi, 23)**

**Zəkəriyyanı da (yada sal!) Bir zaman o, yalvarıb demişdi: "Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən yaxşısısan!" (Ənbiya surəsi, 89)**

**Onlar Bizim hüzurumuza gələcəkləri gün necə yaxşı eşidəcək, necə də yaxşı görəcəklər! Lakin zalımlar bu gün açıq-aydın azğınlıq içindədirlər. Sən onları işin bitmiş olacağı peşmançılıq çəkiləcək günlə qorxut! İndi onlar hələ qəflətdədirlər və iman gətirmirlər. Şübhəsiz ki, yerə və onun üstündə qalanlara təkcə biz sahib çıxacağıq. Onların qayıdışı Bizə olacaqdır. (Məryəm surəsi, 38-40)**

**Biz xoş güzəranı ilə qürrələnən neçə-neçə şəhəri məhv etdik. Budur onların yurdları. Özlərindən sonra bəzilərindən başqa (orada) heç kəs sakin olmadı. Onlara Biz varis olduq. (Qəsəs surəsi, 58)**

# VASİ

## *Hər şeyi əhatə edən, geniş olan*

**Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan, Allah yolunda cihad edən və tənə edənin tənəsindən qorxmayan bir camaat gətirər. Bu, Allah'ın lütfüdür, onu istədiyinə verər. Allah əhatə edəndir, biləndir. (Maidə surəsi, 54)**

Allah'ın genişliyi bütün kainatı əhatə etmişdir. Yoxluqdan varlığı yaradan Allah məkana tabe deyil, bütün məkanlardan münəzzəhdir. Çünki məkanı da yaradan Allah'dır. Bəzi cəmiyyətlərdə Allah'ın göylərdə olduğu düşüncəsi hakimdir. Allah'a dua etdiklərində insanlar üzlərini göyə çevirərək batil bir inanca yönəlirlər. Həqiqət isə Quranda bildirilmişdir:

**"Məşriq də, məğrib də Allah'ındır! Hansı səmtə yönəlsəniz, Allah'ın üzü orada olar. Həqiqətən, Allah əhatə edəndir, biləndir". (Bəqərə surəsi, 115)**

Halbuki, Allah Quranda göylərin və yerin Rəbbi olduğunu bizlərə bildirir. Bütün genişliyə sahib olanın da Özü olduğunu söyləyir. Allah hər yeri əhatə etmişdir. Allah'ın mülkü genişdir. Nemətləri tükənməz, rəhmətinin sərhədi yoxdur, bağışlaması da çox geniş olandır. Qullarının bütün ehtiyaclarını onlar heç bir şey etmədən qarşılayan Allah'ın rəhməti və mərhəməti sonsuzdur.

"Qəyyum" sifəti xüsusilə möminlər üzərində çox təcəlli edir. Yuxarıda da ifadə etdiyimiz kimi, Allah'ın rəhməti və mərhəməti son dərəcə genişdir. İnanan qullarını rəhməti ilə əhatə etmişdir və dünyada onları bütün düşmənlərdən qoruyur. Məsələn, insanlardan bə-

ziləri dinə zərər vermək qəsdi ilə möminlərə nemətlərin gəlməsinə mane olmağa, onlara çətinlik yaratmağa çalışırlar. Münafiqlər: **"Allah'ın Elçisi yanında olanlara bir şey verməyin ki, dağılıb getsinlər!" (Munafiqun surəsi, 7) -** deyərək inananlara zərər verə biləcəklərini zənn edirlər. Halbuki, münafiqlərin görməzlikdən gəldikləri bir gerçək var: Allah dilədiyi qulunu geniş rəhmət xəzinəsindən zəngin edər. Çünki göylərin və yerin xəzinələri Onundur. Allah'ın geniş rəhmət sahibi olduğu bir ayədə belə bildirilir:

**Yalnız sizin dininizin ardınca gələnlərə inanın ki, kiməsə sizə verilənin bənzəri verilməsin, yaxud Rəbbinizin yanında sizə dəlil gətirməsinlər". De: "Şübhəsiz ki, doğru yol Allah'ın haqq yoludur!" De: "Şübhəsiz ki, lütf Allah'ın əlindədir və onu istədiyinə verir! Allah əhatə edəndir, biləndir". (Ali-İmran surəsi, 73)**

**Göylərdə və yerdə nə varsa, Allah'ındır. (Bu, Allah'ın) pislik edənlərə əməllərinin cəzasını verməsi, yaxşılıq edənləri isə ən gözəli ilə mükafatlandırması üçündür. Onlar kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən çəkinirlər. Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir. O, sizi torpaqdan yaradanda da, siz analarınızın bətnində rüşeym halında olanda da sizi yaxşı tanıyırdı. Özünüzü təmizə çıxartmayın! Çünki O, kimin qorxduğunu yaxşı bilir. (Nəcm surəsi, 31-32)**

# VƏDUD

## ***Yaxşı qullarını sevən, onları rəhmət və razılığına çatdıran, yaxud sevilməyə və dostluğu qazanılmağa layiq olan***

**O, çox bağışlayandır, çox sevəndir. (Büruc surəsi, 14)**

Allah insanları Özünə qulluq etmələri üçün yaratmışdır. Lakin buna baxmayaraq, bəziləri Allah'ı inkar edir, bəziləri də ölənə qədər tam səmimiyyətlə Ona sadiq qalır. Allah Özünə vəfa göstərən qullarına çox yaxındır, dua etdikləri zaman onları eşidir və qarşılıq verir, bir çətinliklə qarşılaşdıqları zaman daim onların yanındadır. Allah iman edənləri həyatlarının hər dövründə köməyi ilə dəstəkləyir.

İnsanın dünya həyatında qazana biləcəyi ən böyük nemətlərdən biri Allah'ın dostluğudur. Allah'ın sevdiyi qulları son dərəcə şərəfli və seçkin həyat yaşayırlar. Belə insanlar hər zaman heyranlıq və təqdir qazanan üstün əxlaqa sahib olurlar.

Allah sevimli qullarını Öz rəhmətinə qovuşdurur, onların cənnətə girmələrinə izn verir. Peyğəmbərlər və saleh möminlər Allah'ın sevgisini qazanmış çox qiymətli insanlardır. Onlar da Allah'ı çox sevir və yalnız Onun məmnuniyyətini qazanmaq üçün həyatlarını davam etdirirlər. Şübhəsiz, Allah'ın bir insanı sevməsi və onu dost olaraq seçməsi insana verilən ən böyük nemətlərdən biridir.

**Rəbbinizdən bağışlanma diləyin, sonra Ona tövbə edin. Həqiqətən, Rəbbim rəhmlidir, sevəndir. (Hud surəsi, 90)**

# VƏHHAB

## *Hədiyyəsi çox olan, qarşılıqsız hədiyyə edən*

**Yoxsa güclü və üstün olan, qarşılıqsız bağışlayan Rəbbinin xəzinələri onların yanındadırmı? (Sad surəsi, 9)**

Daha əvvəl də bəhs etdiyimiz kimi, Allah möminlərə cənnətdə sonsuz xoşbəxtlik vəd etmiş və bu sonsuz xoşbəxtliyi dünya həyatları əsnasında da başlatmışdır. Saleh qullarını dünyada da gözəl bir həyatla yaşadacağını vəd etmişdir. Buna görə, səmimi möminlərin Rəbbimizdən istəyəcəkləri heç bir şeyin sərhədi yoxdur. Möminlər özlərini Allah'a yaxınlaşdıracaq, Onu xatırlamalarını, Ona şükür etmələrini təmin edəcək hər şeyi sərhədsiz olaraq istəyə bilərlər. Əlbəttə, Allah bu istəklərə dilədiyi şəkildə qarşılıq verər və möminlər üçün Rəbbimizin razılığı həmişə ən xeyirli şəkildə olar. Bu mövzuda Quranda verilən bir nümunə hz. Süleymanın duasıdır. Bir ayədə hz. Süleymanın: **"Həqiqətən, mən mal sevgisini Allah'ı zikr etməkdən ötəri seçdim" (Sad surəsi, 32) -** dediyi və daha sonra başqa bir ayədə belə dua etdiyi bildirilmişdir:

**O dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir səltənət ver ki, məndən sonra heç kimə nəsib olmasın. Həqiqətən, Sən bəxş edənsən. (Sad surəsi, 35)**

Yuxarıdakı ayədə göründüyü kimi, hz. Süleyman Allah'dan heç kimə nəsib olmayan səltənət istəmiş və Rəbbimizi Vəhhab sifəti ilə anmışdır. Çünki bilir ki, Allah səmimi qullarına dünyada və axirətdə qarşılıqsız olaraq hədiyyə edən, işlədikləri saleh əməllərin qarşılığını qat-qat artırandır. Bir ayədə belə buyurulur:

**Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən bəxş edənsən. (Ali-İmran surəsi, 8)**

# VƏKİL

## *Özünə təvəkkül edənlərin işini düzəldib, onların edə biləcəyindən daha yaxşısını təmin edən*

**Onlar: "İtaət edirik!"– deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr sənin dediyinin əksinə tədbir görürlər. Allah onların gecələr nə etdiklərini yazır. Onlardan üz döndər və Allah'a təvəkkül et! Qoruyan olaraq Allah yetər. (Nisa surəsi, 81)**

Allah imanlı, səmimi qullarına qarşılaşdıqları hər cür vəziyyətdə Özünə güvənmələrini söyləyir. Necə ki, bütün peyğəmbərlər Allah'ın dinini izah edərkən bir çox çətinliklə qarşılaşmış, xitab etdikləri birliklər çox vaxt onlara düşmənliklə qarşı çıxmışlar. Ancaq elçilər Allah'ın birliyini, Onun əmr və qadağalarını izah etmə mövzusunda hər zaman cəsur və qərarlı olmuşlar. Həmişə Allah'ı vəkil tutmuş, yalnız Onun məmnuniyyətini axtarmışlar.

Allah dininə kömək edənlərə kömək edəcəyini Quranda bizlərə bildirmişdir. Əlbəttə ki, möminlərin qarşısında onlara qarşı mübarizə aparan, şeytanı izləyən birliklər daim olur. Bu birliklər möminlərə mane olmaq üçün geniş əhatəli planlar qura bilirlər. İncidən sözlər və böhtanlarla möminlərin şövqlərini qırmağa çalışırlar. Amma heç bir zaman istədikləri olmur. Onların güvəndiyi şeylər Allah'ın gücü və sonsuz ağlı yanında etibarsızdır. Allah qurduqları hər planı ən incə detalına qədər bilən və görəndir. Allah küfrün tələlərini pozur. Allah Özünü dost etmiş, səbirli və qərarlı möminlərə kömək edir. Ən gözəl nəticə ilə möminləri müvəffəqiyyətə qovuşdurur. Bu, son dərəcə metafizik, əsla inkarçıların anlaya bilməyəcəyi və sahib ola bilməyəcəyi

böyük bir gücdür. Mütəvəkkil möminlər bu sayədə maddi və mənəvi cəhətdən böyük qüvvət qazanmış olurlar. Allah Quranda yalnız Özünə yönələn qullarının qazandığı güclə əlaqədar ayələrdə belə buyurur:

**Yaxşı əməl sahibi olub özünü Allah'a təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allah'a qayıdır. (Loğman surəsi, 22)**

**(Bəzi) adamlar onlara: "Camaat sizə qarşı (ordu) toplayıbdır, onlardan qorxun!"– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O, nə gözəl qoruyandır!"– dedilər. (Ali-İmran surəsi, 173)**

**Allah'ı vəkil tutmalarının qarşılığı isə hər zamankı kimi zəfər olmuşdur. Ayələrdə belə buyurulur:**

**Onlar özlərinə heç bir pislik toxunmadan Allah'ın neməti və mərhəməti sayəsində geri döndülər və Allah'ın razılığına tabe oldular. Allah böyük lütf sahibidir. (Ali-İmran surəsi, 174)**

**O, məşriqin və məğribin Rəbbidir. Ondan başqa məbud yoxdur. Elə isə Onu himayəçi götür! (Müzzəmmil surəsi, 9)**

**De: "Allah'ın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O, bizim himayədarımızdır. Qoy möminlər Allah'a təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

# VƏLİ

## *İman gətirənlərin dostu*

**Allah iman gətirənlərin himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 257)**

İnsanın həm dünyada, həm də axirətdə yeganə həqiqi dostu var. Bu dost onu heç vaxt buraxıb getmir, əsla tərk etmir, hər çətinlikdə yanındadır və ona kömək edir. Doğulduğu gündən öldüyü günə qədər daim onunla birlikdədir. Onu düşmənlərinə qarşı qoruyur. Onun üçün hər kəsdən daha etibarlıdır, daim qarşılıqsız bəxş edəndir. Şübhəsiz, bu dost Rəbbimiz olan Allah'dır. Allah möminlərin ən çox güvəndiyi, ən yaxın dostudur. Özünə inanan insanları hər cür əskiklikdən və səhvdən təmizləyir, onlara çox seçkin həyat və axirətdə də heç tükənməyəcək olan mülk vəd edir.

İnsan ömrü boyu həqiqətən güvənəcəyi, hər vəziyyətdə çətinliyini aradan qaldıran, zəngin və müqtədir insan, ya da güc axtarışı içindədir. Lakin bunu axtararkən onsuz da özünü yaratmış, həyatını davam etdirməsini təmin edən böyük qüvvət sahibi, hər şeyi etməyə qadir olan Rəbbimizi unudur. Özünə pislikdən başqa heç bir xeyri olmayan, axirətdə də cənnətdə mülk sahibi olmasına mane olan şeytanı dost seçir, bu, onun üçün qaranlıq dünyanın başlanğıcıdır.

Allah'a iman edən, imanında da səmimi olan insanlar isə artıq heç məğlubiyyəti olmayan şərəfli və xeyirli həyat yaşayırlar. Çünki Allah inananlara dininə və sözlərinə sadiq olduqları müddət ərzində zəfər nəsib edəcək. Əsl böyük qarşılığı isə axirətdə onlara verəcək.

Allah inananların dünyada və axirətdəki tək gerçək dostudur. Allah'ın vəli sifəti ayələrdə belə xəbər verilir:

**Allah sizin düşmənlərinizi daha yaxşı tanıyır. Himayəçi olaraq Allah kifayət edər! Yardımçı olaraq Allah yetər. (Nisa surəsi, 45)**

**O zaman sizlərdən iki dəstə ruhdan düşməyə hazır idilər. Allah isə onların yardımçısı oldu. Qoy möminlər Allah'a təvəkkül etsinlər. (Ali-İmran surəsi, 122)**

**(İnsanlar) ümidlərini kəsdikdən sonra yağış endirən və Öz mərhəmətini yayan Odur. O, himayəçidir, tərifəlayiqdir. (Şura surəsi, 28)**

**Yoxsa onlar: "O, Allah'a qarşı yalan uydurdu", – deyirlər? Əgər Allah istəsə, sənin qəlbinə möhür vurar. Allah batili silib yox edər və haqqı Öz sözləri ilə bərqərar edər. Şübhəsiz ki, O, kökslərdə olanları biləndir. Qullarının tövbəsini qəbul edən, günahları bağışlayan və sizin nə etdiyinizi bilən Odur. O, iman gətirib yaxşı əməllər edənlərin duasını qəbul edər və Öz lütfünü onlara artırar. Kafirlər üçün isə şiddətli əzab hazırlanmışdır. Əgər Allah Öz qullarına bolluca ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin O, istədiyi şeyi qədərincə göndərir. Həqiqətən, O, Öz qullarından xəbərdardır, görəndir. (İnsanlar) ümidlərini kəsdikdən sonra yağış endirən və Öz mərhəmətini yayan Odur. O, himayəçidir, tərifəlayiqdir. (Şura surəsi, 24-28)**

# ZÜLCƏLALİ-VƏL-İKRAM

## ***<u>Həm böyüklük sahibi, həm kərəm və ikram sahibi olan</u>***

**Cəlal və ikram sahibi olan Rəbbinin adı nə ucadır. (Rəhman surəsi, 78)**

Dünyada insanın xoşuna gələcək saysız nemət var. Allah qullarının məmnun olacağı müxtəlif detallarla dünyanı bəzəmişdir. Ancaq Allah'ın sonsuz kərəm və lütfkarlığını göstərəcəyi əsl məkan cənnətdir. Quranda təsvir edilən cənnət Onun sonsuz ikramını nümayiş etdirir.

Cənnətin Quranda izah edilən ən nəzərə çarpan xüsusiyyətlərindən biri nəfslərin arzuladığı hər şeyin möminlərə verilməsidir. Cənnətin altından çaylar axır, yeməkləri və kölgəlikləri daimidir, nə isti, nə soyuqdur. Allah Özündən bir rəhmət olaraq saleh qullarını cənnət bağçalarındakı kölgəliklərdə və bulaq başlarında saxlayacaq. Növbənöv incəliklərə və gözəlliklərə sahib olan cənnətdə möminlərə arzuladıqları meyvələrdən və ətdən bol-bol veriləcək.

Möminlər cənnətə daxil olub saysız-hesabsız ruziyə çatarlar. Həm də cənnətdə inananları bir-birinin üstündə tikilmiş otaqlar gözləyir. Bu köşklərin altından çaylar axır. Qızıl-gümüş, ləl-cavahiratla bəzənmiş taxtlar üstündə oturacaq və ətraflarına tamaşa edəcəklər. Bu zaman edilən ikram da son dərəcə ehtişamlıdır. Məin (şərab) dolu piyalələr, kuzələr və qədəhlərlə onların dövrəsində həmişəcavan xidmətçi oğlanlar dolanacaqlar. Bu xidmətlər əsnasında möminlərin geyimləri də son dərəcə göz oxşayandır. Quranda belə buyurulur:

**... Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcək, libasları da ipəkdən olacaqdır. (Həcc surəsi, 23)**

Şübhəsiz, Qurandakı cənnət təsviri yuxarıda izah edə bildiyimizdən çox üstündür. Aşağıdakı ayələr Allah'ın cənnətdəki sonsuz kərəmini və ikramını açıq şəkildə bildirir:

**... Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız. (Zuxruf surəsi, 71)**

**(Cənnətdə) hara baxsan, nemət və əzəmətli səltənət görərsən. (İnsan surəsi, 20)**

**O, yeri məxluqat üçün döşədi. Orada meyvələr və salxımlı xurma ağacları vardır. Həmçinin saçaqlı dənli bitkilər və xoş ətirli çiçəklər də vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? (Rəhman surəsi, 10-13)**

**(Allah) iki məşriqin və iki məğribin Rəbbidir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? O, qarşı-qarşıya gələn iki dənizi bir-birinə qovuşdurdu. Onların arasında maneə vardır, onu keçə bilməzlər. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Onlardan mirvari və mərcan çıxır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Dənizdə dağlar kimi, yelkənləri qaldırılmış halda üzən gəmilər də Onundur. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? (Yer) üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli üzü əbədidir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Göylərdə və yerdə olan hər kəs Ondan diləyir. O, hər gün bir işdədir. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? (Rəhman surəsi, 17-30)**

# ZAHİR

## ***Aşkar olan***

**O, Əvvəldir, Axırdır, Zahirdir, Batindir. O, hər şeyi biləndir. (Hədid surəsi, 3)**

Allah'ın varlığının dəlilləri düşünən hər insanın rahatlıqla təsbit edə biləcəyi qədər aşkardır, bütün kainata yayılmışdır. İnsanın Allah'ın varlığını qavraya bilməsi üçün heç bir araşdırma etmədən, yalnız içində yaşadığı mühiti diqqətlə araşdırması kifayətdir. Çünki bütün kainat yaradılış dəlillərini nümayiş etdirən detallarla doludur. Ən sadəsindən ən kompleksinə qədər var olan bütün sistemlər son dərəcə kompleks, araşdırdıqca daha çox sirri ortaya çıxaran yaradılış möcüzələri ilə doludur. Allah bu möcüzələrlə əlaqədar Quranda belə nümunələr vermişdir:

**Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur. Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və gözoxşayan bitkilərin hər növündən yetişdirdik. (Qaf surəsi, 6-7)**

**Məgər onlar (başları) üzərində dəstə-dəstə pərvazlanıb (uçan), (hərdən də qanadlarını) yığan quşları görmürlərmi? Onları ancaq mərhəmətli (Allah) saxlayır. Şübhəsiz ki, O, hər şeyi görür. (Mülk surəsi, 19)**

**Şübhəsiz ki, toxumu da, çərdəyi də Allah çatladır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də döndərilirsiniz! Dan yerini də O sökür. O, gecəni dinclik, günəşi və ayı isə hesablama (ölçüsü) etdi. Bu, qüdrətli və bilən**

**Allah'ın müəyyən etdiyi hökmdür. Qurunun və dənizin qaranlıqlarında yolu tapa biləsiniz deyə, sizin üçün ulduzları yaradan Odur. Artıq Biz ayələri bilən bir qövmə izah edirik. (Ənam surəsi, 95-97)**

Şübhəsiz, yuxarıdakı ayələrdə deyilənlər sadəcə bir neçə mövzudur. Allah Quranda verdiyi daha bir çox örnəklə qullarına Öz varlığını xatırladır. Möminlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri də ətraflarında gördükləri hər şey üzərində dərin düşünmələri və nəticədə, Allah'ın varlığını və böyüklüyünü dərk etmələridir. Çünki yuxarıda da ifadə etdiyimiz kimi, içində yaşadığımız kainatdakı hər detal insana özünün yaradılmış olduğunu hiss etdirir.

Bütün kainatın yaradıcısı olan Allah'ın böyüklüyünü, ucalığını dərk edən ağıl sahibi insan, əlbəttə ki, axirətdə hesab verəcəyi Allah'a qarşı dərin bir qorxu duyur və bütün həyatını Onu razı etməyə çalışaraq keçirir. Bir ayədə möminlərlə əlaqədar olaraq belə buyurulur:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah'ı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür (və deyirlər:) "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi odun əzabından qoru! (Ali-İmran surəsi, 191)**

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allah'dan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. İstəyən də aciz qalar, istənilən də! Onlar Allah'ı lazımınca qiymətləndirmədilər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir! (Həcc surəsi, 73-74)**

# ƏLAVƏ BÖLMƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi”

adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji ve-

rərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana

gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçir-

məsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. *(B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-

cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin

təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin

"Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və

ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədi-

yini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*
*Homo habilis*
*Homo erectus*
*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların

son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi

elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı

prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün ya-**

**ratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə

tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq hə-

min anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin

içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül

nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan**

**kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların at-

dıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tə-

rəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən! (Bəqərə surəsi, 32)**